AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QƏRBİ AZƏRBAYCAN FOLKLORU

## V CİLD

BAKI – 2025

AMEA Folklor İnstitutu Elmi Şurasının 21 may 2025-ci il tarixli qərarı ilə (protokol № 3) nəşr olunur.

**LAYİHƏ RƏHBƏRİ:** **Hikmət QULİYEV**
**filologiya elmləri doktoru**

**TOPLAYIB TƏRTİB EDƏN,**
**ÖN SÖZÜN MÜƏLLİFİ:** **İlkin RÜSTƏMZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru**

**ELMİ REDAKTORU:** **Əziz ƏLƏKBƏRLİ**
**filologiya üzrə fəlsəfə doktoru**

**Qərbi Azərbaycan folkloru, V cild.** Bakı, “Elm və təhsil”, 2025, 402 səh.

ISBN 978-9952-601-01-5

Kitabda Göygöl rayonu və Gəncə şəhərində məskunlaşmış Qərbi Azərbaycanın əsasən Göyçə mahalı sakinlərindən toplanmış folklor örnəkləri verilmişdir. Örnəklər 2025-ci ildə bölgəyə təşkil olunmuş folklor ezamiyyələri zamanı toplanmış və bölgənin etnik-mədəni həyatı haqqında aydın təsəvvür yaradır.

Q $\frac{4702000000}{N-98-2025}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2025
© İlkin Rüstəmzadə, 2025

# ÖN SÖZ

Kitabda təqdim olunan materiallar 2025-ci ildə Göygöl rayonuna təşkil olunmuş folklor ezamiyyələri zamanı toplanmışdır. Bölgəyə ilk səfərimiz bu ilin may ayına təsadüf etmişdi, ezamiyyə dövründə rayonun qərbi azərbaycanlıların məskunlaşdığı dağ kəndlərində – Quşçu, Çaykənd, Yeni Zod, Göyçəkənd, Üçbulaq, Zurnabad, Şəhriyar kəndlərində olduq, həmçinin görüşdüyümüz şəxslərdən Gəncədə yaşayan qohumlarının telefon nömrələrini əldə edərək onlarla da görüşdük. Söyləyici seçimində icra nümayəndələri bizə dəstək olmuş, onların nişan verdiyi şəxslərlə görüşmüşdük. Söyləyicilər əsasən 60-dan yuxarı yaş qrupunu təmsil edən şəxslər idi. Zod kənd sakinləri Haqverdiyev Azadxan Vəli oğlu (təvəllüd 1935), Hacıyev Vilayət Məmməd oğlu (təvəllüd 1941), Böyük Qaraqoyunlu kənd sakini İsmayılov Möhübbət Bəhman oğlu (təvəllüd 1948), Çaxırlı kənd sakini Quliyeva Durna Əsəd qızı (təvəllüd 1953), Uluxanlı sakini Məsimova Fatma Musa qızı (təvəllüd 1956), Kəsəmən kənd sakini Rüstəmov Hafiz Cavad oğlu (təvəllüd 1953) ilə görüşümüz daha məhsuldar keçmişdir. Bölgəyə növbəti səfərimiz iyun ayında baş tutmuşdur, bu dəfə rayonun aran kəndlərində – Hacıməlik, Molla Cəmilli, Qızılqaya, Yeni Qızılca, Quşqara, Üçtəpə kəndlərində və rayon mərkəzində məskunlaşmış qərbi azərbaycanlılarla görüşdük. Dağ kəndləri, əsasən, o bölgədən gələn əhalidən ibarət idisə, aran kəndlərində yerli əhali ilə qarışıq məskunlaşmışdılar. Bu da onların dilinə, adət-ənənəsinə təsir göstərmiş, yerli əhalinin ləhcəsini mənimsəmiş, özlərinin bir çox adət-ənənələrini unudaraq yerli əhalinin adət-ənənəsini qəbul etmişlər.

Göygöl rayonunda məskunlaşanlar, əsasən, Göyçə və Vedi mahalından deportasiya olunmuş sakinlərdir. Onların bir qismi 1948-1953-cü illərdə, böyük əksəriyyəti isə 1988-ci ildə bölgəyə köçmüşlər. 1948-ci ildə deportasiya olunanlar əsasən rayon mərkəzində, bir qismi isə aran kəndlərində məskunlaşmışlar. Qərbi azərbaycanlıların rayona əsas köçü isə 1988-ci ildə baş vermişdi. Əsasən Göyçə mahalının əhalisi həm rayonda simsarları olduğu (1948-ci il deportasiyası zamanı Göyçə əhalisinin bir qismi rayona pənah gətirmişdir), həm də Göyçənin iqliminə daha yaxın olduğu üçün bu rayonu seçmişlər. Onların rayonda məskunlaşması heç də asan başa gəlməmişdir. O vaxtkı rayon rəhbərliyi onları rayona buraxmamağa çalışmış, amma bütün maneələrə baxmayaraq məhz qərbi azərbaycanlıların təzyiqi nəticəsində dağ kəndlərində yaşayan ermənilər rayonu tərk etmiş, onlardan boşalan kəndlərdə isə Göyçə, Dərələyəz və digər bölgələrdən gələn sakinlər məskunlaşmışlar. Məskunlaşdıqları əraziyə öz kəndlərinin adını da vermiş, Yeni Zod, Göyçəkənd kəndləri məhz bu şəkildə yaranmışdır.

Tarixdən qərbi azərbaycanlıların bölgədən deportasiyası 1905, 1918, 1948, 1988-ci illər kimi göstərilir, amma sahə araşdırmaları göstərir ki, azərbaycanlıların bölgədən deportasiyası XIX əsrdən başlamış XX əsr boyu davam etmişdir. 1918, 1948, 1988-ci illərdə bunu aşkar şəkildə icra etmişlər, digər dövrlərdə də bu iş dayanmamış, gizli şəkildə davam etdirilmişdir. Məqsədli şəkildə Azərbaycanda təhsil alan gəncləri işlə təmin etmirdilər, nəticədə onlar öz təyinatlarını Azərbaycana almaq məcburiyyətində qalırdılar. Azərbaycanda işlə təmin olunan şəxslər isə bir daha geri dönmür, vətəndaşlıq alaraq həmişəlik burada

qalırdılar. Bundan əlavə, ermənilər dostluq etdikləri azərbaycanlıları hələ deportasiyadan çox-çox əvvəl bölgəni tərk etmələri üçün xəbərdarlıq etmiş, bir çoxları ondan sonra bölgəni tərk etmişlər. Bu kimi faktlar göstərir ki, azərbaycanlıların bölgədən deportasiyası bütün əsr boyu davam etmiş, 1988-ci il deportasiyası ilə bölgə tamam azərbaycanlılardan təmizlənmişdir.

1948-ci ildə deportasiya olunanlar arasında bölgəni görən yaşlı nəsil, demək olar ki, qalmayıb, ancaq cavan nəsillərdir, onların da bölgə haqqında məlumatları səthidir. Amma 1988-ci ildə deportasiya olunanların hafizəsində 30 ildən artıq zamanın keçməsinə baxmayaraq bölgə ilə bağlı məlumatlar canlılığını qoruyub saxlayır. Xüsusən də, pirlər, ocaqlar, seyidlərin kəramətı haqqında məlumatlar aktivliyi ilə seçilir. Qaradaş ocağı, Pir ocağı, Miskin Abdal, Seyid Bayram, Seyid Qulu və digər seyidlərin kəramətləri, həmçinin seyidliyin ötürülməsi, seyidlik nişanəsi haqqında mətnlər yazıya alınmışdır. Bundan əlavə, 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər, 1988-ci ildə deportasiya zamanı insanların başına gətirilən müsibətlər haqqında xatirələr də toplanmışdır.

Toplanan materiallar arasında Aşıq Ələsgər haqqında rəvayətlər xüsusi ilə diqqəti cəlb edir. Həmin rəvayətlərdə Ələsgər adi aşıq deyil, haqq aşığı kimi tanıdılır, o müqəddəsləşdirilir. Ona vergi verildiyi deyilir, bir çox şey qabaqcadan ona agah olur. Məsələn, Şəmkirli Aşıq Hüseynin onlara qonaq gələcəyi, heyvanlarını oğurlayanın kim olduğu, qonşusuna verdiyi madyanın qulun salması qabaqcadan ona agah olur. Qiyabi şəkildə həcc ziyarətində olması, qeyri-adi gücü haqqında söylənən rəvayətlər onu göstərir

ki, göyçəlilər üçün Aşıq Ələsgər adi aşıq deyil, müqəddəs bir şəxsdir. Kitabda Aşıq Ələsgərlə bağlı rəvayətlərin böyük əksəriyyəti Qaraqoyunlu kənd sakini İsmayılov Möhübbət Bəhman oğlundan yazıya alınmışdır, o da həmin rəvayətləri Aşıq Ələsgərin şəyirdi olmuş Aşıq Ağayardan eşitmişdir. Möhübbət kişinin dediyinə görə, Aşıq Ələsgərin sonuncu şəyirdi olmuş Aşıq Ağayar Ələsgərin aşıqda axtardığı keyfiyyətlər haqqında maraqlı bir xatirə danışırdı. Ağayarın dediyinə görə, Aşıq Ələsgər səfərə çıxanda məclisdə birdən deyirdi, oğul, sinəmə bir qatar söz gəlib, deyəcəm, qulaq asın. Həmişə də səfərə çıxanda iki şəyirdilə çıxırmış. İki dəfə deyərdi, üçüncü dəfə onu qaytarıb deyə bilmirdinsə, deyirdi ki, a bala, səndən aşıq olmaz, get özünə sənət tap. Aşıq Ələsgər Ağayarı şəyirdliyə götürəndə də onun hafizəsini yoxlayıb ondan sonra qərar vermişdir. Aşıq Ağayarın dediyinə görə, atası onu Aşıq Ələsgərin yanına şəyirdliyə aparanda Dünyamalı adlı bir nəfər də onun yanına gəlir. Aşıq Ələsgər onları gecə yanında saxlayır. Axşam söhbət zamanı Ələsgər bir şeir deyir, amma nə üçün dediyini bildirmir. Səhər yuxudan qalxanda soruşur ki, axşam dediyim şeiri kim deyə bilər. Dünyamalı həmin şeiri qolunu-qanadını sındırıb deyir, amma Ağayar gecə yatanda həmin şeiri bir neçə dəfə ürəyində təkrarladığı üçün necə lazımdı deyir. Ondan sonra Aşıq Ələsgər Dünyamalını geri döndərir, Ağayarı isə şəyirdliyə götürür. Möhübbət kişinin özünün də güclü hafizəsi vardır, yaşının ahıl çağında belə Aşıq Ələsgərin şeirlərini tam dəqiqliklə bizə çatdıra bilmişdir. Möhübbət kişinin dediyinə görə, Ağayar ondakı yaddaşı görüb təəssüflənirdi ki, belə bir yaddaşın ola-ola nahaq aşıqlıq

etməyib. Möhübbət kişinin dediyinə görə, Ələsgərin küliyyatı Ağayarın sinəsində idi. Aşıq Ələsgərin şeirlərinin böyük bir qismini İslam Ələsgərli məhz ondan toplamışdır. İslam müəllim Qaraqoyunlu kəndində müəllim işlədiyi dövrdə dərsdən çıxanda həmişə yolunu Aşıq Ağayarın evindən salıb onu danışdırar və Aşıq Ələsgərin şeirlərini toplayardı.

Aşıq Ələsgərin ən güclü şəyirdləri Aşıq Əsədlə Aşıq Nəcəf olub. Ağayar deyərdi ki, tarix onlar kimi aşıq yaratmayıb. Onlar ayağını yerə vurub zəngulə vuranda otuzluq lampanı keçirirdi. Ağayarın dediyinə görə, Ələsgər hara getsə Əsədlə Nəcəfi apararmış. Ardını söyləyici belə davam etdirir: "Bir gün Əsədnən Nəcəfi Tovuza toya aparıllar. Bozalqanlı Aşıq Hüseyn bunu eşidir. Deyir, ə, məni burda qoyuf onları niyə gətirillər? Gedif qulağ asajam, əgər onlar yaxşı oxudu, məclisi ələ aldı, dəymiyəjəm. Gətirif bir heyvan da kəsif onlara hörmət eliyəjəm. Əgər məclisi ələ almadı, onların ikisin də bağlıyıf sazlarını əlinnən alajam. Gəlir qulağ asır, görür ki, Əsədnən Nəcəf o qədər məharətnən oxuyur ki, elə bil bülbül cəhcəh vurur. Deyir, rəhmət Ələsgərə ki, Əsədnən Nəcəf kimi şəyirdləri var. Aparır bir heyvan kəsir, onlara hörmət də edir".

Möhübbət kişinin dediyinə görə, Aşıq Musa da güclü aşıq olub. Şəmkirli Aşıq Hüseyn Aşıq Ələsgərlə Göyçədə görüşəndə mərd üstündə bir şeir deyir və Ələsgərdən xəbər alır ki, görən, elə bir aşıq varmı mərd haqqında söz deyə. Onda Aşıq Ələsgər Musanı nişan verir və onu belə təqdim edir ki, yerin altında da olsa, tapıb deyəcək. Aşıq Musanın mərd üstündə şeir belə yaranır. Möhübbət kişinin dediyinə görə, Göyçədə iki Aşıq Musa olub. Biri Ələsgərin qardaşı

oğlu Aşıq Musa, biri də köhnə Aşıq Musa. Ardını söyləyici belə davam edir: "O vaxt Zodda Cəfərlə Səfər qardaşları olub. Ağalıq[1] bunlara deyib ki, on gün gəl mənim malıma bax, boğazına ye. Musanın dədəsi Səfər deyib, mən də sənin kimi kişiyəm. Niyə mən sənin malına baxım? Onda ağalıq deyib, ya mala bax, ya da kənddən çıx. Rəiyyət ağaynan ağalıq eliyəmməz. Bu hadisədən sonra Səfər Zoddan çıxıb Ağkilsə kəndinə gedir". Möhübbət kişinin Köhnə Aşıq Musa kimi təqdim etdiyi şəxs həmin Səfərin oğludur. Onlar Qazağın Tatlı kəndindən Göyçə mahalına gəliblər. Aşıq Musanın qızı Qaratel Sarıyaqub kəndinə ərə gedir və atasının adını oğluna qoyur, "Musa və Mələknisə" dastanı da onun adınadır. Möhübbət kişinin dediyinə görə, Aşıq Musa Aşıq Ələsgərə bərabər adam olub. Ağayar danışırdı ki, Aşıq Musanın böyründə xəncəri var idi. Koroğlu havasını oxuyub əlini xəncərə atanda adamın ürəyi ağzına gəlirdi ki, Musa indicə onu öldürəcək. O qədər şövqlə, həvəslə oxuyurdu.

Kitabda yer alan Qanlı kənd sakini Hacı Nağı haqqında mətnlərin də maraq doğuracağı qənaətindəyik. Məşhur folklor personajı Loğman haqqında süjetlərin bir çoxu Hacı Nağıya uyğunlaşdırılmış, onun vergili loğman olması haqqında təsəvvürlər yaradılmışdır. Nəticədə nağıl kimi tanıdığımız mətnlər burada artıq əfsanəyə dönüşmüş, Hacı Nağının qeyri-adi loğman kimi obrazını formalaşdırmağa xidmət etmişlər.

Maraqlı materiallar arasında Zod kənd sakini Bəhram Qamanov haqqında lətifələr də diqqəti cəlb edir. Hazırcavablığı ilə seçilən Bəhram Qamanov Göyçənin Molla

---

[1] Ağalıq dedikdə Vəli ağadan törəyən nəsillər nəzərdə tutulur.

Nəsrəddini kimi tanınır və onun haqqında çoxlu lətifələr danışılır. Həmin lətifələr nəinki Zod, ətraf kəndin sakinləri arasında da geniş yayılmışdır.

Zod kənd sakinlərindən ilin axır çərşənbəsi oynanılan "Kosa-kosa" oyunu haqqında maraqlı məlumatlar yazıya alınmışdır. Həmin gün kənd cavanları dəstələr halında qapıları gəzib pay yığır, getdikləri qapıda da "Kosa-kosa" oyununu oynayırdılar. Dəstə üzvləri kosa, gəlin, həkim, pay yığan və polisdən ibarət olur, orada oxunan nəğmələr isə ənənəvi "Kosa-kosa" oyunundan fərqlənir, karnaval mədəniyyətinə xas açıq-saçıq ifadələrlə diqqəti cəlb edir.

Göygöl rayonuna ezamiyyəmiz həm də maraqlı etnoqrafik faktların yazıya alınması ilə yadda qalmışdır. Çiy ehsan, siğə qardaşlığı, təzə gəlini bulaq üstünə çıxartmaq, toy, yas və bayram adət-ənənələrinə dair, həmçinin uşaqların asudə vaxtını səmərəli təşkili üçün qurulan canbar haqqında maraqlı məlumatlar toplanmışdır. Canbar Uluxanlı bölgəsi üçün xarakterikdir. Uluxanlı (sonralar Zəngibasar adlandırılmışdı) rayonunda yayda məktəblər bağlandıqdan sonra tətil dövründə uşaqların asudə vaxtının təşkili üçün canbar qurulurdu. Meydanın ortasına dirək basdırılır, dirəyin ətrafına kəndirlər bağlanır, həmin kəndirlərdən də rəngli bayraqlar asılırdı. Canbar çəmbər sözünün ermənicə tələffüz olunmuş şəklidir. Dirəyin ətrafına bağlanmış kəndirlər çəmbəri xatırlatdığı üçün canbar ifadəsi də, çox güman, oradan yaranıb. Canbar, bir qədər əvvəl də qeyd etdiyimiz kimi, məktəblər bağlandıqdan sonra qurulur, məktəb açılana qədər davam edirdi. Uluxanlı rayon sakini Fatma Məsimovanın dediyinə görə, canbarı təşkil edən məktəb müəllimləri idi. Camaatdan pul yığıb kəndirdən

asmaq üçün rəngli parçalar alınırdı. Canbar qurulan yer süpürülür, sulanır və hazır vəziyyətə gətirilirdi. Qapılardan kürsülər yığılır, camaatın oturması üçün canbar ətrafında yerlər təşkil olunurdu. Canbar axşam keçirilir, insanlar həm əylənir, həm də yorğunluqlarını çıxarırdılar. Bir nəfər məclisi idarə edirdi. Fatma Məsimovanın dediyinə görə, məktəb müəllimləri uşaqları qabaqcadan hazırlaşdırırdı. Uşaqlar üçün paltar alınır, onlar rol üçün hazırlaşdırılırdı. “Arşın mal alan”, “O olmasın, bu olsun”dan səhnələr oynanılır, kitabdan nağıllar oxunur, uşaqlar şeir deyir, mahnı oxuyurdu. Fatma Məsimova danışır ki, canbar birinci onların küçəsində, sonra növbə ilə digər küçələrdə qurulurdu. Məktəblərin açılmasına on gün qalmış isə canbarlar sökülürdü. Uluxanlı sakini Elşadə Məsimovanın dediyinə görə, canbarlar həm də məktəbdə təşkil olunurdu. Məktəbin həyətində ortaya dirək basdırılır, böyürlərinə bayraq asılır, uşaqlar onun ətrafında oynayırdı. Elşadə xanımın özü də müəllim işləyib. Onun dediyinə görə, məktəb bağlanandan sonra uşaqları gündüzlər məktəbə yığırdılar, axşam saat altıya, yeddiyə qədər canbar davam edirdi. Orada səsi olan uşaqlar mahnı oxuyur, tamaşa göstərirdilər. Canbarı pioner dəstə rəhbəri, müəllimlər təşkil edirdi, həmin müddətdə onlar işə çıxmış sayılır, ona görə əməkhaqqı da alırdılar.

Folklor janrları canlı orqanizm kimidir, doğulur, böyüyür və müəyyən müddətdən sonra ömürlərini başa vururlar. Klassik folklorun bir çox janrları bu gün artıq canlı həyatlarını yaşamır, onlar yalnız yaşlı nəslin hafizəsində qalmışdır. Uzun müddət ifa olunmadığı üçün funksionallığını, bədii keyfiyyətini itirmiş, yalnız süjetin

quru məzmunu şəkildə bizə çatdırılır. Belə janrlardan biri də nağıllardır. Əgər 15 il bundan əvvəl zəngin repertuara malik, özünün söyləyicilik dəsti-xətti olan usta nağılçılara rast gəlirdiksə, bu gün belə nağılçılar yoxdur. Hansı kəndə gedirdiksə, təəssüflənirdilər ki, artıq çox gec qalmısınız, məlumatlı adamlar çoxdan dünyalarını dəyişiblər. Nağılların durumunu başa düşmək üçün tərtib olunmuş kitablardakı nağıllar rubrikasına baxmaq kifayətdir. Əvvəllər folklor toplularının böyük hisəssini nağıllar təşkil edirdisə, günümüzdə bu rubrika bir neçə nağıldan ibarətdir. Oxuculara təqdim olunan bu kitabda da nağıllar rubrikasında cəmi iki nağıl verilib, onun biri olduqca geniş yayılmış "Yazıya pozu yoxdur" (İR 930) süjetidir, digəri isə ilk dəfə qeydə alınan "Şah Abbasın içkini qadağan etdirməsi" nağılıdır. Əslində qeydə alınmış nağıllar bununla yekunlaşmır, "Şah Abbasın arvadları qırdırması" (İR 895*), "Arvadı arvad edən kişidir" (İR 901*) süjetləri də yazıya alınıb, amma qeyd etdiyimiz kimi, süjetin quru məzmunu çatdırıldığı, heç bir bədii dəyəri olmadığı üçün onlar topluya daxil edilməmişdir.

Bayatılarda da eyni mənzərə ilə qarşılaşırıq. Bu gün bayatı ancaq professional söyləyicilərin (ağıçılar) repertuarında yaşayır, adi insanlar arasında bayatı bilən olduqca azdır, bilənlərin də hafizəsində qalan atasının və ya anasının vaxtilə ən çox dediyi bayatılar və ya oğul, qardaş itirən şəxslərin o acı ilə söylədiyi bayatılardır. Eyni mənzərə oyunlar üçün də xarakterikdir. Kitabda təsviri verilmiş oyunların əksəriyyəti artıq dövriyyədən çıxıb, uzun müddətdir ki, oynanılmır. Ona görə söyləyici bəzən oyunun tam təsvirini çatdıra bilmir, verilən təsvirlər də natamam

təsir bağışlayır, əlavə suallar yönəltməklə müəyyən detalları, qaydaları dəqiqləşdirmək məcburiyyətində qalırıq. Kitabda verilmiş sicilləmələrin bir çoxunu söyləyici ilk görüşdən yada sala bilməmiş, sonradan vatsap üzərindən səs yazısı ilə bizə göndərmişdir. Bu baxımdan bu kitab klassik folklorun müasir durumu haqqında aydın təsəvvür əldə etmək üçün zəngin material verir.

Toplama materiallarının təhlili yazılı ənənənin şifahi ənənəyə təsirinin artdığını göstərir. Günümüz insanları savadlı şəxslərdir, onlar yazıb-oxumağı bacarır, məlumatların bir çoxunu yazılı mənbələrdən əldə edirlər. Ona görə bu gün şifahi ənənə həm də yazılı qaynaqlar hesabına formalaşır. Söyləyicinin kitabdan mənimsədiyi süjetlər (bu, nağıl, rəvayət və ya əfsanə də ola bilər) onun repertuarına daxil olaraq şifahi həyatını yaşayır. Bu kitabdakı Nəsrəddin Tusi, İbn Sina, həmçinin peyğəmbərlər haqqında bir çox mətnlər məhz yazılı mənbələrdən şifahi ənənəyə daxil olmuşlar. Mətni danışdıqdan sonra hardan eşitdiyini soruşduqda söyləyici onun mənbəyini bizə deyir, deməsə belə, onların kitabdan gəldiyini müəyyən etmək çətin deyil. Yazılı mənbələrdən gələn süjetlər adətən bir-iki söyləyicinin repertuarı üçün xarakterikdir, şifahi ənənədə yayılmamış olurlar. Eynilə Nəsrəddin Tusi, İbn Sina, Üzeyir peyğəmbər o qədər də yayılmış personajlar deyil, yalnız həmin yazılı mənbələrlə tanış olan şəxslərin repertuarında rast gəlinir. Toplama zamanı söyləyiciləri kitabdan oxuduqlarını deyil, yaşlılardan eşitdiyi məlumatları bizə çatdırmaları üçün xəbərdar etməyimizə baxmayaraq yazılı mənəblərdən gələn mətnlərdən qaçmaq mümkün deyil. Nəzərə almaq lazımdır ki, tərtib zamanı həmin mətnlərin

böyük bir qismi kitaba daxil edilməyib. Həmin mətnləri də nəzərə alsaq, yazılı mənbələrin şifahi ənənəyə təsirinin görünəndən daha çox olduğunu müəyyən etmək olar.

Bir qədər də kitabın tərtibi haqqında məlumat vermək istəyirik. Kitabda qurban ənənələri haqqında təsvir söyləyicilərdən toplanmış materiallar əsasında bizim tərəfimizdən verilib. Həmin təsvirdə 2023, 2024-cü illərdə Sabirabad, Bərdə, Bakı və sair bölgələrdə məskunlaşmış qərbi azərbaycanlılardan toplanmış materiallardan istifadə olunub. Materialların özü toplunun əvvəlki cildlərində çap olunub, amma burada biz onları ümumiləşdirərək bölgədəki qurban ənənəsi haqqında aydın təsəvvür yaratmağa çalışmışıq. Təsviri verərkən söyləyiciyə və ya adət-ənənənin qeydə alındığı kəndə istinad olunub. Digər mətnlər isə birbaşa söyləyicilərin öz dilindən ləhcə xüsusiyyətləri saxlanılmaqla verilib. Mətnin mənası işləndiyi kontekst daxilində üzə çıxır, ona görə bir çox inanclar, bayatılar və atalar sözü məhz işləndiyi kontekstdə verilib. Kontekst daxilində işlənən atalar sözünü kursivlə verərək mətndən fərqləndirməyə çalışmışıq. Eyni seriyadan buraxılan digər kitablarda oluğu kimi, burda da mətnlərin söyləyicisi mətnin sonunda mötərizə içərisində verilib. Məsələn, mötərizə içərisində verilmiş S.8 işarəsi həmin mətnin "Söyləyicilər haqqında məlumat" rubrikasındakı 8-ci söyləyicidən, S.11 işarəsi isə həmin mətnin 11-ci söyləyicidən toplandığını göstərir.

Sonda materialların toplanmasında bizə verdikləri dəstəyə görə Göygöl rayon İcra Hakimiyyətinə, İcra başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Kəmalə İbrahimovaya, həmin şöbənin əmək-

daşı Babək Rəsulova dərin minnətdarlığımızı bildiririk. Ən böyük təşəkkür, şübhəsiz ki, yerli icra nümayəndələrinə düşür. Onların hamısının adını burada sadalamaq mümkün olmasa da, bu kitabın hazırlanmasında onların əməyi danılmazdır. Bizə bələdçilik edən, yeri gəldikdə söyləyiciləri idarəyə çağıran, yeri gəldikdə bizi söyləyicilərin qapısına aparıb onlarla tanış edən və folklor materiallarını toplamağa şərait yaradan onlardır. Məhz icra nümayəndələrinin əməyi sayəsində qısa zamanda bu kitab ərsəyə gəlmişdir. Əminliklə deyə bilərik ki, bu kitab Folklor İnstitutunun yerli icra orqanları ilə əməkdaşlığının bəhrəsidir və bu əməkdaşlıq davam etdikcə gələcəkdə daha çox kitablar ərsəyə gələcəkdir.

# I. ETNOQRAFİK MƏTNLƏR

## 1. QƏRBİ AZƏRBAYCANDA QURBAN ƏNƏNƏSİ[2]

Xalq arasında qurbana münasibətdə iki fərqli yanaşmanın şahidi oluruq. Dini savadı olan şəxslər adətən islam fiqhindən gələn qurban anlayışından çıxış edir, rəsmi qaydalara uyğun qurban ritualını yerinə yetirirlər, amma sıravi insanlar xalq arasında mövcud olan əski qurban kültürünə söykənirlər. Nəticədə qurbanın növünə, onun paylanma şəklinə münasibətdə iki fərqli təfəkkürün, dünyagörüşün toqquşması ilə qarşılaşırıq. Qərbi Azərbaycan qızılbaş inancının hakim olduğu bölgələrdən biridir. Səfəvi dövlətinin əsasını təşkil edən tayfaların bölgədə məskunlaşması, Ərdəbil ocağına bağlı təkyələrin bölgədə fəaliyyət göstərməsi burada qədim qurban kültürünün diri qalmasına səbəb olmuşdur. Burada da biz bölgədəki qurban ənənələrindən çıxış edərək qurban mədəniyyəti haqqında aydın təsəvvür yaratmağa çalışacağıq.

Xalq arasında qurban funksiyasına görə iki növə ayrılır: İsmayıl qurbanı və demə qurban (buna niyyət qurbanı da deyilir). İsmayıl qurbanı şəri əsaslarla tənzimlənir və məcburi deyil, imkanı olan şəxslərin qurban kəsməsi vacib sayılır. İsmayıl qurbanı hər kəsin gücündən, imkanından asılıdır. Kiçik buynuzlu heyvanlarda hər adama bir heyvan

---

[2] Bölgədəki qurban ənənələri haqqında təsvir Sabirabad, Bərdə, Bakı və digər bölgələrdə məskunlaşmış qərbi azərbaycanlılardan toplanmış materiallar əsasında bizim tərəfimizdən verilib.

düşür, amma iri buynuzlu heyvanlarda bir neçə nəfər şərikli bir heyvan alıb qurban kəsə bilir. Qurbanlıq heyvanın əti tərəziyə qoyulmur. Söyləyicilərin dediyinə görə, şərikli qurban alınanda onun əti vaxtilə belə bölünürdü: gözəyarı ət böləndükdən sonra şəriklər öz adlarını bir kağıza yazıb torbanın içinə atır, adlar torbanın içində qarışdırıldıqdan sonra çıxarılıb ətin üstünə qoyulur. Kimə hansı pay düşsə, o da öz payını götürürdü.

İslam dinində qoç, keçi, dana və dəvə qurban kimi qəbul olunur, xoruz, hindtoyuğu kimi qanadlı heyvanlardan qurban kəsilməsi keçərli deyildir. Keçi və qoç ancaq tək alına bilir, dana və dəvə isə yeddi nəfərdən artıq olmamaq şərtilə ortaqlı alınaraq kəsilə bilir. Qurban kəsilən heyvan üçün bəlli şərtlər tələb olunur. Qoyun və ya keçi heyvanı bir yaşını, dana iki, dəvə isə beş yaşını doldurmalıdır. Kəsilən heyvanlar sağlam olmalı, gözlə görünən qüsuru olmamalıdır. Xəstə, zəif, kor və şikəst heyvanlardan qurban olmur. Qurbanı kəsməzdən öncə onun ayaqları, ağzı, burnu, quyruğunun altı yuyulur, ona duz yalatdırılır, sonra su içirdilir. Suyu içdikdən sonra heyvan üzü qibləyə sol tərəfi üstə yerə yatırılır, bıçağa İbrahim peyğəmbərin duası oxunub heyvanın başı kəsilir. Qurban kəsilən zaman bıçağı heyvana göstərmirlər. Heyvanın başı mis teştin içinə tutulur ki, axan qan teştin içinə tökülsün. Qurban kəsən şəxsin qüsullu olması tələb olunur, qurbanı kəsməzdən əvvəl o, qollarını dirsəyə qədər çirmələyib əvvəlcə əlini, sonra bıçağı yuyur, sudan üzünə çəkir. Əgər bacarırsa qurban sahibinin özünün kəsməsi məqbuldur, bacarmadığı təqdirdə başqa birisi onun vəkaləti ilə qurbanı kəsə bilir.

Demə qurban mükəlləf olmadığı halda Allah qarşısında boyun alınaraq kəsilən qurbana deyilir[3]. Demə qurbanın qada qurbanı, şükür qurbanı, cəza qurbanı kimi növləri vardır. *Şükür qurbanı* şükür niyyətinə kəsilir. Kərbəla və Həcc ziyarətindən qayıdanların, əkiz övladı olan şəxslərin kəsdiyi qurbanlar bura daxildir. Uluxanlı kənd sakini Zahidə Həsənovanın dediyinə görə, Allah onlara əkiz övlad verdiyi üçün şükür niyyətinə qurban kəsib ətinin hamısını paylamışlar.

*Cəza qurbanı* isə hansısa yasağın çeynənməsi sonucu kəsilən qurbana deyilir. Cəza qurbanı yasağın pozulması nəticəsində gələcək qada-bəlanın qarşısını almağa, bir növ qurban kəsməklə günahları yumağa xidmət edir. Qızılbaş inancında yalan danışmaq böyük günah hesab olunur. İnsana yalnız bir dəfə yalan danışmağa icazə verilir. Əgər söylənilən yalan kiminsə canını qurtaracaqsa, o zaman onu söyləməkdə qəbahət görülmür, amma söylənəndən sonra da Allahın onun günahından keçməsi üçün nəzir verilməsi vacib sayılır. Zəngilanın Sobu kəndində bununla bağlı belə bir xatirə danışılır. Deyilənə görə, Məşədi Behbud Məşhəd ziyarətinə gedəndə İran tərəfdə hansısa kəndlərin birindən keçir. Bir qadın onu bığlı görüb molla zənn edir və ondan uşağı olmayan gəlini üçün dua yazmasını xahiş edir. Məşədi Behbud nə qədər and-aman eləsə də, molla olmadığına qadını inandıra bilmir. Axırda məcbur olub bir kağıza yalandan cızmaqara eləyib nəsə yazır və duanın birini səhər, birini günorta, birini isə axşam suya salıb gəlinə

[3] Bardakoğlu A. Kurban // İslam Ansiklopedisi. 26 cilt, s. 436-440. https://cdn2.islamansiklopedisi.org.tr/dosya/26/C26016418.pdf

içirməyi məsləhət görür. Ziyarətdən qayıtdıqda həmin qadın gəlini hamilə qaldığı üçün ona bir inək nəzir edir. Məşədi Behbud inəyi elə oradaca kəsdirib paylatdırır, Sobuya qayıtdıqdan sonra yalan danışdığına görə günahının bağışlanması üçün bir qurban da özü kəsir.

Zəngilanın Sobu kəndində məskunlaşan şamlılarda bığın hər tükü bir imam qanı hesab olunur, bığa qayçı vurmaq imam qanı tökməyə bərabər tutulduğu üçün onlar bığlarına qayçı vurmazdılar. Əl-üzlərini yuyarkən bığlarından bir tük düşərdisə, həmin tükü təmiz bir əskiyə büküb pak bir yerdə – qızılgül kolunun dibində, seyid qəbirinin yanında basdırar və ya suya axıdardılar. Sobu kənd sakini Həsən Hüseynovun dediyinə görə, dəllək bığından bir az kəsdiyi üçün ana babası Həsənqulu kişi bir il onların kəndinə ayaq basmamışdı. Yalnız bir ildən sonra bir öküz alıb kəndə gəlmiş, həmin öküzü də qurban kəsmişdi. Cümşüd Cümşüdovun dediyinə görə, bığdan düşən hər tük üçün qurban kəsərdilər, ildə bəzən iki-üç bu cür qurban kəsilirdi. Bəzi söyləyicilərə görə, bığdan düşən hər tük üçün deyil, bilərəkdən bığı kəsdikdə və ya ondan tük qopartdıqda qurban kəsilərdi.

*Qada qurbanı* hansısa xəta-bəlanı sovmaq, hansısa təbii fəlakətin qarşısını almaq məqsədilə kəsilən qurbana deyilir. Qada qurbanı kəsiləndə qurban sahibi ya bir pay özünə götürüb ətin qalan hissəsini paylayır, ya da edilən niyyətdən asılı olaraq ətin hamısını paylaya bilir. Köçbək kənd sakini Əyyub Həşimovun dediyinə görə, İkinci Qarabağ Müharibəsi vaxtı oğlanlarının ikisi də cəbhə bölgəsində idi, onların sağ-salamat qayıdıb gəlmələri üçün kəl kəsəcəyini niyyət etmişdi. Oğlanları cəbhədən qayıtdıqdan

sonra həmin heyvanı kəsib ətinin hamısını kənd camaatına paylamışdı.

Qada qurbanının bir növü də müsəllə qurbanıdır. Hava quraq keçəndə, güclü yağış yağanda və ya güclü külək əsəndə insanlar gələn qada-bəlanın qarışısını almaq üçün müsəlləyə çıxırdılar. Bizə verilən əksər məlumatlarda müsəllədə ancaq kişilərin iştirak etdiyi deyilir, Vedi rayon Haxıs kəndindən toplanmış məlumatda isə qadınların və uşaqların da bu mərasimdə iştirak etdiyi məlum olur. Müsəllə üçün adətən kənddən kənara yüksək bir yerə – Biləsuvar rayonu Bağbanlar kəndində İranla sərhəddə yerləşən Gürzə təpəsinə, Vedi rayon Haxıs kəndində isə Çığırqan dağına çıxılırdı. Müsəllə mollanın iştirakı ilə keçirilirdi. Molla öndə durur, camaat da onun arxasında səf tutub ayət namazı qılırdı. Rükətlərinin sayı çox olduğu üçün ayət namazının qılınması xeyli vaxt aparırdı. Namaz qurtarandan sonra molla dua edir, camaat əllərini göyə qaldırıb Allaha yalvarır, ondan yağış istəyirdi. Dua qurtarandan sonra da qurban kəsilirdi.

Müsəlləyə çıxılan zaman iri buynuzlu heyvan, adətən, dana qurban kəsilirdi. Kənd camaatı müəyyən məbləğdən yığaraq qurbanlıq heyvan alır, qurban kəsərək əti bütün kəndə paylayırdı. Haxıs kənd sakini Telman Hüseynovun dediyinə görə, 41-45-ci illər müharibəsindən sonra bir ili kənddə güclü quraqlıq olur. Həmin il qadınlı-uşaqlı hamı Çığırqan dağında müsəlləyə çıxır. Camaat əllərini göyə qaldırıb Allaha yalvaranda kənd sakini İsmayıl kişi elə hayqırmışdı ki, söyləyicinin dediyinə görə, o səs indi də qulağından getməyib. Aradan bir-iki saat keçməmiş göy guruldamış, güclü yağış yağmağa başlamışdı. Xeyirbəyli kənd sakini

Yəhya İbrahimovun dediyinə görə, bir ili Sabirabadda güclü yağış evlərin damını dağıdır, çəpərləri yatırır. Onda məscidin xuddamı Güləhməd kişi müsəlləyə çıxmaq üçün camaatı məscidə toplayır. Heyvan almaq üçün həmin gün müəyyən məbləğdən pul yığılır, ayət namazı qılınır, səhər də qurbanlıq heyvan kəsilib kəndə paylanır. Əli düşərli olması üçün heyvan bəzən seyid nəslindən olan şəxslərə kəsdirilirdi. Əlinin düşərli olduğuna inanıldığı üçün Sərdərabad rayonu Xeyirbəyli kəndində müsəlləyə çıxılan zaman qurbanı kənd sakini Seyid Miriyə kəsdirirdilər.

Qada qurbanının bir növü də *əqiq qurbanıdır*. Əqiq ərəb dilində uşağın başındakı saça verilən addır. Qurban kəsilən gün uşağın saçı qırxıldığı üçün əqiq qurbanı ifadəsi də buradan gəlir. Əqiq islamiyyətdən öncə də ərəblər arasında mövcud olub. Bu qurban islamiyyətdən öncə oğlan uşaqları üçün kəsilirdisə, Məhəmməd peyğəmbər həm oğlan, həm də qız uşaqları üçün kəsilməsini zəruri saymışdır. Əqiq qurbanı insanı qada-bəladan, gələcək bədbəxt hadisələrdən sığortalamaq üçün kəsilir. Əqiq qurbanı uşaq doğulandan bir həftə sonra kəsilir, həmin vaxt qurban kəsməyə imkanı olmayanlar isə uşaq həddi-buluğa çatana qədər onu kəsə bilir. Sobu kənd sakini Həsən Hüseynovun dediyinə görə, ilk əqiq qurbanını Məhəmməd peyğəmbər öz nəvəsi üçün kəsib. Yuxuda ona İmam Həsənlə İmam Hüseyn üçün əqiq qurbanı kəsmək tapşırılır. İmam Həsən dünyaya gələndən sonra yeddinci gün peyğəmbər onun saçını qırxır, tükünün ağırlığı qədər qızıl sədəqə verir və əqiq qurbanı kəsir.

Qurbanlıq üçün buyrulan hökmlər əqiq qurbanı üçün də keçərlidir. Əqiq qurbanında bir yaşını doldurmuş sağ-

lam qoç kəsilir. Qoçu kəsərkən sümüyünü qırmaq olmaz. Uşağın sümüyünün möhkəm, sağlam olması üçün heyvan oynaqlarından ayrılır və iri qazanda bişirilir. Cul kənd sakini Əhməd Əhmədlinin dediyinə görə, həmin gün qohum-əqraba dəvət olunur, bir süfrə arxasında əqiq qurbanı yeyilir. Heyvanın bir budu mamaçaya göndərilir, o da əti yedikdən sonra sümükləri göndərir, digər sümüklərlə birlikdə torbaya yığılıb təmiz bir yerdə basdırılır. Həmin gün uşağın qırxılan saçı tərəzidə çəkilir, onun ağırlığı qədər evdən qızıl sədəqə çıxarılır. Əqiq qurbanından uşağın ata-anası yemir.

Qərbi Azərbaycanda qanadlı heyvanların da qurban niyyətinə kəsildiyinə rast gəlinir. Əsasən də xoruz, hindtoyuğu kimi quşlar qurban kəsilir. Məsələn, iki uşaq sünnət ediləndə onların arasında xoruz qurbanı kəsilir. Qurban kəsiləcək xoruz xüsusi olaraq seçilir, boğazına qırmızı lent bağlanılır və qurban üçün hazırlanır. Dəllək uşağın birini sünnət etdikdən sonra fasilə verir, həmin müddətdə çöldə də xoruz qurban kəsilir. Xalisa kənd sakini Çiçək Fətiyevanın dediyinə görə, uşaqları sünnət edəndə sayları dörd olduğu üçün, bir dənə də xoruz kəsmişlər. Həmin xoruz dəlləyə çatır. Ev sahibi dəlləyi yola salanda onun üçün sabun, dəsmal hədiyyə qoyur, gətirilən şirniyyatlardan dəllək üçün bir xonça tutur, üstəlik kəsilən xoruzu da salafana büküb ona verirdi. Söyləyicilərin dediyinə görə, xoruz qurbanı sünnət olunan uşaqların sayı cüt olduqda kəsilir.

Saral, Hallavar, Güllüdərə kəndlərində 13-15 fevral tarixlərində Xıdır Nəbi bayramı qeyd olunur. Xıdırın gəlişi münasibətilə həmin gün buğda qovrulur, dəstərdə qovurğa çəkilib qovut hazırlanır. Həmin qovut sinilərə tökülüb ətrafına Xıdır Nəbinin, ailə üzvlərinin adına şamlar düzülür.

Həmin sini ya pəncərə önünə, və ya evin bir küncünə qoyulur. İnanca görə, Xıdır Nəbi həmin gün evlərə baş çəkir, ruzi-bərəkət paylayır. Kimin evinə baş çəksə, qovutdan götürür, onda onun əlinin izi və ya atının ayağının ləpiri qovudun üzərinə düşür. Onda bilirlər ki, Xıdır Nəbi bu gecə onların evinə gəlib, onlara ruzi-bərəkət gətirib. Həmin günün səhəri Xıdırın gəlişi münasibətilə imkanı olanlar qoç, olmayanlar isə xoruz qurban kəsirdi. Xıdır Nəbinin adına kəsilmiş qurban paylanmır, ancaq ailə üzvləri arasında istifadə edilirdi.

Qoç kəsməyə imkanı olmayan şəxslərin qurban niyyətinə xoruz və ya hindtoyuğu kəsə bildiyi deyilir. Gomur kənd sakini İzzət Məmmədovun dediyinə görə, dörd qızdan sonra Allah ona bir oğul bəxş edir, o da bu münasibətlə yeddi il qoç qurban kəsəcəyini niyyət edir. Deportasiyadan əvvəl hər il bir qoç alaraq ziyarətgahda kəsir, onun ətini orada bişirib ziyarətə gələnlərə paylayır. Bu şəkildə ikisi İsso yalı, ikisi də Çay ocağında olmaqla dörd qurbanı kəsir, amma deportasiyadan sonra maddi durumu zəiflədiyindən qoç almağa gücü çatmır. Mollanın məsləhəti ilə qalan üç ili qoç əvəzinə hindtoyuğu qurban kəsir. Quşlar murdar şeylərlə qidalandıqları üçün onlar kəsilməzdən öncə müəyyən prossedura tabe tutulurlar. Saral kənd sakini Şəmsiyyə Mustafayevanın dediyinə görə, murdar şey yeməməsi üçün xoruz bir həftə və ya on gün çölə buraxılmır, bu müddət ərzində qapalı bir yerdə çörək və buğda ilə bəslənir, bədəni təmizləndikdən sonra onu qurban kəsirdilər.

Qurban qanlı və qansız olmaqla iki qrupa ayrılır. Yuxarıda haqqında söhbət açılan qurban növləri qanlı qurbana aiddir. Qızılbaş inancında qansız qurban növləri arasında niyaz və sacarası geniş yayılmışdır. Niyaz və sacarası

un, kərə yağı, süd və duzla yoğrulan çörək növüdür. Eyni ərzaqdan hazırlansalar da, bişirilmə formasına görə bir-birindən fərqlənirlər. Sacarası iki sacın arasında, niyaz isə təndirdə bişirilir. Sacarası və niyaz pirlər, ocaqlar ziyarət edilən zaman və yaxud edilən hansısa dilək və niyyətin gerçəkləşdiyi zaman bişirilir və qonşulara, ziyarət əhlinə paylanılır.

Sacarasına acxəmrə vurulmur, tərkibi un, süd, kərə yağı və duzdan ibarət olur. Onu bişirən adam qabaqcadan çimib qüsullanır, sonra sacarası və ya niyazın xəmirini yoğurmağa başlayır. Sacarası və ya niyaz niyyət edilərək bişirilir. Kimsə yuxusunu qarışdıranda, dara düşəndə, evin özülü atılanda, hansısa qada-bəlanı sovuşdurmaq lazım gələndə sacarası və ya niyaz bişirir. İmirzik kənd sakini Laçın İbrahimovanın dediyinə görə, evin özülü qoyulanda niyyət edib sacarası bişirmişdi. Evin tikilməsi o qədər rahat getmişdir ki, ustalar da on beş günə evi tikib başa çatdırmalarına təəccüb etmişlər. Niyaz sacarasına nisbətən kiçik olur və daha ucuz başa gəlir. Söyləyicilərin dediyinə görə, sacarasının bişirilməsinə hardasa bir kiloya yaxın yağ tələb olunur. Ona görə sacarası bişirməyə imkanı olmayan niyaz bişirərdi.

Sacarasının xəmiri yağla yoğrulur. Onu sacın içi boyda yayır, göbəyini oyub ora yağ tökür, digər sacı ağzıüstə çevirib qapaq kimi sacın üstünə qoyurlar. Aram-aram yandığı üçün sacın altı gərmə ilə qalanır, üstünün bişməsi üçün gərmənin közündən üstdəki sacın üzərinə də qoyulur. Hərdən sacın ağzını açıb ərsinlə sacarasının ortasına yağ əlavə edilir. Söyləyicilərin dediyinə görə, sacarası qıpqırmızı xına rəngi alana qədər bişirdi. Daha sonra onu çörək taxtasının üstünə qoyurlar, seyid duasını oxuyub onu bıçaqla doğrayırdı. Seyid

sacarasının dilimini əlinin arasına alıb uzadır, başqası da “ya Həzrət Abbas” deyib əlinin arasında sacarasını ondan qəbul edirdi. Əgər sacarası niyazla bərabər bişirilibsə, paylananda bir sacarası, üstünə bir niyaz qoyularaq verilir. Sacarasının qırıntıları tökülən süfrəni ayaq altına çırpmaq və ya toyuq-cücəyə səpmək günah sayılır. Sacarasının külü ayaqlanmaması üçün təmiz bir yerə, adətən ağac, gül kolunun dibinə tökülür.

Sacarası bıçaqla doğranır, amma niyaza bıçaq vurulmur, o əllə bölünür. Yellicə kənd sakini Fəti İsmayılovun dediyinə görə, bir dəfə nənəsi niyaz bişirmişdi, amma evdə kişi xeylağı olmadığı üçün onu doğrayan yox idi. O da həmin gün təsadüfən nənəsigilə getmişdi. Nənəsi onu görüb sevinmişdi. Ardını söyləyici belə nağıl edir. *“Nənəm dedi, nə yaxşı gəlmisən, dayıların işdədi, tapa bilmirik. Mən sacarası bişirmişəm, onu kişi xeylağı kəsməlidi. – Ay nənə, mən neynəməliyəm? Dedi, gir hamama qüsul alginən, ondan sonra gəl, kəs. Mən qüsul aldım, çıxdım. Süfrəni açdılar, bıçağı aldım əlimə. Dedi, yox ey, bıçaxla kəsməməlisən, onu əllə kəsməlisən. Bir əlini niyazın üstünə qoyursan, o biri əlinlə də kənarda qalan hissəni qatlayıb kəsirsən”.* Sacarası və niyaz doğranmamışdan öncə mütləq dua oxunur, ondan sonra doğranılır. Yalnız dua oxunmuş sacarası və niyaz qurban statusu alır. Milli dərəsi sakinlərinin əsas inanc yeri Bayburt kəndində yerləşən Ərəb ocağı idi. Həmin ocağa ziyarətə gedənlər qurban niyyətinə sacarası və niyaz aparır, ocağın varislərindən olan Seyid Abbas isə onun üstündə bu duanı oxuyurdu. – *“Allah, Allah, İsmayıl qurbanını Mina dağında qəbul etdiyin kimi bu şəxsin də qurbanın qəbul elə. Allah, Allah, öz cəhdi-cəlalına bağışda, yüz iyirmi*

*dörd min peyğəmbərinə bağışda, yetmiş iki şühədəninə bağışda, "ya hu, ya mən hu" deyən dillərinə bağışda. Dəmi Mərdan piri Şahı Mərdan, doğruların, gerçəklərin dəminə hü, Allah qəbul eləsin"* – deyib onu doğrayırdı. Paylayanda da seyid bir dilim sacarasından götürür, üstünə də bir dilim niyazdan qoyub əlinin arasında uzadır, digər şəxs də "Ya Həzrət Abbas" deyib əlinin arasında onu qəbul edirdi. Sacarası və niyaz doğranarkən və ya yeyilərkən onun qırıntıları yerə düşməməli idi, yerə düşdükdə düşən tikəni öpüb gözün üstünə qoyur, sonra yeyirdilər. Təbərrik hesab olunduğu üçün ziyarətə gələn hər kəsə sacarası və niyazdan pay verilir, evdə bişiriləndə isə qohum-qonşuya paylanılır.

Sacarasının göbək hissəsi kimə düşürsə, o bəxtəvər hesab olunur. Yellicə kənd sakini Əsmər Mədətovanın dediyinə görə, bir dəfə yeddi dənə sacarası bişirmişdilər, yeddisinin də göbəyi bacısı Siyatelə düşmüşdü. Onun taleyi, doğrudan da, gözəl gəlmişdir.

Sacarası bəzən iməci üsulu ilə bişirilir. Qohum-qonşu bir evə yığılır, hər kəs özü ilə lazım olan ərzağı gətirir, onlar bir arada qarışdırılıb bişirilir. Bərdə rayon Kətəlparaq kəndində məskunlaşmış Bayburt sakini Rəfiqə Hüseynovanın dediyinə görə, Ərəb ocağına ziyarətə gələnlər özləri ilə sacarasının ərzağını gətirir, elə onların həyətində həmin ərzaqlar bir yerdə qarışdırılıb onlardan sacarası bişirilirdi. Söyləyicinin dediyinə görə, niyaz sacarasından əvvəl gəlib. Ona görə niyaz tək bişirilə bilir, amma sacarası heç vaxt tək bişirilmir, mütləq niyazla bir yerdə bişirilir. Bir sacarası və üç niyaz isə bir qurbana bərabər tutulur.

Bayburt kənd sakini Mətləb Hüseynovun dediyinə görə, Bayburt kəndində bayram axşamı kənd əhli kiçikdən

böyüyə ziyarətgaha yığılır, orada sacarası, niyaz paylanırdı. Ardını söyləyici belə davam etdirir: "*Novruz bayramının axşamı, hələ bayram süfrəsi açılmıyıfdı. İnanırsız, kənd yeridi, küsülü də ola bilərdi. Həmən vaxdı bir insan o ocaxdan küsülü ayrıla bilməzdi. Allah eləməsin, siznən mənim ədavətim varsa, orda biz barışıb ayrılırdıx. O niyaz, sacarası bölünürdü, paylanırdı. Niyaz, sacarasını alanda öpürdük, gözümüzün üsdünə qoyurdux və onu elə yeyirdik ki, bir cıqqası belə yerə düşməməli idi. Yeyəndən sonra əlimizi suynan yuyurdux, o suyu hər yerə atmağ olmazdı. Niyaz birüzdü, sacarası isə ikiüzdü bişirdi. Özü də onu odunnan yox, kərməynən bişirirdilər. Altda da kərmə olurdu, üsdə də. O özü yağın içində bişirdi. Özü də o alınma yağ olmurdu, nehrə yağı olurdu. Onnan sonra dağılırdıx evimizə, tonqallar yandırılırdı, baca-baca başdıyırdı. Onun ardınca sulaşma gəlirdi, sabaha qədər yatma yox idi. Sacarası-niyazı hamı evdə bişirib gətirirdi, ocaxda paylanırdı. Müqəddəs ziyargah olduğuna görə, birinci bayramımızı ordan başdıyırdıx. Elə bil, birinci ocağın qapısında tonqalı yandırırdıx, sonra gəlib öz tonqallarımızı qalıyırdıx. Mənim yadıma gəlir, Allah uzağ eləsin, dünyadan köçən olanda camaat yığışardı gedərdi birinci onun qapısında bayram tonqalın yandırırdı, sonra gəlib öz tonqalın yandırırdı*"[4].

Alma və nar da qansız qurban hesab olunur. Zəngilanın Sobu və Şamlı kəndlərində cəmlərdə qurban niyyətinə alma və nar kəsərdilər. Seyid dua oxuyub almanı və ya narı dörd yerə bölər, hər qurban tikəsinin yanına bir dilim ondan qoyardı.

---

[4] Söyləyicinin dediyinə görə, bu inancı daşıyanlara *yoluşağı* deyirlər.

***

Qızılbaşlarda cəm ibadəti qurban mərkəzli olub, cəm dedikdə həm də qurban ritualının gerçəkləşdiyi məkan başa düşülür. Verilən məlumatlardan aydın olur ki, cəmlər həftənin cümə günü keçirilirdi. Cəmlərdə qadın-kişi bir yerdə iştirak edir, onlar yerdə döşəyin üstündə əyləşir, baş tərəfdə seyidlər oturur. Ələvi cəmlərindən bəhs edən araşdırıclar müsahiblik, iqrar bağlamaq, məhərrəm cəmi kimi fərqli cəmlərin adını qeyd edirlər[5]. Məhərrəm cəmi Milli camaatının arasında da olub. İldə bir dəfə məhərrəm ayında imamları anmaq məqsədilə belə bir cəm təşkil edilərdi. Özlərinin dediyinə görə, onlar digər şiələr kimi imamların yasında sinə döyüb baş yarmayıblar, cəmə toplaşıb orada imamları anıb, onların yasını saxlayıblar. Cəm məclisləri qurban ağırlıqlı olur, mütləq bu məclislərdə qurban kəsilir, həmin qurban ətrafında da mərasim təşkil olunurdu. Həmin məclislərdə verilən qurbana *bişmə qurban* deyilir. Bişmə qurbana bıçaq vurulmur, o haxlardan (sümüklər birləşən hissə – tərt.) hissələrə ayrılaraq iri mis qazanlarda bişirilir. Ət sümükdən ayrılana qədər qaynadılır, sonra qazandan çıxarılaraq püxtələnir, lavaşın arasında paylanırdı. Ətin suyuna isə buğda yarması əlavə edib qaynadılır, paylayanda hərənin boşqabına lavaşın arasında qurban əti və bir-iki qaşıq da buğda yarmasından qoyub verilir.

Qurban bişirilən ev mütləq qabaqcadan təmizlənir, ora murdar, natəmiz şeylər gətirilməzdi. Hətta bişmə qurbanın paylandığı evlər də qurban gələcəyi üçün qabaqcadan təmiz-

---

[5] Üçer C. Aleviligin yanlış algılanması: muharrem uyğulamaları örneği https://dergipark.org.tr/tr/download/article-file/2581068

lənirdi. Bişmə qurban o qədər müqəddəs tutulur ki, ana bətnindəki uşağa qədər hər kəsə ondan çatmalı idi. Ona görə cəmdə iştirak edənlərdən əlavə evlərə də göndərilirdi ki, cəmə gələ bilməyənlər ondan dadsınlar. Bununla bağlı Yellicə kənd sakini Əsmər Mədətova belə bir xatirə danışdı: *"Biz yetim uşağıx. Mən yatmışam, məndən böyük bacımı da qoyuflar mənim yanımda, gediflər bişmə qurbanın üsdünə. Mənim bacım da uşaxdı ha. Qapılar kilitdiydi. Görüfdü qapılar açıldı, iki dənə ağsakqal kişi gəldi. – Onnara qurban olum. – Gəldi dedi ki, qızım, hanı bu evin adamları? Deyif ki, qurban kəsiblər, gediflər qurban əti yeməyə. – Bəs siz niyə getmiyifsiniz? Deyif, bacım yatmışdı, onçün mən getmədim, qaldım. Dedi ki, yatmazsız. Qurban ətindən gətirəndə bacı durquzub, yeyib yatarsız, amma demə bura kim gəldi. Bax, desən, səndən inciyərəm. Özün də qorxub eləmə. Biz sizdən örtü gəlmişik ki, siz yeməmiş yatmayın. Ermənistanda olanda bacım bunu gizli saxlayır, ta Azərbaycana gələndən sonra açıb danışır. Dedi, o vaxdı bizi qurban üsdə aparmayanda mən belə gördüm. Qapılar kilitdi idi, dedim bunlar hardan gəlib girdilər. Bax o qurban helə qurban idi, onu gərək bir adam yeməmiş olmuyaydı".*

Əsmər Mədətovanın dediyinə görə, Məhərrəmlikdə imamları anmaq üçün iri bir evə yığışardılar. Seyid qurban ətini paylamamışdan qabaq dua verərdi. Deyərdi: "Allah, Allah, sən allahlığına bağışla, sən kəsilən qurbanlara bağışla, sən axan qanlara bağışla, asılan qazanlarına bağışla, İmam Hüseynə, İmam Həsənə bağışla, Yusifi zindandan qurtarana bağışla, ahunu balasına yetirənə bağışla". Ondan sonra qurban paylanır, oturub yeyirdilər.

Cəmlərdə ancaq o bölgənin sakinləri iştirak edirdi, yad, kənar adamlar həmin məclisə buraxılmırdı. Vedi rayonu

İmirzik kənd sakini Laçın İbrahimovanın dediyinə görə, Xəlsə Şahbazın ocağında bir gün belə bir məclis təşkil edirlər. Orda dua verəndə hamı əllərini açıb "ya Hüseyn" deyir. Həmin an ermənilər səsi eşidib içəri girmək istəyir, amma nə qədər cəhd etsələr də, içəri girə bilmirlər. Camaat çəkilib gedəndən sonra erməni gəlib onun dədəsinə deyir ki, siz "ya Hüseyn" dediniz, biz nə qədər elədik sizin yanınıza gələk, elə bil bizi atdılar qırağa, qoymadılar içəri girək. Söyləyici onları içəri girməyə qoymayanları "qurban olduqlarım" adlandırır, bu ad altında da imamları nəzərdə tutduğu anlaşılır. Kənar adamlar bu məclisdə iştirak etmək üçün müəyyən mərasimə tabe tutulur, onlara and içdirildikdən sonra qurban ətindən yeməyə icazə verilir. Əsmər Mədətovanın dediyinə görə, Vedi rayonunun Yellicə kəndində bir seyid sünni qızı almışdı. Seyid həmin gəlini yola gətirmək üçün bir mərasim keçirir. Ardını söyləyici belə davam edir: "*Bax, elə bil bu qazannar asılıb bişmə qurbanı günü ha. Bax, elə bil burda qazan asılıb, burda da təndir yanır. Bax, o (gəlin – İ.R.) ordan sürünə-sürünə deyirdi ya hu, bu deyirdi ya mənə hu. Bunu deyə-deyə dizi üsdə gəlib təndirin başına dolanır, seyid nə deyirdi, o da onu təkrar eliyirdi. Onu yola gətirib sonra icazə verirdi ki, camaatnan bir yerdə o da qurban ətindən yesin".* Laçın İbrahimova da oğluna sünni qızı almışdı, o da gəlinin sacarasından yeməsi üçün mərasim təşkil etmişdi. Söyləyici həmin mərasimi belə təsvir edir: *"Böyük oğluma gəlin gətirəndə dedim ki, hamınız çimin, mən bir dənə nəzir bişirəcəm. Nəsibəgil[6] [sacarasının nə olduğunu] bilmirdi. Onu bişirtdirdim, qoydum ortalığa. Nəsibəyə dedim, üç dəfə əyil,*

[6] Gəlinini nəzərdə tutur.

*deginən günahımdan keç. Əyildi, onu öpdü. Dedim, indi sən də bizim yola gəldin. Hamı qüsullanıb gəlib onu (sacarasını – tərt.) ziyarat eləməlidi".*

Vedi rayonu Əlimərdan kənd sakini Rəhim Bünyatov bişmə qurbanın verildiyi məclisi qırxlar məclisi, Əli əleyh-salamın məclisi adlandırır. Kənar şəxslər naməhrəm hesab olunduğu üçün onlar həmin məclisə buraxılmır. Söyləyicinin dediyinə görə, o məclisə gələn gərək qəlbini təmiz tuta, fikrini dolandırmaya. Yellicə camaatının bir qismi Şəmkirin Çinarlı kəndində məskunlaşıb. Rəhim Bünyatovun dediyinə görə, bir ili Seyid Hüseyn orada belə bir məclis təşkil edir, amma düzgün aparılmadığı üçün təşkilatçılar avtomobil qəzasına düşmüşdülər. Bu məclisdə qadın-kişi bərabər iştirak edir. Qurban kəsilməmişdən əvvəl seyid duasını oxuyur, ondan sonra qurban kəsilirdi. Ət bişəndən sonra da seyidin icazəsi ilə ət püxtələnir, lavaşa bükülüb camaata paylanırdı. Rəhim Bünyatovun dediyinə görə, bu məclisdə iştirak edən yalan danışmamalı, mərdiməzarlıq, oğurluq etməməli, siqaret çəkməməli, hətta yanında siqaret çəkilsə, onun tüstüsünü udmamaq üçün oradan uzaqlaşmalıdır. Rəhim Bünyatov uzun müddət savxozda birqadir işləyib. Özünün dediyinə görə, nə oruc tutub, nə namaz qılıb, amma birqadirlik etdiyi dövrdə əliərilik etməyib, dövlətin malını oğurlamayıb.

Qurban ətinin bişirilərək paylanılması Həzrət Əlinin adı ilə bağlanılır, hətta bunun haqqında əfsanə də söylənilir. Həmin əfsanə Zəngilan rayonunun Sobu kəndindən yazıya alınıb. Qızılbaş inancının daşıyıcıları olan sobulular Səfəvi dövlətinin qurulmasında iştirak etmiş Şamlı tayfasına mənsubdurlar. Həmin əfsanəyə görə, Həzrət Əli döyüşdən qayıdandan sonra onun şərəfinə qurbanlar kəsilir. Həzrət Əli

qurban ətindən yeyir, çıxıb gedəndə iki uşağın yol kənarında öldüyünü görür. Uşaqlardan birinin əlində qurban tikəsi olur. Həzrət Əli xəbər alır, məlum olur ki, uşaqlar qurban tikəsini bişirməyə şəraitləri olmadığı üçün acından ölüblər. Ondan sonra Həzrət Əli bu günə qədər kəsilən qurbanları haram sayır və hər kəsin qurban ətindən yeyə bilməsi üçün onun bişirilməsini, gücü çatanların qurban ətini çörəyin arasına qoyub, gücü çatmayanların isə lavaşa büküb paylamasını tapşırır. Ətin suyuna isə imkanı olan düyü, imkanı olmayanların buğda yarması töküb bişirməsini, lavaşın yanında bir-iki qaşıq da ondan verilməsini tapşırır. Sobu kənd sakini Cümşüd Cümşüdovun dediyinə görə, babası qurban kəsəndə əti qazana yığıb qaynadardı, əti sümükdən ayırdıqdan sonra lavaşın arasına büküb tiyana yığardı. Küçəyə çıxıb yoldan keçən hər kəsə həmin lavaşdan verərdi. Lavaş olmadıqda isə sadəcə əti tiyana yığıb kəndin ortasına çıxar, hər kəsə o ətdən paylayardı. Qurbanlıq heyvanın sümüyünü ayaq altına atmaq günah sayıldığı üçün onun sümüyünü dərisinin arasına yığıb basdırardılar. Qurban kəsilmiş heyvanın yunundan döşək düzəltmək, corab toxumaq günah sayılır, onun yununu qırxıb ya seyid ocaqlarına verər, ya da uşaq yorğanında istifadə edərdilər. Sobuda ətin suyunda bişən düyüyə *xitmət* deyilir. Ev sahibi bişmə qurbandan özünə ancaq bir pay götürə bilər, qurbanın qalan ətini paylayardı.

Qurban ətinin bişirilməsinin Həzrət Əlinin buyruğu, tapşırığı kimi verilməsi onu hökm halına salır və ona əməl olunmasını zəruri edir. Əslində isə qurban ətinin bişirilməsi ruhun sümükdə yaşaması inancı ilə bağlıdır. Məhz buna görə qurban kəsilmiş heyvanın sümüklərinin ətrafa dağılması, ayaq altına atılması günah sayılmışdır. Hətta heyvanın qanı

da yerə axıdılmır, başının altına tutulan ləyənə yığılır, daha sonra torpağa basdırılır. Laçın İbrahimovanın dediyinə görə, cəm məclisləri onun ana babası Xəlsə Şahbazın ocağında keçirilərdi. Evin ortasında təndir var idi, bişmə qurban həmin təndirdə bişirilərdi. Qurban yeyildikdən sonra evin içindəcə quyu qazıb heyvanın sümüyü orda basdırılar, məclisdə istifadə olunan qab-qacaq, qurban ətinin bişirildiyi qazanlar yuyulduqdan sonra bulaşıq suyu da həmin quyuya tökülərdi.

Qurbanla bağlı xalq arasında müəyyən inanclar vardır. İnanca görə, heyvan əgər öz ayağı ilə ziyarətə gedirsə, həmin qurban qəbul olunmuş sayılır. Basarkeçər rayonu Bala Məzrə sakini Aqil Şərifovun dediyinə görə, Söyüdlü dərəsində Seyid Əsədullahın ziyarətgahına qurban deyirlər. Jiqulinin gedib çıxa bilmədiyi yerə onlar rahatlıqla gedirlər. Ziyarətgaha çatdıqdan sonra qoçu maşının baqajından götürüb yerə qoyurlar və onu buraxırlar. Ardını söyləyici belə davam etdirir: *"Allahın adı haqqı, o heyvan qızın dalınca üç dəfə əl dəymədən məzarın başına fırlandı, qız məzarın ayağında durdu, gəldi o da durdu. Bax, o qurbanı orda kəsdik, qazan asdıq, onun yarısını bişirdik, yarısın da maşına qoyub çıxıb gəldik".* Başqa bir inanca görə, qurbanlıq heyvanın oğurlanması günahdır. Loru mahalı Çubuxlu kənd sakini Dilarə Rəşidovanın dediyinə görə, qayınanası hər il Xıdır Nəbi üçün quyruğu yekə qoç bəsləyərdi. 1988-ci ildə deportasiya ərəfəsində Xıdır Nəbinin adına bəslənən qoç qaçıb sürüyə qarışır, nə qədər axtarsalar da, onu tapa bilmirlər. Qoçu oğurlayanın qonşuları olduğunu sonradan öyrənirlər. Söyləyicinin dediyinə görə, nə qoçu oğurlayan, nə də onun ailəsi ondan xeyir tapır.

Qurban kəsilən heyvanın sümüyünün bərəkət gətirdiyinə inanılır. Ona görə onu un təknəsinin içinə atıb yeni qurban kəsilənə qədər orada saxlayırdılar. Cəbrayıl rayonu Sirik kəndində gur yağan yağışı kəsmək üçün qurban kəsilmiş heyvanın tükü yandırılır.

Tərtərdə folklor ezamiyyəsində olduğumuz zaman vaxtilə bişmə qurban məclislərini təşkil edən Seyid İmranın oğlu ilə görüşdük, ondan həm qurban, həm də digər ayinlərin icrası zamanı oxunan duaları yazıya almaq istədik. Amma məlum oldu ki, atası "bu yol ağırdır" deyib onun davam etdirilməsində maraqlı olmayıb və həmin duaları ona öyrətməyib. Ona görə uzun müddətdir ki, bişmə qurban məclisləri təşkil olunmur. Axırıncı dəfə belə məclisin deportasiyadan sonra Salyanda, bir il də Tərtərdə təşkil edildiyi deyilir. Uzun müddət bişmə qurban məclisləri keçirilmədiyi üçün insanlar onun haqqında ancaq xatirələrini danışırlar. Digər tərəfdən, bişmə qurban, sacarası və niyaz haqqında kənar adamların yanında danışmaq günah sayılır. Məhz bu səbəbdən söyləyicilər bişmə qurbanla bağlı məlumatların ötürülməsində maraqlı deyillər, danışdıqları təqdirdə ziyan çəkəcəklərindən ehtiyat edirlər. Ərəb ocağı haqqında məlumat toplayarkən ocağın varislərindən olan Seyid Abbas sacarasından söhbət açır. Söhbətə qoşulan həyat yoldaşı Rəfiqə Hüseynova *"onu (sacarasını – tərt.) demək çox günahdı, ziyanını çəkərsən. O açılmamalıdı. Bu kişi (əri – tərt.) açıb danışır, amma mən özüm qorxuram. Allah özü günahımızdan keçsin"* deyərək bu haqda danışmağa ehtiyat etdiyini dilə gətirir. Sacarası və niyaz haqqında məlumat verdikdən sonra isə əlavə edir. *"Allah günahımdan keşsin, nə də eləsə, bu kişinin (ərinin – tərt.) canına eləsin. O açdı deyə mən danışıram. Bu*

*sirr açılmamalıdı. Biz onu bişiririh. Bu kəndin (Bərdə rayonu Kətəlparaq kəndi – tərt.) çoxusu onu bilmir, ancax Milli camaatı bilir. Biz onu kəsirik qurban kimi, öz aramızda bölürüh, yeyirih. Milli camaatına ondan veririh, başqasına onu nə vermirih, nə də bildirmirih".* Təriqət sirri sayılması sacarası, niyaz və bişmə qurban haqqında ətraflı məlumat əldə etmək imkanını məhdudlaşdırır, buna baxmayaraq, topladığımız məlumatlar əsasında bölgədəki qurban ənənələri haqqında təsəvvür yaratmağa çalışdıq.

Beləliklə, Qərbi Azərbaycan qədim qurban ənənələrinin qorunub saxlandığı bölgələrdən biridir. Qurban ətinin bişirilərək paylanması, hətta ana bətinindəki körpənin də ondan nəsiblənməsi, qurban gələn evlərin qabaqcadan təmizlənərək paklanması, murdar hesab edilən şeylərin evə gətirilməməsi qurbana verilən önəmi göstərir. Qərbi Azərbaycanda qurban ənənələri toplumun bütün fərdlərini bir araya gətirərək onlar arasında dayanışma, birlik ruhunu gücləndirməyə xidmət etmişdir.

**Söyləyicilər:**

1. Bünyatov Rəhim Məhəmmədəli oğlu, 1951-ci ildə Ermənistan SSR, Vedi rayonunun Əlimərdan kəndindən deportasiya olunub, təvəllüdü 1940-cı il. Tərtər rayonu Seydimli kəndində məskunlaşıb.

2. Cümşüdov Cümşüd Salman oğlu, Zəngilan rayonunun Sobu kəndi, təvəllüdü 1956, orta təhsilli.

3. Əhmədli Əhməd Fehruz oğlu, atası 1949-cu ildə Ermənistan SSR, Dərələyəz mahalının Cul kəndindən deportasiya olunub, təvəllüdü 1957, təhsili ali, ingilis dili müəllimi. Salyan rayonu Xələc kəndində məskunlaşıb.

4. Həsənova Zahidə Vəli qızı, 1950-ci ildə Ermənistan SSR, Zəngibasar rayonunun Uluxanlı kəndindən deportasiya olunub, təvəllüdü 1957, orta təhsilli. Salyan rayonu Yeni Uluxanlı kəndində məskunlaşıb.

5. Həşimov Əyyub Abdulkərim oğlu, 1988-ci ildə Ermənistan SSR, Paşalı rayonunun Köçbək kəndindən deportasiya olunub, təvəllüdü 1946-cı il. Yevlax rayonunun Nemətabad kəndində məskunlaşıb.

6. Hüseynov Abbas Qəşəm oğlu, 1949-cu ildə Ermənistan SSR, Vedi rayonunun Bayburt kəndindən deportasiya olunub, təvəllüdü 1946. Bərdə rayonu Kətəlparaq kəndində məskunlaşıb.

7. Hüseynov Həsən Xalıqverdi oğlu, Zəngilan rayonunun Sobu kəndi, təvəllüdü 1970-ci il, ali təhsilli, molla. Bakı şəhərində məskunlaşıb.

8. Hüseynov Mətləb İsmayıl oğlu, 1988-ci ildə Ermənistan SSR, Vedi rayonunun Bayburt kəndindən deportasiya olunub. Göygöl rayonunun Kərəmli kəndində məskunlaşıb.

9. Hüseynov Telman Canbaxış oğlu, 1951-ci ildə Ermənistan SSR, Vedi rayonunun Haxıs kəndindən deportasiya olunub, təvəllüdü 1941, ali təhsilli, uzun müddət müəllim işləyib. Bərdə rayonu Otuzikilər kəndində məskunlaşıb.

10. Hüseynova Rəfiqə Hənifə qızı, 1949-cu ildə Ermənistan SSR, Vedi rayonunun Bayburt kəndindən deporta-siya olunub. Bərdə rayonu Kətəlparaq kəndində məskunlaşıb.

11. İbrahimov Yəhya İsmayıl oğlu, 1949-cu ildə Ermənistan SSR, Sərdarabad rayonunun Xeyirbəyli kəndindən deportasiya olunub, təvəllüdü 1949. Sabirabad rayonunun Əsədli kəndində məskunlaşıb.

12. İbrahimova Laçın Hətəm qızı, 1950-ci ildə Ermənistan SSR, Vedi rayonunun İmirzik kəndindən deportasiya olunub, təvəllüdü 1943-cü il. Tərtər rayonu İrəvanlı kəndində məskunlaşıb.

13. İsmayılov Fəti Müqəddəs oğlu, 1949-cu ildə Ermənistan SSR, Vedi rayonunun Yellicə kəndindən deportasiya olunub, təvəllüdü 1937-ci il. Tərtər rayonu İrəvanlı kəndində məskunlaşıb.

14. Mədətova Əsmər Hüseynalı qızı, 1951-ci ildə 1988-ci ildə Ermənistan SSR, Vedinun rayonu Yellicə kəndindən deportasiya olunub, təvəllüdü 1930-cu il, ibtidai təhsilli. Tərtər rayonu İrəvanlı kəndində məskunlaşıb.

15. Məmmədov İzzət Əcəb oğlu, 1988-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının (Paşalı rayonunun) Gomur kəndindən deportasiya olunub, təvəllüdü 1953-cü il. Yevlax rayonu İrəvanlı qəsəbəsində məskunlaşıb.

16. Mustafayeva Şəmsiyyə Məmməd qızı, 1988-ci ildə Ermənistan SSR, Hamamlı rayonunun Saral kəndindən deportasiya olunub, təvəllüdü 1961-ci il, ali təhsilli. Bakı şəhəri, Nəsimi rayonunda məskunlaşıb.

17. Rəşidova Dilarə İsgəndər qızı, 1988-ci ildə Ermənistan SSR, Calaloğlu rayonunun Çubuxlu kəndindən deportasiya olunub, təvəllüdü 1953. Bakı şəhəri Nərimanov rayonunda məskunlaşıb.

18. Şərifov Aqil Xıdır oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonunun Bala Məzrə kəndindən deportasiya olunub. Tərtər rayonu Bəyimsarov kəndində məskunlaşıb.

19. İbrahimov Yəhya İsmayıl oğlu, 1949-cu ildə Ermənistan SSR, Sərdarabad rayonunun Xeyirbəyli kəndindən deportasiya olunub, təvəllüdü 1949. Sabirabad rayonunun Əsədli kəndində məskunlaşıb.

## 2-7. NOVRUZ ADƏTLƏRİ

Axır çərşənbədə təzə gəlinləri, nişanlı qızları bulax başına çıxarırdılar, qurşağ atma var idi. Qardaşım institutda oxuyurdu, kəsiri var idi. Anam dedi, get əmingilin qapısını dinlə, görək Qulunun işi nətər olajax. Getdim, gördüm əmim deyir ki, lampışka yanıfdı, onu çıxart, təzəsini tax, yanajax. Sevinə-sevinə gəldim dedim ki, ana, düzələjəh. Aradan üç gün keşmədi zəng gəldi ki, hər şey düzəlif.

Axır çərşənbənin səhəri tezdənnən suyun axarı olurdu. Anam səhər tezdənnən altıda oyanırdı, gedirdi krantdan suyu götürürdü, gətirif yatdığımız yerdə üzümüzə vururdu ki, ilaxırının suyudu, Allah axırınızı bu su kimi təmiz eləsin. İlaxır çərşənbəsi suyudu.

Bizdə bir adət var idi. Cavan qızdar, gəlinnər yığlardı, kimin ki evində təndir damı yekə olurdu, ordan yelləncək asırdılar. Sonra hər kəs evinnən bir şey gətirirdi, orda qazan asırdılar, yemək bişirirdilər. Kəntdə də uşaxlar kosa düzəldirdilər, bilirdilər ki, bu evdə uşaxlar bayram keçirirlər. Gözdüyürdülər, axşam olurdu, gəlif qapını döyürdülər, ya çıxırdılar damın üsdünə qurşax sallıyırdılar ki, kosanın payını verin. Kosanın payı yaxşı olmasaydı, ordan suyu tökürdülər, deyirdilər, di indi yeyin.

Təzə ölü düşəndə qırxında, ilində, ad günündə, el dağa gedəndə, el dağdan gələndə qəbr üsdünə gedirdilər, ölünü yad edirdilər. Bir də qara bayramda. Üçüncü çərşənbədə bütün kənd eyni gündə qəbr üsdünə gedirdi. İndi bunun da ağını çıxardıflar, biri bazar günü, biri adna günü eliyir. Bir gündə bütün kənd hamı öz ölüsünün üsdünə gedirdi. Özü də nətər gedirdi? Məzrəlilər ləyənnən qatdama, ərdək bişi-

rirdilər, çıxırdılar qəbr üsdünə. Orda qəbrləri ziyarət eliyənnən sonra o qatdamanı, ərdəyi çıxannara paylıyırdılar. Amma Çaxırrılar qənd aparırdılar, qoyurdular qəbirsannığın girişinə, camaat qəbirsannıxdan çıxanda hərəyə yarım kilo qənd verirdilər.

Boz ay ki gəldi, mütləq yorğan-döşək eşiyə tökülməli idi, evlər təmizlənməli idi. Harda əziz yeməklər var, onlar bayramda bişməli idi. Bayram süfrəsinin üsdündə yeddi löyün olmalı idi. Sini qoyulurdu, onun içinə yeddi löyün nemət – qoz, fındıq, yumurta, kanfet, səməni meyvə qurusu və s. yığılırdı. Yaşlılar axır çərşənbəyə deyirdilər *yeddi löyün gejəsidi*.

Bayramın səhəri isə *bayramlaşma* idi. Bizdə bayramlaşma may ayına qədər davam edirdi. Bizdə Bala Məzrəli biri vardı, arıxlar nəslindən idi. Deyir, a kişi, qadan alım, kanfetin üsdünə götdüm yazdım "Bala Məzrə, filankəs", kanfet hərrəndi-fırrandı gəldi öz evimizə çıxdı. Pəmbək kəndində də bir adət vardı. Onlar dəftər vərəqini klok eliyirdilər, içinə bir yumurta, iki-üç kanfet qoyurdular. Əlli-atmış dənə helə klok düzəldirdilər, yığırdılar bir sumkaya, düşürdülər qohum-qardaş evinə, hərəyə ondan birini verə-verə gedirdilər. Bayram payı idi. Bizdə bayramlaşmaya gedəndə təzə gəlin varsa, ona atrez aparırdın, təzə doğulmuş uşaq varsa, ona pay aparırdın, yaşlı arvad varsa, ona kalağayı aparırdın. Mütləq onun içində hədiyə olmalı idi. Bir çamadan da gərək şakalad olardı, adi kanfet olmazdı. Bayramda ermənilər mağazanı şakaladnan doldururdular ki, türklər alajax. Bayramlaşmada gəlinin yanına gedəndə neçə xonça bəzənirdi, üsdünə qırmızı salınırdı. Xonçanın biri mütləq meyvə olurdu. Bizdə də ən çox alma-armud olub.

Əsas da qırmızı alma seçirdilər, ondan yekə bir xonça düzəldirdilər. Şirin fətir deyillər, ondan bir xonça düzəldirdilər. Hərə qoltuğuna birin vururdu, gedirdi gəlin görməyə (S.30).

**3.**

Yel çərşənbəsi, su çərşənbəsi, od çərşənbəsi, torpaq çərşənbəsi. Onu da qurtarandan sonra 18-19-u *təzə gəlmiş gəlinnərin bacası* deyilən bir şey varıydı. Təndir kətəsindən tutmuş Yerevan kətəsinə qədər bişirilirdi. O vaxt çəmədanlar idi, indi keçib artıq sinilərə. Xonça tutulurdu. Təzə gəlin ki varıydı, o gəlin də altı aya qədər bulax başına getmirdi ha, bu adət-ənənə varıydı. Yəni başı bağlı idi. O bayram gəlib çatandan sonra təzə gəlinin bacasına yığılırdı qohum-əqraba, qız tərəfin adamları. Elə bil cəmiyyət içinə çıxarmax üçün bu variantı eliyillər, onda metrlə parçalar olur, qırmızı boyanmış yumurta, – o vaxtı kraska yoxuydu, soğan qabığıynan boyuyurdular, – xonçalar düzülür, qoyulurdu baca evinə. Baca evində nə var? Dörd vedrəlik qazannan bir ərik, Naxçıvan əriyinin qurusu ha, bir yekə qazan süd aşı. Ondan sonra bir qoç kəsilirdi, gələn qonaxlar üçün bütün nazı-nemətlər, ancax içkidən savayı. İnsanlar deyirdi Həzrət Əli bayramıdı, ona görə içki qadağan idi. Gəlinin də üz görənniyini eliyirdilər. Qantar deyilən bir şey vardı, biri qabaxda biri arxada – iki vedrə asılırdı. Bulağa ki gəldi, yaşlı arvat da olsa, o gəlinə hörmətlə yanaşırdılar, yol verirdilər ki, suyunu doldurub getsin. Duva eliyirdilər. Niyə o yadımdadı? Seyid Məhəmməd babamın evinin qabağında bulağ vardı, o bulağa yığışırdılar. Onnan sora gəlin artıq sərbəst bulağa gedib gəlirdi.

Bayram adət-ənənələrinnən ən maraqlısı *sulaşmadı.* Bizdə ev damları vardı, evdə yelləncək qururdular, cavanlar yığılırdı ora. Bax, mən tələbəydim, o çərşənbəyə görə Gəncədən gedirdim Göyçəyə. Göyçədə sulaşmanı axır çərşənbə edirdilər, amma Amasiya bölgəsində 20-21-i olurdu. Elə bil ki, yığılırdıx, yeməyimizi yeyirdik, sora *baca-baca gəzməyə* gedirdik. Bilirdik ki, hansısa evdə yelləncək var. Gedirdik qapını döyürdük, minirdik yelləncəyə. Niyyət tuturdux, əlimizdə nəsə aparırdıx, şakalad-zad qoyurdux ora – getdiyimiz evə, gedirdik yellənirdik. Mən bir dəfə təzə bir kastyum almışdım. Getdik bir evə yelləncəyə minməyə, elə təzə yelləncəkdə yellənirdik, başımdan suyu tökdülər. Bu da olsun paltar yuyulan haroylu[7] su. Çingiz məəllim deyilən biri varıydı. Biri dedi ki, Çingiz məəllim idi. Buların da evinin yanında mustuq[8] enliydi. Ay Çingiz məəllim, çıx, çıxmadı. Obşi qonşulardan birini göndərdik, bunu çıxartdı çölə, bunu götürdük saldıx mustuğun içinə. Başını sudan çıxardanda bir də salırdıx suya. Qərbi Azərbaycanda həmişə soyuq olurdu, buna baxmayarax kimsə incimirdi. Kasıb adam olanda onun evinə pay aparırdılar, qoy o da bayramı yaxşı keçirsin.

Yelləncəkdə yelləənəndə oxunan sözlər varıydı, vallah, o yadımda qalmıyıbdı, səsi olan da oxuyurdu, olmuyan da. Ancaq elə düzəldirlər, yelləncək qırılmaq söhbəti yoxuydu. Beş nəfər, on nəfər yığılırdı, yelləncək qurulurdu. Ən çox bacalı evlərdə olurdu. İri atmalar olurdu, o atmalardan

[7] haroylu – çirkli

[8] mustuq – su krandı

yelləncəyi qururdular. Bəzən niyyət tuturdun ayağım evin damına dəyirmi.

Kalxoz əmək günündən əlavə Xıdır Nəbiyə görə, bayrama görə taxıl, buğda paylayırdı və yaxud kalxozun hesabına mal kəsirdilər, ətini hər evə paylayırdılar. Bayram adət-ənənəsinin ən gözəli də o idi ki, o tonqal hər bir evdə yanırdı. Lopa düzəldirdik parçadan, məftilnən bağlayırdıx və yaxud tay ağacı deyirdik – tütün taylarını asmaq üçün istifadə olunurdu, – ağacın başına bağlayırdıx parçanı, onu yandırırdıx. Təsəvvür elə ki, o çərşənbə günü kəndin hər bir yeri işıqlanırdı. Hər qapıya da gedirdin, ya torba atırdın, ya papağ atırdın, evində Allah verəndən nə varsa ondan qoyurdu. Ən gözəl adət-ənənəydi ki, heç kim kiminsə papağını boş qaytarmırdı. Elə yer varıydı qurşaq sallayırdılar, elə yer varıydı papağ atırdılar. Hələ heybə də deyirdilər. Bayram 24-25-nə qədər davam eliyirdi. Bayramda adət-ənənənin ən yaxşısı nəyiydi? Qohum qohumun evinə gedirdi, pay aparırdı, əsas da kirvəlik. Kirvəlik ən müqəddəs, ən ağır qohumluxdu. Mütləq kirvə kirvənin evinə gedirdilər (S.42).

**4.**

İlin axır çərşənbəsində təzə gəlini bəziyirdilər, gətirirdilər suyun başına. Orda da cavan-coluğ gəlinin əlinin üsdünə bir istəkan su atırdı ki, aydınnığa çıxasan. O gəlin də onlara pay verirdi. Axır çərşənbənin səhəri qaynənə gəlini bəziyirdi, sənəyi də verirdi çiyninə, yanına salıf gətirirdi bulağın başına. Cavanlar da bilirdi ki, bu il kənddə beş dənə təzə gəlin var, beşi də gələjəh. Gəlirdilər ora, orda da quruşqa ilə gəlinin üsdünə su atırdlar, o da kanfetdən nə gətiribsə, bir-bir hamıya paylıyırdı.

Martın iyirmisi Əlinin taxta çıxdığı gündü, qırmızı geyinif taxta çıxıf. Onda camaat mərkəzi yerə yığılırdılar, "Kosa-kosa", "Löpükdaş", "Topaldı qaç", "Ənzəli" oynuyurdular. Elə olurdu qırx-əlli yaşdı adamlar da qarışırdı onlara. Əriştə aşı dəmliyirdilər. Ora yığılanda deyirdilər ki, birinci filankəsin evinnən başdıyajeyih. Gedirdilər, ağsakqallar otururdular, bir qaşıx, iki qaşıx sənin bişirdiyin yeməkdən yeyirdilər, keçirdilər mənim evimə. Belə sıraynan iyirmi biri günü həmin evlərdə, bir qaşıx da olsa, əriştə aşı yeyilirdi. Və yaxud da qəysəfə verirdilər, ya da əriştə aşı. Yalnız ağsakqallar iştirak eliyirdi, bir-birinin çörəyini kəsirdilər. Səhəri gün bayramlaşma olurdu. Ən çox qonşu kənddə qohumun var idisə, ora bayramlaşmaya gedirdin. Kəndə isə ya qudanın evinə, ya da kirvənin evinə bayramlaşmaya gedirdin. Bütün evlərə getməzdin. Mənim yadıma gəlir, küşdəri dəmirli çamadanlar olurdu, onun içinə kanfet, qoz, fındıq tökürdülər, qırmızı lent bağlıyırdılar, aparırdılar. Qırmızı alma aparırdılar.

Ağsakqal arvad gedirdi krantdan su götürürdü, girirdi evdəki külfətin üstünə əlinən, ovcunan atardı, küşdərə atırdı, ondan sonra keçirdi malın üsdünə, toyuğun üsdünə atırdı. Axır çərşənbədə öy damına yığılırdıx. Pul yığırdıx, yaxud sən evdən toyux gətirirdin, hərə bir şey gətirirdi, o evdə bişirirdik. Yelləncəyi də bajanın üsdünə ağac qoyurdux, ağacdan kəndiri asırdıx, orda yellənirdik. Bir evdə oğlannar yığılırdı, bir evdə də qızlar, saat on ikidən sonra gedirdik qızları sulamağa. Gedirdik bacadan baxırdıx, qızlar qapı pusmaya gedəndə onları suluyurdux. Yelləncəkdə oxuyurdular:

Çiləm getsin qan, gəlsin,
Soyux getsin, isdi gəlsin.

Mis kasalar olurdu, ora suyu tökürdülər, kasanın başına da balaca uşaxları qoyurdular. Güzgü də qoyurdular. Deyirdi, ayə, bax orda adam görükdü. Mis qabda su qoyurdular, bir də güzgü qoyurdular. Güzgüyə baxırdın, güzgüdə nəsə görükürdü. Hansı qız hansı oğlana gedəjəhsə, üzük gətirirdi, işdənməmiş üzük idi, sapnan bağlıyırdı, salırdılar kasanın içinə. Neçə dəfə kasanın divarına dəysə, o yaşda ərə gedəjəh (S.27).

**5.**

Əvvəl yalançı çərşənbə gəlirdi, ondan sonra dörd çərşənbə gəlirdi. Boş təki, kül-zibil təki, ölü təki, ilaxır çərşənbə. Burda[9] ayrı-ayrı günlərdə qəbr üsdünə gedilir, amma Nərimanlı kəndində ölü təki olan gün qəbr üsdünə gedilirdi. Həmin il kimin evindən ölü çıxıfsa, o evləri ziyarət eliyirdilər, qəbr üsdünə çıxırdılar. İli çıxmamış ölü sahibi varsa, o qara bayram keçirirdi. Kənd əhli gedirdi qəbirsannığa, ziyarət eliyirdi, orda Quran oxunurdu. Ən çox da qənd paylanırdı, orda şirinlik paylanırdı. Qəbirsannıxdan qayıdannan sonra gedirdilər ili çıxmamış ölü sahibinin evinə, orda ehsan verilirdi, Allah rəhmət eləsin deyif qayıdırdıx.

Burda su çərşənbəsində eliyillər sulaşmanı, bizdə ilaxır çərşənbədə sulaşırdılar. Bizdə hər çərşənbədə lopa düzəldirdilər. Köhnə əskiləri məftilnən sarıyırdıx, ujuna da məftil bağlıyıf salırdıx neftin içinə. Axşam olanda tonqallar yanırdı, həmin lopanı da gətirif ojaxda yandırıf əlimizdə fırrıyırdıx, göyə atırdıx. O lopa yanıf qutarmamış qayıtmırdıx. Qayıdannan sonra cavannar bir evə yığışırdı, qızlar başqa evə. Qızlar çilə çıxardırdılar. Oğlanlar *qapıpusduya* çıxırdı.

[9] Göygöl rayonunu nəzərdə tutur.

Bir də *papaq atdı* olurdu. Çox vaxt papax atmırdılar, torba atırdılar. Hamının evində torba tikirdilər, ona qatma kimi ip də tikirdilər, çəkəndə ağzı bağlanırdı. Onda da yumurta dolu idi. Heş qoymasalar da İrəvan kətəsi, boyanmış yumurta mütləq olmalı idi.

Qışda malın qabağınnan qalan samanı, otu yığırdıx, bir də gərənəni, ardıcı qırıb gətirirdik, ocağın üsdünə tökürdük. Onlar yağlı olduğunnan yananda şartaşart səs verirdi. Onu da uşaxlar eliyirdi. Axır çərşənbədə səhər tezdən qalxırdılar qız-gəlin, biz də onlara qoşulurdux, gedif çaydan su götürürdük. Sulaşma onda başdıyırdı. Səhər tezdən gətirirdik o sudan evin içini, həyəti suluyurdux. Müəllimin hörməti aktivlərdən[10] çox idi. Amma yeganə bayram idi ki, sulaşma günü o pərdə aradan götürülürdü, müəllimləri də suluyurdux. Məktəbdə oxuyanda sinif yoldaşlarımız gəlif böyükləri ziyarət eliyirdilər, əllərinə su tökürdülər. Sulaşmadan heş kəs incimirdi. Həmin günün səhərisi də hansı evdə təzə gəlin varsa, onu çıxarıllar bulax başına. Ona *ayağaşdı* deyirdilər. Orda gəlinin adamları kanfet paylıyırdı, gəlini bir az da sulayırdılar. Ondan sora gəlin qonşuya da gedə bilir, qohuma, toya da. Ev damlarında yelləncək qururdular.

Bayram axşamı əriştə aşı bişirilirdi. Əriştəni də payız qabağı xəmirdən kəsirdilər, kəndirlərə düzüb qurudurdular, sonra onu sajda qovururdular. Hər evdə bir meşox unun əriştəsi bişirilirdi. Qonşular yığılıb kömək eliyirdi. Kəndirin altına palaz sərirdilər, kəndirdən düşən əriştələr palazın üsdünə düşürdü. Sonra duzdu su qayırırdılar, qovuranda qızarana yaxın duzdu sudan tökürdülər ki, tama gəlsin.

---

[10] Kolxozun rəhbər şəxslərini nəzərdə tutur.

Sonuncu çərşənbəyə yeddi löyün gejəsi deyirdilər. Stolun üsdündə yeddi növ təam olmalı idi, şirniyyatınan tutmuş yeməyinə qədər. Aş, yumurta, ərdək, fəsəli, qatdama, bişirirdilər, ləmpəni yandırıb stolun üsdünə qoyurdular.

Novruz bayramında nə qədər yaxın qohum-əqraba var hamısı anılır. Ata-ana, nənə-baba vardısa həmin gecə onlara gedirdik, sabahısı gün də digərlərinə gedirdik. Boşqabda, ya sinidə bayram nemətlərindən aparırdıx, onu ziyarət eliyirdik, bir stəkan da çayını içirdik, bayramınız mübarək deyif gəlirdik (S.26).

**6.**

Axır çərşənbədə ərik qurusu, əriştə aşı bişirirdilər. Ananın ilki olan qız uşağını oturdurdular, başına kəlağayı atırdılar. Qarşısına badya, güzgü qoyurdular, badyaya da suyu tökürdülər. Tutax ki, mən dalında dururdum. O nə bilirdi mən durmuşam? Güzgüdə nə görükürdü onu deyirdi. Bizim bir qonşumuz var idi, rəhmətdik Səmayə, o getdi dalında durdu. Dedi, səndə qəbir çıxdı. Balalarımın canı üçün, gələn ilin axır təki o qadın öldü. Bizim qonşunun doqquz il uşağı olmurdu. Evdə boş idim. Dedim, buna niyyət tutum, gedim qapı pusmaya, görüm nə eşidirəm. Getdim, qonşunun qapısına çatanda gördüm deyir, aaz, o gedeyi maa ver, qucağıma alım. Balamın başı üçün, üç uşağı dal-badal oldu.

İlin axır çərşənbəsi saat dördə qalxırdılar, gedirdilər çay üsdünə, çay qırağında bitən söyüdlərin budağını qırıf gətirif heyvanın qabağına tökürdülər. Su gətirirdilər, həmin suynan yemək bişirirdik, mal damına tökürdük, ona qızıl su deyirdilər. Yeddi dənə də daş götürürdük çaydan, anam rəh-

mətdik onu büküf saxlıyırdı. Taxılın yanına, unun yanına qoyurdu, evin dini-bərəkəti olurdu. Bir söyüd də var idi, ziyarət kimi idi. Axır çərşənbədə niyyət tutuf gedirdin söyüdün üsdünə. Söyüdün altından arx axırdı. Niyyətin əgər qəbul olursa, söyüd başını əyirdi, suda çimif qalxırdı. Niyyətin qəbul olmuyanda söyüd eləcə dik dururdu (S.24).

**7.**

Axır çərşənbədə tezdən gedirdik qəbir üsdünə. Əvvəllər bizdə beləydi, aş-zad bişirərdik, aparardığ qəbir üsdünə. Süfrəni anam açırdı, rayon camaatı, qonum-qonşu gəlirdi də hərə öz qəbrini ziyarətə. Qazanı aparırdığ ora. Boşqaba çəkirdik, hərə bir tikə yeyirdi, eysandı də, onnan sora çıxıb gəlirdik. Biz axır çərşənbədə günüz gedirdik ziyarət eliyirdik, axşama da gəlib bayramımızı eliyirdik. Qəbr üsdünnən qayıdannan sonra ölünün ili çıxmıyıbsa, ev sahibi stol açır, eləsi var xörək də verir, eləsi var kətə-mətə qoyur, yeyirsən, başsağlığı verib gedirsən.

Çərşənbə günü süfrənin üsdünə S hərfinən başlayan yeddi əşya qoyurdux. Bir müddət mən özüm də eliyirdim, indi həvəsim yoxdu. Səməni, su, saat, sep, sancağ, amma soğan yox. Nişannı qızdara, qohuma xonça göndərirdilər. Bir boşqab qozdan, fındıqdan yığırdılar, verirdilər uşaqlara, apar bunu əmingilə, xalangilə. Bayram günü o pay gəlməli idi. Özü də mənim anamın qardaşı arvadı hər il onun adını anardı. Boşqaba pay qoyurdu, üsdünə parça, gətirirdi bibisinə. O da boşqabı doldurub geri qaytarardı (S.35).

# 8-14. TOY ADƏTLƏRİ

Ən çox cümə axşamı, cuma günü – sınanmış günlər toy eliyərdilər. Bizim kənddə belə bir adət oluf. O vaxt mağar qurulmazmış. Fermanı boşaldarlarmış, camaat yığılarmış ora, zurnaçılar da gələrmiş, səhərə qədər oynayarlarmış. Cavanlar da bir tərəfə yığılarmış, hansı cavan papağını çıxardıf qızın üsdünə atsaymış, deməli, artıq cavan o qızı seşdi. Məsələn, Əli papağını atıfsa, o qız Əlinindi. Mənim atam anamı helə bəyənifdi. Anam da onda on bir yaşında olufdu. Bir toyda anam çıxıf oynuyanda – heç tanımırlar bu kimin qızıdı, – nəsə, orda soraqlaşdılar. Sən demə, atamın qardaşının da, əmisi nəvəsinin də anama gözü düşür. Atam çıxardıf papağını atanda hamı çəkilir qırağa ki, bu qıza Əsəd əl qoydu. On bir yaşında anama nişan qoyuflar, on üç yaşında toy eliyiflər. Sabah da evin böyükləri elçi gedərmiş. Mənim anam da balaca oluf. Deyir, baxdım iki kişi gəldi bizə, biri elə göyçəkdi ki, – babam çox göyçək olufdu, – ləmpənin şüşəsini silirəm ki, ləmpəni yandırım. Ağzımı ayırıb kişinin sakqalına baxıram. Onda, deyir, anam gəldi daldan məndən bir çimdik götürdü ki, kəs, sana elçi gəliflər. Atamın əmisi oğlu dedi ki, bu balacadı, ayə, bir damcıdı. Onda nişan qoyuflar, on üç yaşında toy oluf. Atam nişanlanannan sonra Finlandiya cəbhəsinə gedif, müharibədən qayıdannan sonra toy eliyiflər.

Elçiliyə axşam gedilirdi ki, hamı evə yığılsın. Üç-dörd nəfər yığılırdı, gedirdilər elçiliyə. Razılıq olandan sonra artıq üzük gedirdi. Hər dəyqə böyük nişan olmurdu. Qohum-qardaş yığılır, üzük taxırdılar. Ondan sonra razılığa gəlirdilər toy nə vaxt olacax. Ondan sonra *toy danışığına* gedirdilər.

Oğlan evindən xonçalar gəlirdi, qız evi *parçakəsdi* eliyirdi. Kəndin arvadlarını çağırırdılar, gəlirdilər otururdular yerdən. Xalı-xalça sərilirdi, onda stolda oturmax yox idi. Yerdən süfrə açılırdı, o vaxdın əziz yeməyi əriştə aşı idi, bir də qaysafa idi, onu yeyirdilər, cavannardan bir nəfər düşürdü ortalığa, oğlan evinin gətdiyi şirniyyat ki var, – onda kətə-mətə yox idi, kanfet gətirirdi, – bir nəfər nəlbəkini alardı əlinə, orda kanfetdən üç-dörd dənəsini qoyurdu nəlbəkiyə, gətirirdi hərəyə bir-bir paylıyırdı, onlar da nəlbəkiyə nəmərlərini salırdı. Bu da olurdu bunların parçakəsdisi. Oğlan evi parçakəsdinin xərcinə kömək edirdi. Qız evinə süd haqqı verirdi. 1000, 2000 manat süd haqqı verirdi. Oğlan evi nişannı qıza qurban gətirir. Onu kəsillər, yarı hissəsini oğlan evinə göndərillər, yarı hissəsi də qız evinə qalır. Qız evi də o qurban ətindən kasıb aylələrə pay paylıyır. Lap əvvəllər ərzaq gətirirdilər, amma sonra pul verdilər.

Toydan əvvəl bacılığın evində xına qoyulur. Bacılıx kəndin cavan qızlarını, gəlinnərini çağırırdı evə, orda qəşəh stol açırdı, saat neçəyə kimi çalırdılar, oynuyurdular. Sabah da oğlan evi ki gəlirdi, birinci gedərdi qız evinin qapısında çalıb oynuyurdular, sonra oğlan evi yığılırdı, gedirdi bacılığın evinə, bacılığın evindən qızı gətirməyə. Qızı gətirirdilər. Bacılıx da ya şax bəziyirdi, ya xonça bəziyirdi. Həmin şaxı toyda oynadırdı, bəyə peşkəş çəkirdi. Bəy də onun nəmərini verirdi. Bacılığı qız özü seçirdi, subay qız olmalı idi, əmisi qızı, dayısı qızı olurdu. Xınayaxdının xərcini bacılıx çəkirdi, gəlinə ağır hədiyə alırdı. Sabah da o qız köçəndə bu qızın anası həmən xərci qaytarırdı. Bəyin qardaşdığı mütləq şax bəziyirdi. Kəndin cavanlarını yığırdı evinə, çalırdılar, oynuyurdular. Gəlini aparannan sonra gəlini evə

qoyurdular, muzukantları götürüb gedirdilər qardaşdığın evində çalırdılar, oynuyurdular, çöldə stol açılırdı, yeyirdilər, içirdilər, şaxı götürüb gəlirdilər. Qardaşdığın da xərcini oğlan evi çəkirdi. Hər kəs şaxın üsdündən konfet götürməyə çalışırdı, şaxı qoruyurdular, ona heş kim əl vurmamalıdı, onu bəynən gəlin pozmalıdı. İlkini onlar götürürdülər, sonra onu pozurdular, paylıyırdılar cavanlara, qohumlara. Şax da hardasa 10-15 kilo olurdu. Yengənin özünün ayrıca çamadanı olufdu. Bir on beş, iyirmi cüt corab-dəsmal qoyurdu onun içinə, bütöv toyuxlar bişirif qoyurdu, bir konyak, bir kilo da şakalad qoyurdu. Toy məclisi qutarannan sonra yengə içəridə cavanlara stol açırdı. Bəyin başında ki kimlər vardı, həmin cavanlar yığılırdı stolun başına, yengənin çamadanı açılırdı, o toyuxlar doğranırdı, konyak süfrənin üsdünə qoyulurdu. Cavanlar konyakdan içif toyuxdan yeyirdi, yengə də gətirdiyi dəsmal-corabdan hər cavanın qarşısına birini qoyurdu. Cavannar da çıxarırdı yengənin nəmərini verirdi. Şaxın üsdü meyvə-şakalatla bəzənirdi, yuxarısına da bəynən gəlinə hədiyə – duxu, odekalon qoyurdular. Şaxı da bəzəmə qaydası var idi. Sapla bəziyirdilər, eləsi var, yaxşı bəziyirdi. Deyirdilər, filankəs bir şax bəzəmişdi, adamın heyfi gəlir onu pozsun. Bizim toyda iki şax gəlmişdi, birini bacılıx gətmişdi, birini qardaşdıx. Bacılıx bəziyən okqədər gözəl bəzənmişdi ki, qaynanam qoymadı onu pozmağa ki, qoyun ordaca dursun. Şkafın başına qoydu, orda qurtdadı, apardı zibilliyə atdı.

Xinayaxdı çox maraqlı keçirdi. Oğlan evi bir kisə xına gətirirdi. O xına da verilirdi bacılığa. Bacılığ onu evində isdadırdı, ora gedənlərin hamısının əlinə yaxılırdı. Bizdə qardaşdıxgilə xına göndərilmirdi, onlar özləri xına isdadırdı.

Qardaşdıx evində ayrıca xına isdadırdılar, bəyin əlinə orda xına qoyulurdu. Gəlinin ovcunun içinə bəyin, bəyin ovcunun içinə gəlinin adı yazılırdı. Gəlinin ayaxlarına yarıya qədər xına qoyulurdu.

Oğlan tərəfin adamları gələndə yengə qapını kəsirdi, nəmərini alırdı, çıxanda isə qardaş kəsirdi. Qardaşın nəməri ağır idi. Yengəni beş-üç manatla qutarmaq olurdu, amma qardaşın nəməri ağır idi. Mənim toyumda qardaşımın qoluna bir qızıl saat bağladılar. Qardaş da gəlinin əlinə pul bağlayırdı. Eləsi vardı yüzdük bağlayırdı, eləsi qızıl qoyurdu əlinə. Burda gəlinin belini qayın bağlıyır, amma bizdə qardaş bağlıyırdı, əlinə də bir yüzdük qoyurdu.

Qız evindən qab-qacax oğurruyullar. İndi adət düşüfdü hazır qoyullar. Deyillər, qoymuşux, apar. Amma o vaxdı harda bahalı qavlar var idi, baş qarışan kimi servantdan götürüf aradan çıxırdılar. Bir də xoruz, toyuğ oğurlamax var idi. Hinnən cavannar bir də baxırdın əlində toyux, xoruz getdi.

Bizdə bir adət də var idi, gəlinin geyindiyi birinci ayakqabını qırmızı kəlağayıya bükürdülər, içinə də kanfet qoyurdular, onu bir atdıya verirdilər. Atı da bəziyirdilər. Gəlin getməmişdən qabax o ayakqabı gedirdi oğlan evinə. Çapar aparırdı o ayakqabını oğlanın anasına təhvil verirdi, nəmərini alıb qayıdırdı, toyun qabağında atı oynadırdı. Gəlinin evdə geydiyi təzə ayakqabısını göndərirdilər ki, birinci gəlinin ayakqabısı getməlidi, ruzu-bərəkət aparır. Gəlin də evə gedəndə ayağının altına boşqab qoyullar, qırır, bir də duz-çörəklə qarşılanır. Bizdə lavaş bişirilir, o lavaş gəlinnən bəyin ortadan çiyninə qoyulurdu ki, ruzu-bərəkətlə içəri daxil olsunlar. İçəri girəndə oğlanın anası lavaşı onların çiynindən götürüf aparıf stolun üsdünə

qoyurdu, kəsirdi, hərəsinə bir tikə verirdi, yeyirdilər ki, ruzu-bərəkətlə gəlsin gəlin evə. Gəlini gətirməyə oğlan evindən ata gedirdi, baldız, qayın, anası getmirdi. Məzrə kəndindən nə qədər gəlin köçüfsə, onun hamısını mənim babam köçürüf. Maşını gətirirdilər, babamı maşına qoyurdular ki, seyid, gəl mənim gəlinimi sən apar. Seyid onu aparmalı idi, evə təhvil verməli idi, onnan sonra babamı gətirirdilər evə.

Gəlin karvanının önündə süfrə açmaq, onu ermənilər eliyirdi. Məsələn, gəlin karvanı gedirdi, sənin hörmətini saxlıyan darvazasın qabağında stol açırdı, mer-meyvə, yemək-içmək, işgi olurdu. Qabağını kəsirdilər, düşürdülər. Orda toy yiyəsi, hərəsi yüz qıram vururdu, qoyduxları yeməkdən də bir tikə yeyirdilər. Bizdə ermənilər eliyirdi onu. Hər adam onu eləmir, onu isdiyən adam eliyirdi.

Gəlin gəlir, qapıya çatanda hələ içəri girməmiş gəlini dayandırıllar. Bir boşqab kanfet gətirillər. Bəy kənardan kanfeti atırdı onun başına, uşaxlar onu yığışdırırdı, sonra gəlin içəri keçirdi.

Əvvəllər dəvətnamə yox idi, siyahı verirdilər, bir dənə atdı olurdu, qapı-qapı hamını çağırırdı. İlkinə parçabiçdi olurdu, sonra toy olurdu. Toyu ya klubda eliyirdilər, ya da ki qoyun komunun birini boşaldırdılar. Altdan saman tökür-dülər, üsdünü palaznan örtürdülər, orda otururdular. Kişilərə stol qoyulurdu, arvadlar yerdə otururdu.

Gəlin bircə dəfə oynuyardı o da yekunda, onun da başından pul tökülürdü. Onu da ya qaynanası çıxardırdı, ya qaynı çıxardırdı, oynadırdı, bütün qohum-qardaş başına pul tökürdü. Gəlin qayıdıf oturmazdı, onnan toya yekun vurulurdu.

Gəlingördüsü olurdu. On gündən sonra qız anası nətər lazımdı hazırlıq görürdü, oğlan evinə deyirdi bir belə adam gətirəjəm. Qavaxdan da bir heyvan göndərirdi ki, oğlan evinə çox güj düşməsin. Qohum-qardaşdar hamısı pul aparırdı. Gedirdilər ora, qız gəlirdi, hamı apardığı pulu qıza verirdi, qız da yığıf qaynənəsinə verirdi. Amma evin nə qədər külfəti vardı, ana onun hamısına hədiyə alırdı. Qaynatadan tutmuş baldıza, əmisinə, dayısına – hamısına hədiyə alırdı. Bir çamadan ayrıca qohumların hədiyəsi olurdu (S.30).

**9.**

Aşığa pul yığılsın deyə onu eliyirdih. Deyirdih, aşıx, filankəsin sağlığını şirinləşdir. On manat mən atırdım, o birsi atırdı, bu birsi atırdı, sənin istəkanın şirinnəşirdi. Hava çalırdı, isdiyirdin çıxıb oynuyurdun. Yığılan pullar da aşığa çatırdı. Sonra toyun ikinci hissəsi başdıyırdı, oynamax. Qız yengəsi, bir də oğlan yengəsi olurdu. Oğlan yengəsi oğlan tərəfdən oyunçu çıxarırdı, qız yengəsi də qız tərəfdən oyunçu çıxarırdı. Hamı oynamırdı, oynuyannarı çıxarırdılar. Filankəs yeddi havaya oynuya bilir, onu çıxardırdılar. Deyirdilər, bu qız yeddi muğam oynuyur. Həmin adam oynuyanda hava yeddi dəfə dəyişirdi. Köçəyev Teyufun yoldaşı Qoşabulaxdandı. O vaxdı dedilər Köçəyev bunu nətər bəyənifdi? Dedilər, Lətifə, həqiqətən də, yeddi muğam oynuyurdu. “Ruhani döndərməsi” ilə başdıyırdı, “Uzun dərə”, axırda da şıdırğı hava ilə qutarırdı.

Toylarda zorxana olurdu. İki nəfər üz-üzə çıxırdı, yaxınnaşanda bir-birinə çiyin atırdılar. “Koroğlu cəngisi” kimi hava çalınırdı, İmran əmiynən İsbəndiyar kişi, əsas onlar oynuyurdu. Meydanın ortasında tutaşırdılar, gülə-

şirdilər. Qol-qola tuturdular, o özünə tərəf çəkirdi, bu özünə tərəf çəkirdi. Birdən elə qızışırdı, İmran əmi İsfəndiyar kişini götürüf nətər tulladısa, camaat gülüşdü. O tərəfə bu tərəfə var-gəl edirdilər, keçəndə bir-birini çiyninnən vurub itəliyirdilər. Hər ikisi də ehtiyatdı olurdu ki, çiyin atanda səngiməsin. Ən axırda hava qutarana yaxın qucaxlaşıb ayrılırdılar.

Göyçədə toy bir gün çəkirdi. Əvvəlcə yığılırdılar yuxa bişirirdilər, heyvan kəsirdilər. Yuxa bişirənnərə pul yığmax lazımdı. Bilirdi ki, yüz dənə lavaş görəjəx, birinci gün o lavaş bişirdi. Sajın üsdündə bişirirdilər lavaşı. Yuxa bişirən bilirdi ki, sən pul salajaxsan. Yuxanın arasında iki tikə kabab boşqabda gətirif sənin qavağına qoyurdu. Qazanda bişənnən hamıya verilirdi, amma yuxabişirənə çatan puldan ötəri sənin qabağına qoyurdu, Asim müəllimin qabağına qoyurdu, o da beşdən-ondan atırdı. Yuxa bişirənə o çatırdı. Çayçı iki rəng çay verirdi. Ağ suyu şirinçay eliyirdi, üsdündən də dəmi tökürdü, olurdu iki rəng. Gətirirdi, nəmər alırdı. Hamıya vermirdi, bilirdi kim pul verə bilər, ona verirdi.

Toyları qalxozun ictimayi toolasında eliyirdik. Bir gün qabax gedif təmizdik eliyirdik. Bir tərəfinə saman tökürdük, arvatdar otururdu, bir tərəfdə altdan daş qoyuf üsdünə taxta qoyurdux, kişilər otururdu. İctimayi toola olmayanda Göyçədə hamının mal damı yekə olurdu, altı metr eni, on dörd-on beş metr uzunu olurdu. Orda toy eliyirdilər. Sonralar mod düşmüşdü, hərə öz həyətində naves düzəltmişdi, orda keçirirdilər.

Gəlinin bacılığı xonça gətirirdi, amma şaxı bəyin qardaşdığı hazırlayırdı. Qızı gedif əvvəlcədən bacılığı evindən

gətirirdilər. Gəlin bir gün qabaxdan günorta gedirdi bacılığı-gilə, gecəni orda qalırdı. Səhər toynan gətirirdilər dədəsi evinə, gəlini bəziyirdilər, belini qardaşdığı bağlıyırdı, yengə lampa böyründə çıxırdı çölə, gətirirdilər bəy evinə.

Bəy də qardaşdığı gildə olurdu. Bacılığ evi ayrıca surfa açırdı, qardaşdıx da[11]. Mən indiki ağlımnan düşünürəm ki, bu borcdu. Mən qardaşdıx durmuşamsa, subay vaxdı durmuşam. Xərcini qaytarmaxdan ötəri səndən balaca evlənməmiş qardaşın və yaxud kimin varsa, sən xərcini çəkirsən, sənin yerinə qardaşdıx kimi o çıxırdı. Qardaşdıx subay adam dururdu. Amma sonra dedilər evli olsun, nə fərqi var, bu xərci bu çəkməlidir da. Qardaşdıx stol bəziyirdi, arax qoyurdu, yemək qoyurdu. Zurna-balaban ordan bəyi götürürdü, gətirirdi çıxarırdı damın belinə. Bəyin böyür-başında ağacla duran qoçaxlar olurdu, bəyi qoruyurdular, qoymurdular bəy oğurlansın. Bəyi suya da basırdılar. Toyun axırında gəlini oynadırdılar, onnan da toy qutarırdı. Axırda toyu dağıtmaq lazımdı, onda ev sahibi deyirdi ki, masabəyi oynasın, urza bol olsun. Onda çıxıb mən oynuyurdum, mənim dalımca da bəynən xanım oynuyurdu. Çox vaxt gəlin oynuyurdu, onnan da toy dağılırdı.

Göyçədə mod idi. Bəyə qardaşdıx dururdu, qardaşdıx şax bəziyirdi. Bir güzgü qoyurdular, başına alma, ya da nar qoyurdular. Şaxın hər cərgəsinə bir kilo şakalad gedirdi. Başına şampan qoyurdular, dörd dənə meyvə. On bir, on iki kilo şakalad gedirdi. Şakaladlar sapa keçirilirdi. Bəyin qardaşağası hazılayırdı. Götürəndə öy yiyəsi yerinə pul qoyurdu.

---

[11] Nərimanlı kəndində qardaşlığın açdığı süfrəyə "qardaşlıq çörəyi" deyilir.

Axşam olanda bəynən gəlin sifdəsin onlar yeyirdi, onnan sonra qohum-qonşuya paylanırdı. O vaxdı şaxı mən aparırdım, on manatdan aşağı da almırdım. Qardaşdıx öyündə şax bəziyib, gedəyin onu gətirəyin. Onu da çalğıynan aparırdılar. Dəsdəynən gedirdilər, o evdən şaxı götürürdülər, üsdəlik də süfə açırdılar. Toy gedə-gedə axşam vaxdı gedib gətirirdilər.

Göyçədə payızda toy olurdu. Toylada toy eliyirdilər. Bizim Qaraqoyunnu kəndində mod idi, sonralar yığışdırdılar. Gəlin gələndə bəy çıxırdı qardaşdığnan damın başına, kanfetdən, almadan atırdı gəlinin başına. Biri gəlinə nətər vurdusa, gəlin özünnən gedən təər oldu. Onnan sonra alma vurmağı təgitdilər, kanfet, pul atırdılar.

Bizdə çox vaxtı gəlini günüz gətirirdilər. Toy güləşi də olurdu. Şəxsən mən özüm İnəkdağına gəlin gətirməyə gedəndə gəlin karvanının qabağına çıxmışam. Dedim, mən bəynən güləşirəm. Bəyin qardaşdığı çıxdı. Dedim, yox, mən bəynən güləşirəm. Bəy ya güləşməli idi, ya da nəmərini verməli idi.

Qavaxlar qız evində toy olmurdu, parçabiçdi deyirdilər, kəndin arvadlarını çağırırdılar. Arvatdar da ya iki metr parça gətirirdi, ya məhraba gətirirdi. Sonralar yavaş-yavaş pula çevrildi. Onda da südlü aş verirdilər. Surfa salıb yerdə otururdular, ərinmiş yağı da qoyurdular ortaya, kim isdiyirdi süddü aşın üsdünə ərinmiş yağ tökürdü, yeyirdi. Və yaxud ən çox qəysəvə bişirirdilər, çünki ən ucuz başa gələn qəysəvə olurdu. Qız evində toy olandan sonra parçabişdini yığışdırdılar.

Qaraimanlıda belə adət oluf. Gəlini gətirif evə qoyannan sonra bəy qardaşdıxnan çıxırdı damın üsdünə. Bütün cavan-

nar da yığılırdı. Bəy almanı topuna tulluyurdu, kim almanı tutdu, həmin almanı aparıf evdə bəziyirdi. Məsələn, kanfet qoyurdu, kanyak qoyurdu, gətirirdi bəyin sağdişinə. Almanı gətirən həm də sağdişdən pul alırdı, həm də bəyin sağdişi məjbur idi yemək-işmək hazırrasın. Toy orda gedə-gedə beş-on nəfər gedif sağdişgildə oturuf yeyif içirdilər (S.27).

**10.**

Bizdə xınayaxdı dəhşət gedirdi. Xınayaxdıdan sonra bir gün qız evində toy olurdu, bir gün də oğlan evində. Gəlini atnan aparırdılar. Gəlin qıpqırmızı geyinirdi, üzü də örtülü. Mağar qurulurdu, qadınlar ayrı otururdu, kişilər ayrı. Camaat yemək yeyəndən sonra yığılırdılar kluba, səhər saat beşə, altıya kimi orda toy çalınırdı.

Toydan bir gün qabax bacılıx evində qəşəh muzukay-nan ancaq qadınlar, oxuyannar da qadınlar olurdu. Yekə stollar düzürdülər. Səsi olan qadınlar, ən çox da nənələr oxuyurdu. Qarmonçalan oğlan var idi, o çalırdı, nənələr oxuyurdu, xeyir-dua verirdi. Bacılıxgildə heyvan kəsilirdi, qəşəh yeməklər bişirilirdi, şirniyyat hazırlanırdı, ora gələn də əliboş gəlmirdi, hamısı nəmərnən gəlirdi. Oğlan evi də iştirak edirdi. Bacılıx bizdə şax bəziyib, gəlinə böyük bir hədiyyə alırdı. Ya altı dənə stol, ya qabax stolu alıb verirdi. Bir də bəyin qardaşdığı gəlinə mütləq qızıl almalı idi. Qız yengəsi oynadırdı xınanı özü də bayatıynan, pul yığılırdı, həmin pullar bacılığa çatırdı. Birinci gəlinin əllərinə, ayağına xına qoyulurdu, sonra hər kəs barmağın batırırdı, nəmərin salırdı. Ayax barmaxların xınalıyırdılar, ovcunun içinə oğlanın, qızın baş hərfi yazılırdı. Ovcunun içinə qızıl onluq, ya dəmir manatlıq qoyuf bağlayırdılar.

O vaxdı nənəmgil deyirdi ki, qardaş bacının qolunnan tutuf oğlan tərəfə təhvil verəndə bir at nəməri verirdilər. Sonra pula döndərdilər. Oğlan evi pul verməmiş qardaş bacını vermirdi. Gəlinin belini qardaşı bağlıyır, gəlinin ovcunun içinə pul qoyurdular, bərk-bərk tapşırırdılar ki, heş kimə vermə, sənə çatır. Mənim beş qızımın beşinin də belini atası bağlıyıf, ləmpənin başına doluyuf göndərif. Gəlin oğlan evinə girəndə surfanın üsdünə yuxa salırdılar, gəlin yuxanı yığıb çörək dualığının üsdünə qoyurdu. Bir də qapıdan girəndə Quran kitabı, bir də bal verirdilər gəlinə və qaynanaya. Yəni şirin olun, dalaşmıyın. Gəlin qapıdan çıxanda ləmpə-güzgü tutulurdu. Güzgünü oğlan evi gətirirdi, ləmpəni qız evi alırdı. Oğlan evi qız evinin qapısından içəri girəndə qız yengəsi ləmpəni verirdi oğlan evinə, güzgünü alırdı. Oğlan yengəsiynən qız yengəsi güzgünən ləmpəni dəyişirdi. Güzgünü elə tuturdular ki, gəlin özünü güzgüdə görürdü, toy qutarana kimi də güzgü gəlinin stolunun üsdündə olurdu.

Atın böyrünə qırmızı badnos qoyurdular, altına da pul qoyurdular. Gəlini atın üsdündən badnosun içinə düşürürdülər.

Gəlin evinnən oğurruğ edirdilər, oğurlanan qab-qacaxların hamısını oğlan evinin qapısında qırırdılar, evə aparmırdılar. Yaxşı dəyərli qab-qacaq varsa, qız evi onları yığışdırırdı, təzə boşqab, stəkan alıb qoyurdu ki, bunları götürün. Qız evindən gəlin çıxanda yaxın adamlar öz qapılarında yekə bir stol bəziyirdi. Stolda yemək olurdu, arağı, əti, mer-meyvəsi olurdu. Kişilər həmin yeməkdən yeyirdi, qadınnar da qab-qacağın yığıb aparırdı ki, toy qapısında qırsınlar. Oğlanın atası, bir də qardaşdıx duranın atası o yolkəsənlərin nəmərini verirdi.

Ata evindən çıxanda bir ovuc düyü verirdilər gəlinin əlinə. O yadıma gəlir ki, kəndimizdə yaşı keçmiş, evlilik yaşı çatanlar vardı. Deyirdilər, bu qızların adını çəkə-çəkə bir-bir düyünü səpə-səpə get. Həqiqətən də, onun dalınnan həmin qızlar aylə qururdular. Bir də gəlin köçən qızın ayakqabısının içinə, altına onların adını yazırdılar. Evdən çıxanda onları aparsın getsin. Bir də bir ovuc düyü verirdilər. Mənə də vermişdilər. Məni uzağa verdikləri üçün mən nervimdən hamısın birdəfəlik tulladım, heç kimin də adını çəkmədim.

Gərdəyi yengə gətirif qururdu. Gəlin onun arxasında otururdu. Gərdəyi qız evi alırdı, amma yengə hazırrıyırdı. Qırmızı ipək parçadan olurdu, üsdünə naxışlar vururdular, kənarına saçaxar tikirdilər. Yengə aparıb qurub oğlan evindən nəmər alırdı.

Toydan bir həftə sonra *qızgördü* olurdu. Gəlinin valideynləri toydan bir həftə sonra oğlan evinə gedirdi. Onda gəlini bəziyib gətirib camaatın içində oturdurdular, yenə qızın başına qırmızı yaylıq atırdılar. Bir dənə uşağa deyirdilər, get qızın yaylığını götür, qaç. Qız evinnən gedən oğlan götürüf qaçır, ta nəmərini verməyincə yaylığı vermirdi. Oğlanın bibisi, ya xalası nəmərini verib yaylığı alırdı.

Mənim böyük bacım ərə gedəndə nənəm toyun ortasında o halvanı niyə bişirirdi, hələ də mənə çatmır. O qədər yeməyin qarşısında halva bişirirdilər. Bir də cücəni kəsirdilər, bişirirdilər. Onu qız yengəsi aparırdı qardaşdıx evində stolun üsdünə qoyurdu, ona da nəmər alırdı. Bir də qız yengəsi qardaşdığın özünə, onun böyründə olanlara neçə dənə saruşka alırdı. Onu qardaşdıx evində qoyurdu, ürəyi isdiyən götürürdü, nəmərini qoyurdu.

Şaxı bəynən gəlinin otağına qoyurdular. Olar onu qırıb tökürdülər badnosa, səhər onu camaata paylıyırdılar. Şaxın üsdünə güzgü, şakalad, mer-meyvə, baş tərəfinə də qıza hədiyə – yaylıq qoyurdular. Şaxı bir qardaşdığın qapısında oynadırdılar, bir də yolboyu oynaya-oynaya gətirirdilər, oğlan evinin qapısında da oynadırdılar, nəmərin də alırdılar, verirdilər oğlan evinə.

Gəlinin ayağı altına qurban kəsilirdi, onun qanınnan birinci gəlinin və bəyin alnına, körpə uşaxların alnına vururdular. Burda saraydan gələnnən sonra gejə qurban kəsillər, amma orda günbatandan sonra kəsmirdilər. Gəlin qapıya çatan kimi qurbanı kəsirdilər.

Toydan bir həftə, iki həftə sonra oğlan evi qızı atanın, ananın ayağına aparırdılar. Gəlini götürüb gətirirdilər, atanın, ananın ayağına, heyvan gətirirdilər, kanfetli, şirniyyatlı, hədiyəli gəlirdi ata evinə. Aradan bir-iki ay keçəndən sonra qız evi oğlan evinə qızgördüyə gedirdi.

Bu gün mən toy eliyirəm, məndən qabax başqa biri gəlin gətirif. Ev yiyəsi muzukaynan gedib o gəlini toya dəvət eliyirdi, onu çala-çala toya gətirirdilər, gəlinə də hədiyə qoyurdular. Gəlin köçən qızı toydan bir həftə qabax o kənddə nə qədər adam var hamısı qonax çağırırdı. Bir gündə bəlkə üç nəfər onu qonax çağırırdı, gəlinə hədiyyə qoyurdular. Bacılıxnan ikisi gedirdi.

Gəlini bulağ üsdünə ilin axır çərşənbəsi səhər tezdənnən aparırdılar. Ev yiyəsi gəlini bulağa əliboş aparsa, yazıx o gəlinin gününə. Orda qış sərt keçirdi axı. Oğlanlar deyirdi, yox, arax gətirmiyifsən, ovuclarını su ilə doldurub gəlini sulayırdılar (S.16).

## 11.

Mənim özüm iki dəfə qardaşdıx olmuşam. Qardaşdıx bəyi gətirir evinə, başına cavan adamları yığır, stol bəzənir. Da toydakı qədər olmur, 30-40 adam, xörəklər qoyulur. Bəy də gejə qalır qardaşdığın evində, savax hava işıxlananda gedəjəhlər gəlini gətirməyə. Səhər bəyin dədəsi öyü toynan, nağaraynan gəlir, bəyi götürüb aparıllar dədəsi öyünə. Arada biznən münasibətdə olanlar bizi vurur, bəyi vuruf qaçırlar. Evə çatannan sonra məhlədə əylənilir, orda çalıf oynuyurlar, sonra dəstələşib gedirlər qız evinə. 70-ci ildən sonra bəy gəlini gətirməyə gedif, ona qədər gəlini gətirməyə bəyin atası gedirdi. Orda gəlinin qardaşı qapını kəsirdi, ona da nəmər verirdilər, gəlini götürüf gəlirdilər.

Yeyif içənnər dağılannan sonra axşam toyuna camaat yığılırdı. Qadınlar bir tərəfdə, kişilər bir tərəfdə. Qadınların içində bir ağsakqal olurdu, kişilərin içində bir ağsakqal olurdu, onlara toybaşı deyirdik. Kişilər oynamax isdiyəndə o ağsakqala deyirdi, mən filan havaya oynamağ isdiyirəm. O da havanı çaldırırdı, çıxırdı oynuyurdu. Qıraxda oturannar da şabaş verirdi, toyçu da onun adını çağırırdı: "Sağ olsun filankəs, şabaş verdi". "Ay şabaş, gəl yavaş-yavaş". Qadınlar oynayanda baş bilən qadına deyirdi, o havanı çaldırırdı. Şax bəziyirdilər, başına da bir kanyak qoyurdular. Gəlin üçün bəzənəndə başına karsinka, imkanlı adam olanda üzük qoyurdu. Şaxı bajılıx bəziyirdi gəlin üçün (S.37).

## 12.

Birinci günə sala toyu deyirdilər, oğlan evində olurdu, ikinci günü qız evində olurdu, üçüncü günü genə oğlan evində olurdu. Birinci gündən qohum-əqrəbə gəlirdi, üç gün

qalırdılar, toy qutarandan sonra gedirdilər. Bizdə *qırcın* deyirdilər. Toyda bişirilən yemək yeyilirdi, yeyilməyən qalırdı qazanın içində. Toyun səhəri dost-tanış yığışırdı, gedəyin qırcına. Gəlirdilər, təzdən başdıyırdılar yemək-içməyə. Lətifəsi bizdən uzaq, malın qabağına otu tökürsən, yeyir, otun tikanı, qalını qalır, ona qırcın deyillər. Malın qabağında qalan qırcını atırdılar, amma burda atmırlar, bilirdilər sabah cavanlar yığışacax. Toyun səhərisi olurdu qırcın. Günüzdən yığışırdılar axşama kimi davam eliyirdi.

Oğlan evi gedirdi qız evinə kəsimə. Qız evində otururdular, onların da ağsakqalı, oğlan evinin də ağsakqalı. Deyirdi, sabah toy eləmək isdiyirəm. Onda qız evi deyirdi, sən mənə bir mal verəcən, iki heyvan verəcən kabablıq, bu qədər yağ, un, düyü… Duzuna qədər verirdilər. Toya bir gün qalmış bunun hamısını yığırdılar bir maşına, göndərirdilər qız evinə. Çatmıyan şeyi qız evi özü qoyurdu. Sala toyu olurdu, səhərisi günorta gedirdilər qız evinə. Uzağ olanda yük maşınlarına minirdilər, yaxın olanda piyada gedirdilər. Oğlan tərəfinnən bir nəfər, iki nəfər gedirdi. Deyir, toyçuları gətirdik, sizə təhvil verdik. Onlar orda qalırdı, sabah günortaya kimi çalırdı, sabah günorta gedirdik gəlini gətirməyə. Gəlini gətirədə toyçular da onlarnan birlikdə qayıdıf gəlirdi. Bizlərdə yemək-içmək evlərdə oluf, amma çalıb-oynamax fermalarda olub. Gəlinin belini qardaşı bağlıyırdı, atası ləmpə başına fırlayırdı. Qapıbasdı var idi, pulunu verirdin, gəlini buraxırdılar.

Oğlan evində toy olan günü qaranlıx düşəndə lopalar yandırırdılar. Yığılırdı qız-gəlin, oynaya-oynaya gedirdilər şax gətirməyə. Bəyin qardaşdığı evinnən gedif şax gətirirdilər.

Bəyin qardşadığı toydan bir gün qabax bəyi qonax çağırırdı, bir də öz kruqunu. Ən aşağısı bir heyvan kəsilirdi, bir də qardaşdıx şax bəziyirdi. Bizdə xoruzu kəsirdilər, ayaxları üsdündə qalırdı, bircə içini çıxarırdılar, təmizdiyif qızardırdılar. Xoruzun başını da təmizdiyif bişirirdilər, başını təzdən üsdünə tikif şaxın başına taxırdılar.

Gəlini oğlan evinə gətirəndə onun ayağı altında qoç kəsirdilər. Həmin vaxt da qaynata ilə qaynana güləşirdi, kişini tutuf yıxırdılar, arvad da ayağını onun sinəsinə qoyurdu. Sonra qab düzürdülər, gəlin qabları sındırırdı. Qız evinnən xoruz oğurruyurdular, aparıf sağdişin evində bişirif yeyif-içirdilər (S.11).

**13.**

Biz xonca aparırdıx gəlin evinə. Gəlin evinə xonçanı aparırdıx, onnar bizə *bəy xonçası* göndərirdilər. Gəlinə aid nə varsa, hamısı xonçanın icində olurdu. Parı-paltarı, paltosu, plaşı – hər bir şeyini götürürdük, aparırdıx gəlinə. Beş-altı xonça aparırdıx. Xonçalara kəlağayı bağlanırdı, qırmızılar bağlanırdı. Gəlin evinə xonçalarımızı verdih, qayıdıb gələndə onnar beş dənə, altı dənə, neçəsinə güjdəri çatırsa, bəyə xonca göndərirdilər. Gəldih, altıncı günü yedik-işdik, oturdux bəytərifinə çalğıynan. Altıncı günü də çalğı olurdu. Malın başını da çalğıynan kəsirdik. Qəssəbə qəşəh nəmərrər yığılırdı. Bəy xonçasında da düz saat birə, ikiyə kimi *bəytərifi* olurdu. Bəy xonçasında gəlin evi bəyin sağdışına, solduşuna, bəyin özünə, atasına, anasına, bacısına, qardaşına nəmərrər göndərir. Bəyi təriflәyəndə gətirirdilər nəmərini salırdılar, bir xışma da kanfet götürüb gedirdilər.

Yeməli olur quzunun əti,
Çağırın gəlsin bizim Neməti.
Gəlsin bizə xələt versin,
Bakıdan gələn Nemətimiz.

Bəyin qoluna yaylıx bağlıyırdılar, kəlayağı bağlıyırdılar, boynuna atrezdih parça atırdılar. Xonçaları mağarda bəy stolunun üsdünə düzürdük. Stolda da oturub bəyin sağdışı, solduşu. İki-üç saat bəytərifi gedirdi, ta ki hamını dəvət elədik, saldılar nəmərrərini, yedilər-işdilər, oynadılar, gecə saat ikidə də dağılışdılar. Bir də bazar günü saat birdə, ikidə gəlini gətirirdik.

Xınayaxdıda gecə gedirdik əmimgildə qalırdıx. Gəlinin yoldaşları, dostları, sinif yoldaşları gedirdi, onlarda yeyirdi, icirdi. Hamı əllərinə, ayaxlarına xınanı qoyurdu, səhərə kimi otururdu orda, deyirdi, gülürdü, hağışda gedirdi. Hağışdada iki dəsdə olurdu: oğlan tərəfi, qız tərəfi. Oğlan tərəfi deyir, qız tərəfi də cavab verirdi.

Al almağa gəlmişik,
Şal almağa gəlmişik.
Oğlan adamıyıx,
Aparmağa gəlmişik.

Qız tərəfi də deyirdi:

Al almax yolun olsun,
Aparmax payın olsun.
Oğlanın adamısız,
Apar, mübarək olsun.

Haxışta mənim olsun,
İpəkdən donum olsun.
Geyim gedim Bakıya,
Bakıda toyun olsun.

Verdim bir dana,
Aldım bir sona.
Ay qız evi,
Qal yana-yana.

Gəlini hamama aparmaq olurdu, kənd hamamına. Sonradan hamının evində hamam oldu, hamama gedəsi olmadı. Hamamın xərcini oğlan adamı çəkirdi. Zəngibasarda düz küçənin başında, univermağın qabağında hamam var idi. Sonra ora köhnəldi, təzə hamam tikildi. Millət ora aparırdı. Öz də bəzən erməni qızları da gəlirdi müsəlmannan bərabər hamama gedirdi, xınayaxdı eliyirdilər.

Bəzən oğlan evi yaxın olanda gəlini piyada gətirirdilər, onda asvaltın üstündə dairə vururdular, “Hoy lələ” gedirdilər. Çeçələ barmaxlarıynan tuturdular, belə fırranırdılar. Bir də baxırdın kişilər də qoşulurdu qadınlara, qadınnarnan bərabər onlar da “Hoy lələ” gedirdi. Deyirdilər, aaz, “Hoy lələ”siz toy olmaz, “Hağışda”sız toy olmaz. Gəlin ki demirəm yaxın olurdu. Piyada gətirəndə yolda küçənin başında, iki dəfə, üş dəfə çalgıçılar dayanırdı, “Hoy lələ” gedilirdi. İndi yallı nətər gedilir, yallı rəqsi çalınır, arvatdar, kişilər helə “Hoy lələ” gedirdi. Yallı başı oxuyur hoy ləlləni.

Hoy lələ, əmim oğlu olasan,
Hoy lələ, mənə yaylığ alasan.

Hoy lələ, mənə yaylığ almasan,
Hoy lələ, qadam-bəlam alasan.

Mənnən bərabər hamı bunu deyirdi. Məsələn, mən yallı gedirəm, dəstə başçısı mənəm, əlimdə qırmızı kasinka, kələğayı. Mən gedirəm, mən dedikcə mənnən bərabər onnar da deyirdilər. Hağışdanı da çəpik çalıb deyirdilər.

Kücədən keçəndə, – məsəlçün, xəstə idi, ya da yaşdı idi, məəllimiydi, ya sayılan şəxslərdən biriydi – deyirdilər ki, gəlsin xeyir-duasını versin. O da çıxırdı, gəlinnən bəyə xeyir-dua verirdi (S.36).

**14.**

Əvvəllər bizdə belə idi. Mən qardaşıma nişan qoyurdum. Mən nişana bu qədər adam çağıracam, bir meşox qənd verəssən, bir meşox un verəssən, neçə paçka çay, iki dənə qoyun. Yemək üçün nə lazımdı onun siyahısı verilirdi. Toyda da həmçinin. Bu qədər ət, yağ, araq verəssən. Nişan belədi. Üç nəfər gedir elçiliyə, razılığın alır. Deyir, filan vaxdı nişan qoyacağıx. Ya evdə eliyillər, ya da palatkada. Üzük, yaylıx, don, nişan paltarı alıb aparırdılar. Onda da oğlan evi nişanın xərcini verirdi, ya pulnan ödüyürdü, ya ərzaqnan. Çox adam pulnan ödüyürdü. Toy vaxdı da eyni.

Biz xınanı həftənin altıncı günü edirdik, altı-bazar bizdə toy olur. Həftənin altıncı günü axşam *xına xonçası* göndəririk qız evinə. Xonçanın içinə xına, kanfet, quru meyvə – nə varsa qoyurduğ da. Bir xonça, iki xonça eliyib, oynuya-oynuya aparırdığ. Aparıb verirdik, bir az orda da çalıb-oynuyurduğ. Qayıdandan sora bizdə xörək verirdik, “Şilaşı” deyirdik. Ətdi-mətdi, balaca kiftələrnən. Böyük qazannarda bişirilirdi, onu verirdik. Onun dalınca aşdan-

zaddan verirdik. Xınayaxdıdan qayıdandan sonra şilə aşını yeyirik. Qonum-qonşu yığılırdı. Altıncı gün olduğu üçün adını şilaşı qoymuşdular, guya *şilaşı gejəsidi*. Çəkilmiş ət olurdu kiftədən balaca, qoz boyda. İçinə ət, düyü, göyərti qatılırdı. Əvvəl yağ-soğan eliyirdilər, sora tamatını vururdux, suyunu tökürdün, düyünü də istadıb tökürdün içərisinə. Şamı[12] deyirdilər, qoz boyda, düyü, göyərti qatırdığ. Şamı ayrıca da bişirillər, o xörəyin də içinə töküllər, onda daddı olur. Ət suyu olanda su da töküllər. Toy şiləsini evdə də bişirillər, amma həmən dadı vermir.

Altıncı günə *xına gecəsi* deyirdik. Toyçular gəlirdi, çalırdı, oynuyurdular. Heyvan kəsirdilər, baş-ayağını da xaş eliyirdilər. Axşam toyda iştirak eliyənnərin hamısına yox, müəyyən adamlara deyirdilər səhər gələrsən xaşa. Bazar günü səhər tezdən duruf gedirdin xaş yeməyə. Orda da çalırdılar, qohum-əqraba oynuyannara şabaş verirdi. Bir manat, üç manat, on manat şabaş verirdilər. On manat verəndə birin çıxıb doqquzunu qaytarırdılar, üç manat verəndə birin çıxıb ikisin qaytarırdılar. Həmin şabaş da toyçulara çatırdı. Toyda bozbaş, aş, dooğa, dolma verirdilər. Qız-gəlin oynuyurdu, axşam da gedif gəlini gətirirdilər. Oynuyanda ələ verilən pulu hamı aparıf qoyurdu toyçuların stolunun üsdünə, yalnız gəlinə verilən pul ona çatırdı. Bir vaxtlar gəlini qarannıxda gətirirdilər ki, gəlini görməsinnər. Sonra keşdilər gündüzə.

Gəlinin toyuna qardaşdarı gələ bilər, atasıynan anası toyda iştirak eliyə bilməz. Amma toyun səhərisi günü – birinci gün biz qadınnar üçün *görüm* eliyirdik. Həmin günü

---

[12] Çəkilmiş ətdən hazırlanan balaca küftələrə deyilir.

qadın məclisi idi. Gəlini gətirirdilər camaatın üsdünə, başında da yaylıx. Başından yaylığı açırlar, camaat xeyir-dua verir, nəmərin verir, ondan sonra gəlini aparırdılar. Ondan sonra camaata yemək verirdilər. Görümə adamları dəvət edirdik. Kişiyə dəvətnamə göndərəndə yazırdıx ki, yoldaşın da səhər görümə dəvət olunur.

Adam var, bilir ki, gəlin gəlir. Beş-altı dənə qız yığılırdı, gəlin maşının qabağın kəsirdilər, başdıyırdılar "Hoy lələ" getməyə. Kim isdiyir oxuya bilər. Mən başdadımsa, mən qutarandan sonra o birsi oxuyurdu. Biri oxuyur, hər misranı dedikcə onlar da deyirdi: "Hoy lələ, lələ can, lələ can".

Tut ağacı burum-burum,
Hoy lələ, lələ can, lələ can.
Gedim yanında durum,
Hoy lələ, lələ can, lələ can.

Deyillər qardaş gəlir,
Hoy lələ, lələ can, lələ can.
Gedim samavar qurum,
Hoy lələ, lələ can, lələ can.

Ağsakqal gedir həri almağa. Oğlan evinin qabağına iki rəng – stəkanının yarısı qırmızı, yarısı ağ çay qoyullar, onlar da qarışdırır içir. Beşdən-üçdən qoyurdu nəlbəkinin içinə, o pul da xidmət edənlərə çatırdı.

Necilidə belə adət var idi. Orda bəyin atasının kürəyinə vanna, qabaxdan da sinəsinə un kisəsi bağlamışdılar. Arxadan gələnnər vannanı danqılladırdılar. Elə ki çatırdılar qız evinə, unu götürürdülər sürtürdülər bu kişinin üzünə. Gəlin evdən çıxana qədər o kişini unnuyurdular. Deyirdilər, adətimizdi. Qız tərəfi helə onu unnayırdı. Bizdə yox idi, amma Necilidə helə adət var idi (S.35).

## 15-19. YAS ADƏTLƏRİ

Burda qəbirsannıxda piltə qoyullar, biz özümüz güneydən çıxardırdıx, on beş santı qalınlıxda, bir metr, metr yarım enində daşdar gətirirdik. Bizdə adət-ənənə başqaydı. İndi hamısı pula dönübdü, orda elə şey yoxuydu. Beş nəfər yığılırdı, flankəs rəhmətə gedib, gedib onun qəbrini qazırdıx, şamını vururdux. Burda şam yoxdu, şam deyəndə hamı belə baxır. Şam nədi? Burda qəbrin kənarı hörülür, üstünə də piltə qoyulur. Bizdə o hörgü olmurdu, torpağın özünnən çıxarırdıx, ona şam deyirdik. Sünnülərdə sappa vurulurdu çəpinə, onda daşı böyrü üstə qoyursan, amma şiələrdə düzünə qazırdılar, şam vururdular, şamın üsdünnən daşı qoyurdun. Burda srazı beton tököllər, bizdə havaxt qəbrin üsdünü götürdünsə, onda torpağını çıxardırdın, betonunu verib düzəldirdin. Bizdə qırxa qədər qəbrin üsdünü götürmürdülər ki, torpax tam otursun. Amma burda gərək qırxa qədər götürəsən, məjbursan. Kişilərin qəbrini qurşağa qədər qazırdılar, qadınlarınkı döşə qədər. Çünki qadın, deyir, tamahgir olur. Özü də gejə aparıb şam yandırırdıx qəbrin üsdündə. Əvvəllər ölən şəxsin əşyaların bağlıyırdılar bir ədyalın içinə, qəbrin bir tərəfinə qoyub basdırırdılar.

– Qəbri neçə nəfərnən qazırdız?

– Ən azı 5 nəfər olurdu. Baxır da yerinə, adamına. Bir qəbrə on-on beş nəfər gəlir, hərə bir lapatka vurur. Şam vurulannan sonra qəbrin baş tərəfində pambıxdan döşəkcə kimi qayırırdılar, onun da altına torpax tökülürdü. Bizdə ən çox qəbrin içinə pambıxdan ağ döşək kimi qayırırdılar, torpağın üsdünə salırdılar, ölünü onun üsdünə qoyurdular. Pambıxdan iki metrlik qırx santı uzununda, əlli santı enində

döşək düzəldirdik, baş tərəfinə də yastıxca kimi qoyurdular. Meyidi qəbrə sağ çiyni üsdə qoyurdular. Bizdə demirəm beton tökmürdük, daşı qoyannan sonra torpaq tökürdük.

– Şamı necə vurursuz?

– Qəbri kvadrat qazırsan, qazannan sora elə götürməlisən ki, həm sağdan, həm soldan qırx santı qalmalıdı. Kişilərdə səksən santı qazannan sora şam vururdux. Şamın da dərinniyi ən aşağısı altmış santı olmalıdı. Şamı vururdun, bircə ortanı qazırdın düzəldirdin. Qadınlarda isə dərin olur. Üsdünü sal daşlarnan örtərdik. Güneydən o daşı gətirirdik, onu da elə qoyurdux ki, qırx santı bu tərəfdə, qırx santı da o tərəfdə qalırdı ki, basmasın aşağı. Burda hörgü hörülür, amma orda sinə daşı qoyulurdu.

İlk torpağı qazanda çıxardıf qırağa qoyurdular ki, onu gözünə tökər evladı. Oğlu, qardaşı həmin torpağı onun gözünə tökür. Kəfəni açmırlar, kəfənin baş tərəfin aralıyır, ordan tökür. Qəbri qazmaq üçün istifadə olunan əşyalar qəbirsannıxda qalırdı.

Bir kişi yeddi qəbir qazmalıdı, yeddi meyit yumalıdı. Kənddə qəbr qazmağa görə haqq almırdılar. Bax, qəbir də qazmışam, meyit də yumuşam, daşına da getmişəm, bizdə pul söhbəti deyilən şey yoxuydu. Molla gəlirdi Quranı oxuyurdu, qayıdan vaxt iki kilo qənd, iki çay qoyurdular, bir də heyvanın döş hissəsinnən 3-4 kq ət qoyurdular pay, aparıb gedirdi. Halva vardısa, iki büküm[13] halva qoyurdular. Beş nəfər aylə üzvü var idisə, bir büküm qoyurdular. Bir büküm beş nəfəri polnu görürdü. Beşdən yuxarıdısa, iki büküm qoyurdular. Ölü yiyəsi də qəbir qazanı, daş gətirəni, yüyəni

[13] büküm – lavaşın arasına bükülmüş halva

yeddisi günü axşam ehsandan sonra çağırırdı, halallıq alırdı. Pul söhbəti deyilən şey yoxuydu. Hər şey qonşuluq xatirinə görülürdü. Burda Əbülfət varıydı, Gəncədə rəhmətə getdi. Bu qoyunda birqadir işdiyirdi. Deyillər, Əbülfət, sabah dədən öləjəkdi, heş qəbrini qazan olmuyajaxdı. Gedif camaata niyə kömək etmirsən? Deyir, qəbir qazmax çoban-çolux işidi. Elə oldu ki, bunun dədəsi rəhmətə getdi. Meyit bir gün qaldı içərdə, qəbri qazan olmadı. Kimə dedilər, dedi, Əbülfət deyir qəbir qazmax çoban-çolux işidi. Bizi adam yerinə qoymur, biz niyə qazırıx? Allah ölənlərinə rəhmət, atam rəhmətlik çağırdı məktəbdən məni. Dedi, İsmixanın meyidi içəridə qalıbdı. Biz qonşuyux, iysi bizi vurajaxdı, get qəbri qaz. Beş nəfər, altı nəfər olardıx, getdik qəbri qazdıx, hamı da bizə nifrət elədi ki, niyə qazdınız. Gərək əl atardın atardılar, atmırdın atmırdılar. Əslində atanı yeznə yumalıdı, ananı gəlin yumalıdı. Mən mollaya bir dəfə sual verdim ki, niyə yeznə yuyur, oğlu yumur? Dedi, oğlu danışajax yoldaşına atamda belə deffekt var idi, yoldaşı da kimlərəsə danışajaxdı. Amma yeznə yuyanda öz arvadına danışajax, arvad da öz dədəsinin sirrini açmıyajaxdı.

Ölü yuyulan yerə yüət deyirdik. Beləcənə yer qayırırdılar, salafanı çəkirdilər. Özü də taxtanın üsdünə üş dənə tərs üzünə çevrilmiş sini qoydular, meyidi onun üsdündə yuyurdular. Yüət yerində üş gün çırax yandırırdılar. Üçü günü meyidin nəyi vardısa yuyulur, suya çəkilir, salavatlanırdı, qurudulur paltarına qədər. Paltarını isdiyirsən qəbirsannıxda basdır, isdiyirsən ver kimsə geyinsin. Qəbrə qoyanda ayax tərəfinnən paltarını da qoyurdular. Soradan onu qoymadılar ki, ver kasıb-kusub geyinsin.

Ölən günü, üçdə, yeddisində, bütün adnalarda, qırxında, ilində ehsan verirdilər. Ölən günü mal kəsilirdi, əti, halvası. Üçündə də əti. Bir dəfə plov verirdilər. Plov da belə olur da. Erkək heyvan kəsilirdi, onnan aşqara eliyirdilər, şabalıdı, kişmişi – hamısı içinə vurulurdu. Plovu ya yeddisində bişirməli idin, ya qırxında. Elə adam vardı ki, gücü çatmırdı, adnasının birində bişirirdi. O birilərdə adicə dooğa, kəlafir verilirdi. Allah ölənlərinə rəhmət eləsin, o vaxt mənim dayım rəhmətə getdi, onu aparannan sora böyük dayım məni göndərdi ki, get Gəncədən əlli-altmış kiloqram lobya al. Bu lobya verəndə bütün kənd deyirdi filankəs yasda lobya verdi, çünki yoxuydu da, adam gərək təmizini danışa. Əvvəllər heç birinci günü ehsan olmuyub, ölən günü halva verillərmiş, göy-göyərti, turşu-murşu, bir də qohum-əqraba bişirib gətirirdi. Ölən günü iki ağsaqqal qabağına fartux bağlayırdı, fartuğa qəndi tökürdülər, ölü yerində kim iştirak eliyibsə, o qənddən hamısına verirdilər ki, gedəndə evinə şirinnik aparsın.

Kim ehsan verirdisə, iki yüz qramdan çiy ehsan paylanırdı. Kimin imkanı vardısa, verirdi. Dörd dənə, beş dənə mal kəsirdi, kəndin siyahısın götürürdü. Salmanın evində beş uşaq var, bir kilo, onu da kəndirə düzürdülər, paylayırdılar. Kimi halva paylıyırdı beş nəfərə bir büküm, beşdən yuxarı olanda iki büküm halva paylıyırdılar. Yeddisində də siyahı verirdilər, qapı-qapı hamını ehsana dəvət eliyirdilər.

Adnalar da kimin qüvvəsi nəyə çatırdı, onu da eliyirdi. Burda elə yerlər var ki, ölən günü arvadlar tökülür. Amma bizdə qırxa qədər qəbir üsdünə arvad getmir. Qırxda hamı bir nəfər kimi o qəbri ziyarət eliyirdi, molla Quran oxuyurdu, ziyarətdən qayıdıb ehsan süfrəsi arxasında otururdular (S.6).

## 16.

Əvvəllər bizim yerrərdə hüzr düşəndə qırx gün müddətində o evə axşamnar qohum-əqraba yığılardı, bu qonşu bir qazan aş bişirib gətirirdi, xəngəl bişirib gətirirdi, aş bişirib gətirirdi, ta qırxına kimi. Qonum-qonşu, yığılan camaat axşam yeməyə oturanda həmin gətirilən yeməklə yola salınırdı. Yeddisində, qırxında mal kəsirdilər. Kəndi siyahıya alırdılar, hər evdə neçə nəfərdisə, adam başına iki yüz qramdan vururdular. Tikə-tikə doğruyuf, çəkif, tütün kəndiri deyirdik, kəndirdən keçirdirdilər. Üsdünə yazırdılar ki, bu Cavanşirindi. Arax çıxandan sonra yığışdırdılar ki, ehsan ətini bişirib araxnan içir. Ona görə onu yığışdırdılar. Qonşu kəntdən gələnnərə halva bişirirdilər, yuxanın arasına bükürdülər. Fərz eliyək ki, Mixaylovkadan hüzr yerinə gəlib on nəfər. On nəfərin evindəki adamın sayını da öyrənirdilər, adamın sayına görə dörd büküm, beş büküm halva qoyurdu vedrəyə. Hüzr sahibinin qohumlarınnan biri aparıf onu ev-ev verif gəlirdi. Öz kəndimizə çiy ət paylıyırdıx, amma qonşu kəndə büküm halva paylıyırdıx. Sonralar onların hamısı yığışdırıldı. Çiy paylıyanda deyirdilər ki, evdə hamilə qadınnar var, xəsdə insannar var. Olar yeyəndə ovsanası daha çox olur.

Qabaxlar qara bayramda neçə evdə ölü düşürsə, gedirdilər qəbir üsdünə. Kəndin camaatı hamısı gedirdi. Bu il kənddə beş ölü düşüfdüsə, meşoynan qənd aparırdılar. Gəlirdilər, cərgəynən düzülürdü o qənd aparannar, o ölü sahibləri. Gəlib keçəndə ətəyini tuturdun, qavnan, ovuşnan qənd verirdilər. Guya şirinnix verirdilər, onu camaat evinə gətirirdi. Mənim yadımdadı, onuncu sinifə qədər belə şey oldu. Elə olurdu üç-dörd kilo qənd gəlirdi. Hələ civlərimizə doldurub məktəbə gətirirdik, oraya tulluyurdux, kirlənirdi. Onu da sonralar yığışdırdılar (S.27).

## 17.

Ölü düşəndə yeddi gün yaxın qohum-qonşu yemək bişirib gətirərdi. Özü də ən yaxın qohumlar orda qalırdılar qırxı çıxana qədər. Ən çox yeddiyə qədər, bəzən də qırxına qədər qalırdılar ki, ölü yiyəsi soyusun. Hamı adnanı özü verirdi. Son mamentdə çıxdı ki, o birsi oğlu deyir bu dəfə adnanın xərcin mən çəkəjəm, qızı deyir mən çəkəjəm. O da kütləvi şəkildə olmuyufdu. Özü də, deyirdilər dörd adnanın xarcı bir qırxdan daha çoxdu. Zodda, Göyçədə ölü ölən gün iki dənə mal kəsilirdi. Nənəm ölən gün yüz səksən kilo ət verildi. Çiy ehsan verənlər oluf. Bax, burda Narın arvad var idi, yeddi mal kəsdirdi. Onu evladı olmayanlar verirdi. Sağlığında verib, özü də kənddən çıxmışdı. Yeddi mal kəsdirib beş-altı dənə də adam çağırtdırıb kəndə paylamışdı. Üçündə addelni qəbir qazanları çağırıb onlara yemək verirdilər, onlardan halallıq alırdılar. Pul almırdılar qəbir qazanlar, amma bu gün qəbir qazanlar pul alır. Tutax ki, bizim qohumlardan uzaq yerdən gələnlər yeddi gün ölü sahibinin evində qalırdı. Onlar üçün yemək lazımdı axı. Ev yiyəsinin başı qarışıx olduğuna, tutax, mənim bibim bir qazan bozartma bişirib gətirirdi. Onu da gətirirdi, hərə bir boşqab onnan yeyirdi. Ölən günnən yeddisinə qədər ehsan verilirdi. Birinci günü, üçü, yeddisi, qırxında ehsan verilirdi (S.13).

## 18.

Qırxına qədər yas sahibi, yaxın adamlar, arvadı, qızları qara bağlıyırdılar. Qırxında qohum-əqraba gəlirdi, bir dənə yaylıx gətirirdi. Başının yaylığını açırdı, özünün gətirdiyi yaylığı bağlıyırdı. Ölü sahibinin yaxın adamları qırxdan sonra dəllək çağırırdı, üzünü, başının qırxırdı ki, yasdan çıxsın.

Yeddi gün günortalar saat ikidə ehsan verilirdi. Mənim atam-anam rəhmətə getdi, Allah ölənlərə rəhmət eləsin, yeddi gün saat ikidə yemək verdim. Xaşdama, dolma verilirdi. İndi o götürülüf, 3, 7 və 40-da ehsan verilir. Orda adna olmuyuf, adnanı biz gəlif burda gördük. Orda ilində adamları çağırıllar, amma burda qırxında çağırıllar. Qəbrin üsdü qırxına qədər götürülür. Bizdə əvvəl beləydi. Necə ölünü dəfn eliyəndə camaat qəbirstanlığa getmir? Həmin qaydaynan yeddisi, qırxı günü də kişilər qəbir üsdünə gedirdi, qəbri ziyarət eliyif gəlirdilər. İndi onu götürdülər, ölü sahibinin özü, aylə üzvləri üçündə, yeddisində tezdən gedif qəbri ziyarət eliyir, sonra gəlir qonaqlarını qəbul eliyir. Qadınlar yedisində, qırxında qəbir üsdünə gedir.

Mənim uşaxlıx vaxdımda böyük ehsan qırxında verilirdi, sonralar hardan dəb düşdüsə, böyük ehsanı yeddisinə saldılar. Mən uşax olan vaxtdarı üçündə yuxa arasında halva da verirdilər.

Paltar miras sayılıf, sahibi öləndə onun paltarın da aparıf ayax tərəfdən qəbrin içində qoyurdular. Bir parçaya – o vaxdı kolxana[14] dəbdə oluf, – ona bağlıyıf ayax tərəfdən qəbrin içinə qoyurdular.

Kənddə birin yası düşəndə bir insan belə qırmızı geyinmirdi. Qırxı çıxırdı, ilini gözdüyürdülər, toy eləmək olmazdı. İndi də elədi. Bizim tayfadan ölü öləndə bir il biz yasda olurux, toya getmirik. Bir insan ev yığışdırmazdı, məsələn, yorğan-döşəyi atım günə. Qonşu ölüf, qohum ölüf, ayıbdı, sən o palazı orya sərə bilərsən? Yox. Yaxın qohumundursa, bir il sən eşiyə bir dənə dəsmal da ata bil-

[14] kolxana – kəlağayı

məzdin. Qırxı günü, ya qara bayramda qohumlar gedirdi ölü sahibin evinə, televizorun açırdılar, yasdan çıxarırdılar, qazan asırdılar. Bəzən yeməyin özləri bişirirdilər (S.37).

**19.**

Bizdə adnalarda əriştə aşı dəmliyirdilər, yuxa yağlıyırdılar, əyirdək bişirirdilər, onu da iki-üç qonşuya verirdilər, vəssalam. Adnaya evə yığışmağı biz gəldik Azərbaycanda gördük. Ölü ölən günü mal kəsməmiş ölü basdırmırdıx. Birinci günnən ehsan verirdik. Cənazə həyətdə ikən mal kəsilir, ölü basdırılıf gələnə kimi bişirilir, camaat bir nəfərə kimi orda yeyir. Mənim qardaşımın dəfnində birinci gün 600 nəfərə kimi adam gəlmişdi. Üçündə, yeddisində, qırxında da ehsan veririk. İndi deyillər, ehsan vermə, halva çal[15]. Halva çalırıx ey, halva göz acısıdı. Halva ölən gün də çalırıx, üçündə, yeddisində, qırxında da halva verilməlidi. İlində mütlləq verilir ki, il bağlanır, halvasız ölü basdırılmaz. Ölən günü halva çalınır, ona göz acısı deyilir, gələn camaata verilirdi. Bizim adətimizdi, ölən gün ən azı iki kilo unun halvası çalınmalı idi. Ölünü götürüllər, yuata yerinə daş qoyursan. Cənazə gedəndə həmin daşı da onun dalınca atırsan ki, gözü dalda qalmasın. Yuat yerində üç gün axşamlar şam yandırılır. Üç gün də qəbirsannıxda ölünün üsdündə ocax qalıyırdılar. Deyillər, ənkirnən mənkir gəlif ölünü sorğu-sual eliyəndə o ocax onlara işıx salır (S.24).

---

[15] Rəsmi dairələr ölü üçün yalnız sadə ehsan süfrəsi verilməsini tələb edir, söyləyici bunu nəzərdə tutur.

## 20-30. YEMƏKLƏR

Şeşəmod[16] quru lobyadan hazırlanır. Quru lobyanı təmizləyirsən, iki-üş dəfə yuyursan. Ondan sonra soğançanı qayırırsan. Hardasa bir litr, litr yarım da su tökürsən, quru lobyanı da vurursan qazanın içinə. Qaynıyır, qaynıyır, qatılaşır. Qatılaşandan sonra çəngəllə yeməyi xoşlayan varsa, dayaz boşqabda çəkilir, qaşıxnan yeməyi xoşlayana isə dərin bozartma boşqablarında verilir. Baş soğanı yumruxla vurub əzirsən, ya onnan, ya da turşuynan yeyilir. İstəyən içinə ət də vurur, maşından keçirilmiş əti əlavə edir, onda daha dadlı-tamlı olur. Əti lobyanı suya tökəndə əlavə edirlər, ya da soğança ilə bir yerdə qovur, ət rəngini dəyişsin, ondan sonra lobyanı tök. Bunu göyçəli bişirə bilməz, göyçəli o yeməyi bilmir (S.22).

### 21.

Dəri buğlamasını gərək yerə basdırasan. Yeri qazırdılar, ojağı da çatırdılar. Orda o qədər ojax qalıyıllar ki, o torpax tamam quruyurdu. O heyvanı da boyluyurdular tərtəmiz dəriyə yığırdılar, dərinin də başını bir dəfə içəriyə, bir də çölə bağlıyırdılar. Soğanını, kəkotusunu, istiotunu, duzunu töküb üç qruşka da su tökürdülər. Dərini salırdılar qazılan quyuya, üsdünə torpax tökürdülər. Ocağın közünü də torpağın üsdünə tökürdülər. Kənarlarda da ocax yandırırdılar ki, isdini içəri versin. Dərinin ağzını kəndirnən bağlıyırdılar. Çox odun gedirdi ona (S.22).

---

[16] Göygölün yerli sakinlərinə məxsus yemək növüdür.

**22.**

Qurudu qatıxdan hazırlayırdılar. Qatığı çalırdılar, torbaya tökürdülər, suyu süzülürdü. Həm də qatığı tökəndə duzu artıq eliyirdilər ki, suyu çəkiləndə duz onda qalsın ki, xarab olmasın. Suyu çəkiləndən sonra arvadlar əllərində yumurluyurdu, düzürdülər sürfənin üsdünə, günün altında quruyurdu. Biz uşağ idik, nənəm əlimizə bir ağac verirdi, daim onu qoruyurdux quşlar aparmasın. 10-15 günə quruyurdu. Çöörməsən, bir üzü yaş qalırdı. Palazı salırdılar, üsdünə sürfə atırdılar, üsdündən qurudu düzürdülər. Sürfə onun suyunu çəkirdi, quruyannan sonra yığırdılar torbalara, saxlıyırdılar. Ən çox da qışda xəngəllə, xaşılla yeyilirdi (S.22).

**23.**

Kələcoş qurutdan hazırlanır. Öncə qurudu ilıx suya tökürdülər, üzünün tozunu alırdılar. Suyu tökürdülər qırağa. Sonra başdıyırdılar qurudu əlin ayasıynan əzirdilər, qatı ayran halına çatanda ondan istifadə eliyirdilər. Qurudu əzirdilər, sarımsax döyürdülər, yağı da dağ eliyirdilər. Sarımsağı da qurudun üsdünə töküf qarışdırırdılar. Qabda süfrəyə verilirdi, yanına da dağ olunmuş yağ qoyulurdu. Yağı qurudun üsdünnən əlavə edib yeyirdilər. Axsax oğlağı da eyni şəkildə hazırlanır. Sadəcə axsax oğlağı qatıxdan hazırlanır, kələcoş qurutdan. Axsağ oğlağında da sarımsax döyülürdü, yağ dağ olurdu, isti-isti tökürdülər, qarışdırırdılar, çörəknən yeyirdilər (S.22).

**24.**

Beçəli xəngəl olurdu. Beçəni əvvəlcə suda pörtdədirlər, soğançada da qızardırlar. Onun suyuna həlim deyillər,

onu içməsən sindirmir, ağır yemək olur. Xəngəlin bir növü də var, ona qaşıq xəngəli deyillər. Ən çox qış ayları bişirillər, qripin, soyuxdəymənin dərmanıdı. Yarpax xəngəlin xamırı iri olur, qaşıx xəngəlin xamırı balaca-balaca doğranır, özü də sulu olur. Onu qaşıqla içillər. İçinə ət vurullar, sarımsaqlı qatıqla süfrəyə verilir. Hazırlanması: xamırı yayırsan, bıçaxla xırda-xırda doğruyursan, tökürsən qazana, yağnan-soğannan bişirirsən, içinə də nə qədər istiyirsən ət doldurursan. Xəngəlin sulu növüdür.

Bir rus gəlini oluf, biri əsgərlikdən gələndə gətirif. Rus görür ki, qaynanası gətdi xəngəl bişirdi. Buların da qonaxları oluf. Rus gəlin də baxır ki, bular xamırı yedilər. Xəngəldən sonra hərəyə bir boşqab da həlimdən gətdilər, sarımsağı tökdülər, qarışdırdılar, yağ qarışıx həlimdən də işdilər. Orda fikirrəşir ki, bular həm dərdini bilillər, həm dərmanını. Xamır təkcə yeyilsə, mədədə ağırlıx yaradır, amma həlimnən yeyiləndə həzmə kömək eliyir (S.22).

**25.**

Bizdə bir meşox unun xəmirini yoğururdular. Qonum-qonşu arvadlar da yığılırdı, ərişdəni kəsirdilər, onu qurudurdular. Onda bizdərdə ocax qalamax yoxuydu, hər şeyi təndirdə eliyirdik. Yekə sajdar yoxdu? Onu qoyurdular təndirin üsdünə, uzun da ərsinnər var idi, iki nəfər qadın otururdu biri o üzdə, biri bu üzdə. Əriştəni hərə bir tərəfdən çöörürdülər, qourudular. Onu şadaradan keçirirdilər, aşınkını ayrı seçirdilər, altının xırdasını ayrı. Eləsi vardı kəsilən vaxdı top olufdu, onun başının toplarını yığırdılar ayrı, altının lap xırdasını xəlbirdən keçirirdilər, içinin qara-qurasını təmizdiyirdilər. Onu da südnən bişirirdilər, əvəlikli isdi bişirirdilər.

Meşoynan qurut qoyurdular bizdə. Artıq sentyabr ayı gələndə el dağdan qayıdırdı. Sentyabr ayı gələndə qatığı eymələrə[17] yığıflar. Artıx görürdülər dolufdu, yer yoxdu, nehrəni asırdılar, qonşu arvadlar yığılırdı dağda, başdıyırdılar nehrə çalxalamağa. Qonşular da yığılırdı bu gün bununkunu çalxıyırdılar, yağını yığırdılar, ayranı bez torbalara tökürdülər, qoyurdular süzməyə. Onu gərək hər gün tərpədəsən, üzün sıyırıb yığasan, yuyasan ki, milçək qonmasın, dad-mad olmasın. Süzmə halına gələndə onu boşaldırdılar yekə ləyənlərə. Dağın döşünə sürfəni salırdılar, uşaxların biri də onun qoruxçusu olurdu, pişik-toyux yaxın gəlməsin. Dağdan gələndə dağa gedə bilməyənlər onun görüşünə gəlirdi. O da gətirirdi dağdan gətdiyi bir qab yağdan, bir qab qurutdan verirdi ki, apar xəngəl bişir. Onu çöörürdülər, tez-tez altının dəsmalın dəyişirdilər ki, kif atmasın. Qatığın qurudu turş olur, amma nehrə qurudu sappsarı olur, əzəndə yağ əlinə çıxır. Qurudu da əzəndə əlini ağzına vurmayasan. Deyillər, Şah Abbas deyir, mən oğluma elə bir qız alajam ki, ağıllı, tərbiyəli qız olsun. Vəzir Allahverdi xan, gedək bir şəhəri gəzək. Gəlir, bir qapıya baxır ki, şahın qızı qurut əzir. "Nənəm mana nələr demiş" eliyir, qurudu çəkir ağzına. Deyir, yox, bunnan mana gəlin olmaz. Gəlir bir kasıbın qapısına. Baxır ki, başın sallıyıf, özüçün qımqımı deyədeyə qurut əzir. Deyir, hə, bax, bunnan gəlin olajax. Qurudu gərək əzəndə ağzına vurmayasan, səliqəli eliyəsən. Qurudu xəngəldə, xəşildə istifadə edirik. Qurut aşı deyirik, yarmaynan, əriştəynən bişiririk, ona tökürük. Evdə qatığın yoxdu, suda həll elə, qatığ əvəzi istifadə elə (S.30).

---

[17] eymə – dəri torba

## 26.

Mayanı qursaxdan tuturdular. Qursağı yuyurdular, bir balona qoyurdular, onun üsdünə düyü tökurdulər, buğda tökürdülər, bir də qənd atırdılar. Onun ağzını bağlıyırdılar, maya özünü tutana qədər gözləyirdilər. Tutandan sonra başlayırdılar pendiri mayalamağa. Çəçili bizdə düzəltmiyiflər. Çəçili ermənilər düzəldirdi, bir də Vedibasarda. Bizdə şor idi, bir də pendir. Motalı payız vaxdı eliyirdik. Sentyabrın axırında yığardıx, qoyardıx sərin yerə, ona gərək qulluğ eliyərdin. Günaşırı onun altını, üsdünü duzdamalı idin ki, xarab olmasın. Hardasa qış girəndə motalın ağzı açılırdı. Ən çox bizdə motal pendir, kartof yeyilirdi. Kartofu ya soyutma eliyirdilər, ya da təndirə tökürdülər, təndirdən çıxarıf pendirnən, kərə yağınnan qarışdırıf turşu-kələmnən yeyirdilər. Üzsüz pendir süd maşınnarı çıxandan sonra oldu, ona qədər pendirlərin hamısı üzlü olurdu. Süd maşınları çıxandan sonra südün üzü alındı, altında qalanını pendir eliyirdilər. Qatıx da onun kimi üzlü qatıx, üzsüz qatıx. Pendiri küpəsi olan küpədə, sonralar küpə ləğv olundu, şirəli qazannarda, vedrələrdə saxlıyırdılar.

Mənim babamın bir otağı var idi, onun altında dörd dənə quyu var idi. Taxılı onun içinə doldururdular. Quyunun içində ocax qalıyırdılar ki, altı quru olsun, saman tökürdülər, samanın üsdünə də meşox salırdılar, quyunun ağzına da taxta qapax qoyurdular, üsdünnən də palaz salırdılar ki, nəmişliyi içəri verməsin. Kartof quyusu çöldə qazılırdı, onun ağzına dəmir, ya taxta qapax qoyurdular, üsdünü torpaxlıyırdılar ki, hava keşməsin. Dörd ton, beş ton, eləsi vardı on ton kartof tutan dərin quyular qazılırdı.

Toxum quyusu ayrı idi, onun ağzı yazda açılırdı. Amma satışa gedəni nə vaxt satışa aparacax, onda açırdılar. Öy damı deyirdik, çörək orda bişirilirdi. Orda nənəmgilin kəndisi[18] var idi. Taxtadan qayırmışdılar, sıx taxtadan, buğdanı onun içinə dolduruf ağzın da örtürdülər (S.30).

**27.**

Şirin fətiri anam iki cür hazırrıyırdı. Bir var indiki gəlinlərin xonçalarına qoyullar yumurtadı, pesoxdu, sarıkökdü. Biz sarıkök vurmurdux, onun xamırını anam qatıxnan, südnən yoğururdu, yağın da çox eliyirdi, onu təndirdə bişirirdi. Anam xamırı yayırdı, arasın yağlıyırdı, onu rulet kimi yığırdı, qayıdırdı qatdıyırdı, yasdılıyırdı. O olurdu qat-qat. Onu təndirin badına[19] yapırdı, rəhmətdik bibim də ona kömək eliyirdi. Anam yapırdı, o da gözdüyürdü ki, xamır yağlıdı, təndir onu saxlamıyajax. Görürdü düşmək isdiyir, bibim onu gözdüyürdü, qoymurdu düşməyə. Doğruyanda qat-qat olurdu. Bir də bizdə ən çox qatdama bişərdi. Gəlinnərin xonçasına, oğlan evinə mütləq ləyənnən qatdama getməlidi. Hər evə o halvadan, qatdamadan qoyardılar, üsdünə də dəsmal-corab qoyardılar, qohum-qardaşa paylıyardılar.

Bizdə halva toyda da bişirilirdi. Toyda bir şirəli vedrə halva bişirirdilər, lavaşnan da yeyirdilər. Azərbaycanda bu adət yoxdu. Mənim qardaşımın yoldaşı Xanlardandı. Anam dedi, Azərbaycana gedirik, nəbadə halva qoyasız ha, məni biyabır eləmiyin (S.30).

---

[18] kəndi – buğda saxlanılan qab

[19] bad – təndrin divarı

**28.**

Səməni halvasının ustası ana nənəm idi. Nənəm özü cücərdirdi səməni. Elə cücərdərdi ki, altı dümağ olurdu, bir dənə xal düşməzdi ona. Sonra taxtalar qoyurdu, gedirdi özü çaydan yumru daşdar yığıb gətirirdi, hər qıza birini verirdi. Səmənini onnan döyürdü. Sonra onu sıxırdı, neçə qazan suyu çıxırdı. On altı kilo buğda cücərdirdi anam. Onun suyunu sıxırdı. Sonra mis tiyannar qoyurdu, qırağını da palçıxlıyırdı ki, alov kənara çıxmasın. Səhərdən başdıyırdılar sabaha qədər onu qarışdırırdılar. Onun bir kilosuna nə qədərsə un gedir. Dağlarda qar qalırdı çökəklərdə. Deyirdi, gedin o dağlardan qar gətirin, qar qatanda tamı şirin olur. Qonum-qonşu yığılırdı, kömək eliyirdi. Biz uşaxlar da gözdüyürdük ki, onun divi qazmaxlasın, onun qazmağını yeyək. Nənəmin ölçü qavı var idi, kim nə qədər un qoyufsa, ona uyğun hərəyə o halvadan verirdi. Onu gərək niyyət eləmiyəsən, niyyət elədinsə, gərək bişirəsən (S.30).

**29.**

Səməni halvasın dayım arvadı bişirirdi. Buğduyu yuyullar. Amma seçillər ki, hamısı cücərən olsun. Bir gün suda saxlıyıllar. İki-üç gün sonra balaca-balaca göz verir, cücərirdi. Ondan sonra onu padnoslara düzüllər və onun yeri qarannıx olmalıdı, üsdün də örtürdülər ki, yaşıllaşmasın. İki-üç santı boy verəndə onu döyürdülər. Biz az da su tökürdülər üsdünə, sıxırlardı. Sıxannan sonra miqdarı var idi, deyəsən, on litirə bir kilo un qatıb bişirirdilər. Özü də xeyli qaynadırdılar onu. Qonum-qonşular yığılırdı, köməkli qaynadırdılar. O vaxdı xüsusi daşdar olurdu, o daşdarnan

döyürdülər. Vitaminni, müalicəvi yemək idi. Anarın[20] oğlu olanda xalası bişirib paylamışdı (S.10).

**30.**

Mənim qardaşım çoban idi. Dedim, o axtarma motalı necə tuturlar? O dedi ki, payıza dönəndə yaylaxda otun dəyən vaxdı olur, qoyunun da sovulan vaxdı olur. Məsələn, dörd yüz, beş yüz qoyunun varsa, bunun yüzündə süd var da. Axtarırdılar çobannar, hər qoyunun döşündən çıxan süd yağ idi, o qədər dəyərli olurdu. Onnan da tutulan pendir elə bil sapsarı yağ idi. Onu, deyir, mayalıyannan sonra yığırdılar cılğının[21] içinə. Orda daha da dəyirdi və onu erkək dərisinə basdırırdılar. Bax, axtarma motal o idi (S.15).

## 31-48. ETNOQRAFİK İFADƏLƏR

31. *Qırpa getmək* – Ajdıx olanda camaat qırp eliyərmiş. Taxıl ki bitir, yenicə dəyən vaxdı onun başı biçilir, o biçilən yerə qırp deyillər. Onu gətirib evdə ağacnan çırpırdılar, dəni tökülürdü, camaat onnan istifadə eliyirdi. Sovet dövründə bəzi insanlar gejə kalxozun əkin sahəsinə qırpa gedirdilər. Oğurlux kimi idi. Gejə gedirdilər, biçib, meşoxlara doldurub gətirirdilər (S.15).

32. *Qonaqçı* – Samux tərəfdə atamgilin qonaxçısı var idi. İlin payız fəsli yaxınnaşanda Samux zonasında çəltik əkirdilər. Adamlar gedirdilər çəltiyi döyürdülər, düyüsün

---

[20] Oğlunu nəzərdə tutur.

[21] cılğı – tükü təmizlənmiş qoyun dərisi

yığırdılar, ona uyğun da haqq alırdılar. Atamın qonaxçısının adı Lətif idi, olar da təsərrüfatnan məşğul idilər. Həmişə il gələndə yaylağa gəlirdilər. Biz onu həsrətnən gözdüyürdük ki, Lətif əmimiz gələjək, görüşəjeyik. Biz onu əmi kimi qəbul eləmişdik. Mən özümü qanandan sonra başa düşdüm ki, o atamın dostu idi. Tutaq ki, mən getmişəm Kəlbəcərə, kiminsə qapısına üz tutmuşam, orda qalmışam, o olurdu qonaxçım. Bir dəfə qalınan yer qonaxçı sayılmırdı, bir neçə dəfə qalandan sonra qonaxçı olurdu. Hətta münasibət o qədər güjlənirdi ki, qohumluğa da çevilirdi. Eldə bir misal var, dostluğun axırı qohumluğa çevrilir. Yəni qız almaq, qız vermək. Bildiyimiz qonaxçıların çoxu qohuma çevrilib (S.22).

33. *Sarma* qoyun yatağının içində olur. İçərini nə qədər təmizləsələr də, yenə qalırdı. Qış uzunu qoyunun ayağı altında bərkiyirdi. Qoyun yaylağa çıxanda qapısın, bacasın açırdılar ki, hava vurub qurutsun, sarmanı bərkitsin. O sarma daş kömür kimi şeydi. Gərməni əlnən də qırmax olurdu, amma sarmanı əlnən qırmaq mümkün deyildi. Sarmanı belnən kvadrat kəsirdilər, baş-başa düzürdülər, qurudurdular qışda istifadə eləməyə. Qalağı dairəvi yığırdılar, dördkünc də yığırdılar. Ayaxdan enli götürürdülər, başa gəldikcə daralırdı. Qalağı adətən payız qabağı yığırdılar, onun üzünü də malın təzə peyini ilə suvuyurdular ki, yağış yağanda içəri düşüb içərini isdatmasın. Qalağın ortasına – saşma deyillər, – gərmə qırıxlarını doldurullar. Ojax qalayanda altdan irilərini qoyurdular, üstünnən də saşmanı tökdürdülər alışması üçün. Qalağa qapı kimi yer qoyurdular, istifadə eliyəndə ordan açırdılar, bir tərəfdən sökürdülər, sonra yenə bağlıyırdılar (S.22).

34. *Sarma* qoyun təzəyindən hazırlanır, daş kömürdən o çox isdilik verir. Onu da gərmə kimi kəsib qurudursan. Eləcə də gərmeyi çölə tökürsən, üsdünə duzdax qoyursan, mal-heyvan onu ayaxlıyır. Həftə olanda onu kəsirsən. Qoyununku bərk olur. Onu kəsib cərgə-cərgə düzürsən, bir az quruyannan sonra zincirə düzürsən, qurudursan. Sonra qalax yığırsan. Qalağın aşağısını enni götürürdülər, yuxarı qalxdıxca daralırdı. Ortada da bir dənə ağız qoyurdular. İstifadə edəndə ortadan götürürdülər, qıraxlar qalırdı. Çölünü də mal peyiniynən suvuyursan ki, qışda külək qarı, boranı içəri doldurmasın. Bizdə Mammed vardı, nazirriydə işdiyirdi. O kəndə gələndə anasının yanına gəlirdi. Gedirdim ki, anası təndir qalıyıf, bu da altına stolu qoyuf təndirin yanında oturuf. Bunun evləri məktəbə yaxın idi, bunun bajısı oğluynan gedirdim bulara su içməyə. Deyirdim, Mamed dayı, niyə bu tüsdüdə oturursan? Deyirdi, bala, bu tüsdü gözə xeyirdi. Otururdu ana-bala təzəyin böyründə, anası söhbət edirdi, bu da qulaq asırdı (S.5).

35. *Qarabağ yeli* Qarabağ tərəfdən əsib. Bizdə yaşdı kişi oluf, adına Məşə Cəfər deyirdilər. Camaata məsləhət eliyif ki, tənbəllik eləməyin – o külək Zod dərəsindən gəlirdi, – gedək dəreyi kəsək, yel ordan qutarsın. Kim Məşə Cəfərin yanına düşüb gedəjəh? Qarabağ küləyi yayda mehli olurdu, qışda da soyux olurdu. Taxıl dən tutan vaxdı əkini tozlanmaya qoymurdu, buğda, arpa zəyif olurdu. Ona görə Qarabağ küləyindən ehtiyat eliyirdilər. Bir Qarabağ küləyi var idi, bir də qərb küləyi var idi. Ona dənizin küləyi deyirdilər. Göyçə gölünnən gəlirdi, ona görə dənizin küləyi deyirdilər (S.37).

36. *Kirvə qabağı qaytarmaq* – Bayram günü kirvə qabağı qaytarılırdı. Kirvə qabağı qaytarmaq üçün qoç heyvan saxlıyırdıx, boğazına qırmızı kəlağeyi bağlıyırdıx, çamadannar tuturdux, kirvənin evində neçə nəfər var hamısına pay alırdıx, gedirdik kirvə qabağı qaytarırdıx. İndi istənilən gün kirvə qabağı qaytarılır, amma onda Əli bayramında gedirdik. Olar da pay alırdı, bizə pay qoyurdular (S.24).

37. *Siğə qardaşlığı* – Mənim atamın siğə bajısı varıydı. Həmidin yoldaşı Ziba qağama qardaş deyirdi. Mollalar tərəfindən oxunub siğə bajı-qardaş oluflar. Gilə var idi, onnan da siğə bajı-qardaş idi. Atamın heç kimi olmuyub da, tək olub. Bacısı rəhmətə gedib, tək qalıbdı. Ata tərəfdən bircə bu olubdu. Onnar buna qardaş deyif, bu onnara bajı deyif. Deyiflər, belə olmaz. Gərək bir mollaynan məsləhətləşəsən, siğə kəsilə, ondan sonra qardaş-bajı olasan. Nərimannıda Molla Bəhman varıydı, o yazırmış, yazannan sonra deyirmiş bu günnən siz siğə bajı-qardaşsız (S.6).

38. Aşıx Nağı qan üsdə gedərdi, qan düşmənçiliyi qutararmış. Heylə hörməti vardı. Qaçax Cabbarnan dost oluflar. Bilmirəm, Aşıx Nağının anasının köynəyinnən keçirdirlər, bilmirəm, orda molla iştirak edirmi? Olara vəsiqə də verirdilər, qardaşdıx vəsiqəsi. Qaçax Cabbarnan Aşıx Nağı siğə qardaşı oluflar. Bu yaxınnara qədər mənim anamnan onun uşaxları bir-birinə əmiqızı, əmioğlu deyirdilər. Deyirdilər, siğə ağırdı, gərək axıra kimi inciklik olmasın. Hətta siğə qardaşdığı doğma qardaşdan da irəli imiş. Siğə qardaşın qızın almaq olmazdı (S.41).

39. *Müjdə yastığı* deyilən bir şey var idi, üzü də qırmızı ipəkdən idi. Arifin əmisi oğlu Qara dayı toy maşının qabağını kəsdimi, qabağını kəsəndə bir dənə iyirmi beşlik Qara kişinin pulu idi. Deyirdi, yox, pul isdəmirəm, çıx meydana güləş, məni yıx, apar get gəlini. Amma Qara kişinin qabağına çıxmadınsa, iyirmi beşliyi hazırrıyırdın. Otururdu Qaz 51-in krılosunun üsdündə, düz evə qədər kim qabağa çıxırdı görürdü Qara dayıdı, hamı çəkilirdi geri. Çünki o canlı kişiyə heş kim güj çatdıra bilməzdi. Cehiz də həmin vaxdı gəlir. Gəlin karvanının arxasınca cehiz də gəlir. Cehizin üsdündə də müjdə yastığı gəlir. Ən çox qorunan müjdə yastığıdı. Müjdə yastığı oğurrandısa, bir qırmızı onnux hazır olmalı idi. Ən çox atın üsdündə olannar onu oğurruyub oğlan evinə aparırdılar. Müjdə yastığı cehizin içində olur, cehizi gətirəndə razılaşırdın ki, müjdə yastığını mənə ver, nə alsam yarı böləjih. Atnan maşının yanınan gedirdin, üsdü açıq maşınlar idi, adamnan danışıfsansa, müjdə yastığını sana verirdi, götürüf qaçırdın. Müjdə yastığını oğlan evinə verib nəmərini alırdın (S.42).

40. *Seyrana çıxmaq* varıydı, yaz başı artıq qar əriyir, danaqıran çıxan vaxtlarında olurdu. Yəni təzə toyu olmuş insanlar, qızlar-gəlinnər bizdə gedirdilər pencər yığmağa və yaxud oğlanlar yığılırdı beş nəfər, on nəfər, gedirdik dağa gəzməyə. Yəni əlimizə keçən, Allah verəndən götürürdük tezdənnən çıxırdıx, bir də axşam gəlirdik. Qızlar, gəlinnər gedirdi tutaq ki, pencər yığmağa və yaxud yayda moruq yığmağa gedirdilər. O da bir adət-ənənəydi ki, belə götürəndə məhlənin qızları, gəlinləri deyirdi hamımız gedəje-

yik, hamı yığılıb gedirdi, kimsə ona pis baxmırdı. Seyrana çıxanda ən çox Arpa çayına gedərdik, dağlara çıxırdıx (S.42).

41. Axır çərşənbədə günüz cavan qızlar yığılırdı, gedirdi bir bulax başına. Orda mahnı oxuyurdular, yemək-içmək də aparırdılar, yeyib içirdilər. Seyrana çıxmax deyirdilər. Bizdə dağların hər yeri bulağ idi. Ad qoyurdular, gedəyin bu gün göy bulağa. Bir dəstə qız gedirdi Göy bulağa, bir dəstə Ağ bulağa. Məhlə-məhlə olurdular, hər məhlə də bir bulağın üsdə gedirdi. Özləri üçün sürfə açırdılar, mahnı oxuyurdular, nanay çalıb oynuyurdular. Əsas da təzə gəlinləri aparırdılar. Hansı evdə təzə gəlin vardı, qonşular yığılırdı, o gəlini aparırdılar seyrana. Bizdə seyrana axır çərşənbədə saat 10-da 11-də gedirdilər, günorta 2-də 3-də də qayıdıb gəlirdilər (S.11).

42. *At qoşa qoymaq* – At qoşa qoyurdular bizdə. Gəlin gətirəndə də olurdu, ayrıca da qoşa qoyurdular. Atlar düzülürdü, bir nəfər rəhbər təyin olunurdu. Hansı at birinci çatardısa, bəy maşınının yanında o getməli idi. Gəlin gətirməyə gedəndə kimin atı var idi, qırmızı bağlıyırdı, at çapırdılar. Kimin atı birinci gələrdisə, bəy-gəlin maşının yanında o gedərdi. İmam əmimin də yaxşı atı var, Salaxın da. İmam əmimnən sözdəşiflər. İmam əmim deyir mənim atım qabax gələr, Salax deyir mənim. Atın da döşünə qırmızı yaylıx taxıllar. Yaxın məsafəyə sürmüllər ey, kənddən kəndə. İmam əmim dedi, kimin atı dala qalsa, onun atının qulağın kəsəjeyih. Getdilər Böyük Məzrəyə. Kənddə toy olanda ətraf kəndlərdən yaxşı atı olanlar da gəlirdi. Damın üsdünə çıxanda görürsən atlar düzülüflər. Başdadılar yarışa. Nətərsə

İmam əmim dala qaldı. Bir az gələndən sonra gördük İmam əmimin atı daldan gəldi buları keçdi. Qırmızı parçanı taxdılar atın boynuna. İndi Salax dala qalıf. Atın qulağın kəsmək istəyir, hərə bir tərəfdən töküldü, qoymadılar kəsməyə (S.28).

43. *Böyük ehsan*[22] – Böyük ehsan deyilən şey varıydı. Yalan olmasın 300-400 kilolux malı kalxozdan alırdılar, onu kəsirdilər, – düzdü aylıxlarından çıxırdı, – çiy ehsanda dağıdırdılar. Onu qırxa salan da varıydı, ilə salan da varıydı. Məsəl üçün, evdə beş nəfərdisə, 200-250 qramdan hesablanırdı, hətda qonax varsa, gələn qonağı da nəzərə alırdılar. Bir də kəllə qəndlər varıydı belə kvadrat, qənd dolu vedrə əlimizdə düşürdük ət paylıyanın arxasınca, biz qəndi verirdik, böyüklər əti paylıyırdılar (S.42).

44. Bizdə *çiy ehsan* olufdu. Babama biz vermişik. Nə qədər ki o siyahıda adam varıydı ha, onu da sovetdikdən almışdıx. Məmmədin neçə ayləsi var, neçə uşağı var, Azadın neçə uşağı var. O uşağın hərəsinə filan qədər qoyurdular. Babamın qırxında bütün kəndə çiy ehsan payladılar. Narın qarı var idi. Onun nə oğlu, nə qızı var idi. Züryəti yox idi, ona görə sağlığında ikən özünə ehsan vermişdi. Özü də evdən çıxdı, başqa evə getdi. Buna dedilər, sən evdə ola bilməzsən. Səkgiz dənə mal kəsdirdi, bütün kəndə payladı. Halva da verirdilər. Baxırdılar evə. Evdə adam az olanda bir büküm verirdilər, çox olanda iki büküm. Kimin evində qonax varsa, o qonağın da payı ayrı verilirdi (S.17).

---

[22] Həm də çiy ehsan adı ilə tanınır.

45. Narın arvad var idi, onun züryəti yox idi. Dedi, özüm sağ ikən öz ehsanımı verim, ölənnən sonra kim verəjək. *Çiy ehsan* zamanı pul yığılmır. Dörd-beş mal kəsdi. Zodda altı yüz aylə idi. Hər ayləyə iki kilo, iki kilo yarım çiy ət paylamışdı. Molla ehsan sahibinin həyətdə olmasını istəməmişdi ki, özü öz ehsanından yeyə bilməz. Çiy ehsanı tək-tük adam verirdi. Züryəti olana icazə vermirdilər ki, sənin züryətin var. Züryəti olmayan adamlar verirdi (S.31).

46. Məzrədə *çiy ehsanı* niyə götürüflər? Göyçək adında bir qadın oluf, atasının oğlu olmuyuf. Atası rəhmətə gedəndə o gətirif atasına çiy ehsan paylıyıf. Kəntdə də ağıldan kəm bir erməni var idi, Girop adında. O vaxdı maşın-zad yox idi, əti arabaya yığıf qapı-qapı paylıyırlarmış. Bu Girop düşür arabanın dalına, Göyçəkcan, mana da ver, Göyçəkcan, mana da ver. Bu da deyir, ermənidi, buna versəm, ehsan mundarranajax, vermiyif. – Əşi ver da, ofsanata o keçir da. – Ermənilər görüllər ki, buna vermədi. Kənd ağsakqalları yığılır ki, yaxşı, biz bir-birimizin xeyrində-şərində iştirak eliyirik. Xəsdə adamdı, niyə bir tikə ət ona vermir? Onnan da ağsakqallar yığılır, deyir çiy ehsan ləğv olunsun, ermənisi də, müsəlmanı da gəlsin, yesin, getsin. O vaxdı ehsanı yeddisində verirdilər, qırxında verirdilər, eləsi vardı gücü çatmırdı, ilində verirdi (S.30).

47. *Ev damı* – Təxminən iki metr, üç metr yeri qazıllarmış, adicə çay daşınnan divar hörürdülər, üsdünü kümbəzvarı tikirdilər. Nəyə görə? Yağan yağış süzülsün, damması. Orda hava o qədər təmiz olurdu ki. Ev damının karidoruna hoylu deyirdilər. Ev damına mal damına xod hoylu-

dan olurdu. Orda da quyular qazılırdı, birinə kartof, birinə taxıl doldururdular. Taxılı ən çox kəndidə saxlıyırdılar. Kəndi taxtadan hazırlanırdı, aşağısında da süyürməsi olurdu. Bir gözünə taxıl doldururdular, bir gözünə də un. Qadınlar süyürməni accaca açırdılar, nə qədər lazımdı götürürdülər, yenidən sürməni bağlıyırdılar. Elə kəndilər olurdu bir neçə ton taxıl tuturdu. Ev damında yorğan-döşəyi farmacda saxlıyırdılar. Taxtadan yük yeri qayırırdılar, farmacları onun üsdünə düzürdülər. Camaat ayılandan sonra üsdən də yorğan-döşəyi yığıf üsdünü basdırırdılar. Xörək qaşığı, çömçə taxtadan olurdu. Qadınlar hanada qaşıxlıx toxuyurdu, çömçəni, qaşığı onun içinə keçirirdilər. Evi işıqlandırmağ üçün o vaxdı qara çıra yandırırdılar. Onu mazıtnan yandırırdılar. Mazıtı da atnan dəri tuluxlarda gətirirdilər. Qara mazut idi. Onu çıraya tökürdülər, – pambıx yox idi, – yunu eşirdilər, lüləsinnən salırdılar içəri. Çıranın hisindən üzü-göz qapqara olurdu, gejə eşiyə çıxanda o adamı tanımağ olmurdu.

Səhər yeməyi təndirdə bişirdi. Divarda xüsusi buxarı olurdu, onun bacası divarın ortasıynan çıxırdı, orda ocax qalıyırdılar, qazan asıb axşam xörəyini orda bişirirdilər. Çətənənin toxumunu quruduf meşoxnan saxlıyırdıx. Çörək bişirəndə çörəyin üzünə vururdular, həm də qovuda qatırdılar. Təndir güjdü olanda qalının üzünü yandırırdı, ona görə təndiri qalıyanda əvvəl lavaşı bişirirdilər, od səngiyənnən sonra qalını bişirirdilər. Hər şey qutarannan sonra təndirdə qalan közə qartof tökürdük, üsdünü basdırırdıx ki, hər tərəf eyni bişsin. Kürsü qururdux, ayağımızı sallıyırdıx təndirə. Qabağımıza da burda duvax deyillər, bizdə peşqum deyillər, qoyurdux qabağımıza, təndirdən bir az

hündür olurdu. Kürsü hündür olur, amma peşqum alçax olur. Kürsünün üç başı olurdu: o baş, bu baş, bura. Bura külfənin üsdüdür deyə orda yatan olmurdu. Bir tərəfində ağsakqal adamlar yatırdı. Bu tərəfi külfənin üsdünə düşürdü, orda heç kim yatmırdı. Onun üsdündə qartofa yağ qatıf yeyirdik. Közləmə deyirdik ona. Üsdünün külünü təmizdiyirik, qabıx da üsdündə qalırdı, eləcə əzirdik, yağı içinə töküb yeyirdik.

Otlar yağlı idi deyə inəklərin südü də yağlı olurdu. İki mal saxlıyanın yağı-pendiri boğaza qədər idi. Yağı qarında basırırdılar, tuluğu qoyunun dərisində. O vaxdı dəridə su, ayran, qatıx saxlıyırdılar, qarında isə qoormeyi basdırırdılar, yağı basdırırdılar. Yağ onun içində dən-dən olurdu. Motalı basdıranda dəri onun acısını çəkirdi, çıxardanda olurdu bal. Göyçədə motalı dərinin tüklü üzünə basdırırdılar. Toğlu da yox, erkək dərisinə. İki-üç illik erkək dərisini aşılıyırdılar. Aşılayannan sonra o tük buraxmırdı. Amma erkək toğlu oleydi. Xırda toğlunun dərisi tük buraxırdı, amma iki-üç illik erkək dərisində basdırırdılar ki, möhkəm olsun. Onu suya qoyuf aşılıyırdılar. Unnan aşılıyırdılar, quruyannan sonra tündləşirdi. Motalın ki ağzın bir az boş qoyurdun, hava keçəndə oksigen dəyən yer göyərirdi. Onu təmiz bağlıyırdılar, qutarana yaxın ağzın qəsdən bosaldırdılar ki, göyərsin. O göyərmiş hissədən kətə bişirirdilər, bal dadırdı. Südü sərnicdə saxlıyırdılar. Misdən hazırlanan parçda içilən suyu heç nə əvəz eləmirdi.

Hər bir evin içində su quyusu olub, qışda mal-qaranı sulamaq üçün. Qış sərt gələndə heyvanı çölə çıxartmaq mümkün döyül, içəridə suluyurdular. Onun içinin peyinini də bajadan atırdılar çölə. Bajanın da ağzına qapaq qoyur-

dular ki, qar içəri düşməsin. Mal-heyvan içəridə yeyirdi, içəridə də suyu içirdi, çölə çıxmax yox idi. Bu da iqlimin sərtliyi ilə bağlı idi (S.15).

48. *Təzə gəlinin bacasına getmək* – Bizdə bayramı ayın 20-21-i eliyirdilər. 21-də isdiyən adamlar parçanın, yaylığın arasına şirniyyat yığırdı, bir də padarka qoyurdu, gedirdi təzə gəlinin bacasına. Məsələn, təzə gəlin gəlir, gərdək asılırdı, qırmızıdan gərdək başı tikilirdi tetikli-zadlı. Gəlin gərdəyin dalında dururdu. Onun bayramına yığılırdılar, yemək-işmək verilirdi. Qurşaq günü qohum-əqraba yığılırdı təzə gəlinin başına. Hərə də öz şalının qırağına adını yazıb bağlıyırdı ki, qaytaranda bilinsin kimindi. Onu geri qaytaranda da içinə kanfet, dəsmal və ya corab qoyub qaytarırdılar. İki-üç gündən sonra bir uşağa verirdilər. Uşaq gəlirdi, açıb oxuyurdu ki, bu dəsmal Arzunundu, Arzuya verirdi. Bunu ili tamam olmayan təzə gəlinlər üçün edirdilər (S.11).

# II. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 49-50. HAL

Babam bizi yığırdı başına, danışırdı ki, atım var idi. Hər səhər dururdum at al qanın içində, tərin içindədi. Deyirdim, görəsən, bu at niyə suyun içindədi? Bir gün, deyir, qırı təmizcənə əritdim, atın belinə yaxdım. Səhər durdum gördüm muncuxlu-zadlı bir qadın oturuf atın belində. O cini də saxlıyıllarmış. Deyir, deyirdik get evi süpür, çöldə nə qədər zivil var idi, gətirif evə tökürdü. Çölün zivilini gətir deyəndə evi elə təmizdiyirdi, nətəri. Özü də o cini nətər saxlıyıflar? Evdə nə qədər iynə alıflar onun hamısını cinin bədəninə taxıflar. Ondan sonra o gözə görüküfdü.

Bir gün vedrə götürür, gedir bulağın başına su gətirməyə. Gedəndə görür ki, qonşunun qızı bulağın başındadı. Deyif ki, gəl sən üsdümdəkilərin hamısını çıxart, bu muncuxlarımın hamısını sana verəjəm. Qız da iynələrin, sancaxların hamısını onun üsdünnən çıxardır. Qızı orda suda boğuf öldürmüşdü. O vaxdı deyirdilər Qasımın qızını cin boğuf öldürüf. Nənəm deyirdi, o cin bizi qarğıyıf, zivilinizə bərəkət, bərəkətinizə hərəkət deyif (S.16).

## 50.

Rəhmətdik anam danışardı. Guya bir zahı oluf. Qabax görənlər deyiflər ki, uşağ olanda bunu hal aparacaxdı. Bunu qoruyuflar, başları qarışıf, bir də gözlərin açıflar ki, biri çıxır zahı yatan otaxdan, padnosda ürək aparır. Bu and verif, onun əlinə-ayağına döşənib ki, qaytar onun ürəyini

yerinə. Bu da deyif ki, tay bu olmaz. Gedif tooladan atın ürəyini gətirif verif zahıya. Onnan sora, deyir, arvad yaşadı, elə at kimi də kişniyirdi.

Zahının yanına bağlı qıfıl qoyardılar. Bağlı qıfıldan heç bir qada-bəla keçməz içəri. Anam burdakı bacılarıma eliyərdi. Uşağ olandan sonra qapıya bir dənə qıfıl qoyardı, eşikdən bağlıyardı (S.20).

## 51. SEYTAN VƏ ZOĞAL AĞACI

Şeytanı bircə zoğal alladır. Yaza dönənnən sonra zoğal ağacı çiçəkliyir. Şeytan zoğal ağacının divində oturur ki, bu çiçəkliyif, tez də yetişəjəhdi. Umutdu olur qalır onun divində ki, yeyəjəh. Gilas yetişir, tut yetişir, ərik yetişir, amma zoğal hələ yetişmir. Şeytanı alladır zoğal (S.37).

## 52. MARALA DÖNƏN QADIN

Biri öylənir, görür, gejə arvad yanında yoxdu. Deyir, ə, mən bunu güdəjəm, görüm, bu harya gedir. Baxır ki, bunun yanınnan astaca durdu, vedreyi qoluna taxdı, bir dağı yoxuşa çıxdı. Qayıdır gəlir, yerinə girir. Arvad gəlif vedreyi qoyuf xəlvətcə bunun yanına girəndə deyir, hardasan? Deyir, yazıxsan, soruşma. Mən məleykəyəm. Orda marallar var, mən gedif onnarı sağıram. Bunu deyif də, uçur gedir. Oğlan min dəfə peşman olur. Oğlan okqədər fikir edir ki bunun getdiyinə. Kənd çıxardır ki, filankəsin arvadını yanınnan oğurruyuflar. Oğlan bu dərtdən ölür.

Bir gün uşaxlar qəvirsannıxda top oynuyurmuş. Baxır ki, bir maral gəlif çənəsini baş daşına söyküyüf, gözdərin-

nən yaş gedir. Gəlir öydə deyir, ay baba, qəvirsannıxda top oynuyurdux. Bir dənə maral gəldi, bir başdaşı var təzə, ona söykənif elə ağlıyır ki. Bular gülüşür. Deyir, maral da ağlıyarmı? Kişi gedir, həmən o babası. Deyir, tərpənin bir gəvə gətirin. Öydən bir gəvə aparıllar, həmən maralın ayağı altda salıllar. Maral o gəvənin üsdə canını tapşırır (S.32).

## 53-54. KEYTİ VƏ MEHDİ

Keyti-Meyti dağı var, orda hündür yekə dağlar var, piləkənnən çıxırsan. Heç orya çıxa bilmirsən, biz nə zulumnan çıxırdıx. Deyirdih, ay nənə, bunun adı niyə Keyti-Meytidi? Dedi, iki qardaş oluf, birin adı Keyti oluf, birin adı Meyti. Bunnar ayı ovlamağa gediflər, gedəndə o biri qardaş ayını görüf tez vuruf. Ayının dərisini götürüf özünə geyinif. Bu biri qardaş elə bilir ayıdı. Ayını vuruf, yaxın gələndə görüf öz qardaşını vuruf.

Biz o qəbri ziyarat eliyirdih. İki dənə qoşa qəbir o dağın başındaydı. Bərdədən bizə qonax gəlirdi, atam hamısını aparırdı o bulaxların başına, o Keyti-Meyti dağına aparırdı (S.16).

## 54.

Molla Pənah Vaqifin qardaşı oluf Piri. Deyir:

Murov sənnən,
Getməz qar, qırov sənnən.
Yüz il ovçulux elədim,
Vura bilmədim bir ov sənnən.

Ova gedillər. Deyir, sən o tərəfdən hərrən gəl, mən də bu tərəfdən hərrənim gəlim. Keyti bir dənə cüyür vurur.

Böyük dağdı, qardaşı hərrənif gələnə kimi dərisin soyur. Görür, qardaşı gəlir. Deyir, dəriyə bürünüm, görüm qardaşım nə iş görür. Qardaşı baxır ki, bir dənə cüyür var. Nişan alıf atır. Gəlif görür ki, qardaşın vuruf. Onda o şeiri yazıf. Deyir:

Başı qarlı uca dağlar,
Xub əsər yellərin sənin.
Yayın, qışın bəlli deyil,
Qar qucar bellərin sənin.

Piri deyər, budu yurdum,
Nişan aldın, gendə durdun,
Düz gözlədin, sərrast vurdun,
Qurusun qolların sənin.

Ovçu Piri Molla Pənah Vaqifin süd qardaşı oluf. O bu dağlarda[23] ovçulux eliyifdi. Qardaşın öldürənnən sonra özün də vurur. İkisin də Keyti dağında yanaşı basdırıllar (S.25).

## 55. DÜLDÜLÜN İZİ

Qalakənd[24] misginlilərin axırıncı kəndidi, ordan ayna başdıyır yaylaxlar. Dağı da aşırsan ayna, düşürsən Göyçəyə. Demək, Göyçəynən Gədəbəyin arasındadı o. Bir dənə daşın üzündə... Mənim hardasa yeddi-səkgiz yaşım olardı ora yaylağa gedəndə. Baxırdın belə daşdı, daşın üsdündə at ayağının izi var. Düldülün izidi deyillər (S.3).

---

23 Murovdağı nəzərdə tutur.

24 Gədəbəy rayonunun kəndidir.

## 56-57. ƏLİ BAYRAMI

Deyir, Əli qırmızı geyif taxta çıxanda mənim kimi bir kasıf oluf. Hamı xonça tutur, içinə şirniyyat qoyur, bu da deyir mən nə aparım? Dönüf gül yığır, Novruzgülü deyillər. Xonçasına qoyur, qırmızı kəlağayı da atır üsdünə. Qurban olduğuma ayan olur da. Deyir, ən axırıncı xonça mana gəlsin. Bu da utana-utana gedir ki, məndə şirniyyat yoxdu, mənim xonçam o birilərindən zəyifdi. Belə kəlağeyini götürür ki, gül yığıf. O kasıbı birinci qəbul eliyif Qurban olduğum Əli. Hamının imkanı oluf yemək, şirniyyat aparıf, mənim kimisinin də imkanı olmuyuf. Deyif, camaatdan niyə seçilim? Elə mən də gülü yığım, aparım. Bu da qurban olduğuma ayan oluf. Bax, Novruzgülü onnan qalıf. Bizim dövrdə uşaxlar bir bayramda sevinirdi, bir də məktəb açılanda (S.24).

### 57.

Qağam həmişə danışırdı, deyirdi Əli qırmızı geyinif taxta çıxıf. Kanal qazıllarmış düşmən gəlməsin deyə. Bir kişi də payın qazır, gəlir evə. Gəlir ki, yoldaşı yemək hazır-ramıyıf, aj yatmalı olur. Səhər-səhər onun qazdığı xəndək dayaz olur. Düşmənnər burdan hücuma keçəndə Cənab Əli bunu bilir. Deyir, tonqalları qalıyın, hamı oyansın, düşmən hücuma keçif. Qağam yaxşı danışırdı, yadımda qalan budu. Bayramda tonqal qalamax ordan qalıb. Bayram gələndə, Allah rəhmət eləsin, qaynanam on altı, on yeddi yerə pay qoyurdu. Bir ay gələn-gedən əlindən mən vaxt eliyib anamgilə gedə bilmirdim. Bayramlaşmaya gedəndə alma, yumurta aparılırdı, uşaxlara təzə paltar alınırdı (S.10).

## 58. PİR OCAĞI

Pir ocağı qədimi ocaxdı. Orda gejə qaz yanırdı. Üç dənə ocax kimi daş idi, bizim kəndin üstündə idi o, dağın başında idi. Kalidor kimi idi, üstü bağlı idi, amma o ojax dördkünc idi, topa daşlarnan hörülmüşdü başı, amma ocağın üstü açığ idi. Kalidornan gedirdin ora, divarları öpə-öpə gedirdik. Dağın kəlləsində idi. Daşlardan hörgü idi. Hər dördüncü gün ordan işıq gəlirdi, elə bil nəsə yanırdı orda. Göyçə çuxuru vaxtı ilə dəniz olub. Orda daşların üstündə ərp var idi. Camaat o dağların başında yaşıyırmış. Orda qəbirlər də var idi. Pir ocağına gedəndə daşlardan öpürdük, nəzir qoyurdux, bəzən camaat aparıb orda heyvan kəsirdi. Çox adam and içəndə ora and içirdi ki, Pir ojağı[25] hakkı. Camaatın and yeri idi (S.25).

## 59. ARPALININ OCAĞI

Biz Həmzəli dərə deyirdik, onun altında üş yüz metr aralı bir ocax yeri var idi. O dərənin ayağını ildırım tutmurdu. İldırım çaxanda deyirdilər, ocağa tərəf düşün kü, oranı ildırım tutmur. O dərənin ayağında Arpalının ocağı yerləşirdi. Məhərrəmlik girməmiş bizim babalarımız dağa çıxmazdarmış. Elə olur ki, bular tarixi təyin edə bilmiyiflər. Gecə qalxıflar ki, evdə arvad yoxdu. Gün qalxannan sonra bir də baxıflar ki, arvad enif gəlir. Deyif ki, mən üş dənə qadınnan getdim ocaxları ziyarət elədim. Mənə dedilər ki, Şəbəndə kişiyə denən ki, köçü aşağı gətirsin, məhərrəmlik

[25] Çalmalı dağının ətəyində yerləşir.

girmiyif. Bular məhərrəmlik olmamışdan qabax çıxıflar yaylağa. O gəlif deyənnən sonra köçü gətirmişdi, təzdənnən qurban kəsif paylamışdı, ocağı ziyarət eləmişdi. İki həftədən sonra təzdənnən bir də köçü aparmışdı. Dediyim ocax dərənin ayax tərəfində idi, ildırım həmişə oranı tuturdu. Ordan yuxarda Arpaaltı deyilən yerdə bir neçə dənə sınaxlı adamların qəbri var idi. Oranı gedif ziyarət eliyirdilər.

Ən çox Arpalının ocağına gedif itayət eliyirdi bizimkilər. Ocağın qırağı hörülü idi, içəridə bir dənə qəbir var idi, aşağıda da yekə daş idi. Birinci o daşa itayət eliyirdilər, gəlirdilər ocağa, fırranırdılar. Həmzə dərəsinin altında yerrəşirdi, böyründə də Qaraquzeydi, meşə. Yasdı daş var idi, qurbanı da orda kəsirdilər (S.44).

## 60. QARADAŞ OCAĞI

Bizdə ojax var idi, Qaradaşın ojağı. Gəncədən, Bakıdan ora ziyarətə gəlirdilər. Qara daş idi, ortasında belə bir dəmir var idi. Deyirdilər, Cənab Əmirin toylamıxıdı[26]. Onu bir nəfər haravaya qoyuf gətirif ki, divara hörsün. Ağsaqqallar xəbər tutuf gəliflər ki, daş öz-özünə çıxıf gedif həmən yerinə. Alt tərəfində əlli metr aralıda bulax var idi, Avdulla bulağı deyirdilər. O kişi onu düzəltmişdi. Həmən ojağın üsdə məqbərə tikdilər, amma çox sınaxlı ojağ idi. Mən bura köçəköçdə onu gətirəjeydim. Rusdarnan işdiyirim. Dedim, kömək eliyin bunu aparax, onda tək səbir gəldi. Qorxdum, tərpətmədim, and olsun Allaha.

[26] toylamıx – atı bağlamaq üçün yerə basdırılan uzun dəmir parçası

Mən aprel ayın on altısında çıxmışam ordan. Üsdümdə stroymaterial çox idi, izdavat verəmmirdim. Ermənilər kəndə dolmuşdu deyə mən vayenni ilə qalırdım orda. Bir erməni gedif, – yəqin deyiflər burda qızıl var. O gözümün qabağında oldu. – qırmışdı o daşı. Həmən erməni də Mirzik[27] kəndindən idi, Mehralı kişiynən evin dəyişmişdi. İnan Allaha, mən kəntdə idim. Dedilər, Vartanın evi yanır. Elə bil daşdan od belə daranırdı bax. Onu mən öz gözümnən gördüm. Toylamıx dediyimizi İsgəndər gətirif Zəki İslama vermişdi. Həmin toylamıx bu saat Bakıda onnarın evindədi. Deyirəm evi elə alışdı, Allah sən saxla. Belə baxırdın elə bil daşı, ay Əli[28], elə bil üfürürsən. Bax, helə yanırdı. Ojağı adna axşamı ziyarət eliyirdilər. Nəzir qoyurdular ojağa, uşaxlar da götürürdü (S.40).

## 61. ŞAH OCAĞI

Bizdə Şah ocağı var idi, Şah dağın başında. Kimi deyirdi Şah Abbasındı, kimi deyirdi şeyx oğlu Şah Abbasın qəbridi. Hündür məqbərəsi-zadı, böyüh də qəvirsannığ var idi orda. Onnar orda soyuğa düşüb qırılmışdılar. Orda məqbərəsi var idi. Qabağında, deyirdilər, onun yoldaşının qəbridi, içəridə də Şah Abbasın özünün qəbridi. O vaxd yol oraynan gedirmiş. Gədəbəyə enəndə oları soyux qırmışdı. Həmən şahın özü orda rəhmətə gedif. Ona da məqbərə tikmişdilər, belə hündür məqbərə idi (S.40).

---

[27] Göygöl rayonunun kəndi

[28] Yanındakı adama müraciət edir.

## 62. MAYMAX OCAĞI

Maymaxda su qaynıyırdı, suyun içində muncux qaynıyırdı. Erməni də qoyun otarırmış. Erməni deyir ki, mən o ziyarətin yanına çıxım, dörd dənə qurban kəsəjəm. Çıxır, sən də məni bağışda, tutuf dörd dənə bit öldürür. Elə bil qoyundu, çobandı, elə daş kəsilmişdi. Ora hər adam çıxa bilmirdi, niyyəti qəbul olan adamlar çıxırdı. Maymax dağı uca dağın başında idi, bu tərəfindən də su axırdı, o tərəfindən də. O vaxdı qardaşım traktor sürürdü. Avariya eləmişdi, atam rəhmətdik demişdi ki, Maymaxda aparıf qurban kəsəjəm. Biz ora gedəndə – qonşunun yeddi qızı var idi, – anama dedi, nolar orda yüyrəh qur, gör mənim oğlum olajaxmı. Anam rəhmətdik də iki dənə ağac basdırdı, kəndirdən yüyrəh qayırdı, əl dəsmalını kəndirin arasına bağladı, ortasına da ziyarətdən götdü daş atdı. Daşı atanda daş üş dəfə yelləndi. O arvadın yeddi qızdan sonra üş dənə oğlu oldu. Birinə də qurdux, daş atdıx, daş eləcə də qaldı, yellənmədi. Allahın adı hakkı. Dördüncü gün biz ziyarətə gedirdik, altı-bazar ermənilər ziyarətə gəlirdi (S.24).

## 63. ÖYSÜZ OCAĞI[29]

Öysüz ocağında yerdə bir dənə daş bitirdi. Hər il o yerdən qalxır, böyüyürdü. Elmdə belədir ki, yağış, külək, karroziyaya uğrayır, o daha da kiçilməlidi. Amma o daş hər il böyüyürdü. Ziyarətə gələnnər o daşı ziyarət eliyirdi, qurbanlar kəsirdi. O daşın böyründə qurban kəsmək üçün yerlər düzəlmişdi (S.2).

[29] Basarkeçər rayonunun Pəmbək kəndində yerləşir.

# 64. QƏBUL EVLİYASI[30]

Oranın mən hökmünü nədə gördüm? İl qurax keçirdi, kalxoz sədirləri yığılıb axşamları söhbət eliyirdi. Uşaxların biri dedi ki, köhnə kişilər yağış yağdırırmış, qurban kəsirmiş. Sabah gəlin gedək biz də Quran oxudax. Mənim buxaltırım var idi, onun dədəsi molla olmuşdu. Bu dedi ki, anamda möhür var, möhürü də alım, nə oxumax lazımdı onu da örgənim, gedək oxudax, o möhürü suya salax, yağış yağsın. İl elə qurax keçirdi, taxıllar yanırdı. Mənim də müdirim var, bu da qarnın otarır. Hara gedirsə yeməksiz getmir, özünnən yemək aparır. Onun üçün maraxlı döyül taxıl oldu, yağış yağdı, onun üçün yemək maraxlıdı. Yaxşı yemək hazırradıx, çıxdıx Qavıl ölüyası dediyim yerə. Ordan bu tərəfə gedirsən, bir bulax var. Möhürü saldığın bulaxda gərək səs-küy olmaya, lal axan su ola. Orda gölməçə kimi su vardı. Yanında adam olmasın. Təkcənə getdi, orda möhürü saldı, oxudu elədi, gəldi. Bu qarnın otaran dedi ki, ordan bura gəlmişik, gedək çörək də yeyək da. Özünnən hər şey də gətirif. Meşənin qırağı idi, getdik surfanı saldıx oturdux. Dedim, ayə, siz möhür salıfsız suya, bu arağı surfaya qoymuyun. Arağı çıxardı surfanın üsdünə qoydu. Hələ arağın ağzı açılmıyıf. Möhürü salıf gəlmişik, beş-on dəyqə vaxt çəkif. Gördüm dağların başınnan bir göy guruldadı, bir qara bulud qalxdı, bir yağış tökdü, yağışın dənələri belə (əli ilə göstərir – tərt.) idi. Dedim, ə, qaşmıyın, gizdənmiyin, bu ruzudu, qoy yağsın. Surfa da qaldı yağışın altda, özümüz də yağışın altda oturdux. Elə bu uşaxların biri

---

[30] Göygöl rayonunun Balçılı kəndinə yaxın ərazidə yerləşir.

dedi, bu yağışın sağlığına bir əlli qıram süzün, vurax. İnan, birinci yüz qıramı vurdular, ikinci yüz qıramı vurmağ isdiyəndə o bulud nətər qaynamışdısa, o qaydada çəkildi, dalınnan gün çıxdı. Ə, – dedim, – sizə dedim mındar-ramayın buranı. Ocaxda möhür oxuduf gəlifsiniz!

Aşağı qayıdanda Qavıl ölüyasının yanınnan keçif gəlirdik. Mənim buxaltırım dedi ki, mənim nəzirim var, qoy bura nəzir qoyum. Dedim, a Mürsəl, sən içkilisən, dilinə arax dəyif. Dedi, onca qıram dəyif. Dedim, lap beş qıram olsun, dilinə dəyif, dinnən bu tutmur. Dedi, yox, o pulu taxçanın üsdünə qoyuf çıxajam. Ocağa da qabax-qabağa girirsən, dal-dala çıxırsan da. Bu girdi, yeni çatmışdı, əlini uzatmışdı ki, biz də çöldə maşında otmuşux, bir də gördük bunnan bir çığırtı çıxdı. Dala baxmadan qaçır, az qaldı maşını avqon eləsin, helə qaçır ha. Bunu saxladıx. Noluf? Deməli, Allaha fida olum, əlini ora uzatdığınnan arı nətər vurmuş-dusa, qolu şişmişdi. Doxdura gösdərdik, doxdur iynə vurdu, vaksin elədi. Dedim, sana dedimmi girmə, içkilisən, o ocax sınanmış yerdi. Bax, onda gördüm o ocağın hökmünü.

O vaxdı biz dağa gedərdik ora. Dağa gedəndə niyyət edirdilər, sağ-salamat qayıtsax, ora nəzir verərik. Biz uşax olan vaxdı pul qoyulmurdu, fəsəli bişirib qoyurdular (S.41).

## 65-70. MİSKİN ABDAL OCAĞI

Sarı Yaqubda Misgin Abdal ojağı var idi. Mənim bir qardaşım var idi, bir az özünü yaxşı idarə etmirdi. O yadımdadı ki, anamnan qardaşımı aparıb o ojağa daxıl düşdük. İndi bilmirəm düz eliyirdik, səhv eliyirdik, inanıb gedirdik. O yadımdadı ki... Özü də gözümnən görmüşəm ha.

Belə bir kasa idi, misdən olardı yəqin ki, içi də yazılı idi. İçinə qaşıx qoyurdular, su tökürdülər. İndi bilmirəm, nəsə oxuyurdular. Deyirdilər ki, əgər bu su qaynasa, bilin ki, köməhlik olajax. Yox, su qaynamasa, xeyri olmuyajax. Mənim o qardaşımda su qaynamadı. Amma ayrı məsələyə baxdıranda su elə bil ki, altda qaz yanır, elə qaynıyırdı. Belə bir möcüzə idi. İndi həmin ojağ Goranboyun Qaradağlı kəndindədi. Olar bir dəfə köçüflər harasa, ojağın da əşyaların aparıflar. And içillər ki, yatıf duruflar, əşyaların heç hansı yoxdu. Qayıdıf gəliflər ki, Sarı Yaqufda həmin ojaxdadı (S.7).

**66.**

Hüseyn Arif gəlir Kəlbəcərə, Kəlbəcərdən də gedir Misgin Abdal ocağına. Onda mən özüm orda məəllim işdiyirdim. Gəlillər orya. Ocaxda oturannan xayiş eliyillər, o kasanı verin aparax, Azərbaycanda göstərək, qaytarıf gətirərik. Biz Qumlu bulax deyirdik Kəlbəcərnən bizim aramızda. Ora çatanda Kəlbəcərli də olub, bizim Ağkilsədən də kimsə olufdu orda. Deyifdi, ə, bunu aparmayın, hava qarışır. Bu sizə xeyir vermiyəjək. Burda ürəklərini dolandırıllar ki, aparax, qaytarmıyax. Baxıllar, doğrudan da, vəziyyət pisdəşir, qaytarıf qoyullar yerinə ki, biz səhv eləmişik (S.27).

**67.**

Göyçədəki kəndi[31] Şah İsmayıl ona barat verib. Misgin Abdal orda yaşamıyıf, dərviş oluf, dərvişin də vətəni olmur. Biz öz kökümüz olufdu Səbətkeş, misginlilərin kəndidi. Çalburun, Səbətkeşməz, Qarabulax – bular hamısı

[31] Sarıyaqub kəndini nəzərdə tutur.

böyür-böyrədi. Qarabulaxdan da bular gəlir Soyuxbulax kəndini salırlar. Abdalov Vaqif yazır ki, onun evlatdarı iki familyanı daşıyır, bir Bağırov, bir Abdalovlar. Bağırovlar bizik, Abdalovlar olardı. Miskin Abdal əşyalarını, Dəmir əmimgilin deməyinə görə, qızına cehiz kimi verib. Babanın xurcunudu, yediyi qabdı, hasasıdı, əşyaları cehiz kimi qız övladına verilib. Yusifov Əli varıydı, ən çox onu istiyirdilər, çünki həmişə xeyirdə-şərdə Göyçəyə gedib gəlirdi. Bizi olara göstərib deyirdi ki, bular sizin dayılarınızdı.

Hallavardakı ojağ armud ağacıdı. Orda onların qoruq yerləri olub, Şahsevənlər deyillər, at-ilxısını gətirib orda bunun qoruğunu otaranda – bunun bir yoldaşı rəhmətə gedif, başqa qadınla evlənir, onun yanında ayrı oğlu olur, Şadman adlı, – deyir ki, baba, gəlif bizim qoruğu otarıllar. Deyir, sənin işin yoxdu olarnan, mən özüm bir kəlmə deyəjəm, çıxıb gedəjəklər. Babanın da ojağına marallar gəlir, orda ha – Maymax dağına. Deyir ki, yaxşı, heç bir şey eləmərəm mən olara. Bizim ojağa marallar sağına gəlirmiş, and ola Allaha. Axşam şər qarışır, marallar gəlməlidi, marallar gəlmir. Qadın da yanındadı. Deyir, a kişi, bular gəlmədi. Bir də belə baxıllar, ayın işığında 4-5 maraldı, belə cərgəynən gəlir ojağa. Nənə bunu sağanda görür kü, südün içində qan gəlir. Deyir, a kişi, maralın südündə qan gəlir. Deyir, o əclafı çağır bura, o mənim ojağıma qan saldı. Armud ağacına söhbəti gətirirəm ha. O bunun üsdünə gələndə deyir ki, sən nağardın? Deyir ki, olardan birini vurmuşam. Oxnan vuruf. – Ə, mən sana nə dedim? Ojaxdan kösöyü götürür atır buna, indi rəvayətdi da, o sancılır yerə, göyərir. İndi and içillər ordan gələnnər, həmən armudun bir üzü yanıx, bir üzü göm-göy. Niyyəti olannar başına o qədər parça bağlıyıflar (S.3).

**68.**

O vaxtı şahın dəstəsinnən döyüşçülərdən bir qrupu azıf. Ajdılar, hardasa iki yüz nəfərə qədər oluf. Baxıllar ki, oba görükür, tüsdü çıxır. Soruşuflar, deyiflər ora Misgin Abdalın obasıdı. Üz tutuflar ora. İndi rəvayətdi, gördüyün həmən taxta çanax varıydı, onnan qatıq, bir də bir kömbə çörək qoyub qoşunun qabağına. Gülüllər ki, bunu iki adam yeyər. Deyib, siz yeyin, çatmasa, genə verəjəm. O qədər Allah ona ruzi verir ki, yeyiflər, qurtarmır. Nə qatıx qutarıf, nə çörək. Ondan sonra deyir, barmağını belə qoyur ki (söyləyici hər əlinin iki barmağını çarpaz şəkildə üsd-üsdə qoyur – tərt.), baxın arasınnan. Baxır ki, qeybdən məleykələr bişirir çörəyi gətirir, gətirir, qurtarmır. Həmən o taxda qab indi ojaxda durur. Onun içində yemək yeyifdi. Onun içinə Əsmatel arvad suyu tökürdü cuma günnəri, niyyət hasil olanda o su qaynıyırdı. Olmuyajaxsa, sakit dururdu. Taxta çanağıdı, şəcərəsidi durur, canamazı, xurcunudu. Onu düz deyir ki, Nəsibin anasının bizə aidiyyəti yoxdur. Səməd məəllim də deyirdi ki, südümüz sizdəndi, amma kökümüz Misgin Abdala qarışmır. Oğul nəsli bizik (S.3).

**69.**

Şah İsmayıl Xətayi, deyir, çayın qırağında durmuşdular, şahın əlində qamçı varıydı dəstəyi qızıldan. Əlindən düşür, Araz götürüb aparır. Ohafsananda[32] Misgin Abdal deyir, narahat olma. Bir kilometir aşağı düşək, qamçı daşa dolanıf duruf ordadı. And olsun Allaha, gedillər ki, qamçı daşa dolanıf duruf. Bax, bu babanın uzaqgörənniyidi (S.3).

---

[32] Ohafsananda – təəssüflənəndə

## 70.

Rəhmətdik Nəsib danışırdı maa. Deyir, yatdım, yuxuda gördüm qoyun quzu doğuf, qulaxları kərədi. Yoldaşım da, deyir, Sürəya arvad uşağa yatıf. Yuxudan ayıldım. Dedilər ki, ə, gözün aydın olsun, oğlun oldu. Dedim, onun bir qüsuru-zadı yoxdu ki? Dedilər, yox, yox, heş nə yoxdu. Gəldim ki, qulaxlarının ikisi də quzunun qulaxları nətər kərədi, bax qulaxları elədi. Belə qabaxdan danışırsan eşidir, arxa tərəfdən danışanda eşitmir. Misgin Abdalın qızının adı Sənəmdi. Nəsibin anası orda oturuf deyə Qız Nəsibi deyillər. Əsmatel arvad Nəsibin anasıdı (S.3).

## 71-75. AĞADƏDƏ

Ağadədə etibarlı ocağ idi. Qəbirsannıx da var idi, aparıb ölüləri müsəlmannar ora basırırdılar. Bəzən ermənilər yalvarırdı ki, bizi də o ocağa apar. O qədər inamları varıydı ki. Həqiqətən də, bu mənim gözümün qabağında olan hadisədi ki, gedirdilər, orda nənni asırdılar. Əgər saf niyyətnən o erməni ora gedibdisə, onun nəziri qəbul olurdu. Allah ölənnərinizə rəhmət eləsin, anam, atam... Heyvandarrıx olufdu bizdə, qoyunumuz, camışımız, inəyimiz sürüynən olub qapımızda. Hər il biz o ocağa qurban aparırdıx, qada qurbanı deyirdih, aparırdıx. Bir avtobus müsəlman gedirdi ora ocağa. Yay fəsli olurdu, hər şeyin bol vaxdı olurdu. Meyvələrdən, qarpızdan, yemişdən götürüb bir avtobus adam, biznən də bərabər qonum-qonşu gedirdi o ocağa. Hətta mənim mamama yalvarırdılar ki, Səhnə bacı, əgər niyyət eləsəh, bizi də o ocağa apararsız? Mamam da dedi ki, siz müsəlman adətinnən gedin, aparım. Yuxarıda

Allah, aşağıda da o ocax. Demirsən evladım yoxdur? Qoy olsun uşağı, amma sidq ürəynən. Siz əlinizi heş nəyə vurmayın, heş nə aparmayın, yalnız meyvə götürün. Savxozda da işdiyirdih, pomidoru, xiyarı, badımcanı – hər bir şeyi savxozdan yeşihnən gətirdi həmin o briqadir qızına görə, qoydu maşına. Anam, atam, bizlər onu suya çəkdik salavatdadıx, apardıx getdik. İki dənə erməninin, həqiqətən də, o nənnidə niyyətləri qəbul olundu. Ona görə o ocağa niyyət eliyən ermənilər də varıydı. Məscidimizə ermənilər niyyət eliyirdilər. Məscid uçmuşdu, erməni o sahəni almışdı, amma o məscidi uçura bilmirdi. Kran gətirirdilər, qırılıb işdəmirdi. O qədər inam varıydı ermənilərdə o ocaxlara, məscidlərimizə...

Nənni quranda belə kukla kimi bir şey də qoydular. O nənni yellənirsə, qəbul olunurdu, Yellənmədisə, deməli, saf ürəynən getmiyifsən, qəbul olunmurdu. Qurbanı orda kəsirdih, soyurdux, orda da o millətin hamısı yeyirdi. Ürəyi isdiyən də deyirdi, evdə xəstəm var, bir beləcənə aparımmı? Hə, apar. O bir dənə qurban bir avtobusun hamısını görürdü. Tək qurbannan söhbət getmir e. Ora qatıx, pendir, süd aparırdıx, yayma bişirirdih. Ocaxda hər bir şərait var idi. Xəstə gedirdi, orda sağalırdı. İnvalid bir il, iki il dalbadal niyyət eliyirdi gedirdi, sağalırdı gəlirdi. İnam çox idi o ocağa (S.36).

**72.**

Mən ocax görüb gəlmişəm da. İndi də o Ağadədənin adını çəkirəm, bəzən yas yerlərində pul verirəm, deyirəm ona salavat çevirin. İnamlı ocağ olubdu ora. Mənim körpə vaxtı bacım avariyaya düsdü, təsəvvür elə, heş kəs inanmırdı ki, o sağalsın. O rəhmətdiklər ora qurban apardılar,

birinci ili qucaxlarında apardılar, ikinci yay gələndə qəsdildə apardılar, üçüncü yay gələndə qəsdilləri atdı bacım, o ocaxda yeridi. Həmən o qurbanı maşından düşürəndə rəhmətdik atam dedi ki, dəymiyin, əgər bu qəbul olubsa, özü dalımnan gələcək. Qoyun düşürdü atamın dalına bax belə, and olsun Allaha, özünün qurbannığı hakkı, sus-bus gəlirdi dururdu atamın yanında, belə baxırdı. Üzü qibləyə atamnan dururdu. Atam başını kəsirdi, soyurdu, təmizliyirdi. O bir illik quzunun əti nətər qazanı dolurdururdusa, bir avtobus adam yeyirdi, yenə artıx qalırdı. Bir dəfə anam dedi ki, ay Musa, bu quzu balacadı. O qədər adam niyyət eliyir mənnən gedir ki, utanıram bir balaca quzu aparam. Yas yeri varıydı. Yas yerində molluya atam sual verdi ki, arvad məni yoldan çıxardır. Mən bu qoyunu qurban demişəm, aparacam Ağadədəyə. Arvad da yoldan çıxardır ki, gəl bunu qoy evdə, o biri yekə qoçu aparax gedək. Qoy millət doyuncax yesin. Molla qayıtdı dedi ki, oğlum, adın peyğəmbər adıdı, arvadın söhbətinə qulağ asma. Bunu deyifsən, bunu apar. Allah sənin qazanı elə dolduracaxdı ki, sənin millətin aj getməyəcək. Apardığın adamın yanında səni utandırmayacaxdı. Çünkü sənin qəlbin təmizdi. Adam tanıyıram dediklərini deyil, başqa heyvanı aparıblar. Qayıdıf gələndə görüblər qurban dedikləri üzü qibləyə mundar olub. Bunu mən sənə deyirəm, qulağında sırğa elə, bala. Heş vaxd dediyinnən dönmə, bunu deyifsən, bunu apar. Onnan sonra atam bir illik quzunu aparıf. Allah ona elə bərəkət verif ki, qazan qaynıyıf daşıf, hamını bolabol görüfdü. Hərə lavaşın arasında, buxçasında gətirirdi evə, belə yox, bax belə üzümüz ağ gəlirdik hamımız. Yanı əsas inamnandı, qəlbin təmizliyinnəndi. İndi o qurban bayra-

mında da biz qurbanımızı kəsirdik, paylıyırdıx bütün qonşulara. Bəzən ermənilər deyirdi ki, mən də isdiyirəm o qurbannan yeyəm ki, o qurban mənə də qismət olsun. Deyirdi ki, Allahımı çağırıram, verirəm. Mən Allahımı çağırıram, sənin də qazanın qoy qaynasın. Erməni də yeyirdi, müsərman da yeyirdi o qurban ətinnən (S.36).

## 73.

Arazın qırağında Ağadədə ziyarətgahımız var. Bir nəfər o vaxdı Bakıda oxuyurdu, dili tutulmuşdu. Ağadədənin sağlığında olub. Ona da demişdilər ki, ged ora da. O da nətər olufdu? Eşitdiyimi deyirəm. Pul veriflər Uluxannıdan, o da burda oxuyur. O vaxtı Bakıda oxuyan az imiş də ki, apar ver Ağadədəyə. O da cavan uşağdı, pul lazım oluf, xəşdiyif, vermiyif. Onnan da dedilər bunun dili tutuluf, danışmır. Odu ki, bunu gəlib aparıflar onun yanına. Ağadədə bunu qəbul eliyif. Deyif ki, aparın, sizdə ocax var, o ocağa. Orda qurbanın kəsin, dili açılacax. Bular da gəlillər bir dənə heyvan alıllar, o ziyarətgah da Zəngi çayın qırağındadı. Oların dediyinə görə, deyir ki, qoyunu düşürtdüh, özümüz də maşınnan düşdüh, düşən kimi bu oğlan ocağa tərəf qaçıb, özünü verib Zəngi çayının qırağına. Onnan sora dili açılıb. Onnan soruşullar ki, nolmuşdu? Deyir ki, çayın qırağında bir nəfər dayanmışdı, məni çağırdı, mən getdim, dilim açıldı. Belə söylüyüllər, danışıllar. Yani, bu ocax güjdü ojaxdı (S.34).

## 74.

Ağadədəyə ermənilər bir az barmağarası baxırdılar. Deyirdilər, orda arağ işmək olmaz. Bir həkim vardı, qadın həkimi idi. O, üş-dörd həkim oturullar jiquliyə, deməli,

Ağadədəyə gedən yolun bu qırağı kanaldı, gedillər, ocağın yanında oturullar, yeyillər-içillər ki, qoy ocağ bizə qənim olsun. Qayıdıf gələndə maşın aşıb kəlləsi üsdə kanala. Kanal suynan palçıxdı deynən ölməmişdilər. Onnan sora ocağa toxunmadılar (S.34).

**75.**

Məçidimiz vardı orda, erməni qadınnar o məçidə Aşura, Tasua günü nəzir verirdilər. Kimi bir meşox qənd, kimi xalça verirdi. O məçid də polis idarəsinin yanında idi, arasında əlli metr məsafə vardı. O məçidin xalçaların oğurramışdılar. Orda Əlixan adında bir kişi var idi, bizim qohum idi. Mən onnan soruşdum ki, xalaoğlu, deyillər məçidin malın yemək günahdı. Dedi, xaloğlu, nə bilirsən ki, məçidin xalçaların aparannar hadisəyə rast gəlmiyiflər? Allah oların cəzasın verif.

Rayonun içində məçid var idi, çiy kərpişdən tikilmişdi, uçmuşdu. Heş kəs əlini vurammırdı, nə erməni, nə müsəlman. Bizim azərbaycannılar orda su idarəsində işdiyirdilər. Rayonun mərkəzində olduğuna görə raykom katibi demişdi rayona xələl gətirir, bunu təmizləmək lazımdı. Amma materialını aparın Ağadədəyə tökün, orda istifadə eləsinnər. O məçidi sökdülər, ağaşdarın yığdılar. Lapet gətirmişdilər ki, çıxan taxtaları ora yığsınlar. Su idarəsində işdiyən azərbaycannıların iki-üçü qohum idi. Şəmil adında kişi idi. Raykomun katibi gəldi ki, şalbanları götürün atın. Dedi, yox, biz atammarıx. Onu atmamışdılar. Katibin özü o şalbanın birin götürür atır lapetə. Deyir, birinci mən atdım, nə hadisə olsa, mənə olajax. Yühlüyüf aparıf tökmüşdülər ora. Onun böyründə qonşu erməni yaşıyırdı. Onnarın biri

gedif məçiddən daş gətirif qapısının ağzına qoyur. Arvadı deyir ki, gejə gəldilər yuxuma girdilər ki, daşı hardan gətirifsən qoy yerinə. Aparıf qoymamışdı. Bir müddətdən sonra gənə gəlif yuxularına girif ki, aparıf daşı qoyun yerinə. Aparıf daşdarı qoymuşdu yerinə. Onnan da bularda inam yaranmışdı ki, azərbaycannıların məçidinə əl vurmaq olmaz. Nəzir də verirdilər (S.34).

## 76-80. SEYİD BAYRAM

Göyçə mahalında ən dindar kənd Daşkənd olub. Seyid Bayram gəlib Çaxırrıya. Kəndin ortasından çay axır. Gejə duruf çayda əl-üzün yuyanda görür başaçıx bir arvad bunnan yuxarıda su doldurub apardı. Bu gəlir qaldığı evdə deyir ki, burda qadınnar niyə başı açıx gəzir? Deyir, nədi, ay seyid? Deyir, belə-belə. Deyir, o haxçıxdı. Ondan sonra orda dayanmır, arıyır axtarır, gəlir Daşkəndə. Daşkənd ən dindar kənd oluf. Orda ev tikirlər, orda evlənir. Onun arvadı Pəri qarı deyirdilər, nərimannıdı.

Çoxlu möcüzələri olub. Yatıb yuxusunda görür, – yoldaşı hamilə imiş, – obaşa yaxın qapıya maral gələjək. Ona agah oluf. Çanax deyirdih. Ora o vaxdı meşəlik oluf, ordan enif gəlif düz bunun ojağına. O maralın da deyirdilər ki, balası durmurmuş, balasın nəzir gətirir orya ki, qala. Gəlir, bunu sağır-eliyir. Maral gedəndə qoymur balası dalınca gələ. Seyid Bayram əlin çəkir belinə, balası maralın dalına düşüb gedir.

Yuxusunda görüb ki, zağa uçajax. Avdı da kasıb ayləymiş, zağada qalırmış. Deyir, Avdı, zağa yatacax. Deyir, bu seyidin axlına nə düşüb? Bu zağa niyə yatır? Obaşdan yol-

daşın qaldırır, deyir dur. Avdının zağası yatır, külfət altında qalır. Dədəm deyirdi, bir həftə xoruzun səsi, malın böyürtüsü ordan kəsilmədi. Yekə-yekə qayalar düşüb, zağa yatıb, altında qalmışdılar (S.5).

## 77.

Seyid Bayram, – Allah rəhmət eləsin, – çox sınaxlı seyid idi. Onun mən bir möcüzəsin danışım. Daşkənddə qəvirsannıxda beş-altı dənə kümbəz var idi. O kümbəzdərin dördünün üsdü eləcənə püşt[33] idi, amma onun kümbəzində bir dənə püşt tapa bilməzdin.

O gecə yatır. Qayalıx var idi, kəndin yarısı o qayanın altında idi. Böyük qayalığ idi. Gejə yuxuda buna deyiflər ki, camaatı çıxart ordan, dağ uçacax. Bu gəlir camaata deyir. Bir az ağıldankəm olanlar deyir, əşi, bu da yalannan danışır. Noldu, indiyə qədər uşmadı, indi uçacax? Bu özünnən söz qurraşdırır. Bu nə qədər and-aman eliyir, deyir, vallah, yuxuda mənə deyiflər. Buna heş kim inanmır. Dörd-beş ev çıxır bunun qohumlarınnan, qalanın qaya basmışdı, bir adam çıxarda bilmədilər. Ermənilər də Seyid Bayramın ojağına ziyarətə gəlirdilər, orda qurban kəsirdilər. Çox sınaxlı seyid olub (S.33).

## 78.

Səksən səkgizinci ildə Daşkəndə də emənilər doluşuf. Seyid Bayramın evi gözəgəlimli ev idi. Hətta rəhbər işçilərdən də kimsə deyif ki, ara, ora girmək olmaz. Biri zornan gedif, donuzu-zadı da var imiş. Həmin adam gejə partdamaya düşüf ölüf (S.7).

---

[33] püşt – quş peyini

## 79.

Seyid Bayram əslən Çaxırrı kəndinnəndi. Çaxırrı kəndində erməni yaşadığı üçün, bu seyid olduğu üçün köç eləmişdi Daşkəndə. Onun iki qızı var, biri Alqayıdın anası Maraldı, bir də Sədət var, bir də oğlannarı köçüf getmişdi, Daşkəntdə olurdu. Seyit Bayram rəhmətə gedənnən sora ojağını nəvəsi saxlıyırdı. Ora da böyüh ziyaratgahıydı. Ora haşa üzündən itdər də (erməniləri nəzərdə tutur – tərt.) gedif ziyarət eliyirdi. Hal-hazırda ermənilər o evi saxlayırlar. O həqiqi seyidiydi, ona şəkk eləmək qeyri-mümkündü. Məsələn, Seyid Bayramı müharibiyə göndərən ərəfədə, isdiyirdilər göndərsinnər getsin müharibəyə. Deyir, məni müharibiyə göndərmə da, sən məni mundarrıyırsan. Nə desən kəntdə qulluğ eliyərəm. Sovet hakimiyətinin qanunun bilmirsən? Getməlidi, vəssalam. Onu gətirən adam ki var, deyir, o sancıdan səhərə qədər yata bilmədi. Axırda getdilər müraciyət elədilər ki, bu mümkün döyül. O rəhmətə gedəndə, deyir, təndirin kənarında yuxa salırdılar ehsan vermək üçün. İlanlar gəldi, deyir, təndirin yanınnan keşdi, onun yuxasınnan hamısı dişdədi getdi.

Seyid Bayram çox möcüzəli seyitdi, canım ona fida olsun. Mən əsgərrikdən gələndə, Allah ölənnərinizə rəhət eləsin, anam demişdi ki, mənim oğlannarımın üçü də ali təhsil alannan sonra mən ora qurban deyəjəm. Sən inanırsanmı, anam dediyi qurbanı biz ora aparanda onun kümbəzi hündürdəydi da, o qoyun o qədər bordaxda qalmışdı ki, onu zornan sürüyüb aparırdım. Ayağın diriyirdi, getmirdi. O heyvan özü qalxdı getdi ora, özü dolandı onun başına. Sora gəlib onun evində kəsildi, orda bişirilib camaata verildi, qalanın da götürüb gətirdik (S.29).

## 80.

Bir dəfə ölü yerinə getmişdik Daşkəndə. Mən eşitmişdim ki, Seyid Bayraməlinin kümbəzinə quş zığ salmır. Orda bir nəfərnən söhbət elədim. Dedim, belə bir şey eşitmişəm. – Kirimişcə danışırıx, qəbirsannıxdayıx. – Dedi, məəllim, inanmırsan? Dedim, yox ey, inanıram. Dedi, gəl gedək. And olsun Allaha, gedən varsa orya, yəqin ki görüb. İki kümbəzdi, o qədər arası yoxdu, yaxındı. Getdik birinə girdik, quşdu dana, girib orya-burya zığ atıbdı. Seyid Bayraməlinkinə getdik, and olsun Allaha, bir torta görmədim. Dedi, gördün? Dedim, gördüm. Bax, bunu mən öz gözümlə görmüşəm ha. Onu kimdi gedif gündə təmizdiyən? (S.17)

## 81-87. KALBAY SEYİD QULU

Bizim kənd böyük kənd idi, rayonda ən böyük kənd Məzrə idi. Məzrə kəndində ən böyük tayfalardan biri bizim tayfaydı – Kalvay Seyid Qulu. Biz seyid nəsliyik. Orda var idi axuntdar, bozalılar, cəmillər, qırxetdər. Qırxetdər ayamadı, tayfa başçısının ayamasıdı. Sonra orda varıydı xələflilər, cəfərlilər. Çoxuydu tayfalar orda. Kalvay Seyid Qulunun atası Kalvayı Hüseyn oluf. Onnarın əsli Sulduz vilayətinnəndi. Bizim kənddə Qulağalı olufdu, onnar dörd qardaş oluflar. Biri Nərimannı kəndinin ağası oluf, biri Qaraiman kəndinin ağası oluf, biri də səhf eləmirəmsə Zod kəndində yaşıyıfdı. Çaxırrının[34] ağası Böyük ağa olufdu. Mənim yoldaşımın babası da Axud Qəfər oluf, onun da əsli İrannan gəlmə oluf. Amma onnar gəlif Naxçıvanda yaşıyıflar, kəndin

---

[34] Söyləyicinin dediyinə görə, çayın qumuna, xırda daşına xır deyilir. Çaxırlı adı da çay xırlı sözünün təhrif olunmuş şəklidir.

axundu olmadığına görə Böyük ağa Axud Qəfəri Çaxırrıya axund kimi gətirif. Axund Qəfər də çox savatdı bir adam oluf. Kənddə bir neçə mədrəsə tikdirifdi. Sonra ki kəndə ermənilər gəlir, ermənilər gələnnən sonra Böyük ağaya deyir ki, burda erməni var, bu kənd murdarrandı, mən bu kənddə yaşıya bilmərəm. Səmənd ağa Axund Qəfəri aparır Zoda. Onun oğlannarı Cəfərnən Cabbar Axud Qəfər rəhmətə gedənnən sonra qayıtdılar Çaxırrıya. Cabbar mənim yoldaşımın babası olub. Kalvay Seyid Qulu, elə onnar Sulduz vilayətinnən ki gəlillər Böyük Məzrədə məskunnaşıllar. Kənddə onnarın böyük nüfüzu olur. Kənddə məskunnaşıflar, özdərinə yurd-yuva quruflar. Sulduzdan gələn Kalvay Hüseynin babası, səf eləmirəmsə, Kalvay Hasandı. Onun da adını Kalvay Hüseyn oğluna qoyur. 1500-ün axırları 1600-ün əvvəlləri gəlif, Məzrə kəndində məskunnaşıf. Kalvay Seyid Qulu bavamın da, Kalvay Hüseyn bavamın da qəbirləri son dövürlərə kimi dururdu, çayın sağ sahilində idi. Sonra çay daşanda o qəbirrəri yudu, onnarın başdaşları qalmışdı orda. Bu gün də Allah ölənnərinizə rəhmət eləsin, ocağımız qaldı orda, ocağımızda atamın əmisi oğlu yaşıyırdı. Biz kənddən çıxanda bir erməni gedib bizim ocağa. Gedəndə qonşu erməni gəlir ona deyir ki, bax, o evin qapısını açma. Deyir, niyə? Deyir, orda sınaxlı ojağ var, ona toxunarsansa, ziyan taparsan Elə o günnən də o qapıya qıfıl vuruluf, o qapı açılmır. Amma – Allah rəhmət eləsin, – Seyid Bayram ağa varıydı Daşkənddə. Onun ojağına gələn erməniyə deyiflər, o ocağa əl vurma da, yaxın getmə, qoy örtülü qalsın. Qayıdıf söyünc eliyif. Söyünc eliyəndə o gəlir rayona, yolda avariyaya düşür ölür. Dedilər ki, sana dedilər orya əl vurma? Bizim ocağımızın özünə ermənilər də ziyarətə gəlirdi, azərbaycannılar da ziyarətə gəlirdi (S.30).

## 82.

Atam deyirdi ki, bizim qonşu İrannan gəlmə olufdu. Bizim ki ojağ oluf, hər cümə günü ojax başdıyırdı öz-özünə çırax kimi yanmağa. Həmən o İrannan gələn tat ki var, ermənilər də Liviya erməniləri, Türkiyə erməniləri yığılıf kəndin içinə. Deyiflər ki, seyid hacı yalannan deyir, nətəri öz-özünə yana bilər ojax? Bunu gəlif babama deyillər. Babam deyir, eybi yoxdu, cuma günü gəlin, görün yanır, yanmır, yalandı, gerçəkdi. Atam deyir, bala, mən öz gözümün şahidiyəm, kim desə, mən inanmazdım. Həmən ermənilər də gəldi, tat da orda oluf. Gəldilər oturdular, söhbətləşirdilər, onda başdadı ojağ orda şölələnib yanmağa. Yananda, deyir, ermənilər qayıtdı ki, seyid, bizi bağışda, üzür isdiyirik sənnən, biz səf elədik. Deyəndə bu tat əlini belə atdı o yanan yerə, belə-belə (söyləyici əliylə göstərir – tərt.) sürtdü ki, birdən bunun altına şam-zad qoymuş olarlar, saxtakarlığ olar. Bu, deyir, söndü, əlini çəkənnən sonra başladı bir də şölələnif yanmağa. Şöləlləndi, deyir, şölə qalxdı, qalxdı, sonra yavaş-yavaş endi, o sönən ocağ bir də yanmadı. Babam hələ də o tata lənət yağdırırdı ki, o əlini vurdu, oruyu mundarradı. O ojağ elə bir sınaxlı ojağ oluf (S.30).

## 83.

– Ocağ deyəndə qəbir idi, yoxsa yaşadığı yer idi?

– Yaşadığı yer idi. Seyidin özünün düzəltdiyi ojağ idi. Orda əvvəllər Kalvay Seyid Qulu qalırdı, sonra evlatdarı qalıf. Evlatdarı ayrılıf özünə ev-eşik tikənnən sonra kiçik oğlu Seyid Namazın evində qalıf. Onnan sonra onun oğlu Möhsüm varıydı, elə onun üstündə Möhsüm oturlurdu. Atam bir şey danışırdı, o vaxdı qadınnar savadsız oluflar da.

Bizim camaat dağa çıxırdı, dağdan qayıdanda payız baxıf ki, malı-heyvanı sağıflar, bunnar da varrı-hallı adamlar oluflar. Süddəri sağıflar, tiyannarı da evin ortasına qoyuflar. Seyid Qulu babam içəri girir ki, bir dənə ilan dolanıf qazana, başını da qaldırıf. Qışqırır deyir, ay qız, bunun balaları olufdu burda, hanı bunun balaları? Deyəndə – nənəmin adı Gülü oluf, – deyif ki, booy, ay seyid, ojağın içində rəhli saplar varıydı, onu mən götürmüşəm. – A bədbəxt qızı, o orda qımıllanır, sən onu görmürsən? Deyir, seyid, elə bildim sapdı, götürdüm qoynuma qoydum. – Ay qız, çıxart görüm. Çıxardır ki, ilanın balalarıdı, bir-birinə sarılıflar, yumurtadan təzə çıxmış balalar. Deyir, apar qoy yerinə. Aparır qoyur yerinə. İlan gəlir ki, balaları yerindədi. Qayıtdı ilan bir də qazana dolandı, başını saldı qazanın içinə ki, yanı mən bunu zəhərrəmişəm, bunu işarə verdi. Dedi, süddəri tökün, ilan zəhərriyif onu. Özümüz də görürdük babamnan qalma köhnə ev damı idi, kərənnərin başında o ilan gəzirdi, heş kimə də toxunmurdu. Deyirdi ki, ona əl vurmağ olmaz, – ojağ ilanı deyirdilər, – toxunmasanız, o da sizə toxunmayajax (S.30).

**84.**

Mən bir şeyi də deyim ojax haqqında. Mənim ortancıl oğlum gej yeridi, bir yaş doqquz ayı var idi, yerimirdi. Bir gün baldızım dedi ki, qonşu deyir bu uşağ yeriməyəjəh, irağ onnan, bu şildi. Oturmuşam, ağlıyıram. – Mənim özümdə də ojağın nişanəsi var. – Elə ağlıyıram, elə ağlıyıram. Yoldaşım gəldi ki, ay qız, sən niyə ağlıyırsan? Dedim, belə-belə. Qonşu deyir ki, o şildi, yerimiyəjəh. Sən otur uşaxların yanında, mən ojağı ziyarət eliyim gəlim. Artıx saat

üş-dörd arasıdı. Dedi, ay qız, aftobusun gedən vaxdıdı, çatmıyajaxsan. Dedim, mən çatajam. Oturdum aftobusa, gəldim düşdüm ojağ olan evin qabağına. Bibim çıxdı. – Aaz, qadan alım, qurban olum, nə yaxşı gəlifsən? Dedim, ay bibi, gəlmişəm ojağın ziyarətinə. Aaz, qadan alım, gəl keç. Keçdim içəri, ojağı ziyarət elədim. Dedim, ay bibi, onun külünnən də, torpağınnan da ayrı-ayrılıxda qoy, aparajam. Onun külü də dəmrovun dərmanı idi. Dedim, anama xəvər çatajax ki, mən gəlif qayıtmışam, anam dəli olajax. Tez gedim anama da baş çəkim. Anam dedi, a bala, bu vaxdı sən nə əzirsən? Dedim, ana, belə-belə. Dedi, qadan alım, Allah ziyarətini qəbul eləsin. Qayıtdım gəldim. Ojağ yanan yer divardan hörülmüş buxarı idi. Dedim, ay bibi, uşağ yerisin, nəzirini verəjəm. – Mənim özümə düşmür götürmək, mən nəzir götürdümsə, ziyan tapıram. – Dedi, qadan alım, sənə nəzir vermək olmaz. Sən nə nəzir verə bilərsən, nə də nəzir götürə bilərsən. Dedim, yox, uşaxlara pay alajam.

Nəysə, gəldim. Baldızımın nişannısı da gəlmişdi bizə. Aradan iki gün keçib ziyarətdən gəlmişəm. Bu, eşikdə uşağı qucağında gəzdirir. Gördüm deyir ki, Namo gəl, Namo gəl. Uşağı eşikdə yeridir. Onda qışqırdı, Durna gəl, Namik yeridi. On bir addım atdı. İndi sevindiyimnən bilmirəm neyniyəm, ağlıyıram. Dedi, ta niyə ağlıyırsan? Dedim, yox, yox, o deyilən söz mana çox təsir eləmişdi. İndi qurban olum o ojağa. O ojağın torpağı ki var, vermişəm hər kəsə, üsdərinə, maşınnarında, evlərində hamı onu saxlıyır. O bizim qoruyucumuzdu. Kalbay Seyid Qulu ojağı deyərdilər (S.30).

**85.**

– Dediyiniz seyidlik nişanəsi nədir?

– Məndə xaldır, ombamda xaldır. Onu nətər bilmişik bu seyidlik nişanəsidi? Mənim atam bu xaldan çox narahat oluf ki, bu nədi. Qız uşağında belə şey olmaz. Kəndə bir erməni professor gəlir, atam ona göstərir. Deyər, ə, bunu əməliyyat eləmək lazımdı. Anamın əmisi axund idi. Axund eşidir ki, belə bir söhbət var. İsmarıc eliyir ki, o qızı mənim yanıma gətirin. Anam məni götürdü apardı, mən də balaca uşağam. Bu belə baxanda anama dedi, ay qız, sən nə iş görürsən? Sən aparıf bunu erməniyə göstərirsən. Ay qız, bunun üsdündəki hamısı yazıdı. Doğrudan da, dikqətnən baxanda görürsən yazılar var ərəb əlifbasınan. Bu qızı innən sora qorumax lazımdı. Heç bunu nəsildən də çıxartmaq olmaz. Sonra atam dedi, yox, mən qohuma qız vermirəm. Sonra mənim dizimdə ağrılar baş verdi, erməni professor atama dedi, o ağrılar o xalın nəticəsidi. Sən demə, bu bilirmiş bu nədi. Bu çalışırmış ki, onu pozsun. Atam da məni pıçağın altına verdi. Rayonun baş cərrahı var idi, gəlif atama dedi, sən nə iş gördün? Mən sənə nə demişdim. Niyə ona əl vurdurdun? Əl dəyənnən sonra mən bir müddət canımı sağ görmədim.

Bizim ojaxda peyğəmbər nişanəsi məndə olduğuna görə həmişə məni qoruyuflar ki, ojaxdan çıxmasın, ojaxda qalsın. Hamı dedi ki, kənara vermə, qoy ojax burda qalsın, atam razı olmadı. Dedi, mən qohuma qız verib, qız almıram. Qızdan olan uşaxlara seyidlik cumadan cumaya verilir. Məsələn, mənim qız nəvəm var, onda var. Bax, bu nəvəmdə də var, Allahtala bunun ruzusunu verəjəhdi. Qız da orda, qaynatasıgil ona seyid deyə müraciət edir. Deyillər, seyid, sən ki narazı oldun, demək, bu iş əmələ gələn döyül (S.30).

**86.**

Qonşu kənddə bir kişinin var-yox bir oğlu olur. Bu xəsdələnir, ağır xəsdə olur. Bunun da damda var-yox bir inəyi olur. Bu inəyi götürür, doluyur uşağın başına ki, uşağa heş nə olmasın, bunu seyidin ojağına qurban aparıf kəsəjəm. Elə olur ki, uşax sağalır, yaxşı olur. Qışın günü, qar-çovğun. Seyid babam çıxıf çölə baxır ki, Bala Məzrəli filankəs qavağında da inək gəlir. Deyir, həlbət bazara gedəjək, ona görə gəlir ki, burda dincini alsın, bazara getsin. Gəlir. – Ayə, bala, xoş gəlifsən, keç içəri. Buna yemək-içmək, çay-çörək. Baxır ki, bu kişi heç tərpənmir, bazara gedənə oxşamır. Deyir ki, a bala, gün dönür, bəs sən bazara... Deyir, a seyid, qadan alım, cəddinə qurban olum, mən bazara gəlməmişəm. Deyif, bə nəyə? Deyir, onu gətmişəm ojaxda kəsməyə. – Ə, nəyi kəsəjən ojaxda? Deyif, inəyi. Civində nəyin var? Əlini salır, civində bir abbası olur. Çıxardır deyir, ay seyid, budu. Deyir, qoy ora, sən nəzirini verdin. Çağırır nökərləri. Deyir, bir dağarcığ un qoy, bir dağarcıx taxıl qoy. Arvada deyir, pendir qoy, yağ qoy. Gətirir inəyin üsdə bağladır. Kişinin xəbəri yoxdu. Deyir, a bala, axşam düşür, sən gedif evə çata bilmiyəjən. Dur yola düş. Kişi çıxır eşiyə ki, inəyin üsdü dolu veşdi. Deyir ki, ay seyid... Deyir, sən nəzirini verdin. Apar, baların boğazını bişmək olmaz[35]. Apar onun südünü ver uşağına, uşağın dolansın. Sənin uşağının ümid yeridi, sən onu nətər kəsəjən? Belə insan oluf (S.30).

---

[35] Yəni ruzusunu kəsmək olmaz.

## 87.

Anam bir şey danışırdı. Həmən ki o deyirəm ey tat, o biznən qonşu olufdu. Deyir, iki nəfər kişi gəlir. Birinci bu tatgilə gəlir. Gəlir, buna deyir ki, ay xala, bizə bir stəkan çaydan-çörəkdən. Deyir, ə, mənim nəyim var, özüm dilənirəm, saa nə verəjəm. Ə, yerin çıxın gedin. Mənim heş nəyim yoxdu. Qayıdır belə baxır. Deyir, ay xala, zivilinə bərəkət, təhnənə hərəkət. Yəni zivilin çox olsun, təhnən boş olsun. Bu çıxır gedir, gəlir babamgilə. Gəlir ki, nənəm də, babam da evdədilər. Deyir ki, ay dayı, yol gəlmişik. Deyir, qadanızı alım, gəlin içəri. Aaz, bunnara yemək gətir, içmək gətir. Nənəm olan-qopandan tökür, bunnar yeyir-içir. Bunnar qalxanda deyir ki, ay nənə, təhnənə bərəkət, zivilinə hərəkət. İndi həmin söz bizdə davam eliyir. Nə evimizin zivili kəsilmir, nə də təhnəmizdən çörəh əskik olmur (S.30).

## 88. MİRƏLİ AĞA (VEDİLİ)

Onun qavrı hündürdə idi, hər gejə orda işıx yanırdı. Öz gözümüznən görürdük, amma yaxına gedəndə görürdün yoxdu. O kişinin evi də bizim evdən bir az aralı idi. Gətirmişdilər o kişinin evinə – şəxsən mənim öz yadımdadı – bir erməni ayləsin salmışdılar. Ermənini köçgün kimi gətirif tökmüşdülər. Bir cavan gəlin idi. Bir gün gördüm, gəldi mənim nənəmi çağırdı. Dil də bilmirdi, amma biz erməni dilin bilirdik, başa düşürdük. Dedi ki, mən o evdə yaşıyammıram, hər gejə işıx yanır evdə. Qucağında da bir uşax gəlif. Orda yaşıyan gəlin uşağa yatıf, uşağı olanda sünnətli doğulmuşdu. Gəldi mənim nənəmə dedi,

nənəm dedi qorxmaginən, o ojaxdasan sən, o başqa dini qəbul eləmir də. Görürsən, o ojax orda yaşıyanı anadangəlmə müsəlman yaradıfdı. Sonra o gəlin qorxdu, uşağın da götdü köşdü ordan (S.4).

## 89-92. SEYİD HÜSEYN

Mənim babam İrannan gəlif, Xoyun Yekan kəndinnən. Ulu babam oluf Seyid Əli, Seyid Əlidən sonra Seyid Əhmədi. Seyid Əhmədin iki oğlu olufdu: Hüseyn, Həsən. Hüseyn qalıf İranda, Həsən qaçıf gəlif burya. Qardaşdarı buna deyif, sən həftədə bir at çatdadıf öldürürsən. O da ajığ eliyif gəlif bura. Deyif, mən sürmürəm onu, sürdürən sürdürür. Gəlif Göyçədə mənim nənəmi alıfdı, onnan da bir atam Seyid Bayram oluf, bir mamam[36] olufdu. 1918-ci ildə qaçaqaçda gəlillər Şəmkirin Moruğ kəndinə. Orda babam da isidif, mamam da, irağ üzüzdən, ikisi də orda rəhmətə gedif, sonra nənəm qayıdıf gəlif Göyçəyə. Orda Aşıq Söyün kişi vardı, Aşıq Ələsgərin şəyirdi oluf, o babamgilə sığınacax verif. Kom deyirdilər, müvəqqəti orda oluf. Daldan torpax veriflər, atam yekəlif eliyif, evlənifdi. Kalxozun malına gedirdi. Aşıq Söyün deyirdi ki, 18-ci ildə qaçaqaçda Gədəbəyin Qalakənd kəndinə gedəndə Şişqayanın üsdündə borana düşdük. Dedik ki, ağa yanımızda döyülmü. Ağa, deyir, bir minacat çəkdi, bir gün çıxdı, and olsun Allahın birdi birriyinə, hamı sağ-sağlam çıxdı getdi (S.19).

---

[36] Bibiyə mama deyirlər.

## 90.

Birinə torpağımızın böyründə yer vermişdilər. Biz cız deyirik, burda arpalıx deyillər. Torpağı gətirif burya doldurur. Dedim, ə, burya niyə doldurursan, burdan qonşu da su aparır. Mana söydü. Dedi, cəddin belə-belə olsun. Dedim, mən cəddimə qəhmar çıxmıram, cəddimdə var görkəzsin, yoxdursa da, qarğamıram. Üç nəfər üsdümə gəldi. Yoldaşım da yavıyi götürdü dedi, həddiniz var kişiyə bir şillə vurun, yavıyı, seyidin cəddi haqqı, qarnınıza soxajam. Onca da dalaşıf eləmədilər. Üsdünnən bir həftə keçmədi, oğlu pıçaxnan gözün tökdü. O vaxdı qandarax[37] deyirdilər, hökumətə taxıl verirdilər xırmanda, o kişi də xırmanda işdiyirdi, oğlu da yanınca gedirdi. Meşoğun ağzın açanda pıçaxnan gözün tökdü gedə. Arvadı dedi, irağ üzüzdən, a kopoğlu, gördünmü. Apardı bir dünya xərc çəkdi, gözü gənə kor qaldı, irağ üzüzdən (S.19).

## 91.

58-ci ildə mən klub müdiri işdiyirdim. Mənim bir kirvəm var Tərtərə getmişdi, orda xəsdələndi. Apardılar Tərtərə ki, burda ermənilər baxmazdar, öldürəllər. Bir maşın adam yığıldı, xeylax da lavaş bişirildi. Dilicana çatanda çaya sel gəlirdi, bir yağış yağırdı ki, sel maşınnarı aparırdı. Heş kim qorxusunnan hərəkət eləmirdi. Şofer dedi ki, ağa yanımızda döyülmü. Mən də onda iyirmi yaşında idim, o qədər də qanmırdım. Ayağımı soyundum suya saldım. Dedim, xudavəndi-aləm, məni sinsitmə bunnarın yanında.

---

[37] Qandarax – erməni kəlməsidir, təsərrüfatların dövlətə ödədiyi vergiyə deyilir.

And olsun Allaha, bircə dedilər maşının ağzın yuxarı sal dana, sel gələn tərəfə. Elə addadı, heş su dəymədi. Dalda bir azərbaycannı var idi. Dedi, sən allah, ağanıza deyin məni də aparsın. Dedi, əyə, sür gəlsin, ağa burdadı. O da, sağlığına, çayı keşdi. Sonra erməni dedi, onun seyidi var, mənim yoxdu. Deyif özün vurdu çaya, sel onu apardı (S.19).

### 92.

Ojağımızda ləmpə yanırdı. O vaxdı nənəm rəhmətə gedəndə mən qorxumdan girmirdim evə. Onda səkgiz-dokquz yaşındaydım. Gərək onu gördüyü danışmıyasan, onçün daldan gözə görükmədi. Buxarda yanırdı, seyidin cəddi haqqı. Birinin ağzı əyilmişdi. Gəldi bizdə üş gün gejə qaldı, mən ağzına tüpürdüm, yağladım, ağzı sağaldı getdi. Bizim ojaxda difardan hörülən buxarı var idi. Ziyarətə gələnnər nə gətirsə, ojağ olan yerdə stolun üsdünə qoyurdular nəzirlərini, ojağın külündən götürürdülər, bir parçaya büküf evdə saxlıyırdılar (S.19).

## 93-96. SEYİD MƏHƏMMƏD

Bizim kəndin hansı istiqamətdən gəlməyini mən sizə deyim. İrannan gəlmələr var idi, Türkiyədən gəlmələr varıydı. Orda köhlü nəsillər alaboğazlılar nəsliydi, yəni bizim nəsil ana tərəf, sora ağaməmmədlilər nəsliydi, yəni onlar da köklü nəsil idi. Bizim bir ucumuz Türkiyədən gəlmə olub. Sora seyidlər varıydı, onlar İrandan gəlmədi, Ərdəbildən gəlmə şeyx nəsili. Hardasa bizdə 12-13 nəsil varıydı, tayfalar deyək də ona. Həmin o tayfalar hamısı bir-birinə elə qarışmışdı ki, bizim kənddə hər tayfanın

özünün məhləsi var idi. Bizdə Səngər deyilən yer varıydı. Səngər lap qədimi yaşayış məskəni olmuşdu. Uşağ idik, gedirdik, görürdük səngəri qazıllar, bax elə yerlər varıydı. Gizdənpaç oynuyurdux, bizi bəzən qorxutmaq üçun deyirdilər orda cin var, şeytan var, ora getmiyin. Ancaq çox qədimi məskənlər idi. Yeraltı səngərlər varıydı ki, bəlkə də erməni davasında ordan sığınacaq kimi istifadə eliyiblər. Səngər tərəfdə seyidlər yaşıyırdı, soradan qarışdılar hərə özüyçün ev tikdi, vallah, tayfa da yaddan çıxdı, ancaq bilirdilər ki, bu seyidlər tayfasıdı.

O seyidlərin tarixi bir neçə əsr irəli gedir, lap böyük babam Seyid Sadıxdı. Həmin o Seyid Sadığın da törəməsi Seyid Nəbi gəlib çıxıb mən yaşadığım Amasiya rayonuna. Ərdəbildən gəlib Qaraqoyunnuya. Orda nə intriqaları olubsa, bu Seyid Nəbi başını götürüb gəlib Amasiyaya. Seyid Abbasəli onların babaları olub, böyük babaları olub, onnan törüyənlər var. Mən Seyid Məhəmmədin nəticəsiyəm. Seyid Məhəmmədin atası Seyid Ağa, onun atası Seyid Nəbi, Seyid Nəbinin atası Seyid Sadıxdı. Bax, ora qədər gəlirəm, şəcərəyə tamamən gəlib çata bilmirik. Sovet hökuməti seyitdəri sıxışdıranda babamı tutub salıllar zindana. Canına sağlıx, bunun şəcərəsini gətirir gözünün qabağında yandırıllar. Əstafirlah, babamı ki salıllar içəri, qıfıl öz-özünə açılır. Açılannan sora erməni gəlir, haşa-haşa, qırmaşdıyır kişini. Seyid deyir, oğul, mənnik döyül. Erməni başa düşmür axı. Bir də qıfıllıyır gedir. Üçüncü dəfə qıfıllıyıf gedəndə idarədə işdiyən bir azərbaycannı gəlir görür ki, Seyid Məhəmmətdi içəri saldıxları. Ermənini dannıyır ki, sən bilmirsən nə iş gördüyünü? Nəysə, orda çay var idi, xırda çay idi, Arpa çayına gedif qarışırdı. Çayın üsdünnən addıyanda seyid

əlini, deyir, bir dəfə suya çəkdi dedi, Allah, sən hər şeyə şahiddik elə. Hay-haray, amanın bir günüdü, ermənini nin çənəsi getdi boynun dalına. Dedi, artıx gejdi, mən iki dəfə dedim. Bunnarda da o inatkarrıx var, iki dəfədən artıx söz deməz. Peyğəmbərlərin də tarixinə baxsan sözü iki dəfə deyir. Ondan sonra canına sağlıx, Seyid Məhəmməd babamı sərbəst buraxıllar (S.42).

**94.**

Babam Mağaracıx deyilən kəndnən bizim kəndin arasında Məmmədağa dərəsində öz əcəlinən ölmüşdü. Haşa üzdən, eşşəhnən gedir. Paşa babam da öküz haravasıynan bunun arxasıynan gəlir. Gələndə deyir, Avdılla, evin yıxılsın, öküzün başına vur. – Əyə, niyə? – Ə, görmürsən əmim qavaxda gedir. Öküzün başına vurullar, ağeyi keşmiyək. Ələsgər babam da zastavaların anbardarı işdiyif. Babam oraya çatır. Bunnar da öküz arabasıynan Qıdaşennən çıxır yuxarı, – köhnə yerlərin adını deyirəm ha, – İbişə çatır. Deyillər Seyid Məhəmməd rəhmətə gedif. Deyir, ə, nətəri, əmim mənim qabağımnan getdi axı. Demə, kişi gedirmiş canını tapşırmağa. Niyə? Evinin qabağında məscid idi, bu yanda da tükan açdılar. Ordan çıxanda deyir, bu kənd artıx murdarrandı. Allah, sən mənim canımı bu kənddə, yəni təmiz yerdə al. Elə də alınır. Deməli, çuxasını çıxardır, namazını qılır, orda da canını tapşırır. Babam deyir, neçə dəfə getdik, o harda canını tapşırmışdı, axşam tərəfinə düşəndə baxırdıx elə bil orda çırax yanır (S.42).

## 95.

Bir gün Seyid Məhəmməd babam gəlir. Cavan oğlan imiş. Rayon içinnən gələndə baxır ki, camaat toplaşıf. Seyid Məhəmməd babam deyir, nə işdi, ay camaat. Deyir ki, Nafdalyan addı bir erməni pəhlivan burda daş oynadacax. Bu rəhmətdiyin tərsdiyi tutur. Bu seyitdərdə höcətdik olur. Bilsə ki ölümə gedir, yenə də nırx dediyin deyib durur. Canına sağlıx, gələndə deyir, ay dədə, mən bunnan güləşəcəm. Deyir, ay oğul, sən cavan oğlan, etmə, eləmə. Deyir, yox ey. Gəlir şərt qoyur. Deyir, erməni, mən sənə bu qədər pul verəcəm yıxıldımsa, yox, əgər səni yıxdımsa, sən dəfə-darağını yığışdırıf gedirsən burdan. Elə deyir gərdişə çıxdılar, bir az hərəkət eliyənnən sonra "ya ağamın cəddi" deyib götürdüyünnən ermənini qaldırdı, vurdu yerə. Üsdündən də durdu ki, qalx dəfə-darağını yığışdır, bir də burya gəlmə. Bax, bunnarda fiziki güc daha üstün olufdu.

Bayax dedim babam məscid qabağındaydı. Nənəmin sözüdü, Allah ölənlərinə rəhmət eləsin, Seyidağa nənəm. Deyirdi, oğul, bu Şura hökuməti dədəmin üzünə məscidi bağladı, qardaşım Bayramın da üzünə Quranı bağladı. Quran dərsi keçillərmiş o vaxtı. Mənim xatirimdə bilirsən nə var? Dayım düzdü, kommunist idi, amma sovet hökumətinin pasportunu daşımadı. Bacası olan evlər ki varıydı, Seyid Bayram babamın evi idi. Məhərrəmlik gələndə nənəm – dayımın bir dəftəri varıydı, – bunu götürüb gedirdilər orya. Qabaxda da belə deyim aynəbətdi, gözəl tikilmiş, pollu-pataloklu evlərdi. Öz-özümə deyirəm bular niyə girir daldeylik dama. Demə, səs yayılmasın deyə orda başdıyırdılar mərsiyə deməyə. İmamın qırxı gələndə ora qalabalığ olurdu. Yığılırdı bütün tayfalar, kişilər, uşaxların alnını çırtırdılar, belə ağ köynək geyindirirdilər (S.42).

**96.**

Kəbə kimi dördkünc iki kümbəz idi. Kümbəzin birində Seyid Ağa idi, biri də Seyid Hasan babamın idi. Yoxdusa, ən azı on qəpik ordan tapardın. Girirdik, ziyarət eliyif gəlirdik. Sözümün canı nədir? Mənim palkovnik olan dayım oğlu Dnepropetrovskidə qutardı, onnan sonra Moldaviyanın Ribnitsa şəhərinə, ordan da Əfqanıstana getdi. Axşam gün dönən vaxdı babam dönürdü qıblaya, hətta göz yaşın axıdırdı ki, balam bu odun-müharibənin içinnən sağ-salamat gəlsin. Bir il də bir erkək adaxlamışdılar[38] qurban. Qar yağıfdı burya qədər. Deməli, qoçu verdilər ki, – Yavərdi dayım oğlunun adı, – oğul, apar babanın kümbəzinin üsdə fırra, gətir kəsək. Nə kəsmək? Qoyun düşdü, deyir, qabağa düz kümbəzin yanına qədər. Üç döngə də kümbəzi başına dönənnən sonra geri qayıtdı, qurbanı kəsdilər. Allahın möcüzəsidi da, biz heyvana dil örgətmədik o qarrı gündə. Allaha da həmd olsun ki, sağ-salamat gəldi (S.42).

## 97-100. SEYİD ABBASƏLİ

Qaraqoyunnuda seyitdər tayfası var idi, Seyid Abbasəli deyirdilər, sınanmış seyid idi. Onun ocağı var idi. Nəzir deyəndə, qurban kəsəndə o ocağa aparırdıx. Mən bir neçə dəfəynən girmişəm, ocax daşı var idi, kişidən qalma ocax daşı idi, tərpətməmişdilər. Onun ətrafında bir dənə qara ilan yatırdı. Elə ki adam girdi içəri, çəkilib gedirdi. Mən onu gözümnən görmüşəm. Amma belə bir rəvayət də danışıllar ki, qış ayı – həmin Abbasəlinin ocağı qavaxca kəndin ayaq

[38] adaxlamışdılar – nişanlamışdılar

tərəfində imiş, – çıxır ki, qar-borandı, bir dənə maral gəlif, yanında da bir dənə balası. Əlini onun kürəyinə çəkib deyif, Allahın heyvanı, yer get. O dediyim qalxoz sədri – o vaxdı yaxşı at minillərmiş, yaxşı at saxlıyıllarmış, – maralı görür, dalınnan düşür. Deyir, vura bilmiyəjən, getmə. Gedir, vura bilmir. Bərk də atıcı imiş. O tərəfə, bu tərəfə qara daş qoymuşlar, ortasında ocax yandırırdılar, yemək bişirirdilər. Abbasəlidən qalan ocax idi. Üş dənə daş idi, üçbucax şəklində qoyulmuşdu, ortasında da kül var idi. Ziyarətə gələnnər o daşın ətrafında fırranırdılar. Böyük öy damı idi. Niyyət eliyəndə başını o daşın üsdünə qoyuf yatırdın, elə bil tük yasdığa qoyursan. O qədər yumuşağ idi.

Abbasəlinin üç oğlu olub – Mirəli, Seyid İsmayıl, bir də Seyid Həsən. Seyid Həsən ən kiçikləridi. Bir də iki qızı var idi. O üç qardaşın üçünə də seyid deyirdik, amma qanuni seyitdik, atalarımız deyirdi, atası rəhmətə gedəndə o Seyid Həsənin ağzına tüpürüf ki, seyitdiyi saa verirəm (S.27).

**98.**

Bizim kənddə Seyid Abbasəlinin ocağı var idi. Biz həmişə onun ocağına gedirdik. Onun nəvələri var idi, Mirəli, İsmayıl, Həsən. Deyirdilər ki, guya Seyid Abbasəlinin qapısına maral gəlirdi. Səhər dururdu ki, maral qapısında yatıb. Seyid Abbasəli deyirdi ki, filan yerdə, filan şey. Gedirdilər ki, həmin şey düzdü, onun dediyi kimidi. Onun Məhəmməd addı oğlu vardı. Anam deyirdi ki, Seyid Məhəmməd gəlib bizə. Biz də təzə evə köçmüşük. Dedim, Məhəmməd kişi gejə burda qalsa, yerimiz olmuyajax. Gəldi, dedi ki, qızım, bilirəm, sən belə fikirrəşirsən, mən qalmıyajam, gedəjəm. Ayə, dedim, mən çöldə demişəm, bu içəridədi, nə bildi ki,

mən o sözü demişəm? Bax, belə kəramətdəri var idi. Həmən o dediyim Məşədi Məhəmmədəli əvvəl seyid imiş. Sonra ki adam öldürür, əli qana batanda deyir ki, Abbasəli, seyiddiyi bugünnən belə sən elə, mənim əlim qana batıf (S.25).

**99.**

Seyid Abbasəli çox sakit adam olub. Tamahdan bütöv adam olub. Məsələn, yüz manat pul verəndə əllisini qaytarıb ki, əllisi mənə bəsdi. Çox ağsaqqal adam olub, dalaşanı barışdırıb. Camaat arasında qoymayıb ixtişaş düşə, qalmaqal düşə. Çox insaflı adam olub. Bizim ev onun qəbri olan qəbirstannığın yanında idi. Qəbirlərin üstünə gedib baxırdın, üzdən iraq, məni bağışlayın, quşun zılı-zad olurdu, onun qəbrində bir dənə quş zılı olmazdı. Çox vaxt cümə axşamları onun qəbrinin üsdündə şam aparıb yandırırdılar (S.25).

**100.**

Bala qayanın üsdündə Pir ojağı vardı, ora ziyarətə gedirdik. Hər dördüncü gün elə bil pir ojağının başında – bəlkə də gözümüzə elə görükürdü, – çıraq kimi şey yanırdı. Uşağı olmuyannar aparıb qurban kəsirdi, uşağı olurdu. Üçün dördə belə tikintiydi, tikintinin eni səksən, doxsan santıydı. Orya kalidor kimi yol gedirdi. Burdan girirdin daşdarı öpə-öpə gəlirdin, üç dənə də o daşın başında qüllə kimi şey qaldırmışdılar. Gəlirdin öpürdün, orya nəzirini qoyurdun. Daşın üsdünnən yarım metr, bir metr hündürrükdə bax o çıraxlar onun üsdündə yanırdı, qullə dediyimizin üsdündə yanırdı. Seyid Abbəsəlinin yurdunda Həsən yaşıyırdı. Həsən erməniynən evini dəyişdi gəldi, erməni orda donquz kəsən kimi ev uşdu. Seyid Mirəli idi, Seyid

İsmayıl idi, Seyid Həsən idi. Allah rəhmət eləsin, ikisi rəhmətə gedib, Seyid Həsən Gəncədə yaşıyır. O evdə o qalırdı. Camaat o evə nəzir-niyaz aparırdı, heyvan aparıb kəsirdi. Kim əsgərliyə gedirsə, heyvanı aparıb ojağın başına hərriyirdilər, qurbanı kəsirdilər, o ojaxdan bir az kül, bir az un, çörək, duz belə bükürdülər, əsgər gedənin bir tərəfinə bağlıyırdılar ki, bunu özünnən apar, özünnən gətir. Seyid Abbasəlinin ojağıydı, özü də müqəddəs ojağıydı. Onların ojağında ilan varıydı, heç kimə dəymirdi. O vaxtı ev damıydı, ev damlarında iki praqunnan atdandırırdılar, onun altınnan dirək qoyurdular. Bax, o praqunun başında ağlı-qaralı ilannar cütüynən yatırdı. Gözümüznən görmüşük onu. Bir də baxırdın düşdü gəldi, suyunu icirdi, gedirdi. Deyirdilər, əgər onu tapdalasan, onda gərək yox olasan həyatda. Bizə elə təbliğ eliyirdilər ki, dəymiyin (S.6).

## 101-102. SEYİD MÜRTƏZA

Seyid Mürtəza ağa Xorasan əyalətindən gəlib. O deyirmiş, mən yeddi padşahın ölkəsində olmuşam. O həm də Loğman olub, kimin qolu çıxıb, kimin qolu ağrıyır, onu bilirmiş. Naxələf insannar oluf, ermənilərə xəbər çatdırıflar ki, bu kənddə belə bir seyid var. Sovet dövründə onu aparmağa gəliflər. Nəvələri söhbət eliyirdi. Dua eliyif ki, ey Allah, bu yaşdan sonra mən gedif gavur çörəyi yemiyim. Ya mənim canımı al, ya da elə elə ki, mən onların əlinə düşmüyüm. Gejə yatır, səhər durur, gözdəri görmür. İnanmırlar. Deyillər, ola bilməz. Bunu götürüf aparıllar həkimə. Bütün yoxlamalardan keçir, həkim təsdiqləyir ki, həqiqətən, bu adamın gözü görmür. Ondan sonra onnan əl çəkirlər. İranda nəsə düşmənçilik oluf, ayləsin orda qoyuf çıxıf.

Eşitdiyimə görə, əvvəl Naxçıvana gəlir, orda aylə quruf, ekiz evladı oluf. Qadın tələf oluf, sonra uşaxlar tələf oluf. Orda onları dəfn eliyir. Ona deyiflər ki, sən getməlisən filan obaya, sənin taleyin ordadı. O uşaxları bu saat da, deyir, ziyarət eliyirlər. Ananın qəbrinin yanında həmin uşaxların qəbridi. Uşaxların qəbrin üsdündə gül bitir, güllər gəlir ananın qəbrində görüşür (S.8).

**102.**

Bizim kəndin direktoru var idi, rəhmətdik Eyvaz məəllim. Yağış yağmayanda o deyirdi, ağa, qadan alım, gör nağarsan? Seyid Ölən deyirdilər, çayın yuxarı başında idi, orda seyidi dəfn eliyiflərmiş. Bax, belə tompa daş yığılmışdı orya. Yadımdadı, biz gedirdik onnan bir daş götürüf çaya atırdıx, onda yağmırdı. Amma Mir Qələm ağa gedif ordan bir daş götürüf çaya atırdı, yağış başdıyırdı. Onun da nəzirin Eyvaz məəllim verirdi. Bir də seyid öz möhürün suya salanda yağış başdıyırmış.

Əziznən Mir Qələm ekiz oluflar. Məşədi ağaya axtarış eliyəndə Məşədi ağa Güllünü, Əzizi götürüf Tovuza Aldədəyə gəlir, Mir Qələm qalır nənəsinin yanında. Nənəsinə Məşədi Sədət deyirdilər. Nənəm Sədət Mir Qələmə, atama süd verif da, onnar süd qardaşı oluflar. Mir Qələm çox hirsdi idi. Atam bir gün deyif ki, qadan alım, biz süd qardaşıyıx. Mən sənə bir söz deyim. Bir insana xətrin qalan kimi tez ürək bulandırma. Onu tutur axı. Çalış bir az səbr elə, yazıxdı, bağışda. Deyif, sənin ananın südüynən böyümüşəm, mənim gözüm üsdə.

Kiminsə uşağı durmurmuş, onda Məşədi ağanın köynəyindən onu keçirdirdilər. Uşax olan kimi gətirif onun köynəyinnən keçirillərmiş, uşax həyatda qalırmış (S.8).

## 103-108. QARAÖRTÜK

Bizdə Qaraörtüh deyirdilər. Babamgil haja gedif, ona hajdan vermişdilər. Babamgil seyid olduğuna görə ordan vermişdilər. İsmayıl qurbanında millət hamı gətirif ojaxda qurban kəsirdi. Yadıma gəlir, erməni də gətirif orda qurban kəsirdi. Ojağımızda kəsirdilər, bütün kəndin camaatına paylıyırdılar. Bir əz də pişirirdilər, özdəri yeyif, çıxıf gedirdilər. Ojax dediyim, belə eviydi, torpaxdan tikilmişdi. Oranı addelni ondan ötrü saxlıyırdılar. Bir dənə də işkili adam qoymurdular ki, ora getsin, ora mundarransın. Birində Yerevandan atamın qonaxları gəlmişdi. Onda atam kalxoz sədri idi, gəlmişdilər yoxlamağamı, nəyəmi. O ermənilər gecə qaldılar bizdə, dağ yeri idi, getmədilər. Gecəynən erməni arvad yuxudan durdu, qaşdı getdi. And içir erməni, bax, bugünkü kimi yadımdadı, arvad dedi ki, – anamın adı Şəfiqə idi, – Şəfiqə bacı, bu gecə səhərə kimi marallar qoymuyuf bizi yatax, marallar bizi burdan qovalıyırdılar. Ojax yandırıf, su qoyuf çimirdilər. Anam onlara demədi ki, burda belə bir ojax var. Dedi, yuxudu da. Dedi, yox ey, yatmamışıx, biz əməllibaşdı onları görürdük (S.16).

### 104.

Hacdan gətirilmiş parçanı Qurani-Kərim kimi evin ən hündür yerinə, şkafın üsdünə qoyurdular, ziyarətə gələn onu götürür öpürdü, ojağın külündən götürüf aparırdı. Zahı yatan gəlinlərə, sünnəti olan uşaxlara, ağır xəsdə olanlara ojağın külünnən aparırdılar, yastıxlarının altına qoyurdular, o ömürlük qalırdı oların evində. Müharibə düşüf, ermənilər yenə bizimkiləri qovalıyırmış. Nənəm örtüyü

götürüf, həmən ojağı, büküf, özünnən aparırmış. O nənəmin əlinnən düşüf. Bizim kəndimizdən bir dənə qadın onu tapıf. O götürüf deyif, nə gözəl parçadı. O vaxdı qadınnar axı özdərinə jilet kəsif tikillərmiş. Qayçını əlinə alıf parçanı kəsdihcə parçadan səs gəlif. Parça qışqırıf e əməllibaşdı. Bu qayıdıf parçanı örtüf. Deyir, bu nə intresni parçadı, parçadan səsmi gələr? Sonra Kəlbəcərdən bizim camaat bir də geri qayıdıf öz yurt-yuvalarına. Onda nənəm deyif ki, bəs salıf onu itirmişəm. Deyif, bəs onu mən tapmışam. Deyif, qaytar ver. Mən o parçanı görmüşdüm, o parça bax hissə-hissə, necə gödəkcəni kəsillər ey, bax helə hissə-hissə kəsik idi. Qardaşımın evində o bu dəyqə də durur. Mənim qardaşdarımın üç dənəsi peyğəmbər nişanəli doğulmuşdu, onnara atam sünnət elətdirmədi (S.16).

## 105.

Elə bil qurban bayramında qurban deyif ojaxda kəsirdilər. O qədər heyvan gəlirdi, o qədər heyvan gəlirdi. Niyət qurbanını qurbannıxdan qabax gətirif kəsirdilər. Anam bizə verirdi əti, deyirdi aparın paylıyın. Biz uşax idik da, aparıf paylıyırdıx, axırda yorulurdux. Bir gün mən balaca bacımnan dedim, bu əti aparıf vermiyək, uzaxdı, biz ora getmiyək. Əti neynədik? Nəyə and içim ki inanasız? Biz o əti salafana büküf dərənin aşağısında daşın arasına qoydux, gəldik evimizə. Anam gejə yatdı, səhər duruf mana dedi ki, sən əti niyə aparıf yiyəsinə vermiyifsən? Durdux beləcə anamızın üzünə baxdıx. Ondan gizdətdik da, dedik vemişik. Dedi, vermiyifsiniz. Gedin əti hara qoymusuz ordan çıxardın. Getdik kirimişcə qayanın altınnan əticə çıxartdıx gətirdik. Dedim, ana, yorulmuşdux deyə aparıf vermədik. Dedim,

sən onu hardan bildin? Dedi, gecə mana dedilər ki, ət verilmiyif, qayanın altındadı. Qurban deyən gətirif ojaxda İsmayıl qurbanı kəsirdi, bişirif yediyin yeyirdi, qalanın ojağa bağışdıyıf gedirdi. Anam da onun ətini kəndə paylıyırdı (S.16).

**106.**

Çini qablar zavodunda işdiyirdim. İranın qapısı təzə açılmışdı. Bizim işçi varıydı, gedif ordan qablar gətirirdi, çini qablar zavodunda satırdı. Bunnan mən də götürdüm, gətirdim qızdara verməyə. Bir işçimiz maa dedi ki, onnan dörd dənəsin ver mana. Mən verdim. Sora oğlan gəlif öz pulunu yığanda mən öz götdühlərimin pulunu verdim, dedim dördünü də bu qız alıfdı, onun pulunu mən vermiyəjəm. Qız mənim üzümə durdu ki, mən sənnən heş nə almamışam. Mən dedim bizim evimiz ojaxdı, bizə oğurrux düşmür. Mən o ojağa and içirəm, mən onun pulunu verəjəm, amma o dörd dənə qab səndədi. Qız inanmadı da, başqa sözdər dedi. Birdən xəbər gəldi qıza ki, tez evə gəlginən. Gəldilər apardılar. Qız atası can verən mament ora çatıf. Atası deyif ki, şəkk elədiyin ojağa get nəzir qoy. Sənin güdazına mən getdim. Bax, imamzada haqqı deyirəm. O gəlin gəldi mana nə qədər yalvardı, – hamilə idi, – dedi, atam deyir ki, uşağını itirəjən, get ojağa. Qız mana dedi, məni apar Bakıya sizin ojağa, mən də tərsə düşdüm aparmadım. O gəlinin uşağı da getdi rəhmətə, atası da rəhmətə getdi, mən qorxumnan çini qablar zavodunnan çıxdım (S.16).

**107.**

Onu da söylüyüm. Biz dörd bajı idik, dörd bajıdan sonra mənim böyük qardaşım oldu. Həmin qaraşıma yekə

bir hinduşka hədiyə gətirmişdilər. Qonşumuz bu hinduşkanı oğurruyur, Nərimannı kəndində bajanaxları var idi, onlarda kəsif yeyirlər. Anam hinduşkanı axtarır, axtarır ki, yəqin harasa gedif da, tapım gətirim. Deyir, içəri girdim, gördüm ki, bir dənə nurani, ağsakqal kişi oturuf ojax olan yerdə. Dedi, qızım, axtarma, onu yeyən adamı gör mən nə günə qoyajam. O yediyi ağzı gör mən nə günə salajam. Yarım saat çəkdi, bir saat çəkdi hinduşkanı aparan adam avariyaya düşdü, ağız-göz dağılmışdı.

Qış ayları heyvanın otu qutarıfdı. – Kim gəlif nə isdiyirdi, biz yox demirdik. – Xalamın qaynı dedi, da utandım gedif isdəməyə. Presdi da, bağlıyırlar heyvana vermək üçün. Gəlif o otdan iki-üç dənəsin aparıf ki, inəyinə versin. Gejə inəyin qabağına qoyuf, inək yeyif. Səhər duruf ki, inəyin üçü də mundar oluf. Xalam gəlif elə ağladı, elə ağladı. Dedi, ay Şəfiqə, bu gejə sizdən ot aparıflar, yazıxların heyvanı ölüf. Anam dedi, mən yazıx neyniyim. Bə gəldi isdədi, mən vermədim? Bax, heylə sınaxlı ojax idi (S.16).

**108.**

Bizim ojax ilannan doluydu, biz ona dəymirdih, o da bizə dəymirdi. Biz elə bil o ilannarnan oynuyurdux. Difardan buxarı düzəltmişdilər, xörəyi orda pişirirdilər. Nə vaxt gedərdin ki, ilannar orda yatışıf. O evdə bizim təndirimiz var idi, anam orda çörək bişirirdi. Nə vaxd külfəni çəkirdi, ilan külfəynən barabar çıxırdı, amma bizə dəymirdilər. Birində anam təndiri qaladı, çörək bişirmək istədi. Təndirin külfəsindən əskini çıxardanda o da onnan barabar top çıxdı. Balaja qardaşımnan ikimiz də gəldik. Anam dedi, dəymiyin. Qardaşım diş durmadı, bir dənə çubux götdü onnarı belə-

belə qurdaladı. Anam bir qışqırdı ki, dəyməginən, bu dəyqə səni sancajax. Anam gördü qardaşım onları əzir, gəldi qardaşımın əlinnən çubuğu aldı tulladı, onları da yemək-zad bişirdikləri tərəfə qovaladı. Orda həmşə kül qalırdı deyə gedif ora dolurdular. Heç vaxt olar dəymiyif bizə (S.16).

## 109. SEYİD BABA

Olan bir reallığı danışım. Baba dayı olufdu rəhmətdik. Demək, qırxıncı illərdi. Bu gəlir gedə Gilənara. Gilənar Bayburtdan dörd kilometr yuxarıda kəntdir. Gəlif keçəndə buna deyillər, ay seyid, ay seyid, gəl bir qonağımız ol. Bunu çağırıllar evə. Seyid gəlif oturur. Bardaş qurur taxdın üsdündə, başdıyır söhbət eləməyə. Bizim Ağca nənəmiz olub. Seyidə deyir ki, ay seyid, cəddinə qurban olum. Bə mənim oğlumnan heç bir xəbər yoxdu. Bə mənim qardaşımnan bir xəbər yoxdu. Ağca nənəynən də Sultan babamız bir qardaş, bir bacıdır. Oğlu Hənifə kişi müharibəyə gedif, xəbər yoxdu. Qardaşı da 37-ci ildə represiya qurbanı oluf, bunnan da xəbər yoxdu. Nolar, ay seyid, olar hakda nə deyə bilərsən? Bu, deyir, oturdu, – rəhmətdik atam danışır ha, gözünün qabağında oluf, mən də deyir uşağam, elə beləcə oturuf buna baxıram, – xeyləx, deyir, təsbehini çəkdi, çəkdi. Dedi, Ağca, a bala, Allahdan sirr deyil, bizdən, sizdən niyə sirr olsun. Sənin qardaşın da gələcək, oğlun da gələcək, sadəcə olarax o günü sən görmüyəcəksən. Deyir, buna belə deyəndə mənim böyük bacım Zeynəb deyir, ə, buna bax ey, seyidi də aldadıllar ey. Hənifə kişinin ölüm kağızı gəlif. Ölü dirilə bilər? Deyir, həqiqətən də, sonrakı il Hənifədən məktub gəldi ki, salamatam. Rəhmətdik mənim

babam da on səkgiz il sürgünnən sora türmədən çıxdı gəldi, amma Ağca nənə həmin günü görmədi (S.21).

## 110. MİR MƏSİM AĞA

Gəncənin özündə Mir Məsim ağa oluf, bağa qaroul çəkirdi. Uşaxlar deyif ki, üzüm də yetişifdi – Təbriz üzümüdü şirin, – yığax. Gəliflər ki, ağa eşşəyin üsdünə otu yığıf, mallarına ot gətirir. Deyillər, aha, ağa çıxdı getdi, bağ yiyəsizdi, gedək üzüm yığax. Ordan ora çox uzax döylü. Xiyaban bilirsən də, üzümün aralarında yol kimi olur, ora xiyabannıx deyillər. Xiyabanın ayağınnan girəndə görüllər ki, ağa başdan gəlir. A qardaş, bunu indicə yola saldıx axı. Qaçaqaça keçiflər o biri xiyabana, baxıflar ki, ağa burda da görükür. Deyiflər, gedək evə. Gələndə görüllər eşşəyin ot yükün açır, qapıdadı. Belə ağalarımız oluf. İndi nə oxuyuf, üfürüf özü bilər. İndi elə seyidlər yoxdu. O seyidin oğlu Mirqasım idi, onun oğlu Mirdamət idi, amma namazları, görürdün, yoxdu (S.3).

## 111-112. CƏNAB CƏBRAYIL

Cənab Əlinin oğlu İmam Həsən olanda Cənab Cəbrayıl gəlir ki, mən gəlməmiş uşağı ağızdandırmıyın[39]. Üç gün keçir, baxıllar ki, uşax ajınnan ölür, amma Cənab Cəbrayıl hələ gəlmiyif. Bunu ağızdandırıllar. Cənab Cəbrayıl gəlir ki, bə sizə demədimmi məni gözdüyün? Deyiflər, uşax ajınnan ölürdü, sən də gəlmirdin. Deyir, sizin bir oğlunuz da olajax,

---

[39] ağızdandırmaq – yeni doğulmuş uşağa anasının ilk südünü əmizdirmək.

onu ağızdandırmıyın. İmam Hüsöyn olur, onu ağızdandırmıllar. Guya Cənab Cəbrayıl gəlif barmağın uşağın azına salanda Allahın nurunnan ağızdanıf. İmam Hüsöynün nə qədər törəməsi varsa hamısı seyitdi, yəni Allahın inanmış adamı (S.25).

### 112.

Məhəmməd peyğəmbərin şəcərəsi düz gedib çıxır İsmayıla peyğəmbərə. Bu yandan İsaq var. İbrahim xəlilullahın, – xəlilullah Allahın dostu deməkdi, – Saradan uşağı olmur. Olmuyanda Allahdan buyrux gəlir ki, ey İbrahim, Həcərnən izdivac elə. O da Saranın qulluxçusu idi. Sara da razılıx verir, ondan olur İsmayıl peyğəmbər. Sonradan bunu qurbangaha gətirir, orda artıq İsmayılı kəsmək isdiyəndə Allah Cənab Cəbrayılı göndərir. Peyğəmbər onda Cənab Cəbrayıldan soruşur. Deyir, göynən yer arasında heç elə sürətnən endiyin olufmu? Deyir, üş dəfə oluf. Bir İbrahim peyğəmbəri oda atanda – özü də Nəmrud taya yüksəklikdə tonqal qalamışdı, – Allah hökm elədi ki, odu sərinnət. İkinci imtahanda evladını qurban kəsməyə yönəldir. Orda da yenə Cənabi Cəbrayıl nazil olur, bıçağın ağzını korruyur. – Doxsan yaşında Sara İsax əleyhsalamı dünyaya gətirir. İsaxdan olan qol Yaqub, Yusif, Musa, gəlir İsada dayanır. İsmayıldan gələn qol Əbdülmütalibə qədər gəlir, Əbdülmütalibdən törəyən Abdullah, Abdullah da Məhəmməd peyğəmbərin atasıdı. Ən sevimli evlad Fatimeyi-Zəhra salamullax əleyhadı. Niyə? Yeganə şəxsiyyətdi ki, aybaşı olmur. O da niyə? Peyğəmbərə hökm gəlir ki, qırx gün Xədicədən kənar ol. O qırx gündən sonra dünyaya gələn Fatimeyi-Zəhradır. Yer kürəsinə onun kimi saf, pak insan gəlmiyif. – Üçüncü də deyir, ya rəsul Allah, nə sən sor, nə

mən deyim. Deyir ki, yox, de. Deyir ki, ya rəsul Allah, nizənin ki ucu gəldi sənin dişini qırdı[40], onda Allah hökm elədi ki, ya Cəbrayıl, yer kürəsini dağıdacam əgər rəsulumun bir damcı qanı yerə düşsə. Belə deyəndə o ərəfədə çatdım ki, o qan düşdü mənim qanadımın üsdünə, yerə qoymadım düşməyə (S.42).

## 113. SÜLEYMAN PEYĞƏMBƏR

Süleyman peyğəmbər bir günnəri baxır ki, iki quşdu, danışıllar. Bir-birin qırıllar. Biri dişi quşdu, biri erkəkdi. Erkək quş xoruzlanır. Deyir, bilirsən mən nağararam? Süleymanın mülkünü dimdiyimə alıb dənizə tulluyaram. Süleyman da baxır gülür ki, balaca quşdu, amma iddiasına bax. Quş dilində deyir, bura gəl. Deyir, ə, sənsən mənim mülkümü götürüf dənizə tulluyan? Deyir, Süleyman, mən də kişiyəm də, ona özümü gösdərirəm. Bu da maa inanmır. Süleyman o biri quşdan sorşur ki, buna niyə inanmırsan? Deyir ki, o günnəri də ayrı quşa belə sevgidən danışırdı, indi də maa belə deyir. Ona görə ona inanmıram, yalan danışır (S.3).

## 114. ÜZEYİR PEYĞƏMBƏR

Bir kəntdə zəlzələ olur, camaat qırılır batır. Üzeyir peyğəmbər deyir ki, ilahi-pərvərdigar, orda imanlı kişilər də varıydı, oları qatdın onun gözünə, olar da getdi. Gərək onlar ölmüyəydi. Deyir ki, Üzeyir, bu sənnik döyül, get, sonra bilərsən. Yaz vaxtıdı, Üzeyr dağın ətəyində gəzir,

[40] Ühüt müharibəsində olur.

buna Allahdan yuxu gəlir. Belə söykənir, onu orda yuxu basır. Bir tompa qarışqaya Allah əmr eliyir ki, Üzeyirin ayağına daraşın. Daraşıllar Üzeyirin ayağına. Topal qarışqa var idi, buna əmr eliyir ki, dişdə onu. Dişdiyir. Uje yuxudan ayılır ki, bir tompa[41] qarışqa ayağına daraşıf. Nətəri əsəbləşirsə, buları yığır belə tompaynan qoyur ayağının altında əzəndə Allahdan səs gəlir. Deyir, Üzeyir, səni öldürəni öldürərdin də. Səni topal qarışqa dişdəmişdi, niyə oları ayağının altında əzdin? Deyir, ilahi, maa çox pis təsir elədi. Deyir, onda mənim işimə qarışma ki, niyə kəndi zəlzələyə qatdın? Bir topal qarışqaya görə min dənə qarışqa öldürdün, Üzeyir. Bir də mənim işimə qarışma (S.3).

## 115-116. MUSA PEYĞƏMBƏR

Həzrəti Musanın devriydi. O qədər halallığ idi ki, üç dənə cavan əmələ gəldi burda. Bir bostandı əkiflər, bir tərəfi taxıl, bir tərəfi belə. Dedilər ki, qardaş, yaman qarpız-yemiş var, gedək oğurruyax aparax, heş kim yox, nə biləjəhlər. Üçü də bostana girəndə gördülər ki, ağacın başında kimsə bərkdən gülür bulara. Vahimə götürdü buları, bostannan qaçdılar. Çıxdılar qırağa. Dedilər, biz nə kişiyik ə, bir dənə gülüş səsinnən qorxdux. Gəlillər, bir də bərkdən gülür, genə vahimələnib qaçıllar. Üçüncü dəfə dedilər, daha bostan yox, bu güləni tapmalıyıx. Bir də baxıllar, çinarın başında bir belə öküz kəlləsidi, səs ondan gəlir. Gəldilər dedilər ki, ya Musa, Allahdan gizdin döyül, səndən nə gizdin. Dünən başımıza belə bir hadisə gəldi. Oğurruğa getmişdik,

---

[41] tompa – topa, dəstə

qarpız oğurruyurdux, bir öküz kəlləsi bizə gülürdü. Dedi, gedin öküzün kəlləsin gətirin. Öküzün kəlləsin gətdilər. Həzrəti Musa iki rükət hacət namazı qıldı, dua elədi ki, ilahi-pərvərdigar, məni agah elə, bu öküzün kəlləsi nəyiydi? Bu niyə gülsün, quru kəllədən səs hardan gəlir? Allah izn verdi, öküzün kəlləsi başdadı danışmağa. Dedi, mən bir abid idim. Bir qaradaş mənim səjdəgahım idi, orda namaz qılardım, bir bulud da məni yağışdan-günnən qoruyardı. Gündə də üş dəfə Allah tərəfinnən maa tam gələrdi, yeyərdim, yalnız ibadət eliyərdim. Bir gün Allah məni sınağa çəkdi, yemək gəlmədi maa. Bir gün gözlədim, iki gün gözlədim, üçüncü gün dözəmmədim. Dedim, çıxım, daa özümə ruzu axtarım. Gəldim, deyir, bu bostanın yerində taxıl əkilmişdi. Taxıl da, deyir, dənə doluf. Qopartdım, bir dənə belə ağzıma tulluyuf çiyniyif udanda ayıldım yuxudan. Dedim, e, mən bunu nağarajam, bunun yiyəsini hardan tapım halallıx alım? Haram yedim mən, icazəsiz xalxın dənini yemişəm. Heş kimi də tapammıram. Dua elədim ki, ilahi-pərvərdigar, bir bu buğda dənəsinə mənim cəzamı bu dünyada ver, ora saxlama. Allah, deyir, məni öküz elədi. Öküzdü də, özümü verdim tarlaya, başdan girif ayaxdan çıxdım, yeyirəm, dağıdıram, ayaxlıyıram. Səhər bu tarlanın yiyəsi gəldi, məni tutdu, başımnan bağladı həmən o çinar ağacına, möhkəm döydü. Hayıfını çıxdı, sonra da kəndiri bağladı başıma, çıxartdı kəndin ortasına ki, bu öküz kimindi? Halallıx vaxdıdı, heş kim irəli durmadı, yiyə duran olmadı. O minvalnan otuz il onun qapısında mən öküz halında işdədim. Su daşıdım, yer əkdim, odun daşıdım, otuz ili öküz kimi yaşadım mən. Şükür, cənnətə getdim. İndi ona görə gülürəm ki, mən bir buğda dənəsinə görə otuz il öküz

kimi yaşadım, əzab-əziyyət çəkdim. Bular indi meşox-meşox o qarpızdarı oğurruyuf aparıllar, bularын cəzası nəynən qurtarajax (S.3).

## 116.

Biri də var idi. Həzrəti Musa Turi-Sina dağına gedəndə bir kişi çıxdı qabağına. Dedi, ya Musa, bizim də ərzi-bəndəliyimizi elə Allaha. Kasıbıx, çətinnihnən dolanırıx. Dedi, nə isdiyirsiniz deyin, mən də deyərəm. Biri deyir hakimiyyət isdiyirəm, biri deyir var-dövlət isdiyirəm, biri deyir şan-şöhrət isdiyirəm. Kişi belə qulax asdı, dedi ki, ya Musa, evdə gəlnimiz var, o da aylənin üzvüdü, qoy gedim ona da məsləhət eliyim, görüm o nə isdiyir. Gəldi dedi ki, ay qızım, Musa gedir Allahnan kəlmə kəsməyə, sən nə isdiyirsən Allahdan. Dedi, atacan, mən mehribançılığ isdiyirəm, ayrı heş nə isdəmirəm. Gəldi dedi ki, ya Musa, mən də o gəlinnən şərikəm. Bizə mehribançılıx versin. Dedi, mənim gözüm üsdə.

Söhbət eliyəndə dedi. Allah dedi, ya Musa, bildim. Get onlara deginən ki, mehribançılıx olan yerdə rəyasət də olajax, var-dövlət də olajax, şan-şöhrət də olajax. Hamısını verdim olara. İndi bir aylədə mehribançılıx olmadı, bir-birini eşitmək olmadısa, o aylədə heç vaxt ruzu-bərəkət olmuyajax (S.3).

## 117. PEYĞƏMBƏRLİK NİŞANƏSİ

Həzrət peyğəmbərdə də oluf haşimi xal. Həzrət peyğəmbər vidalaşmağa az qalıfdı, ömrünün sonlarıdı. Deyir ki, gəlin kimin boynunda haqqım var, ya mən kimə nəsə eləmişəm, gəlin halallaşax. Biri deyir ki, mən sənin kürəyinnən

qamçıynan vurajam. Niyə? Filan yerdə dəvəyə minəndə – ola bilər əlini belə eliyəndə – qamçı mənə dəyif. Peyğəmbər adam döyəndimi? Deyir, yaxşı. Kürəyini belə açır, solda lapatkanın altında göyərçin yumurttası boyda xal oluf. Deyir ki, gəl vur. Camaat ayağa qalxanda peyğəmbər əlini qaldırıf ki, dəymiyin. Yüyrüf qucaxlıyıf, başdıyıf onu öpbəyə, yalamağa. Deyir, nə vurmağ ey, mən onun həsrətindəydim ki, mən onu öpüm. Sən məni havaxt qamçıynan vurmusan? Yoxsa desəydim gət öpüm, qoymuyajaydın. Bax, aşdın, onu öpdüm.

Bax, indi o xaldan – sən mənim canım bu sözü heş kimə demə, – məndə balacası düşüfdü, tühlü xaldı. Özüm hələ anadan olmamış, anamın qarnında olanda – iki-üç il də uşaxları gej olub – anam deyir, gejə saat üç olardı, kıravatda yatıram. – Mən də boynundayam anamın. – Deyir, sakqallı, qara əba, əlində həsa, belində göy qurşax bir kişi içəri girdi. Həsanı belə qaldırdı, qoluma vurdu. Dedi, qızım, oğlun olajax, adını Məhəmməd qoyarsan, nişanəsi də bu olajax[42]. Mən də doğuldum, adımı Məhəmməd qoydular. O xal indi də durur, bax, noxud boyda tühlü xaldı, düz lapatkanın altında (S.3).

## 118-119. HƏZRƏT ƏLİ

Əli Əleyhsalamın anasının adı Fatimə olub. Həm peyğəmbərin qızının adı Fatimədi, həm də bu. Fatimə ana böyüyəndə – bunun atası da varlı-hallı oluf – deyib mən Fatiməni Əbutalib kimi oğula verərəm. Əbutalib də Əli

---

[42] Söyləyicinin dediyinə görə, anasının yuxuda gördüyü Məhəmməd peyğəmbər idi.

əleyhsalamın atasıdı. Söz gəlir çatır Əbutalib alsın da onu. Nəysə, alır. Gəlir Əli əleyhsalam ananın boynuna düşəndə onu hər gün gözdüyürdü Fatimə xanım. Əbutalib işdən gələndə qabağına gedirdi, pişvazına çıxırdı, gətirirdi əl-üzünə su tökürdü, yeməyini rahatlıyırdı. Boynuna uşaq düşənnən sonra Əbutalib gördü kü, bu ana gəlmir, qapının ağzında gözlüyür. Bir ay da keçdi, ana qapının ağzında görünmədi, içəridə gözdədi. Bir ay da keçdi Əbutalib gələndə ana arxasını Əbutalibə çöörür. Dözəmmədi ki, sən bu qədər maa hörmətsizdik eliyirsən? Dedi, and ola Allaha, sənin hörməti qabaxkınnan çox isdiyirəm. Məni eliyən bətnimdəki uşaxdı, bu qoymur, məni hərriyən odu. Uşax, bilirsiz də, ananın bətnində üzü kürəyə olur. Deyir, sən içəri girən kimi bu hərrənir, arxam sənə düşür. Qonşudan üş-dörd arvad çağırır, bu da cavan gəlindi, nə güjü var. Deyir, bunun qollarınnan tutun, mən çölə çıxıram. Əgər bunu o qüvvə fırrıyırsa, genə fırrıyajax. Gedir, içəri girəndə ananın bətnindəki uşax nətəri fırranırsa, arvadlar hərəsi bir tərəfə düşür. Deyir ki, ağa, bunu eliyən odu, bətnimdəki uşax. O Əli əleyhsalam idi. Mən atamı görürəm, mən onu qarşılıyıram. Ona görə çörükdüm ki, üzüm atama düşsün.

Bunu bir türk dosdum var idi, Bursadan idi, Hacı Saleh, o danışıb ağlıyırdı. Hənəfi təriqətinnən idi, danışıb elə ağlıyırdı ki, heç şiə helə ağlamazdı (S.3).

**119.**

Bir günləri Əli əleyhsalam iki-üç yaşlarında olub. Deyir, gördü kü, evə əjdaha gəlir. Əjdaha gələndə Əbutalib işdə olur, ana da beləsinə qaçır, uşaq da içəridə yatır. Elə bilillər ki, uşağı yedi, dağıtdı bu əjdaha. İçəri girillər ki, uşax

əjdahanı öldürüfdü. Allahın işidi, Allahın izninnən olan şeydi. – Ay uşaq, bəs sən nətəri bu əjdahanı öldürdün? Deyir, ay ana, sənin yaşın çox olar, ya mənim? Deməli, o vaxdar bu İdris kişi deyir ki, mənim qızım gəzməyə çıxajax, ətrafda heç bir oğlan uşağı olmasın da. Varrı-hallı olur. Ana da gəzməyə çıxır, meşədə azır. Bunun üsdünə bir aslan hücum eliyəndə baxır ki, o yandan üzü rübənddi bir ərəb gəlir atın üsdündə, aslanı öldürür. Orda Xanım Fatimə boynunnan boyunbağını çıxardır, verir ərəbə. O da ona bir dəstə çiçək verir. Deyir, sən də bunu saxla. Deyir, sən bunu maa verdin, atan səni incidər ki, o qiymətdi şeydi. Deyir, atama mənnən qiymətdi heş nə yoxdu. Həə, indi uşax deyəndə ki, ay ana, mən səndən də böyüyəm. Deyir, nətəri? Deyir, yadındadı, səni şirdən bir oğlan qurtardı? O məniydim. Ala bu da həmən bazubəndin. O çiçəyi də saxlıyırsanmı? (S.3)

## 120. XANIM FATİMEYİ-ZƏHRA

Xanım Fatmeyi-Zəhra – peyğəmbərin qızı deyir ki, mənim gor qonşum görən kim olajax? Həzrəti peyğəmbər deyir ki, filan çobanın arvadı. Gəlir, qapını döyür. Deyir ki, mən filankəsəm, sənlə görüşmək isdiyirəm, söhbət eləmək isdiyirəm. Deyir ki, xahiş eliyirəm, üsdümə çox gəlmə. Mən ərimnən icazə almamış heş kimə qapı aça bilmərəm. Ərim gəlsin, icazə alım, ondan sonra gələrsən söhbət eliyərik. Deyir, yaxşı. Əri axşam gəlir. Deyir, bəs peyğəmbərin qızı gəlmişdi, mənnən söhbət eləmək isdiyirdi. Deyir, mütləq qapını aç. Səhər gedəndə İmam Həsənnən İmam Hüseyn də yanındadı. Qapını döyür. Deyir, hə, gəlirəm. Yanında kim var? Deyir, uşaxlarım. Deyir, genə aça bilmərəm. Deyir, niyə?

Deyir, uşaxların kişi xeylağıdı, naməhrəmdi, mən olara icazə almamışam. Deyir, yaxşı. Əri gələndə deyir, balalarını da gətirmişdi. Əri deyir, balalarına da qurban olum, aş qapını, gör nə deyir. Fatimeyi-Zəhra gələndə aşdı qapını, gördü oturub günün altında, qardaş, yun çırpır. Böyründə bir qom çörək günün altında, bardaxda da su günün altında. Deyir, bunlar niyə günün altındadı? Deyir, bə mənim sahibim çöldə qoyun otarır günün altında, mən ondan artığam? Qoy elə mənimkilər də günün altında olsun. Gör nə qədər ayləyə, ərə sədaqəti var. Deyir, hə, sənin cənnət qonşun bu qadındı (S.3).

## 121-122. LOĞMAN

Belə rəvayət eliyillər ki, Loğman gedirmiş yolnan. Görür ki, bir çovan qoyunu sağıb, – o vaxdı mis cəmlər olub, qavlama deyirdilər ona, – əyə, bunnan çörəyi doğruyuf, qaşıxlıyıf yeyir. Deyir, kopoğlu, mən gələnətən çatdıyıf öləjək. Gəlif buna həkimlik eliyəjəm, qoyunun alajam. Qayıdıf ki, bu yemlik yığıf yeyir. Deyir, dərdin də bilir, dərmanın da bilir (S.5).

## 122.

Deyir, Loğman bir şennikdən keçəndə baxır uşaxlar soyux suda çimir, üzür, atılır, axırısı sudan çıxmırlar. Deyir, paa, bular qırılajaxlar. Loğman deyir, soyuxda çox oynamayın, xəsdələnəjəhsiz. Bunlar məhəl vermir, çimməyə davam eliyillər. Loğman qayıdanda maraxlanır ki, görüm buların axırı noldu. Görür uşaxlar indi də zoğal ağacının divinə yığışıb zoğal yeyillər. Deyir, Allah dərd veribsə, dərmanın da verib. Deməli, bunlar soyux suda nə qədər qanları, sinirləri üşüsə

də, zoğal bunları qutarajax. Zoğalda həmi C vitamini çoxdu, bədənin immutetini artırır, həmi də karotin çoxdu (S.37).

## 123. NƏSRƏDDİN TUSİ

Nəsrəddin Tusi yaylaxnan gedirmiş, bir çobana qonağ olur. Axşam düşür, çoban deyir, qonax, gedək içəridə yatax. Bu da görür, hava gözəldi. Deyir, yox, mən eşikdə yatıram. Çoban deyir ki, mən sənə deyirəm gəl içəri, sonra məni narahat eləmə, mən gejə sənə qapı aşmıyajam. Çoban girir içəridə yatır, Nəsrəddin Tusi də çöldə. Gejənin bir vaxdı yağış başdıyır. Bu da astronomiyanı bilən adamdı, bu elm sahəsində əsərləri var, bilgiləri var. Necə olur çoban yağışın yağacağını bilir, amma bu bilmir. Gedir qapını döyür. Çoban deyir, mən sənə dedim ki, açmıyajam qapını. Deyir, ə, qapını aşma, yaxınnaş, söz deyəjəm sana. Yaxınnaşır. Deyir, de görüm sən nədən bildin ki, yağış yağajax? Deyir, mən heş nədən bilmədim. Allahın iti çəkilif damkasına orda yatdı, mən onnan bildim (S.22).

## 124. İBN SİNA

Bir günnəri bir kişinin oğlu sağalmaz xəsdəliyə tutulur. Həkim, loğman qalmır yanına aparmaya. Deyir, bircə bunun dərdin tapsa, İbn Sina tapajax. Gedir, soruşa-soruşa tapır İbn Sinanı. Deyir, həkim, bu uşax neçə illərdi belədi, filandı. Bunu yoxluyur, görür bunun dərdi, həqqətən də, sağalmaz xəsdəlikdi. Daha kişiyə açıxca deyə bilmir ki, əziyət çəkmə da, bu uşağa xeyri yoxdu. Nəysə, bunu birtəri razı yola salır. Deyir, bular gəlillər ata-bala. Yaz vaxdı olur.

Torpax yolnan gedillər, yolun sağı-solu da çiçək çiçəyi çağırır, biçənəklər belə. Oğlan deyir, ata, nə gözəl çəmənnikdi, nə gözəl çiçəklər var. İcazə versən, olardan bir-ikisin yiyim. Deyir, onsuz da həkim də bir söz demiyif, ürəyi nə isdiyir qoy eləsin. Deyir, qadan alım, hansın isdiyirsən götür yeginən. Uşax bir az ajıfmış. Yolun sağına da keçir, soluna da keçir, o çiçəklərdən dəsdə-dəsdə götürür heyvan kimi başdıyır yeməyə. Bir dəsdə yeyir, iki dəsdə yeyir, gəlif evlərinə çatıllar. Loğman da deyif, sənin axır vaxdarındı, sağalmaz xəsdəlikdi. Kişi də gözdüyür ki, bu gün-sabah uşax öləjək. Görür uşağın günü-gündən rəngi gəlir özünə. Beş ay keçir, uşax ölmür, nabarot, sağlam bir oğlan olur. Uşağı da götürür düz gedir İbn Sinanın yanına. Deyir, sənin loğmanlığın belə olsun. Bəs sən deyirdin qutarıf həyatdan. Deyir, əşi, bunun xəsdəliyinin dərmanı var idi, intaası təbabətə məlum döyüldü. Deyir, haraynan getdiniz? Deyir, filan yolnan getdik. Deyir, yolda nə yedi bu? Deyir, ürəyi istədiyi otdardan yoldu yedi. Mən, deyir, bilirdim bunun dərdini, nə bileydim o otun hansıdı bunun dərmanı. Bilseydim o otu tapıf özüm dərman hazırrıyardım. O otdarın biri onun dərmanıdı, onu tapmax mümkün döyül (S.41).

## 125-126. LƏLƏ

Tacir həyat yoldaşına deyir ki, qız övladımız var. – O vaxd tacirrər aylarnan çıxırmış səfərə. – Əgər bu dəfə oğlumuz olmasa, sən mənim gözümə görsənmə. Yazıx qadın neynəsin ki? Qadın eşidir ki, yoldaşı səfərdən gəlir. Düşür təlaşa ki, neyniyim. Maa tapşırdı ki, oğlumuz olmasa, mənim gözümə görsənmə. O devrdə də bilirsiz ki, oğlan uşaxlarına daha çox rəğbət var imiş. Qadın fikirrəşir, ay

Allah, mən neyniyim. Əl atır dübək daşına, bükür, qoyur nənniyə, başdıyır yırğalamağa. Kişi girir içəri. Deyir, o nədir elə? Deyir, oğlumuz Lələ. İndi fikir ver, ilahinin gücünə, qüdrətinə bax, bir qara daşa can verir.

Zaman keçir, axı el ağzı, özünüz bilirsiz də, dedi-qodudu. Biri deyir, bu uşağı hardan aldılar? Biri deyir ki, bu uşağı aldılar ki, varrarı, züryətdəri kiməsə qalar. Bu çatır tacirin qulağına. Tacir planlaşdırır ki, mən camaatın dedi-qodusunnan qutarmax üçün Lələni öldürməliyəm. Qadın bunu hiss eliyir, Lələni götürür atır dalına, ya allah. Orda deyir ki:

Lələ şələni yıxar,
Şələ lələni yıxar.
Lələnin hax divanı
Sonunda doğru çıxar.

Atır kürəyinə, şələli-mələli qaçır. Tacir bunu çox axtarır, tap bilmir. Bu baş götürür gedir (S.21).

**126.**

Lələ o qədər çox yaşıyır ki, ölməzdiyə qovuşur. İllər üsdünnən ötənnən sonra Əzrayıl düşür bunun üsdünə. Lələ əcəldən qaçır, Əzrayıl bunu tapa bilmir. Hər yerdə axtarır, bunu tapa bilmir. Fikirrəşir ki, bunu necə tapım. Gəlir bir dağda məzar yeri qazır. İrax buralardan, məzar yeri qazır. Lələ də gəlif çıxır ki, bu camaat mübahisə eliyir. Yaxınnaşır ki, nədi mübahisəniz, bəlkə sizə kömək elədim? Deyir, mübahisəmiz odur ki, bir nəfər insan var, onu dəfn eləməliyik, amma bilmirih bu qəbrə sığar, ya sığmaz. Belə deyəndə Lələ deyir, onu nədən bilək? Deyillər, elə sən boyda-buxunda olar da. Gəl gir məzarın içinə, əgər sən yerrəşirsənsə, həmən insan da yerrəşəcəkdi bura. Lələ

bura girib uzanan kimi Əzrayıl tullanır, tutur bunun xirtdəyinnən. Xirtdəyinnən tutanda Lələ görür ki, iş işdən keçifdi. İndi neynəmək lazımdı. Deyir, mənim işim-gücüm söz qoşmax oluf, izin ver söz qoşum, dastan söylüyüm, sonra yenidən alarsan canımı. Bunu aldadır, Əzrayıldan qaçır:

Lələ gəldi hacılı,
Yanı tula, tazılı.
Çıxdı əcəl dağına
Gördü məzar qazılı (S.21).

## 127-129. TEYMURLƏNG

Teymurləng Əlincə qalasını almaq məqsədi ilə üş dəfə Göyçə mahalına gəlif gedif. Onun oğlu oluf Miranşah, amma o qədər qəddar imiş ki, ona İlanşah deyiflər. Bir dəfə onu qoyuf gedif ki, Əlincə qalası, nə olur olsun, alınsın. Amma elə oluf ki, ala bilməyif. Sonra özü gəlif. Bilirsiniz ki, o hara getsə, oruyu zəbt eliyirmiş, varını, dövlətini, sənətkar adamları aparırmış. Bu dəfə də gələndə... Gəlir, bizdə Norbayazet elədilər, Türkiyə Bayazetinin adı idi. Sonra o böləndü, çayın bəri üz qaldı ermənilərə, onu addandırdılar Norbayazet. O gəlib ordan keçəndə bu ermənilər orda buna qarşı çıxıflar, İrəvana gedən yolun qırağıdı, həmişə oruynan gedirik. Çox hündür bir təpənin başındadı o qala. Deyir, o qalaya dolduruf onları ordan atırmış, çox hündürmüş, aşağısından da su gedir. Alta düşən məhv olurmuş, ölürmüş. O qədər meyit düzəldi ki, üsdə düşənlər qalırdı. Gəlir, bizim zonadan keçəndə, onun basılmaz ordusu oluf. Hətta deyilənə görə, onun sərkərdəsi də Basar adında oluf. Orda qırğın eləmiyib, basıb keçib. Elə o vaxtdan deyirlər,

Basar, Basar, Basar keçər. Basarkeçər adı belə yaranıb. Teymurləng guya deyif ki, buların hamısının kökün kəsərdim, amma mana nəhlət oxujaxlar ki, bir milləti qırıf. Qoy görsünlər ki, bunlar necə millətdi (S.17).

**128.**

Mənim anamın doxsan yaşı var. Deyirdi ki, o topal kopoğlu erməniləri qıranda toxumlux bunu niyə saxlıyırdı? Teymur özü deyif ki, tarix özü məni bağışdamıyajax. Mən buların hamısın qırsam, maa nəhlət oxuyajaxlar. Birin saxlasam, gənə nəhlət oxuyajaxlar. Ona görə birin saxlamax lazımdır ki, qoy görsünlər mən düz eləmişəm, buları qırmax lazımdı. Gəlir Basarkeçərə çatanda – Basarkeçərin adın da ordan götürüllər, – deyir, burdan basdı keçdi. Deyir, bunnarın mən kökünü kəssəm, mana nəhlət oxuyajaxlar ki, bir millətin kökünü kəsif. Kəsməsəm, gənə maa nəhlət oxuyajaxlar ki, bunun kökünü niyə kəsmədin (S.38).

**129.**

Teymurləngin anası erməni qızı olub, dayısı erməni olub. Bir gün Teymurləng dayısının quzusuna gedirmiş. Bir dooşanı quzuynan hərriyif gətirif. Axşam gələndə dayısı deyif ki, ə Teymur, nə gej gəldin? Deyif, dayı, çəpiş qarışmışdı quzuya, gəlmirdi. Qatıb qabağıma gətirmişəm. Baxıf ki, çəpiş dediyi dooşandı, dooşanı quzuya qatıf gətirif. Teymur gejə yatanda qollarını yay-kirişnən bağladır, Teymurləngin bir diz qapağını çıxartdırıf. Ondan sonra Teymurləng erməniləri qırıf o hayıfa. Qıra-qıra, qıra-qıra gəlib Basarkeçərdən də basıb keçib. Anası yalvarıf, minnət eliyif, dayandırıf. Deyif, nə qədər qırmısan, o qədər bəsdi. Alban-

ları qıranda bir dənə qız veriflər Teymurləngə, ona görə basıf keçib, ora dəymiyif. Ondan da oranın adı qalıf Basarkeçər. Amma köhnə vaxdı oranın adı oluf Qamışdı (S.25).

## 130-147. AŞIQ ƏLƏSGƏR

Aşığ Ələsgər körpə vaxdı çox hafizəli oluf da. Bizim kəntdərdə çox molla olmuyuf. Din oluf, dinə inam var, amma təhsilli molla kütləvi şəkildə olmuyuf. O vaxt molla az oluf, gedif kənardan gətirillərmiş. Ən çox İrannan gəlirdilər Göyçüyə, Göyçədə kəntdərdə qalırdılar. Seyiddərin çoxu onnan qalmadı, qız-zad alıf qalıflar. Bunnar gəlirdilər yas mərasimi aparırdılar, belə kütləvi ehsan da o dərəcədə döyüldü. Ələsgərin uşaxlıx devridi, hardasa on iki-on üç yaş ərəfəsində, bu İran mollası oxuduxca, Ələsgər buna deyirmiş, molla, orasın səf dedin. Molla da şüphələnir. Deyir, ev yiyəsinə deyin, bu uşağı rədd eləsin, bu, məni cana yığdı. Ələsgərin atasına deyillər ki, molla onun uşağınnan narazıdı, uşağına denən ki, diş dursun. Qara ev damları olur, orya yığılıllarmış. Sora uşağa deyillər ki, sən niyə belə eliyirsən? Deyir, ay qağa, o filan sözü səf deyir. Deyillər, bu uşax havalanıfdı, bu nə bilir ki, Mədinə-Məkkədə örtüyün rəngi yaşıldı. Bir gün bir bərk bilən, oxuyuf gəlmiş mollanın yanına aparır. Deyir ki, bəs mənim oğlun belə şeylər deyir. Deyir, bu uşax hafizəlidi, buna dəyif toxunmuyun, qoyun nə deyir desin. Bir gejə Ələsgəri dindirillər, Ələsgər başdıyır Məkkədən, Mədinədən, ziyarətgahdan danışmağa. Soruşullar, sən hardan bilirsən o nədi? Deyir, qağa, mən yatırdım, gejə yuxuda gördüm Həsən bavam bizə gəlif. Həsən baba da Ələsgərin babasının babasıdı. Hə,

gəldi bizə, dedi ki, a bala, gəl səni ziyaratgaha aparım. Atnan gəlmişdi, amma elə də geyinmişdi dümağappax. Dedim, Həsən əmi, məəm pulum hardadı ki, ziyarətə gedim. Dedi, yox, sən otur, mənnən gedəh. Deyir, məni yoldan çıxartdı, mindim ata, getdim. Deyir, getdim gördüm iki dağın arasında bir dərə var. Dərənin bu başında o qəddər göyçəh adamlar var, hündürboy, sifəti göyçəhlər dərənin o tərəfində də. Burdan adamları samballıyıb göndərillər ora, ordan samballıyıb göndərillər bura. Deyir, mən orya çatanda gördüm Həsən kişi atın da sürdü getdi, məni orda qoydu. Deyir, o kişi gəldi maa dedi, baa evin tikilsin sənin, Ələsgər. Sənin ziyarətgahın elə olduğun kəntdə olufdu, sən niyə əziyət çəkif gəlifsən? Gəlifsən, xoş gəlifsən. Yanındakı biri deyif ki, gəlif çox gözəl, addat çıxsın getsin. Məni, deyir, samballamadı, amma gördüm adamları samballıyıllar, nə bilim, nəyinə baxıllar, – Ələsgər də elə viddi adam olmuyub da, – göndərillər o biri üzə. Getdim gördüm o biri tərəfdə daxıllar düzülüf, onun üsdündə meyvələr var, hər meyvənin üsdünə baxırsan güzgü kimi səni əks etdirir. Alma var qarpız boyda, xurma var alma boyda. O qədər şəffaf meyvələr. Gördüm hamı kəsif yeyir, amma əksəriyyəti kişi xaylağı. Mən də qıraxda duruf boynumu bükürdüm. Gördüm, bir adam gəldi maa dedi, a bala, Ələsgər, niyə yemirsən? Dedim, vallah, məəm pulum yoxdu. Dedi, ay rəhmətdiyin oğlu, burda puluynan döyül, bir salavat çöörərsən, nə istəsən onu yeyərsən. Dedi, qağa, mən bir salavat çöördüm dörd yüz yetmiş cümlə yadıma düşdü. Dörd yüz yetmiş cümləni düzdüm qoşdum həmən dəyqə. Bax, mənə orda dedilər ziyarətgahın üzünün pərdəsi nətərdi. Atası gedif-gələn adamlardan məslə-

hat elədi, dedilər, bu uşax nə deyir, düzdü. Bu yuxuda gedib e, aşkarda yox. Gör Allah bunu nə qədər möcüzə yaradıf. Ələsgər niyə deyir, Quranın neçə min ayəsi məndədi? Çünki Göyçədə dini təbliğat o qədər güjdü olmuyuf, İrannan gəlif təbliğ eliyiflər. Ələsgər formalaşannan sora İrannan gələn mollaların sayı azaldı. Qorxdular ki, Ələsgər ordadı, onun qavağında söz demək olmaz (S.29).

**131.**

Ələsgər Ağkilsə kəndindəndi, Ağkilsəynən də Qaraqoyunnu yanaşıdı. Buların bir dağ arasında cığırrarı var, yol keçidi. Bular burdan keçillər, gedillər ot pişməyə Kəlbəcərə sarı. Ordan keçəndə həmişə ehtiyatnan keçillər ki, dağdan daş qopa bilər. Qəşəm kişi danışırdı bunu. Qəşəm kişi deyir, mən getdim gördüm ki, Ələsgər çayın qırağında qolların çirmiyif nəsə danışır öz-özünə. İndi niyə elə deyir? Bınnan qavax gedənnər görür ki, ayə, ortaya bir qaya düşüfdü, burdan arava keçəsi döyül, adam zornan keçif gedir. İndi aravıya ot yığıf gətirməh lazımdı axı. Qayanı necə yerindən tərpətsinnər? O vaxd kran yox, nətər eliyə bilələr? Bılar nə qədər çalışıllar, Qaraqoyunnudan, Nərmannıdan adam çağırıllar, yerinnən tərpədə bilmillər, çıxıf gedillər. Ələsgər gəlir, bu da biçinə gedirdi. Görür, ayə, yolun ortasına böyüh bir qaya düşüf. Ələsgər, deyir, soyundu, girdi çayda yuyundu, gəldi başdadı namaz qılmağa. Qəşəm deyir ki, mən gördüm ki, Ələsgər öz-özünə nəsə deyir, amma qayaya toxunur. Elə bil un çuvalını çiyninnən vurur. Hər oxuduxca, deyir, daş yerinnən tərpəndi. Ələsgər vura-vura, vura-vura daşı aşırdı dərəyə saldı, deyir. Oana baxdı, buana baxdı ki, bunu heş kim görmədi, amma mən görür-

düm. Gəldim buna çatanda dedim, Ələsgər qağa, sən nə iş görürdün, öz-özünə nə danışırdın? Dedi, gördün eləmi mən elədiyimi? Dedim, hə. Dedi, səni ant verirəm Allaha, mən ölənə qədər onu heç harda demə. Dedim, baş üsdə. Elə bil içimi yandırırdı o söz. Ələsgər, deyir, dünyasın dəyişdi, dəfin-dəslim qutarannan sora axşam o söz yadıma düşdü. Hamı məhətdəl qaldı ki, ayə, bı daşı nəynən tərpədə bilərdi, kim dərəyə saldı daşı? Deyir, dedim ki, Ələsgər mana Allaha and işdirmişdi, demirdim. Onu danışa-danışa, elə tərpədə-tərpədə apardı ki, o daş getdi dəriyə düşdü (S.29).

**132.**

Ələsgərin İrvaham adında bir qonşusu olur, cavan uşax, yetim olur. Bir dul arvad, bir kişi. Ələsgər də hər məclisə gedir tərif deyir, biri Ələsgərə at verir, biri inəh verir. Türkiyədən belə gəzif gəlif, Kəlbəcərə gedif, Qarabağa gedif. Ələsgərin at ilxısı çoxuydu da. O vaxdı at da indinin bərk gedən CİP-inə bərabərdi. Bu İrvaham kişi anasına deyir ki, ay ana, get Ələsgər qağama denən ki, mana imkan versin, bax Samuğun Ziyaddı kəndi var, gedim orda at arabasınnan taxıl daşıyım, orda taxıl çoxuydu, onnan mana pay verəjəhlər da. Atını versin, gedim onu daşıyım, gələndə Ələsgər qağamın da payını gətirim, özümüzünkünü də. Dedi, baş üsdə. Getdi dedi, Ələsgər qağa, olarmı saa bir söz deyim? Dedi, buyur. Dedi ki, sizdən bir şey xayiş eliyim. Mənim oğlum isdiyir ki, getsin aranda işdəsin, bir az buğdadan-zaddan gətsin, yola gedəh də, ajdıxdı. Dedi, hə, nə gözəl! Bə nə isdiyir? Dedi, at isdiyir. Dedi, verim. Arvad çıxıb gedənnən sonra Anaxanıma dedi, bir o arvaddan xavar al, gör oğlu kimnən gedəjəh? Bu da təzəcə aylə quruf. Dedi, a kişi,

sənin nəyinə lazımdı kimnən gedəjəh, yəqin ayləsinən. Dedi, yox, ayləsinən getsə vermiyəjəm. Dedi, ə, nətəri, nə fərqi var? Dedi, indi mən deyim, sən qulağ as. Çağırdı arvadı. Dedi, Xanım arvad, oğlun gəlini də aparajax? Dedi, hə. Dedi, onda vermirəm. Dedi, Ələsgər qağa, üzüm ayağının altına, niyə vermirsən? Dedi, arvadını aparajax, arvad da gözəl-göyçəh gəlindi. Gedəjəh, orda kiminsə yanında işdiyib eliyəjəh, gəlini əlinnən alajaxlar, özün də öldürəjəhlər, deyəjəhlər daş düşüf başına. Gəlini aparmasın, gözüm üsdə, verəjəm. Gəldi arvat dedi, Ələsgər qağan belə dedi. Dedi, ay ana, o ki elə deyir, olsun. Getdi dedi, Ələsgər qağa, olsun, arvadı aparmıram.

Atı madyan atı olur, gətirir bura. O qədər tamahkir olur ki oğlan, atı o qədər naqruska eliyir ki, gejə Ay görükəndə görür ki, at bərk kişniyir. Oğlan gedir görür ki, at qulun salıf. İndi möcüzədi bu. Atın qulun salmağın Ələsgərə desin, deməsin. Bir az fikirrəşdi, çıxdı, Aya əlin uzatdı. Dedi, ay Allah, məni öldür, Ələsgər qağamın yanına üzüqara göndərmə. Mən deyə bilmijəm, nətər eliyim?

Ələsgər səhər tezdən qalxdı, uşaxları yığdı başına. Dedi, o başı batmış Allahdan ölüm isdiyirdi, bu gejə at qulun salıf. Olmuya-bilmiyə gələndə ona deyəsiniz. O ki gizdədir, zərər yoxdu. Ələsgərə həmən gejə agah oluf.

Tezdənnən qalxıllar, hərə öz işində-güjündə. İrvaham gəlir, elə gəlir ki, şübhəli adamdı da, bilinir. Gətirir Ələsgərin payını verir, atı da verir, əl-ayağınnan da öpür. Deyir, Ələsgər, Allah saa ömür versin, getdih gətdih, dolandıx. Amma bu həmmişə Talıbı, Bəşiri görəndə ujdanırmış[43].

---

[43] ujdanırmış – ehtiyat edirmiş

Bəşir də bunun dalınnan əl çəhmirmiş. Bir gün kəntdən aralaşanda Bəşir deyir, ay İrvaham, sana bir şey deyəjəm. Bu da o dəyqə bilir ki, nə deyəjəh də. Şübhəli adam işini bilir axı. Deyir, səni ant verirəm Allaha, de görüm bizim at qulun saldı, yoxsa yox? Dedi, ayə, bə nədi. Ayə, onu sən hardan bildin? Dedi, ay öyünü Allah tihsin, qağam həmən gejə dedi. Bax, Ələsgərin heylə möcüzələri vardı (S.29).

**133.**

Ağayar kişi deyir, o vaxdı hamı qrupba-qrupba əkif biçillərmiş. Bir gün Aşıq Ələsgər gəlif ki, cütcülərə çörək apara. O vaxdı iki-üç nəfər bir olub cütnən yer əkillərmiş. Növbəyə qoyuflarmış, bu gün mən gətirərəm, sabah sən. – Ağayar kişinin danışığını deyirəm. – Ələsgər çörək apar-mağa gələndə anası deyir, sən yat, dincini al, mən çörəyi hazırrıyım. – Sərniş deyillər, xaşılı bişirif ona doldurullarmış, beş-altı adam bir mis cəmdə yeyirmiş. O vaxdı Göyçədə qurut hazırrıyırdılar, qışda qat, xəngəl bişir. O qurut dərman idi. – Bu uzanır yatır. Arvad görür bunun ağzınnan köpük gəlir, öz-özünə danışır. Arvad deyir, bu dəli oluf. Kənddən bir ağsakqal çağırıflar. Deyif, dəymiyin, qoyun özü oyansın. Onu indi qaldırsanız, itər, dəymiyin, özü ayı-lajax. Bir vaxt ayılır ki, camaat böyür-başına yığılıf. – Ə, nədi, yoxsa dədəmi öldürdülər? Deyillər, yox, dədəni öldürmü-yüflər. Elə onnan da başdadı hakk aşığı olmağa, getdi Alının yanında şəyird oldu (S.31).

**134.**

Deyir, aşığ aşığın üsdünə saznan getməz. Böyük ağa olub, çox müxənnət adam oluf. Məclis keçirdir, Aşıq Alı da

məclisi aparır. Aşığ Ələsgərin dalınca adam göndərir ki, Böyük ağa deyir gəlsin, qonağım var. Aşıq Ələsgər içəri girəndə baxır ki, Alı burda. Deyir, ə, bəs sən... Deyir, bilmədim. Deyir, yox, aşıq ki aşığın üsdünə saznan gəldi, gərək deyişə. Deyişiflər. Savaha yaxın Ələsgər deyir, qoy mən eşiyə çıxım. Eşiyə çıxır ki, ləzgi bir toğlu aparır. Qayıdıf toğlu üsdünə bir qıfılbənd deyir, toğlu sözünü ləzgicə deyib. Aşıq Alı onu bilmiyif. Deyir, heylə şey yoxdu. Deyir, var. Deyir, sübut eylə. Gedif ləzgini gətirillər. Deyir, toğluya nə deyirsiz? Deyir, gər. Qaylanqorçusu[44] Alını ata mindirif aparır. Gedəndə deyir, a bala, nə tez qarannıx basdı. Deyir, Alı əmi, sabah ertədi. Deyir, hə, gözüm tutuldu.

Aşıq Ağayar deyir, məclisilərə gedirdik, yaylığ açırdılar. Qızıl pulu, palazqulax yüzdükləri tökürdülər yaylığın üsdünə, bağlıyıf gətirirdik. Gəlirdik, öydə heş nə yoxdu. Elə bil o qədər pul qazanan bu deyildi. Deyirdim, ay Ələsgər, bəs o qədər qazancın hanı? Deyirdi, a bala, mənim çörəyim olmaz. Ona görə ki, mən usdadımın üzünə ağ olmuşam. Deyir, qızıl gətirirdi, pul gətirirdi, evə gələndə heş nə yox idi. Deyir, a bala, mən usdadın üzünə ağ olmuşam ey, mənim qazancımın bərəkəti yoxdu (S.31).

## 135.

Şəmkirli Aşıq Hüsöyün Molla Pənah Vaqifin bacısı nəvəsidi. İki Aşıq Hüsöyün oluf, biri Tovuzun Bozalqanlı kəndinnən, biri də Şəmkirli Aşıq Hüsöyün. O Göyçəyə gələndə deyif, çox Ələsgər, Ələsgər deyillər. Gedif Ələsgərnən görüşəjəm. Atını minib Qoşqardan aşıf gedif orya.

[44] qaylanqorçu – aşığın balabançısı

Kəndin kənarınnan gedəndə deyif ki, Ələsgərin evi hansıdı? Göyçədə biz kərmə kəsirdik, onu qalax yığırdıx. Baxıf ki, Ələsgər qalağın bir tərəfin tutuf. Qalağı sökürmüş. Gəlif deyif ki, salam məleykim, Aşıq Ələsgər. Deyif, əleykim salam, Aşıq Hüsöyün. Xoş gəlmisən. Deyif, ə, mən dəyirmançıdan xəbər aldım ki, Ələsgərin evi hansıdı? Dedi Ələsgərin evi odu, qalağı sökən də Ələsgərdi. Sən nə bildin mən Aşıq Hüsöyünəm? Deyir, üş gün bunnan qabax mana agah olmuşdu. Oğlum Bəşirə dedim ki, Hüsöyün əmin bizə gələjək, bir heyvan saxla. Bax, Ələsgər heylə Ələsgər oluf (S.25).

**136.**

Aşıq Ələsgər çox kasıb oluf, onun dədəsinə Lüt Alməmməd deyiflər. Kalbay Qurban varmış, oğlu Ələsgəri ona nökər verir. Kalbay Qurbanın da birjə qızı var imiş Səhnəbanu. Orda sevişiflər. Kalbay Qurbanın qardaşı Pullu Məhərrəm oluf. Pullu Məhərrəm deyif ki, Alməmməd kimdi ki, onun oğlu mənim qardaşımın varına yiyələnə. Ələsgərin xasiyyəti, hərəkəti Kalbay Qurbana xoş gəlir. Deyif, elə həm oğlum olsun, həm də yeznəm, qızı verim. Pullu Məhərrəm qoymuyuf. Onu sizə deyim, Ələsgər qırx yaşına kimi evlənmiyif. Qırx yaşında Kəlbəcərin Yanşax kəndi var imiş, ora toya gedif. Baxıf görür göyçək qadın var toyda. Deyif ki, o gəlsə, mən alaram. Gəlif deyəndə Anaxanım deyif, mən gedərəm. Anaxanım atın tərkinə minif gəlif Ağkilsəyə. Ələsgər ölən vaxdı Anaxanım yox imiş, üsdünüzə sağlıx, ölüfmüş. Deyif, gedin Səhnəbanunu gətirin, onu birjə səfər görüm ölüm. Deyir:

Gedin deyin o gəlinə,
Ölürəm, yanıma gəlsin.

Gəlsə, bəlkə tapam şəfa,
Batmasın qanıma, gəlsin.

Dəryalarda olur balıq,
Mətləbini versin xalıq.
Çit tuman, atlaz arxalıx
Yar geyinsin, yanıma gəlsin.

Dəryaların adası var,
Ələsgərin sədası var,
Mərdin nə ki qadası var,
Namərdin canına gəlsin.

Deyir, Səhnəbanu içəri girəndə gözün belə dolandırdı, Səhnəbanunun üzünə baxdı, hər gözünnən bir gilə yaş gəldi, gözünü yumdu. O qədər sevirdi. Pullu Məhərrəm onları evlənməyə qoymuyuf. Onun sözü var. Deyir ki:

Nakəs müxənnətin boynu vurulsun,
Vay düşsün evinə, şivən qurulsun.
Məhərrəmin oğlanları qırılsın,
Qalmasın yurdunda nişanə dedim.

Deyir, Pullu Məhərrəmin nə qədər nəsli vardı, qırılır, bir dənə keçi başı tutanı qalmadı. Ələsgərin qarğışı onları tutdu (S.25).

### 137.

Göyçənin Çaxırlı kəndində Böyükağa oluf. Böyükağanın evladı olmuyuf. Aşıx Alıya deyif ki, Alı, mənim haqqımda bir dastan yaz, qoy adım tarixə düşsün. Deyif, yaxşı. Nəysə, iki-üç gün keçif. Deyif, Alı, noldu? Mənim haqqımda

niyə dastan yazmadın? Deyif ki, ağa, evinin altı caladı[45]. Calanı biçəndə kasıbı qoymursan o quru yerdə danasın da otara. Aşıx gördüyünü çağırar. Mən gördüyümü çağırıram. Sənin adını dastana niyə yazım? Deyif, heylə? Deyif, hə. Kəntdə Dəli Şirin oluf. Dəli Şirini örgədif, deyif ki, get Ağkilsəyə, Ələsgərə denən ki... Yox. Kasıb qonşusu varmış. Bir gün kasıb qonşusuna deyib ki, qonşu, oğluna toy eliyirsənmi? Qonşusu deyif, mən kasıb adamam, nə günümə yaraşır oğluma toy eliyim. Deyif ki, mən toy eləsəm nə deyərsən? Elə bilir ki, ağa bunu ələ salır. Deyir, mən səni ələ salmıram, düz deyirəm. Hazırraş, oğluna toy eliyəjəm. Toya hazırraşanda Dəli Şirini göndərir Ağkilsəyə ki, Aşığ Ələsgərə denən, xeyir işimiz var, tez özünü çatdırsın. Ələsgər əlində saz içəri girəndə görür ustadı Aşıq Alı məclis aparır. İsdiyir çıxıf gedə, Aşıq Alıq qoymur. Deyir, bir aşıq başqa bir aşığın üsdünə saznan gəldi, gərək orda deyişsinlər. Nəysə, üç gün deyişiflər, ta elə bir söz qalmıyıf deyilməsin. Ələsgər deyif ki, bə indi biz nə deyəjeyik. Yəqin Tufarqanlı Abbasın dastanın oxumuş olarsız. Orda toğlu bağlaması deyilir. Ləzgi varmış, qav qalaylıyıf toğlu aparırmış. Bunu görür, o bağlama yadına düşür. Ləzgidən xəbər alır ki, toğluya ləzgi dilində nə deyillər? Deyir ki, gər.

Gedən qəncər, gər erkəhdi, gər dişi,
Qəzanın qədəri, çarxın gərdişi,
Dəllək çağır, çəkdirərsən gərdişi,
Sərsəri tez qalır dərd ayağında.

[45] cala – otlu yer

Nəkqədər Alı fikirrəşir, gər sözün mənasın tapa bilmir. Axırda deyir ki, gər sözü ləzgi dilində toğludu. Deyəndə Alı o qədər həyəcan keçirir ki, gözünə tor gəlir. Onun Böyük Məzrədən şəyirdi var imiş, Aşıq Qiyas. Gedəndə deyir ki, oğul, axşam nə tez düşüb? Deyir, usta, axşam deyil, elə gözəl hava var. Deyir, paho, Almənmədin oğlu mənim gözümə tor gətirtdi. O qədər həyəcan keçirdir. Aşıq Alı ordan o vaxt köçür gəlir Kəlbəcərin Milli kəndinə. Orda hərə bir söz deyir, gəlmə belə, bir də geri qayıdır. Onun üç oğlu oluf. Oğlanları qana düşür, düşmannı olur. Düşmanı öldürür, düşmannarı da Alının oğlannarını öldürür (S.25).

### 138.

Ələsgər gedir Şərilə. Bunu aparıllar ora toya. Abbasqulu bəy Şadlinski vedilidi. Abbasqulu bəyin Vedidə, Qəmərlidə, Gümrüdə, Dərələyəzdə, Naxçıvanda bir sözünü iki eliyən olmuyuf. Abbasqulu gedən yerdə qan bağışdanıf. Abbasqlu bəy də ordaymış. Ələsgər də gəlif faytonnan. Ələsgər çalıf-oxuyanda bular nə deyifsə, Ələsgər bulara cavab verif. Naxçıvan xanları deyif ki, aşıq, sən ki bu qədər hazırcavabsan, de görək sizin yerin bəyi, xanı saxalıdı, yoxsa biz. Göyçədə Zod kəndində Səmənd ağa oluf, çox saxalı, çörəkli adam oluf. Özü də buğda çörəyi yeyirmiş, nökərə də buğda çörəyi verirmiş. O biri ağalar nökərə arpa çörəyi verirmiş, özzəri buğda çörəyi yeyirmiş. Bular belə deyəndə Ələsgər deyir ki:

Sərraf yüz bəzəsə səngi-siyahi[46],
Əsli mütəlladı, ləl ola bilməz.

---

[46] səngi siyah – qara daş

Mərkəz fəlan etsə zənbil sötülə.
Çün yox rəhmində, bal ola bilməz.

Deyəndə deyiflər ki, bu yekə-yekə danışır, özü də gedif dul arvad alıf.

Ustad dərin, kamal dərin, söz dərin,
Qoydun sinəm üsdə eşqin közdərin.
Qabiliyətsiz, mərfətsiz qızdarın,
Yüzü bir dəst bilən dul ola bilməz.

Ələsgərəm, cəm eylərəm dəftəri,
Mərdlərin vəsfidi dilim əzbəri,
Naxçıvan xanları, Şərur bəyləri,
Səxada Səməndə qul ola bilməz.

Deyillər, ə, çox yekə-yekə danışır, amma özü dul arvad alıf. Ələsgər qırx yaşında evlənib, Anaxanım birinə gedif boşanıbmış. Olar isdiyir ki, Ələsgəri vura, Abbasqulu bəy deyir, bir adam əlin tərpədə, yerində güllələyərəm. Şeiri yazdırır, göndərir dayısı Səmənd ağaya ki, Ələsgər gəlmişdi Şərura, səni qaldırdı hündür bir dağın başına qoydu. Ələsgər evə gələnə kimi Səmənd ağa onun evinə bir yəhər-yüyənni at, bir harava da taxıl göndərir (S.25).

**139.**

Şəmkirli Aşıq Söyün Molla Pənah Vaqifin bajısı nəvəsidi. O deyif çox Ələsgər, Ələsgər deyillər. Gedim görüm Ələsgər nətər adamdı. Qoşqar dağınnan aşıf gəlif orya. Kəndin altında dəyirmançı varmış. Bunnan xəvər alıf Ələsgərin evi hansıdı. Deyif, o qalağa söykənən Ələsgərdi.

Baxıf ki, Ələsgər qalağın bir tərəfin tutufdu. Gəlif, salam məlöykü, Ələsgər. Deyif, əlöykü salam, Aşıq Söyün. Deyif, mən dəyirmançıdan xəvər aldım ki, Ələsgərin evi hansıdı. Dedi, bax, Ələsgərin evi odur, o qalağı sökən də Ələsgərdi. Bəs sən nə bilirsən mən Aşıq Söyünəm? Deyir, üş gün bunnan qabax mana agah idi ki, sən gələjəhsən. Oğlum Bəşirə dedim ki, bir erkək saxla, Söyün əmin bizə gələjək. Deyir, daa mənim sənə sözüm yoxdu. Deyir, yox, Ələsgərin qapısına gələn geri qayıtmaz. Aparır evə, yaxşı hörmət eliyir. İman gəlir, isdiyir bunnan deyişə Ələsgər qoymur. Deyir, qonağa hörmətsizdik olmaz. Oların sözü var:

Analar oğlan doğanda qoy doğsun oğlanı mərd,
Atası kamil olan tez tapar devranı mərd.
Yüz gün aj qalar bir tikə yalqız yeməz
Gedəni yoldan eylər xubtalar devranı mərd.

Bu Aşıq Söyünün sözləridi, Ələsgər də ona qabax deyir. Aşıq Söyün deyif ki, görəm elə bir adam olarmı ki, mərd haqqında söz deyə? Ələsgər deyir, bizim kənddə Aşıq Musa var, yerin tərkində də olsa, söz tapıb deyir. Gəlif deyən kimi Musa başdıyıf deməyə (S.25).

**140.**

Bir uşax xəsdələnir, aparıllar Basarkeçərə Zağaya keşişin yanına. Pəncərədən keçəndə baxıllar ki, bir qadınnan keşişin əlaqəsi var. Soruşullar kimdi? Deyir, filankəsin gəlini. Deyir, yox, dini murdarladı, buna baxdırmax olmaz. Aparax Daşkənd kəndində Molla Abuzərə baxdırax. Molla Abuzərin tövləsinin böyrünnən keçəndə görüllər, Molla Abuzərin də atnan işi var. Deyir, bular ikisi də dini mur-

darladı, gedək Ələsgərə deyək buların ikisin də biyabır eləsin. Tapdıx Əmiraslanovun babası Muxtar da burda imiş, bir də Ələsgərin Narışdardan bir dostu varmış Kükü, o da burda imiş. Deyəndə deyir, o Kükünən Muxtarı çağırın, deyim:

Çağırın Küküynən Muxtarı, otağa yığnax eliyək,
Özgə yerdən gələn varsa, gətirək qonağ eliyək.
Peyğəmbərin qulluğunda üzümüzü ağ eliyək,
Keşişin tərifini deyim, kef çək, damağ eliyək.

Keşiş ağa işvətdədi, tellərinə şana çəkin,
Yazdırın qəzetlərə, qurdurun zastana çəkin[47].
Xəbər eliyin məliklərə, sultannan xana çəkin,
Çağırın papazdarı, ədalət divana çəkin.
Boynuna zincir salın, qırx xınzırı[48] dustağ eliyək.

Soruşdum əhvalını, öyrəndim halın keşişin,
Put yarım dəmir gətirin, boynuna salın keşişin,
Dağıdın kasıflara devlətin, malın keşişin,
Tüpürün sifətinə, qırxın saqqalın keşişin,
Çıxardın məmləkətdən, ölkədən irağ eliyək.

Özü mömin sayılır, əməli-şeytana baxın,
Törətdiyi fitnə-fəsad, dediyi yalana baxın,
Bu əməl harda yazılıb, İncilə, Qurana baxın,
Zənbura töhfə, Tövratı axtarın, hər yana baxın,
Gətirin kitabları, bir varax-varax eliyək.

---

[47] zastana çəkin – car çəkin, elan eləyin
[48] xınzır – donuz

Biçarə Aşıq Ələsgər sərgərdan qaldı bu işə,
Bu qurğuya, bu busata, bu qanuna, bu gedişə,
Ümüdvaram ruhanilər elin nəzərinnən düşə.
Ata sataşan mollaya, gəlini tutan keşişə,
Xaşpərəsti, müsəlmanı yığılın, nasağ eliyək[49] (S.25).

**141.**

Ələsgər gedifdi Dəli Alının qardaşı Zeynalavdı bəyin toyuna. On gün orda toy çalır, Aşıq Nəcəf, Aşıq Əsəd yoruluf gəlir. Gəlif ki, camaat hamısı işdədi, buların qapısı kilitdidi. Deyir, bu arvad ya dədəsigilə gedif, ya da evdə ölüfdü. Qapı niyə kilitdidi? Bu yaxınnaşanda görüf qapı içəridən kilitdidi. Çıxıf bacaya: – Anaxanım, Anaxanım. Deyif, bu bayquş yenə gəldi, qoymaz yatax. Deyif, a zalımın qızı, camaat işdə-güjdə, indiyə kimi adammı yatar? Qapını aç, gəlim. Qapını açanda deyif, Anaxanım, bərk yorulmuşam, neçə gündü toydayam. Bir ballı qayğanax bişir, yeyim. Deyir, yox, öləsən də, bişirən döyüləm. Çirkin gözəlləri görəndə olara tərif deyirsən, məni görəndə gözün yumulur. Deyir, Anaxanım, ağlım başımda cəm deyil, sora deyərəm. Deyir, yox, ola bilməz. Görür nə qədər desə də, əmələ gəlmir. Onda deyir:

Ala gözlü, nazlı dilbər,
Elindən xəbərin varmı?
Dörd tərəfin bağça-söyüd,
Gülünnən xəbərin varmı?

O vədə ki, gəlin oldun,
Qavırğası qalın oldun,

---

[49] nasağ eliyək – zədə vuraq

Qaynanana zalım oldun,
Dilinnən xəbərin varmı?

Ələsgərnən eylə dava,
Ariflər yazsın kitaba,
Cehizin bir qırıx tava,
Malınnan xəbərin varmı?

Anaxanımnan dalaşır, Anaxanım çıxıb gedir, oğlu Talıb da balacaymış, qalır Ələsgərun umuduna. Ələsgərin canın yığır boğaza. Ələsgər baxır ki, yalvarmaxdan başqa yolu yoxdu, yoxsa gəlmiyəjək:

Alagözlü, səndən ayrı düşəli,
Hicranın qəmi ilə kef eləmişəm.
Ah-vaynan günüm keçib dünyada,
Dərd alıb, qəm satıb nəf[50] eyləmişəm.

Səndən ayrı danışmadım, gülmədim,
Canımdan bezmişəm, ölə bilmədim,
Nə müddətdir qulluğuna gəlmədim,
Bağışla taxsırımı, səhv eyləmişəm.

Ordan gələndə Söyüdlü yaylağında dosdu varmış Qara. Deyir, Ələsgər, yaxşı girimə keşdin, yaxşı gəldin çıxdın. Ə, mən sənin çörəyini çox yemişəm, gərək mənim qonağım olasan. Deyir, Qara, uşağı evdə qoymuşam, indi uşağ ağlıyır. Deyir, yox, canın üçün, səni buraxmaram. Bunu gətirir evə. Baxır ki, Qaranın evində – Kəlbəcərdə alaçıx deyirdilər, dəyə demirdilər, – bir dənə cavan gəlindi, bir də qoja kişi. Söz-

[50] nəf – qazanc

söhbət eliyillər. Axşam düşəndə gəlin ərinə – qoja kişiyə deyir ki, siz Ələsgərnən burda yatın, biz də gedək o alaçıxda yatax. Deyir, yox, gəl mənim yanımda yat. Deyir, Ələsgər burdadı, ayıfdı. Nəysə, ayan-bayan, gəlin bunu eşitmir. Getmək isdiyəndə əri kösöyü götürüf gəlini vurur. Gəlin qışqıranda Ələsgər deyir, sazı mana gətirin. Gətirəndə deyir:

Kamil ovçu ölmüyüncə usanmaz,
Əldən qoymaz belə sərxoş maralı.
Eşq oduna yanan aşkara yanmaz,
Pünhan-pünhan mənim kimi saralır.

Yolunda keçmişəm səri-canımdan,
Öldürsələr qorxum yoxdur qanımdan,
Tərg oldum vətəndən, din-imanımdan,
İnsaf deyil, gəzmə məndən aralı.

Aşıq Ələsgərəm, söylənir adım,
Budur ürəyimdə mətləb-muradım,
Aaz, sənin ərin ölsün, mənim də arvadım,
Hər ikimiz qalaq yas-yaralı.

Anaxanım deyir, Ələsgər, qiyamət günü qardaşımsan, mən heç, o kişi sana neyliyif ona qarğış eliyirsən? Bax, Anaxanımın küsməyi ondan olub (S.25).

**142.**

Ələsgər gedir Qaraqoyunlu dərəsinə, orda qonaq olur. Baxır ki, bir cavan oğlandı, nökərdi, bir cavan da gəlin. Kişi də gün görüf, devran sürüb gedif. Gəlin nökərə yaraşır,

nökər də gəlinə. Gəlinin üzü qalır nökərin üzündə, nökər də ağanın qorxusunnan başı aşağı köksün ötürür. Deyir:

O qəmli könlünün müşkün halını
Düşünən yazıq, bilən də yazıq.
Ağlasan, ağlardım mən səndən betər,
Dağladın sinəmi, gülən də yazıx.

Bir mərdi sevərdin, sirdaş olaydın,
Könlün istəyənə peşkəş olaydın,
Ya da quruyardın, bir daş olaydın,
Bəzənib bu evə gələndə yazıx.

Ələsgər durarmı mətah satmasa?
İgid sarsıyarmı baxtı yatmasa?
İki könül bir-birini tutmasa,
Alan da yazıxdı, gələn də yazıx.

Nəysə, orda deyir ki:

Könül, sən ki keçdin eşqin bəhrinnən
Narın çalxan, narın silkin, narın üz.
Dost səni bağına bağman eyləsə,
Almasın dər, gülün iylə, narın üz.

Tikdirmisən qəsr, eyvan, oda sən,
O sevdiyin, o nökərin, o da sən.
Qıya baxdın, məni saldın oda sən,
İnsaf eylə, gəl könlümün narın üz.

Rüsxət ver, sözümü deyim qaymağa,

Yuyar qəssəl[51], qəddin bükər qaymağa.
Ləzzət verər bal qatanda qaymağa,
Olardan da şirin olar narın üz.

İnsaf eylə, bizə sarı dur, gedək,
Bu sınıx könlümü sarı, dur gedək.
Ələsgərəm, bizsə sarı dur, gedək,
Bir dərdimi eyləmisən, Narın, yüz.

Qızın adı Narın imiş. Orda deyir, ə, filan yerdə gözdüyürəm, iki yaxşı atı min gəl, ordan çıxax. Elə də nökər həmin gəlini götürür, ağanın iki yaxşı atını da minir, Ələsgərgilə qoşulur gəlir Ağkilsə kəndinə, ömrünün əvvəlindən axırına kimi orda yaşıyır (S.25).

**143.**

Səməd ağanın qırx kəndi olub, Göyçə gölünün yarısı Sarıyerə qədər hamısı Səməd ağaya baxıb. Qırx dənə dəyirmanı olub, qırx kəndi varıymış. Qurbannıx vaxdı, bayram vaxdı nökərrəri salırmış pütün kəntdərə. Kətxudaya tapşırırmış ki, kəntdə neçə imkansız adam var qurban bayramı keçirə bilmir, Novruz bayramı keçirə bilmir. Çıxırmış dörd yüz nəfər, beş yüz nəfər. Hər evə bir erkəh, bir tay un payladarmış. Abasqulu bəy Səməd ağanın doğmaca bacısı oğludu. Kövsər xanımın oğludu, Kövsər xanım da Səməd ağanın bacısıdı. İslam məəllim[52] uzun müddət bizim kətdə məəllim işdiyif. İslam məəllim danışır ki, bir gün atam, Talıp kişi, Talıp da Ələsgərin oğludu da. Aydın məsələdi,

---

[51] Ölü yuyan

[52] Aşıq Ələsgərin nəvəsi

xan xanı, bəyi çağırajax toya, daa nökəri çağırası deyil ki. Şərurda bir məhşur xan oluf, oğlunun toyuymuş. Hər bir bəy də özüynən bərabər dəstəsiynən gələrmiş. Biri əlli manat çıxardanda deyir, o kimdi, mən yüz manat şavaş verirəm. Biri iki qızıl verəndə biri kisəynən atırmış. Toy yiyəsi baxır ki, Aşıx Ələsgərə yaxşı ənam yığıldı, hamısı qızıl pulnan. Deyir, Aşıx Ələsgər, bax Aran, Turan, Gəncə, Qarabağ, hər yeri gəzirsən, belə səxavətdi bəylər görüfsənmi? Bax o şeir orda yaranıf, Naxçıvan bəyləri, Şərur xanları səxavətdə Səmədə tay ola bilməz. Belə deyəndə isdirlər ki, Aşıx Ələsgəri orda pisihdirələr. İslam məəllimin ağzından eşitdiyimi deyirəm. Abasqulu bəy dəstəsinən qalxır. Deyir, o, mənim dayımın aşığıdı, – yəni Səməd ağanın aşığıdı, – onu pisihdirənin nəslin kəsərəm. Eləcə də Aşıx Ələsgəri orda müdafiə eliyir.

Talıb kişi deyir ki, o şeiri Abasqulu bəy dəfdərə yazır və çaparnan Göyçəyə Səməd ağaya göndərir. Bir-iki aydan sora Aşıx Ələsgər səfərdən qayıdanda baxır ki, qapıda bir yanı balalı inəhdi, bir beş-altı erkəhdi. Deyir, ay bala, bular hardandı? Deyir, Səməd ağa göndərib. Deyir, onun genə nə yaman səxavət damarı qalxıb? Aşıx Ələsgər də səfərdən qayıdanda Səməd ağa faytonu göndərərmiş, bizim kətdə məhşur Mirzə Bəylər oluf, beş dildə danışan, onu çağırtdırarmış, Məşəd İsəni çağırtdırarmış, iki-üç gün devran eliyərmiş. Ələsgər gələndə Səməd ağa deyir ki, Ələsgər, gənə Naxçıvanda nə dünyanı alt-üst eliyifsən? Deyif, ağa, onu kim çatıdırıb tezcə? Deyir, sağ olsun bacıoğlu Abasqulu bəy, çaparnan göndərif şeiri (S.15).

## 144.

Aşıq Ələsəgərə, həqiqətən, hakk vergisi verilif. Bir gün Aşıx Ələsgər səfərdən qayıdanda baxır ki, evdə qanqaralıxdı. Oğlunnan soruşur ki, a bala, nolub? Talıb deyir ki, ay ata, on iki, on üç erkəh varıydı, itib. Zərkənd, Ağkilsə, Zod soruşdux, heç kim görmüyüf. Deyir, a bala, mənim heyvanımı heş kim yeməz, narahat olma. Deyir, namaz qıldı, yatdı. Sabax dedi ki, a bala, erkəhlər Zodda filankəsin damındadı. İkisini kəsib, amma qalanı salamatdı. Get soruş. Eləcə də soruşullar. Gəlif deyir, məni atam göndərib. Deyir ki, heyvannar sənin damındadı, ikisini tələf eliyifsən, halal olsun, amma qalanını burax. Deyir, kişi bir annığına dayandı. Kirimişcə getdi heyvannarı çıxartdı. Gəldi dedi ki, atana denən məni üzürrü hesab eləsin, tamahım güj gəldi. Deyir, heyvannarı gətdih, dörd gün sonra həmən kişi gəldi qapımıza. Dedi ki, Ələsgər əmi, məni balalarının başına çevir, gecələr gözümü töküllər ki, niyə o kişinin heyvanını yedin sən. Deyir, əlini kürəyimə çəhdi, dedi ki, get, bir də elə qələt eləmə. Bax, Ələsgərə, doğurdan da, hakk vergisi verilib (S.15).

## 145.

Aşıq Cahadın danışığını deyirəm. Mən tamadalığ eliyirdim, onun oğlu Hakverdi aşıxlığ eliyirdi. O qədər onun məclisini idarə eləmişəm. Onun danışdığı rəvayətləri deyirəm. Onu kəntdə atası Qurbana nökər kimi verir. Səhnəbanını sevir. Qızı əmisi oğluna verillər, Ələsgəri də qapıdan qovalıyır. Gəlir, evdə ağzüsdə bir gün yatır. Bir günnən sonra ayılır, başdıyır Səhnəbanı hakqında şeir deyir. Onnan sonra atası baxır ki, bu oxuyub çala bilir, gətirir Aşıq Alıya şəyird verir (S.27).

**146.**

Ağkilsədə hajılar, alməmmədlər, kürduşağı kimi nəsillər oluf. Hajılar bizim babalarımız oluf, varı-dövləti çox oluf. Hajı İvraham, sonra Hajı Kərim. Məşədi Söyün kişi, Məşədi Qasım, Pullu Məhərrəm – bular hamısı Hajı Kərimin nəslidi. Alməmmədlilər nəsli kasıb oluf. Ələsgər buların mal-heyvanın saxlıyıf. Qurbanın bir yetişmiş qızı varmış, Ələsgər də oların qapısında işdiyirmiş. Qız-oğlan nəysə bir-birinə vurulub. Kalbay Qurbana deyirlər ki, biz biyabır olarıx kənd içində. Bunu burda niyə saxlıyırsan, çıxart burdan. Alməmməd kişini çağırıllar, gəlir. Deyir, Alməmməd kişi, heyvanı özümüz saxlıyajeyih, oğlu apar. Orda onun hak-hesabı nə edir veriflər, aparıf. Ələsgər elə onnan başdıyıf sözə. O vaxdı elə bizim vaxdımızda da elə idi, bayramnan-bayrama təzə paltar geydirirdilər. Deməli, Aşıq Ələsgər burda fəhlədi, mal-heyvana baxır. Səhnəbanu gəlir, Ələsgərin paltarına mübarək eliyir. Deyir, mübarək olsun. Səhnəbanunun anası yanında olur, Ələsgər bir söz deyə bilmir ona. Sora hərrənif gələndə orda bir şeir deyir:

Gülabatın qıyı tər sinən üstə,
Nə göyçək yaraşır, qız, köynəyinə.
Sinən Kaba, köynək Kaba örtüyü,
İzin versən, sürtəm üz köynəyinə.

Gözəl yaranmısan qalu-bəladan,
Yanaqların göyçəkdi güldən, laladan,
Zərgər gül doğrasın zərri-tiradan,
Əlinnən gəldikcə düz köynəyinə.

Ələsgər də dost yolunda sürünür,
Sinən üsdə dərdə dərman görünür,
O köynəyə nar məmələr bürünür,
Onçün qurban ollam, qız, köynəyinə (S.28).

**147.**

Aşıx Ələsgər Gəncəyə gəlir. Onnan-bunnan soruşur yaxşı çəkməçi, deyillər bazarda oturuf. Gəlif salam verif. Deyir, çəkmə tikdirmək isdiyirəm. Çəkməçi də baxıf ki, bu dağ adamıdı, ayağında çarıx. Ələsgər də godub adam oluf. Tanımır kim olduğun. Üş gün buna vaxt verif ki, üş günnən sonra gəl, çəkməni apar. Bir manat da bunnan beh alıf. O vaxdı qoyunun dərisinə aşı qoyurdular, təmiz tükü tökülürdü. Onu kraskalıyıf buna bir çəkmə tikif. Üş günnən sonra Ələsgər gəlir. Salam. Çəkməçi çəkməni çıxardır, bunun qabağına qoyur. Yanında da başqa adamlar oturufmuş. Bilirsən, ustalarda da yaltaxlıx var. Başdıyıflar bu çəkməni tərifləməyə: "Ə nə qəşəhdi, nə gözəldi". Ələsgər baxır ki, bu tumac döylü, qoyun dərisini kıraskalıyıf tumac adına buna sırıyır. Onda deyir ki:

Danışdıx, barışdıx mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan.
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qiryəti satma, hayıfsan.

Ellər məni nəzərindən salmayıf,
Huşum cəmdi, ağlım heş azalmayıf,
Fani dünya Süleymana qalmayıf,
Oyan bu qəflətdən, yatma, hayıfsan.

Girəndə məclisə, ağır yığnağa,
Mənə hörmət edir rəşbər, ağa,
Söz uzansa, həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan.

Siz təlaş eylərsiz iynə-biz ilə,
Bizimki də gələr-gedər söz ilə,
Əyri ol əyri ilə, düz ol düz ilə,
Hər yetəni sən allatma, hayıfsan.

And olsun xutkeşlərin sərinə,
Yalan söz iyidi salar dərinə.
Köhnə dağarcığı tumaş yerinə,
Aşığ Ələsgərə satma, hayıfsan.

Bilir bu Ələsgərdi. Üzr isdiyir. – Ustad, bağışda, heç harda demə. Deyir, mən harya gedirəm? Bir xeyirdə, bir də şərdə deyəjəm (S.28).

## 148-151. AŞIQ İMAN

İman çox deyən oluf, otuz yaşında dünyasını dəyişib. Sarıyaqub kəndində Aşıq Əsədnən qardaşı Məhəmməd toyda olufdular. Ələsgərin qızı Bəsdi də Sarıyaqub kəndində toydaymış. Əsəd də, Məhəmməd də Ələsgərin şəyirdi oluf. Toyda Əsəd Ələsgərin şeirini öz adına deyəndə qızı Bəsti deyib ki, Əsəd əmi, o dədəmin şeiridi. Onu niyə öz adına deyirsən? Deyir ki, mən dədənin üsdünnən ayaxlıyıf keşmiş adamam. O vaxt palto yox imiş, İmanın şineli varmış, bir dənə də cürəsi varmış. Şinelin altında cürəni gəzdirirmiş. İman gəlir çıxır bura. Gələndə Bəsti ağlıyır. Deyir, əmi qızı,

niyə ağlıyırsan? Deyir ki, Aşıq Əsəd dünən toyda belə dedi. – Nə danışırsan? Deyir, hə. – Harya getdi? Göyçənin Daşkənd kəndi var. Deyir, Daşkənd kəndində Molla Abuzərgilə getdi, onun oğlunun toyuna getdi. İman burdan kəsə gedir, toya çıxır. Gedir ki, Əsədnən Məhəmməd Qurbaninin nağılını başdıyıf. Qurbani ki, Dədə Yediyarı bağlıyır. Əsəd Qurbani rolunda, Məhəmməd də Dədə Yediyar rolundadı. Əsəd deyir, mənim qabağıma çıxan ikinci bir aşığ olarmı? Deyəndə İman çıxır ki, mən. Deyir, yox, İman, səni demirəm. Deyir, yox. Dedin ki, mən bilirəm. Xəvər çatır Molla Abuzərə. Molla Abuzər gəlir deyir, İman, mana bağışda. Deyir ki, səni camaata, bir də Molla Abuzərə bağışdıyıram. Sən Aşıq Ələsgərin şəyirdi olmusan. Nətər deyirsən Ələsgərin üsdünnən ayaxlıyıf keşmiş adamam (S.25).

**149.**

İman Quranı oxuyuf, onun sözünün qabağında söz deyən olmuyuf. Şəmkirli Aşıq Hüseyn gedir orya (Göyçəyə – tərt.), orda Ələsgərnən deyişir:

İbtida xəlq oldu külli-kainat,
İnsan nəqan mindi, nə qana mindi?
Bivəfadan, müxənnətdən, nakəsdən,
Nə qan qanmışam, nə qana mindi?

İman bu şeiri eşidir. Deyir, əmi, eşitmişəm təzə qafiyədə şeyir yazmısan. Hansı qafiyədədi? Aşıq Hüseyn deyir, oğul, qafiyə qutarıf, mümkün döyül. Deyir, desəm, nə deyərsən? Deyir, başına hava gələr. Deyir, bəs sənin başına nə yaxşı hava gəlmiyif? Deyir, mənim bədənim yekədi, cəsədim sığışdırır, amma sənin bədənin balacadı, cəsədin sığışdırmaz. Deyir, desəm, nə deyərsən? Deyir, əlimin

dalın yerə vurram. Deyir, söz nə şeydir ki, ondan ötəri əlinin dalını yerə vurursan? İmam götürüf deyir:

İki şeş fəslində tuflu bustanam
Altıda yox atam, nə ana mindi?
On ikidə yetişmiş bağı-bostanam,
On üşdə yox barım, nə dana mindi?

Əzəldən şam idim, yaraşığ idim,
Leyli-Məjnun kimi yar aşığ idim,
Məclislər ziynəti, yaraşığ idim,
Söz keşmir isbata, nə dana mindi?

İman baxdı nə az verib, az alar,
Əcəl gəlsə, tez kövrələr, az alar,
Dost yad olsa, məhəbbətdər azalar,
Qalmaz sel yerində, nə dana mindi? (S.25)

**150.**

İman şeirlərin çoxun bədahətən deyən oluf. Böyük qardaşı Qurban varmış, Ələsgərin qızı Gülnisəni ona alıbmışlar. O vaxdı kor bağırsağa qara sancı deyillərmiş. Qara sancıdan, üsdünə sağlıx, dünyasın dəyişəndə deyillər, abır-xəyalı, yaxşı gəlindi, bir dənə də uşağı var. İmana kəbin eliyək. Zornan qardaşı arvadın alıllar ona[53]. Camaat

[53] *Söyləyicinin əlavəsi:* Zornan İmanı kəbin eliyillər, bu nigahdan bir oğlu olur, Şahmalı. Şahmalıya da vergi verilmişdi. Anası deyif, bu da atası kimi baş alıf gedəjəh. Ona görə onu mundarrıyıf. Üç-dörd gün yatıb durmurmuş, öz-özünə danışırmış. Mundarrıyıb, onnan sonra bir müddət xəstə yatıf, sonra ayılıf, bir tərəfi paralic olmuşdu.

da lağa qoyur ki, getdi qardaşı arvadın aldı. Evi tərk edif gedir. Götürüf yazır ki:

Əziz ata, itgin düşəndə fərzəndin,
Düşəndə ağlarsan yada doyunca.
Mənim bədənimdə eşqin kəməndin
Dolandırıb dünyanı doyunca.

Məndən dost-tanışa az giley eylə,
Dalımca danışıb nə hədyan söylə,
Əl götürüb xudaya minacat eylə,
Bəlkə edər bir murada doyunca.

Halaldı İmanın qohum-qardaşım,
Ayım batıf, qaranlıxdı günəşim,
Əgər bərarxı düzəltsə işim,
Şad olaram Kərbəlada doyunca.

İman gəlir çıxır Gəncəyə. Bütün Gəncə, Tovuz, ətraf yerlərin aşıxları yığılır, İman hamısın bağlıyır. Elin gözü tərəzidi, el baxır, qiymət verir. Deyillər ki, sən ki bu qədər hazırcavabsan. Dünyadan ən şirin şey nədi?! Deyir ki:

Aman Allah, sevgi nejə şirindi,
Məjnun Leyli deyif bulağı gözdər.
Leyli vədə verif gəlirəm deməyə
Düz bir il sərbəsər bulağı gözdər.

Leyli vədə verir. – Məjnun, filan bulağın üsdə get, gələjəm. Leyli evə gələndə Nofəl şah qərar verir, Qiyas bəyin camaatı yaylaxdan arana köçür. Leyli vədə bulağına gələmmir. Bir il bulağın başında Məjnun Leylinin yolunu gözdüyür, quş başında yuva salır, nitqi tutulur, sakqal

yenir dizinə. O biri il hərrənif gələndə deyir, qızdar, gedək bulağın üsdə, görək Məjnundan əsər-əlamət varmı? Gələndə görür ki, Məjnunun başında quş yuva salıb, nitq tutulub, saqqal yenib dizinə. – Məjnun, Məjnun. Məjnunun gözü qalır Leylinin üzündə. Deyir:

Məjnun gözü qaldı Leyli qaşında,
Yazıx canım yandı eşq ataşında,
Çöl quşdarı yuva saldı başında,
Tutulmuşdu nitqi, qulağı gözdər.

İmam baxdı Leyli-Məjnun baxdıdı,
Yarın hökmü şahı-xəqan taxtıdı,
Zimistan keçifdi, yaylax vaxdıdı,
Gedən qəflə-qatır, ulağı gözdər (S.25).

**151.**

Növrəs İman hakk aşığı oluf. Bir gün Ələsəgərə sual verif ki, əmi, o nədir ki, bilirəm də, bilmirəm də? Deyir, ay bala, o nə sözdü danışırsan? Deyir, bilirəm öləjəm, amma bilmirəm nə vaxt. Növrəs İman sözlərinin çoxunu bədahətən deyif:

Bəyəndim kamalda Miskin Abdalı
Cəm idi başında huşu, kamalı,
Vaqif qarışdırıb çox qeyri-qalı,
Sözlərində gəlin-qız gəlif gedif.

Silinməz könlümün açılmaz pası,
Oyufdu sinəmi möhlət alması,
Ələsgər, Xəstə Qasım, Şikəstə Abbası,

Qalan şair hamı üz gəlif gedif.
Növrəstə İmanam, dilim dolaşıx,
Heyif ki nəzmimdə yoxdu yaraşıx.
Bəyənməz nə molla, seyid, nə aşıx,
Dərd oluf sinəmdə söz, gəlif gedif (S.25).

## 152-153. USTA ABDULLA

İman xəbər göndərir ki, Abdulla, gəl mənim evimə döşəmə vur. Abdulla dülgər olur, əlində işi varmış, bir az gej gəlir. İman deyir, sən öl, bu elə bilir ki, mənim pulum-param yoxdu, ona görə gəlmədi. Götürüb yazır ki:

Ya mənim adımı, ya öz adını tut,
Böyük qardaşım ol əvəzində.
Ayırma kənara məndən yadını,
Gəzərəm dəryanı çöl əvəzində.

Məktub gəlir Abdullaya yetişəndə yazır ki:

Əzizi-mükərrəm, ey nur eynim,
Durram qulluğunda qul əvəzində.
Vücudu-bibəla müşkü-ehtiram,
Geyərəm karpasın[54] şal əvəzində.

Elə bildim, yatıf mənim iqbalım,
Qar alıb qapını, qarışıb halım,
Qabağıma qatmağa olmasa malın,
Apar sat İmanı qul əvəzində.

---

[54] karpasın – ucuz parça

Abdullanı saldın hakqı-sayına,
Qadir mövlam fürsət vermə xayına.
Döşərəm üzümü xaki-payına [55],
Gəzərsən xananda nal əvəzində (S.25).

**153.**

Zoddu Avdulla oluf. Gəlif bura[56]. Bu can verəndə deyillər ki, bir göyçəli can verir, gedəh görəh nətər can verir. Orda Allah buna qüvvə verir, gözün açır. Yanındakılara deyir dəftər götürün, bunu, sən allah, yazın. Yazır ki:

Arif məclisində, qanan yanında
Hər sözü dillərdə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda
Qəda qamçısınan döyülən mənəm.

Taqət olmaz qəriblərin dizində,
Mərfət olar mərd igidin özündə.
Səksənində, doxsanında, yüzündə
Qəflət yuxusunnan ayılan mənəm.

Yatmışdım, baxdım məni oyatdı,
Qəzanın qədəri kəməndin atdı.
Mahalım Göyçədi, sakinim Zoddu,
Sənətkar Abdula deyilən mənəm (S.25).

---

[55] xaki-payına – ayağının altının torpağına
[56] Gəncəni nəzərdə tutur. 1918-ci ildə qırğınlardan canını qurtarmaq üçün Göyçə camaatının bir qismi Gəncəyə pənah gətirmişdi. Gələnlər arasında Zodlu Abdulla da var idi.

## 154-155. ŞAİR QURBAN

Aşıq Şəmşirin dədəsi də çox deyən olub. Amma Göyçədən gedib orya. Otuz yaşında Qurvanın yoldaşı dünyasını dəyişir, oğlu Şəmşir qalır. Qırxı çıxannan sonra camaat deyir ki, cavan adamsan, ay Qurvan, evlən dənə. Nə vaxta kimi belə subay gəzəssən? Deyir ki, görün kənddə münasib biri varsa, tapın alın. Kənddə Tamam adında bir qız var imiş, bu da ərə getmiyif qalıbmış. Gedillər Tamama elçilik eliyəndə Tamam deyir ki, o mənim dayımdı, mən ona getmərəm. Gəlib buna deyillər ki, belə deyir. Nəysə, bir gün kənddə toymuş, hamı toyda imiş, çıxıb oynuyurmuş. Qurban da şux adam oluf, o da çıxıb oynuyur. Oynuyanda hamı deyir, sağ ol, Qurban kişi, sağ ol. Tamam da deyir, sağ ol, Qurban dayı, sağ ol. Deyir, ay zalım qızı, mən səni isdiyirəm, sən nətər mənə dayı deyirsən? Deyir, dayı demişəm, elə dayı da deyəjəm. Deyir, onda qulaq as:

Yoxsa mən qocalmışam, qəddim əyilib, çal ağarıb,
Bilmirəm bığa nə olub, hələ bir saqqal ağarıb.
Əvvəldən dən düşmüşdü, indi tamam çal ağarıb,
Gizlətməyə yoxdu əlac, eşitdim mahal ağarıb.

Yığılın məsləhətə, şərmü-həya ar üzümə,
Qırov düşüf dağ başına, bəlkə yağıf qar üzümə,
Tapılmaz bir qara tük, sən də bax, axtar üzümə,
Elə bil ki dağlar başı həmin o misal ağarıf.

Deyəndə Tamam deyir ki, Qurban kişi, sana getdim. Deyir, getdin, yaxşı elədin e, bəs camaatın içində məni niyə biyabır elədin? Deyir, o işlərdən keçib. Deyir:

Xəyalım aş istəyir, meylim qəndi-çayı deyir,
Bu xudanın kərəmindən böylə haqqı-sayı deyir,
Bu bimürvət qıza bax, əmi deyir, dayı deyir,
Bu dərdi çəkə bilmərəm, edəm yüz xəyal ağarıf.

Deyillər:

– Qurban kişi, düzdü, sənin otuz yaşın var, o da qojalıf, öydə qalıf, alıf eliyən yoxdu.

Deyir:

– Bir məsəl var.

Deyir:

– Nə məsəl.

Deyir:

Bimürvət fələkdə var yüz əlli min on kələk,
Süleymanı taxtdan saldı, bu bimürvət çarxı-fələk,
Neynirəm mən gözəli, istər olsun huri-mələk.
Arif özü mətləb qansın, nə lazımdı aşkar demək,
Maya nər meyl eləməz, görsə ki qanqal ağarıb.

Qurban deyər, aman, aman, ay bimürvət qocalıx,
Qiryətə xələl verir, gətirir töhmət qocalıx,
Mərd iyidi, şux gözəli edir bimürvət qocalıx,
Ovurd batıf, diş tökülüf, versən yüz sığal, ağarıb (S.25).

**155.**

Aşıq Şəmkirin iki qardaşı uşaq vaxtı ölür. Şair Qurban uje vəziyyəti ağırlaşanda vəsiyət eliyəndə deyillər ki, səni hara bassırax? Deyir, mənim cənazəmi qoyun atın üsdünə – and ola Allaha, Qəmbər müəllimin ağzından eşitdiyimdi, – buraxın atı, at özü harda dayansa, orda da məni basdırın.

Gedif iki dənə oğlunun qəbrinin arasına girif at orda dayanmışdı. İndi Şair Qurbanın qəbri Ağdabanda iki oğlunun arasındadı (S.3).

## 156. DƏYİRMAN

Aşığ Əsədin qardaşı üş put arpa gətirir arannan, – Ələsgərin oğlu Abduləzim dəyirman işdədirmiş, – aparır dəyirmana. Deyir, salamməlöyküm. – Əlöykü salam. – Abduləzim, dəyirman novatdımı? Deyir, novatdı. Amma suyu sovmuşam, get bağla, gəlsin. Bu arpanı tökür, gedif suyu bağlayanda Abduləzim də çıxır evə gedir. – Göyçədə çoxlu əvəlik hörürdülər. Burda umac deyillər, biz orda əvəlik-isdi deyirdik. – Məhəmməd deyir, sən öl, elə yaxşı oldu, bunnan bir-iki hörük də aparım, arvad əvəlik-isdi bişirər. Büküb şinelin altınnan belinə bağlıyır, gəlir. Gələndə yolda Abduləzimin arvadı Gövhərnən qarşılaşır. Gövhər baxır ki, Məhəmmədin ortası yaman yoğundu. Amma ağlına gəlmir ki, əvəliyi oğurruya bilər. Deyir, dəyirman Allahın evidi, burya sataşmaz. Abduləzim gələndə arvadı deyir, bu əvəlik niyə azalıb, nejoluf? Deyir, arvad, sakit ol, əvəlih oğurruyan indi qayıdıf gələjək. Məhəmməd aparır əvəliyi gizlədir, ona kimi su gəlir çatır, dən başdıyır üyünməyə. Unnuxda qırıx yer varmış, orya parça basıbmış. Abduləzim parçanı çıxardır, unun hamısı suyun içinə tökülür. Məhəmməd gəlir. Deyir ki, öyün yıxılsın Abduləzim, sən mənim başıma nə oyun açırsan? Bunu mən arannan şələynən gətirmişəm. Deyir, öyün də yıxılsın, bajan da batsın. De görək əvəliyi niyə oğurramısan? O deyir, bu boynuna almır. Aana-baana qaçır ki, bir şey tapsın qırılmış yerə bassın, tapammır. Nəysə,

görür olmur. Deyir, canın üçün, boynuna alaşsan. Deyir, ə, qardaşım Məşədi Mürsəl eşidər, məni öyə qoymaz. Deyir:

Apardın isdilik, verdin yarmalıx
Tanımadın sübhanı, Məhəmməd.
Ağsakqal vaxdında, qoja çağında
Tərk eylədin din-imanı, Məhəmməd.

Allahın evinə niyə sataşdın,
Dəni qərq elədin, un üçün saşdın,
Suynan yenişə, yoxuşa qaşdın,
Nalan götdü Al Osmanı, Məhəmməd.

Oğurrux edirsən, əvəlik nədi?
Oğurruxnan kim qazandı, kim yedi?
İnsan təzədirsə, ojax köhnədi,
Köhnə ojağı yaxşı tanı, Məhəmməd.

Söhbət çox uzundu, demirəm hələ,
Arpadan ver, əvəlikdən şələlə,
Yazacam Əsədə, Məşədi Mürsələ,
Olar kəssin hak-divanı, Məhəmməd

Genə boynuna almayanda deyir:

Abduləzim əvəliyi görüfdü,
Onu yığan zəhmət çəkif, hörüfdü.
İsdəmirsən Allahından verifdi
Xudam kəssin hak-divanı, Məhəmməd (S.25).

## 157. AŞIQ MƏMMƏDHÜSEYN

Sazda Məmmədhüseyn havası olub. Aşıq Məmmədhüseyn Daşkənd kəndindən olub. İndi, bədbəxtliyə bax. Özü də ovçu oluf. Orda Keyti dağı var idi. Keyti dağına ova gedirmiş. Nişanlı imiş. Gedir bir dənə keçi vurur gətirir, ətinnən nişanlısıgilə də verir. Nişanlısı deyir, Məmmədhüseyn, o keçinin dərisini mənə ver. Bu da verir. Bir də çıxır ki, Məmmədhüseyn gedir. Deyir, hara gedirsən? Deyir, ova. Deyir, ovun qannı olsun. Gedir, əlinə bir şey keşmir, gəlir. Nişanlısı da çıxır ki, görüm Məmmədhüseyn bir şey vurub gətiribmi? Keçinin dərisini geyir gəlir, dəriyə bürünür durur. Məmmədhüseyn baxır ki, ə, orda bir keçi durub. Nişan alıb atır. Gəlir ki, nişanlısını vurub. Deyir:

Başı qarlı, uca dağlar,
Yatıb, oyanmaz, oyanmaz,
Ayağında ağır ellər,
Yatıb, oyanmaz, oyanmaz,

İgidin yatmasın baxdı,
Yana çevrilməsin taxdı.
Məmmədhüsöynün qara baxtı,
Yatıb, oyanmaz, oyanmaz (S.25).

## 158-159. AŞIQ NAĞI

Babam bir dəfə maa dedi ki, bala, nəfsdən özünüzü gözdüyün. Dedim, a baba, nəfs nə olan şeydi? Dedi, ay bala, mən özüm nəfsi gözümnən görmüşəm. Dedim, baba, yaxşı da, nəfs görünməz axı göznən. Nətər görmüsən onu? Deyir,

mən sizə deyirəm ki, mən nəfsi görmüşəm. Nəfsin saxlıyan adam heç vaxt çətinniyə düşməz. Dedim, nətər görmüsən, baba? Dedi, bu saat izah eliyim. Bir gün, deyir, – burdan yuxarı Qırıxlı kəndidi, – yuxarıdan gəlirdim, saz da qoltuğumda. Burda yuxarıda üzüm bağı olufdu, üzüm sezonunda camaat üzüm yığır. Kalxoz sədridi, aqronomdu, zootexnikdi – hamısı yığılıf, camaata üzüm yığdırır. Mən də yolun qırağıynan gedirdim. Birdən kalxoz sədri məni gördü. – Ay Nağı dayı, yaxından gəl. Ay Nağı dayı, yaxından gəl. Getdim, deyir, bularnan halallaşdım, görüşdüm elədim. Kalxoz sədri dedi, – O vaxdı bandax deyillərdi, üsdə üç-dörd salxım olanda tənəhli kəsirdilər, ona bandax deyirdilər. – Nağı dayın səbətin doldurun, bandaxların da kəsin qoyun. Şoferinə tapşırdı, – vilisi var idi, – apar Nağı dayını evinə düşür. Dedim, sağ olsun, evə əliboş getmirəm. Sabahı gün özüm qəsdən yolumu ordan saldım. Yenə gördülər məni. – Ay Nağı dayı, yaxın gəl. Ə, Nağı dayının səbətini hazırlayın. Şoferə tapşırdı Nağı dayını apar evə qoy. Üçüncü gün yenə özüm qəsdən ordan keşdim ki, yenə çağırsınlar. Gördüm ə, yannarından keçdim, heş mana baxmıllar. Dedim, salamun əleyküm, işiniz avad olsun. Ağızucu salamımı aldılar. Öz-özümə fikirrəşdim ki, mən korradım burda. Nəfsimi mən saxlaseydim, daha hörmətdi olardım. Nəfs məni hörmətdən saldı (S.41).

**159.**

Onun ölüm faktın da deyim sizə. Bir günnəri xəbər gəldi ki, Nağı dayı qohum-əqrəbəsin çağırır evlərinə, gəlin halallaşax. – Ə, nə halallaşmax? Deyir, mən sabah günorta namazınnan sonra öləjəm. Gəncənin mərkəzində Şah Abbas məscidinə gedən idi. Orda park var, mollalar parkda oturullar.

Həmin gün də gedif orda oturuf, evə də bazarrığ eliyif gəlif. Mənim anam onun qızı idi. Qızın da çağırır, yengələrin də çağrır ki, məni hamamlıyın, mən sabah gedəjəm. – Ə, harya gedirsən? Deyir, sizdən qutarıram, ölürəm mən. Deyillər, kişinin başına hava gəlif, bu qoja vaxdında bu nə danışır? Ölmək adamın özünnən asılıdı? Rüsxət gəlməsə yuxarıdan, sən nətər ölə bilərsən? Bunun xətrinə dəymillər, hamamlıyıf eliyillər, sabah günorta üsdü deyir, yığılın başıma. Mənim yerimi salın. Üzü qibləyə yerini saldırır, özü gedir uzanır. Deyir, gəlin halallaşax. Genə zarafatlarına gəlir ki, belə şey olar? Bir-bir hamıynan görüşür eliyir, uzanır. Deyir, salamat qalın. Eləcənə canın tapşırır. Demişdi günorta namazını qılıf gedəjəm. Günorta namazını qıldı, kəlmə-şəhadətini oxudu, canın da tapşırdı getdi (S.41).

## 160. ŞAİR CAVAD

Daşkəsənin Qabaqtəpə kəndində bir şair oluf. Sovet hökumətinin vaxtında arvatdarı gejə kursuna yazırmışlar. Daşkəsənli şairin də arvadın gejə kursuna yazıllar. Mal, heyvan, uşax çox imiş, arvad gedəmmir. O biri arvatdar deyir, filankəsin arvadı gəlmir, biz niyə gedirik? Biz də getmirik. Sovet sədri çağırır ki, arvadını qoydun gejə kursuna gəldi, gəldi. Gəlmədi, siyasi məhbussan. Stalinin vaxdıdı. Gəlir, nə qədər təbliğ eliyir, görür, arvad bunu eşitmir. Deyir, arvad, sazı gətir, sana bir neçə kəlmə sözüm var. Deyir:

Arvad, səni bu gün kursa yazıflar,
Mana baxır işin-güjün, öyün, get.
Sən getməsən məni dama salarlar,
Dərdin alım, çox dayanma, yeyin get.

Arvad deyir, a kişi, məni kim aparajax, kim gətirəjəh? Mən hələ əl-üzümü də yumamışam. Deyir:

Dərs vaxdı özüm aparıf ötürrəm,
Evini süpürrəm, zibilini götürrəm,
Hər nə mətləb desən, yerinə yetirrəm,
Qalx ayağa, əl-üzünü yuyum, get.

Deyir, kişi, əynimə əməlli bir paltar almadın ki, mən də geyinif bir məclisə çıxam, deyələr bu da filankəsin arvadıdı. Bu paltarnan hara gedim? Deyir, arvad, o işdən keçif. Ələyin ələnif, xəlbirin də göydə bırıldıyıf gedif, indiyə kimi səni nətər tanıyıflar, indən belə də helə tanıyajaxlar.

Cavad bir şairdi mərdi-mərdana,
Gedir Tifis, Qazax, Gəncə, hər yana.
Az, cırıx-cında sənin hazır vardana,
Köhnə-təzə nəyin varsa, geyin, get (S.25).

## 161-165. SƏMƏND AĞA

Vəli ağa Qazaxdan oluf. Onun malı qalın oluf, o yaylaqlara çıxırmış. Paskayeviç Zaqafqaziya üzrə çarın nümayəndəsi oluf. Bir gün elə oluf ku, o dəstəsinən yaylağa çıxıb. Yaylağa çıxanda Vəli ağaya rast gəlifdi. Vəli ağa görüf burya bir dəstə adam gəldi, başında nümayəndə. Heyvan kəsib, buna qonaxlıx-zad eliyif, bunnan danışıb. O vaxdı, siz bilirsiniz, varlıları müdafiyə eliyirdi çar. Vəli ağa da bunnan söhbət eliyəndə deyif, mən çarın tərəfdarı olan adamam. Budu malım, qoyunum, saxlayıram. Bunnan yaxşı münasibətdə olub. Çarın yanına gedəndə deyif ki, Qafqazda

belə bir adam var, özü də bizi sevən adamdı, ona bir ad verək. Deyib, ver də. Buna ağalıx titulu alıb gətirib. Gəlib buraya, bununla yenidən görüşəndə deyif ki, səni təbrik eliyirəm, sən artıq Vəli yox, Vəli ağasan. Bu deyif ki, indi mən sana nə hörmət eliyim? Deyif ki, elə bu yaylaxlardan bir yer versən, mal-heyvanımı saxlıyaram da. Onnan sonra Vəli ağa gəlif yerləşib Zodda. Zodda yerrəşənnən sonra o Səməd ağanın evi deyirdilər, gəlib həmən dərədə yerrəşmişdi. Səməd ağanın evini məktəb eləmişdilər. Sovet hökuməti gələnnən sonra ağalıx ləğv olundu, elə həmişə deyirdilər Səməd ağanın dərəsi.

Səməd ağa Vəli ağanın nəvəsidi, atasının adı Xanbaba oluf, Xamo deyillərmiş. Onnan sonra ağalıx keçif Səməd ağaya. Səməd ağa əliaçıq adam olub. O Həsən bəy Zərdabiyə yardım eliyirmiş, oxuyanlara köməklik eliyirdi. Həm də sələm də verirmiş. Bir gün Vəli ağa ölüf, rəhmətə gedif, yoxsa Xamo ölüf. Unutmuşam, ya atası, ya babası rəhmətə gedif. Aparıflar dəfn eləməyə. Səməd ağa gəlif belə baxıf, – deyən atası oluf, – deyif, ağeyi buruya basırdınız? Dəli İsmeyil oluf bizdə. İsmeyil kişi deyir, ağa, bəlkə sən heç burya qismət olmuyajaxsan. Elə olmadı da. Qayıdıf gedif, buna çox pis təsir eliyifdi. Sarı Mollanın babasıydı. O, mollalığa görə pul almırdı, sidr-kafir deyirdilər e, yalnız onun pulunu alırdı. Çağırıb ona deyif ki, ay Müseyif kişi, əyə, o dəlinin borcu-zadı nəyi var, onu sil (S.17).

## 162.

Səməd ağa çox saxalı adam oluf. Gəlif Gəncəyə. Oğluna paltar tikdirmək isdiyirmiş. Dərzi deyif, uşax nə boyda olar? Qonşu dükanın önündəki uşağı çağırır. Deyir, bax,

buna oxşuyur. Qəşəh bunun ölçüsünə bir paltar tikdirif. Uşağı çağırıf ki, geyinib baxsın. Deyif, indi beləsin birin də tik. Dərzi deyif, tikmişəm axı. Deyif, bunun əyninnən çıxardası döyüləm. Heylə saxalı adam oluf (S.31).

**163.**

Dərə kəndi varıydı rayonda, Səməd ağanın yatax yeri oluf, qış yatax yeri. Həmişə Kəvərə Göyçə gölün üsdünnən gedərmiş xizəhnən. Zeynal addı bir dənə faytonçusu oluf onun. Bir gün gölün üsdünnən gedəndə baxır ki, – Malaqan Şorca kəndi oluf, gölün qırağındaydı, – bular da gölün üsdüynən gedirdi. Gölün üsdünnən keçəndə Zeynal deyir ki, ağa, buz çatdadı, biz suya düşəjeyik. Deyir, əyə, mənim təkərim hələ İnəh dağınnan yoxuşa dırmaşır. Atı qamçıla, mənim xizəyim batmıyajax. Elə də bular sıçrıyıf gedir. Arxadan baxıllar ki, malaqanların xizəyi batdı. Keçib gedənnən sonra deyir, Zeynal, vay o günnən ki, o təkər geri qayıda, onda onun arxasına o Qatar dağın da qoysan onu saxlamax mümkün döyül. Doğurdan da, Səməd ağanın bircə dənə şilləyə ürəyi partdıyıf, o qədər qürurlu insan oluf. Onun dəstəyinnən rus-tatar məhtəvi açılıb. Sabir rəhmətdiyin müalicəsinə pul göndərib, Molla Nəsrəddinin çapına pul göndərif, hətta alıllarmış da. Yəni o vaxdı insanların maariflənməsində çox böyüh əməyi oluf (S.15).

**164.**

Qışda göl donanda zankaynan keçillərmiş Göyçə gölün. Ağacanyan var idi, bizim rayonun naçalnik milisyəsi imiş. Zankaynan gölü keçirmiş. Səməd ağa buna deyir, sən bataşsan. Deyir, niyə? Sən də bataşsan. Səməd ağa deyir, mənim

zankamın batan vaxdı döyül. Zankanı sürüllər, Səməd ağanın zankası batmır, amma Ağacanyankı batır. Onu çəkif çıxardıllar. Səməd ağa gəlif orda ağlıyır. Deyir, kaş anam sağ olaydı, görərdi ki, Göyçə gölü mana xaş[57] verir (S.12).

## 165.

Səmənd ağaynan Böyük ağa bayram gələndə bir-birilərinən bəhs edərmiş, görək kimi tərifliyillər. Səmənd ağa adam göndərərmiş, Azərbaycannan qoz, kişmiş, şabalıd, xurma gətirdərmiş çuallarnan ki, baca-bacaya gələnnərə paylasın. Böyük ağa da adama bir yumurta boyadarmış. Baca-baca günü Səmənd ağa hərənin torbasına bir qab çərəz qoyardı, Böyük ağa isə bir yumurta qoyardı. Səhər Böyükağa da, Səmənd ağa da deyərmiş ki, çıxın görün kimi tərifləyirlər. Görür, camaat deyir, ə, nədi ey qoz-fındıq. Halaldı Böyük ağaya, adama bir yumurta verdi (S.30).

## 166-167. MƏŞƏDİ İSƏ

Məşədi İsə çox dəqiq atan adam oluf. Haca gedəndə karvanın qabağın kəsif soyullarmış. Hamının tüfəngin alıllar, Məşədi İsədə tüfəng qalmış olur. Məşədi İsə banditin düz təpsinə vurur. O haca gedəndə onun gözünə həmişə pələng görünürmüş. Haja gedif bir də qayıdanda gəlif evdə deyif ki, mən öləjəm. Deyiflər, Məşədi, niyə? Deyir, az qalıf vaxdıma. Həmənki pələng mənim arxam idi, daa mənim gözümə görükmür. Məni gördü, deyir, küsmüş başını aşağı saldı, çıxdı getdi. Mana yaxın gəlmədi. Elə həmən ili də onu

[57] xaş – xərc

Böyük Məzrəynən Qaraiman arasında vurullar. Rayonnan gəlir, dincəlmək üçün atdan düşür. Görür ki, öz qohumudu. Qohumu daldan başından atır. Onun meyidini qəvirsannıxda basdırmadılar. Düşmənnəri çox idi deyə meçitdə basdırdılar, 85-ci ildə də ordan çıxardılar, öz qohumunun kümbəzində basdırdılar.

Məşədi İsənin oğlu Musa qaçax oluf. Sovet hökuməti gələndə atriyadnan dalaşanda Musa yaralanır. Bizim kənddə Ağçay vardı. Ağçaynan gəlir, gəlir, Böyük Məzrəyə gedir. Böyük Məzrədə dayısı olur. Dayısı onu satır atriyada, atriyad bunu tutur aparır. Bu hadisədən sonra Məşəd İsə vəsiyyət eliyir ki, Böyüh Məzrəyə qız versəniz də, qız almayın. Deyillər, Məşədi, niyə? Deyif ki, oğul dayısına oxşujax. Onu da deyif ki, kimin ki dayısı zoddudur, o bəxtəvərdi (S.38).

## 167.

Göyçədə Hajı Xıdır oğlu İsgəndər oluf, malın, heyvanın həddi-hesabı bilinmiyif. Məşədi İsə oluf Qaraiman kəndində. Deyif ki, İsgəndər, sənin ki bu qədər malın, adınsanın var, sənə bir məsləhət verim. Bir qumar oynama, bir də arvadın üsdünə arvad alma. Deyif, yaxşı. Gəlif Gəncəyə. Gəncəyə gələndə bilillər ki, bunun milyonu var. Deyiflər, olmaz, gərəh qurmar oynuyax. Deyif ki, mən söz vermişəm, qumar oynamıyajam. Gəncə qumarbazı əl çəkmiyif, deyif bircə əl. Deyif, bu şərtnən oynuyaram. Mən uddum, üzdən irağ, məni bağışda, üzr isdiyirəm, sən eşşək kimi anqırassan, sən uddun mən eşşək kimi anqırajam. Oynuyanda İsgəndər uduf. Gəncə qumarbazı deyif, İsgəndər, nə qədər pul-para isdiyirsən verim, Gəncədə mənim hörmətim, adımsanım var. Deyir, yox, ola bilməz, söz danışıxdan keçər.

Deyir, bu hayıfı səndə qoymujam, İsgəndər. Məşədi İsə də buna deymişdi ki, arvadı üsdünə arvad alma, bir də qumar oynama. Belə gedirmiş, bir gözəl gəlin gəlir. Buna gözü düşür, bu gəlini də alır. Həmin gəlinin qardaşın örgədillər, getdiyi yerdə Hajı Xıdır oğlu İsgəndəri gülləynən vurur (S.25).

## 168-170. SINIQÇI RZA

Rza kişi oluf bizdə, Loğman Rza deyiflər. İndiki həkimlər sümükləri düzə bilmir, amma Rza kişi onu sağaldırdı. Yerevanda iyirmi yaşında bir erməninin qılçası sınıfdı. Zorubyan var idi, burda birinci katib idi. Zorubyanın əmisi oğlu cərrah oluf. Buna deyif ki, bunu kəsməsək qanqrena verəjək. Gör onun bəxdinin gətirməyinə bax. Biri buna deyif ki, mən Basarkeçər rayonundanam... O da öz oğlunu aparıfmış orya xəsdəxanaya. Görüf ki, camaat hamısı yığılıf ağlaşır. Deyif ki, noluf? Deyiflər, bəs belə-belə. İyirmi yaşında oğlumu maşın vurufdu, həkim deyir ki, qanqrena verəjək, bunu kəsmək lazımdı. – Ə, – deyib, – ayağını kəsmiyin, mən Basarkeçər rayonundanam, gəlin aparax Zod kəndində belə sınıxçı var. Onu gətirdilər çıxartdılar bizə. Babam belə baxdı. Bunlar azərbaycanca bilmir, babam da ermənicə bilmir. Amma rayondan gedən kişi dedi ki, Rza kişi, sağalda bilərsənmi? Dedi, bu mənnikdi. Deyəndə bulara perevod elədi ki, bu kişi deyir mənnikdi, burda qanqrenalıx heş nə yoxdu. Demək, əlli beş günə onu sağaltdı. Burdan gedənnən sonra gedif Zorubyanın əmisi oğluna demişlər ki, kopoğlu, sən mənim qılçamı kəsirdin? (S.39)

**169.**

Qarabağda bir məhşur bəyin arvadının ayax sümüyü çanaxdan çıxır. Bəy deyir ki, kim əl dəymədən o çanağı yerinə salsa, ona nə desə verəjəm, amma əl dəyməsin. Daa aydın məsələdi, soraxlaşıllar, Loğman Rzanı aparıllar ora. Loğman Rza deyir ki, bir camışı iki gün, üş gün ac saxlıyın. Camış eləcə də ac olur, soradan ona duzdu yeməh verillər. Deyir, qadını mindirin camışın üsdünə, əyağını altdan bağlıyın. Ac camış, duzdu yeməh, bunu buraxıllar suyun üsdünə. Su işdihcə camışın qarnı şişir. Əyağı altdan bağlıdı axı qadının, qadın çığırır: "Ay öldüm, ay öldüm". Birdən şaraq, bilillər ki, çanax düşdü yerinə. Deyir, indi açın, yerinə düşdü. Baxıllar ki, qadının qılçası yerinə düşdü. Təpitmə hazırrıyır. Deyir, bir-iki gün də təpitmə qoyun. Ona yanı balalı iki dənə inəh, neçə dənə erkəh vermişdilər (S.15).

**170.**

Kalxoz sədri Ziyad Şərifov var imiş. Əkin sahəsi Rza kişinin evinin dalına yaxın imiş da. Düz bunun difarının divinə kimi əkir. Rza kişi çıxıf deyir, ay Ziyad məəllim, bunu bir az aralı ək. Himidəmi əkəssən? Deyir, yaxşı eləmişəm. O vaxdı Yunus Rzayev bizdə raykom katibi imiş. Sınıxçı Rzanı da bütün Göyçə mahalı tanıyır. Gedəndə deyillər ki, Rzayev, sınıxçı Rzadı. Deyir, buraxın gəlsin. Bunnan görüşür. – Nə yaxşı gəlmisən? Mən danışdığım kimi danışır. Deyir, onu çağırın burya. Çağırır, gəlir. Deyir, ə, xalxın himini niyə əkirsən, bir az aralı əkəmmirsən? Gedər taxılı səpəndə on-on beş metir aralıdan səpərsən. Deyir, baş üsdə, yoldaş Rzayev.

Nəysə, gəlir bunun qolu qırılır. Harya aparıllar, əmələ gəlmir. Deyillər, Sınıxçı Rzaya aparax. Deyir, yox, mən ona

pisdik eləmişəm, mən ora gedəmmərəm. Nəysə, Qaz-51 maşının vaxdıymış, bunnan aparanda gənə deyir, mən gedəmmərəm. Şofer düşür, gedir. Deyir, noluf? Deyir, belə-belə. Deyir, ə, mən Sınıxçı Rzayam, gedin deyin, gəlsin evə. Gələndə deyir, Ziyad məəllim, xoş gəlmisən. Deyif, Rza kişi, mana ölüm fərz oluf, çox səf eləmişəm. Aparıf içəri, bir dənə heyvan kəsif, qolun da düzəldif, deyif get. Bax, heylə kişilər oluf (S.25).

## 171-179. LOĞMAN NAĞI

İki dənə dərviş gəlib. Gəlib çıxıb bunnara. Deyif ki, bəs səhər biz gedəjeyik çiçək yığmağa. Yatıflar, səhər gejdənnən duruflar. Deyif, qazan götür, bir-iki dənə də qab götür. Deyif, bəs yemək-zad götürək. Deyif, sənin yeməyin lazım döyül, qazan götür. Biz nə deyirik, ona qulağ as. Hajı Nağı qazan da götürüf, qab da götürüf, gediflər. Bunnar çiçəkləri yığıflar, orda iki dənə ilan tutuflar. İlanın baş tərəfini də kəsiflər, quyrux tərəfini də, ortasın götürüblər qazana salıb suyu töküblər, burda uje ilanı bişiriflər. Təhliv eliyiflər Hajı Nağıya ki, gəlginən sən də yeginən. Hajı Nağı deyif, nə danışırsan, mən yeyə bilmərəm. İndi o dərvişlər kim oluf bilmirəm, amma dərvişlibas gəliflər. Bunnar yeyiflər, yeyəndən sonra qazanı götürüb aparıf ki, bulağ var, bulaxda qazanı təmizləsin, yusun içini. Oruya gedəndə deyif, ə, qoy görüm hələ bu… Başdıyıf bunu yalamağa. Sən demə, dərvişin biri də buna fikir verirmiş. Deyif ki, hə, həkim oldun, amma yarımçıx həkim oldun. Nədi, nədi, sən biznən yemədin, biznən yesəydin tam həkim olajeydin. Qabın divini yalamağnan yarımçıx həkim oldun. Ondan sonra onun həkimliyi başdıyıf (S.17).

**172.**

Hajı Nağı Qannı kəndinnən oluf. Adamın üzünə baxan kimi bilir bunun xəsdəliyi nədir. Bir gün iki dərviş gəlir bulara. Bunun dədəsinə deyillər ki, bizi qonax elə. Qonağ eliyir. Deyir, burda sizdə filan yer varmı? Deyir, var. Deyir, sabah oğlunu qoş, bizi aparsın orya. Səhər Nağı buları aparır həmin yerə. Daş var imiş, daşın divini qazıllar, bir qara ilan çıxır. İlanı doğruyuf, bişirif yeyillər. Deyiflər, sən də ye. Deyir, mən ilan yemirəm, nə danışırsan. Nəysə, yeyif qutarannan sonra bunu göndəriflər aşağıda bulaxdan su gətirsin. Bu gedəndə Nağı fikirrəşir ki, bular bir belə ət yedi ölmədi, mən də dilimə vurum, görüm nə dadır. Dilinə vuranda baxır ki, bitkilər hamısı öz-özünə danışır. Atasına heş nə demir.

Atası haja gedirmiş. Deyir, ata, məni də apar. Ayan-bayan, atası bunu da aparır atnan. Atın da balası varmış, madyan at imiş. At da kişniyir, balası da kişniyir. Nağı gülür. Dədəsi deyir, niyə gülürsən, a bala, noluf? Deyir, heş nə. Deyir, heş nə nədi? Dəlisən, nəsən? Öz-özünə niyə gülürsən? Deyir, ata, bilirsən niyə gülürəm? Deyir, yox. Deyir, o külük[58] daldan kişniyir deyir ki, ana, gözdə, mən də gəlim. Anası da deyir ki, biri qarnımda, ikisi də belimdə gedirəm, amma sən tək özün gəlif mana çata bilmirsən. Ona görə güldüm (S.25).

**173.**

Bizim kənddə Müzəffər kişi var idi. Deyirdi, burnumdan tez-tez qan açılırdı. Apardılar məni Hajı Nağının yanına. Belə baxdı, dedi, gedin xaş-xaşı yığın, suyunu qaynadın, üş dəfə buna verin. Elə də verdilər, mənim burnumdan qan tökülmədi (S.25).

---

[58] külük – qulun, atın balası

**174.**

Basarkeçərdə Loğman Hajı Nağı oluf. Deməli xəsdənin üzünə baxan kimi deyirdi bunun xəsdəliyi nədi. Bir nəfəri aparıllar bunun yanına, ağrıyırmış. Buna deyir ki, sən qoyun əti yemə. Qoyun əti yeyən kimi öləşsən. Üç-dörd il yemir. Deyir, sözdü dedi, keşdi getdi. Axşam qoyun əti yeyən kimi, üsdünə sağlıx, sabah ölür, and olsun Allaha (S.25).

**175.**

Xəsdəyə deyif ki, sən dişi heyvan əti yemə. Gəlif bir məclisdə oturuflar. Qəti danışan adam döyüldü. Suyuna batırıf ağzına qoyuf, onnan da gedif. Gedif Hajı Nağını gətiriflər. Qapıdan girəndə baxıb, bircə onu deyib ki, bəs mən ona dedim axı dişi heyvan əti yemə (S.31).

**176.**

Bizim dağlar otlu-çiçəkli olufdu. Loğman Nağı o dağların çiçəklərinnən yığıf dərman hazırlayırmış. Amma öz oğlunu müalicə eliyəmmiyif. İndi bu nə qədər düzdü, nə qədər yalandı, bilmirəm. Oğlu deyif ki, qarnımı nəysə yeyir e. Bu rəhmətə gedif. Loğman Nağı deyif, yox e, mən bunu yarmalıyam, bunun dərdini bilməliyəm Yarıfdı, deyillərdi guya qurbağa çıxıfdı. Bəlkə də qurbağa döyül, amma mən qurbağa eşitmişəm. Əlini yuyanda çirkli su qurbağanın üsdünə tökülür, qurbağa onnan ölüf. Deyif, bahoo, mən nətəri bu dərmanı əldə eləməmişəm. – O da oxumuyufdu, Allah vergisi olufdu. – Başına vuruf ki, mən bunu nətər vaxtında bilməmişəm. Bilsəydim, sidik içirdərdim, onnan sağalardı (S.17).

## 177.

Hajı Nağı bir gün İrəvannan gəlirmiş. İrəvannan gələndə baxır ki, – bizim Zodun ayax tərəflərində erməni kəndləri var idi, – bir kəndin qapısına millət elə yığılıf barmax kimi. Deyir, mən də gedəjəm burya. Gələndə baxır ki, bəyin oğlu ölür, millət ora yığılıf. Deyir, olarmı girəm baxam. Deyir, olar. Girəndə deyir, bir yumurta bişirin – atam Hajı Nağıynan gəzmişdi, onun danışığıdı, – bir yumurta bişirin, sarısın mana ətirin. Yumurtuyu bişirillər, sarısın gətirillər. Deyir, ipək sap gətirin, xayatı[59]. Sapı yumurtuya sarıyır, oğlana deyir ki, bunu udaşsan. Ağzına qoyur, oğlan məjbur olur yumurtanın sarısını udur. Deyir, bir saat gözdüyün. Bir saatdan sonra oğlan qusur. Baxır ki, üsdündə iki dənə cücü. Atam and içirdi ki, həmən yumurtanın üsdündə iki dənə qırx əyaxlı cücü çıxdı. Orda Hajı Nağıya çoxlu qızıl – ermənilərinki də qızıldı, – yühlüyüllər, gəlir (S.32).

## 178.

Kəlbəcərdən bir xəsdə uşağı gətirillər bunun yanına, cavan oğlanmış. Bu gəlir buna baxır. Fikirrəşir ki, mən dediyim dərmanı bular tapa bilmiyəjək. Bunun mədəsində yara varmış. Yiyələrinə deyir, aparın hörmət eliyin, nə qədər yaşıyar, yaşıyar. Bular da yaylaxnan gəlirlərmiş. Gəlif yaylaxda bir yerdə düşüllər, yorulmuş olurlar. Deyillər, bir az oturax dincələk. Bu xəsdəni də düşürdüllər, oturdullar göy otun üsdündə. Bu görür bir ilan gəldi, – otun adını da deyirdilər, mənim yadımnan çıxıb, – ilan bu otun üsdünə zəhərini töküb getdi. Bu da fikirrəşir, mən son nəfəsdəyəm, elə bunu yeyim, ölüm da. Zəhərli otu götürür yeyir. Bir saat,

[59] xayatı sap – nazik sap

saat yarım çəkir buların orda dincəlməyi. Bu baxır ki, ajıf. Bu müddətdə yemək yemirmiş. Atasına deyif ki, bir az maa çörək ver. Çörəkdən qırıf verillər buna, götürüf gedillər. İndi fikirrəşillər ki, dağ havası buna iştah gətirif. Günü-gün-nən baxıllar ki, uşağın rəngi özünə gəlir, dirçəlir, yeməyə düşür. Hajı Nağının dediyi vaxt çatanda bunda xəsdəlikdən heç bir əlamət qalmır. Götürüllər bunu, gəlillər. Hajı Nağı da qapıda oturmuşdu. Baxır ki, həmin adamlar gəlir. Bular çatıf düşməmiş deyir ki, boz ilanın zəhəriynən otun adını da deyir, hardan tapıf buna verdiniz? Bular bir-birinin üzünə baxır. Deyir, biz belə bir şey eləməmişik. Onda oğlan özü danışır ki, siz bilmədiniz. İlan gəlif otun üsdünə zəhərin tökəndə mən ondan yedim. Onda Hajı Nağı olara deyir ki, mən sizə desəm o ilanı tapın, onun zəhərindən o otun üsdünə tökün, uşax ondan şəfa tapar, siz onu tapa bilmiyəjeydiniz. Otu tapa bilərdiniz, amma ilanı tapammazdınız (S.22).

**179.**

Anam danışırdı ki, yay vaxdı idi. Kəndin kişiləri də pay torpaxlarını öküznən, kotannan əkif becərirdilər, anam da cavan gəlin imiş, evin kişilərinə yemək aparırmış. Bu çöldə çox qalır, gün sətəlcəmi olur. Gün sətəlcəmi də soyuqdəymə sətəlcəmi kimi eyni şeydi. Baxıllar ki, isdinin içində haldan düşür. Ayrı əlaş yoxdu, Hajı Nağının yanına aparıllar. Hajı Nağı buna baxan kimi – yazıx od-alonun içindədi, – otlardan iki dənə həb qayırdı verdi. Dedi, aparsınız bunu. Quyunuz varmı? Dedik, var. Dedi, quyunun başında bir palatkanın altında daldalı yerdə iki dənə qadınnan oturdarsınız. Qadının biri quyunun suyunu çəkər, o birsi qadın onu ləngitmədən onun başından tökər. O çəkər, bu tökər nəkqədər ki, o titriyib öldüm deyənə qədər.

Bunlar eltisinən daldalı yerdəcə quyudan suyu çəkillər töküllər, çəkillər töküllər. Titrədim, öldüm deyən kimi bunlar dayandırır. Orda tapşırıfmış da bunu əlbəəl palaza büküf apararsınız evə. Onu örtüyə bükən kimi həbin də birini içirdərsiniz. Bunlar belə eliyir, baxıllar ki, sabaha yaxın bu ayıldı. Səhər də o biri həbi verillər, bir həftə ona baxıllar, yemək-işməyinə fikir verillər, onnan o sağalır (S.37).

## 180-184. QOLUZORLU ADAMLAR

Səməd ağanın evinə pəhlivan gəlif. Deyiflər ki, bunun dizi aynalıdı, yəni bunun dizini qatlıyan olmuyufdu. Səməd ağanın da evi Xaçın o tərəfində olub. Bəri üzündə ki Rza dəyirman tikmişdi, ora xırman yeri olub. Bizim camaat da küyə gedən camaat olufdu. Bir tərəf ağalıx, bir tərəf sadə kəndçilər, yığılıflar orya. Deyiflər ki, Səməd ağanın evinə pəhlivan gəlif, kimin pəhlivannığa qüvvəsi çatır gərək bunnan güləşə. Camaat yığılıb o yan, bu yan. Deyiflər ki, ə, Köçəri kişi yaxşıdı, bir də Tanrıverdi kişi. Köçəriynən də Tanrıverdi bir-birinin qüvvəsini bilirmiş. Deyiflər ki, yox, Tanrıverdi çıxsın. Bu da orta yaşlı adam olufdu. Nəysə, camaat hərə bir tərəfdən, güləşməlisiz də. Gəliflər. Bu, deyir, çıxıf əməlli pəhlivan formasında, cavan adam. Olarda da, deyəsən, bir-birini sirkələmə var. Deyif ki, a bala, cavansan, sənə hayıfım gəlir. Sən gəl mənnən güləşmə. Ordan şapalax, burdan şapalax, neyniyəjək. Nəysə, Tanrıverdi kişi bunu yıxıf ayağının altına. Ağalığ ordan qalxıf ki, yox ey, olmaz, yenidən bir də güləşsinlər. Qara camaat deyif, nə deyirsən? Təzdən aparıflar bir heyvan kəsiflər öz tərəflərində. Belə qocağ adamlar oluf (S.17).

## 181.

Xaxo güjdü pəhlivan oluf, bir də Nəvi. Nəvi onun qardaşı oğludu. Nəvinin qardaşı da yüzbaşı olufdu Kalbayı xan. Qoturru dərəsi var idi, Kəlbəcərə baxırdı. Qoturru dərəsində otuza yaxın kənd vardı. Kalbayı xan gedif bu kəndlərdən vergi yığıf gəlirmiş. Nəvi də Qarabağa gedifmiş heyvan almağa. Orda Tutqu çayı var idi. Kalvayı xan atı suya vuranda Nəvi deyir, ə, get yuxarıdan körpüdən keş gəl. Atı suya vurma, su güjdü gəlir, atı aparajax. Deyir, kəhər atdı, heş nə edəmməz. Nəysə, bunu eşitmir. Atı suya vuranda Kalbayı xanı da su götürür, atın da. Deyir, ə, qardaş, qoyma, su məni apardı. Deyir, atını tutum, yoxsa özünü? Dünya malı şirin şeydi də. Deyir ki, kəhər at da yaxşı atdı. Nəvi özünü verir, atı da tutur, qardaşın da.

Elə olur ki, Kalbayı xanın ölüm ayağı imiş. Deyir ki, Nəvini çağırın. Çağırıllar. Deyir ki, Nəvi qardaş, ölürəm axı. Deyir, nağayrım? Tutqu çayı döyül ki, əlindən atı da alam, özünü də. Azreyilə zorum çatmır (S.25).

## 182.

Dədəm deyirdi, getmişdim Geşdəyə ayın-oyun almağa. Geşdək dokquz para kəntdi. O camaatın əksəriyyəti Dərələyəzin Herher kəndinnən gəlmişdi. Nəysə, deyir, getmişdim, toy idi. Nəbinin də bircə qızı var idi, oğlu yox idi. Dedilər, Nəvi də çıxsın oynasın. Çıxıb oynuyanda – o vaxdı arxalıx geyirdilər, – bədəni nətər şişdisə, arxalıx əynində dözmədi, partdadı. Sənəyi doldurdular, qoydular mis məjmahıya. Ayağ üsdə dizin qatdamadan əyildi ikicə barmağıynan isdəkan-nəlbəki kimi sənəyi götdü, suyu işdi, qaytardı qoydu yerə. Bax, Nəvi helə kişi oluf (S.25).

## 183.

Nərmannı kəndində Mehdi var idi. Cöngə kəsillər, cöngə birdən əldən çıxır, qaçır. Camaata deyir ki, siz qabağına keçin, onu acıxlandırın, mən tutajam. Deyillər, ə, birdən tuta bilməzsən, cöngə bizi ayaxlıyıf öldürər. – Ə, deyir, sizin işiniz yoxdu. Qabağına keçif ajıxlandırıllar, daldan qıçalarınnan yapışıb cöngəni qoydu yerə. Dedi, indi kəsin başını. Bax, helə kişilər oluf (S.25).

## 184.

Qannı Geşdək deyirdilər. Dədəmin əmisi oğlannarı var idi, Əlif, bir də Oruc. Əksəriyyət Kəlbəcərdən malı Basarkeçərin mal bazarına gətirirdi. Orda Avanes vardı, at tanıyan. Bir gün qızımın qaynatası gəlif, atı aparırıx nallatmağa. Xəvər aldı ki, hardansan? Dedi, Geşdəkdən. Dedi ki, Oruş nətərdi? Məhəmmədəli əmi dedi ki, üsdünüzə sağlıx, Oruc ölüf. Bunu demişdi, and olsun Allaha, çəkiş Avanesin əlinnən yerə düşdü. Dedi, ərə, Oruc da ölərmiş. Ey gidi Oruc. Görəm analar sənin kimi oğul doğarmı? Bax, erməni erməniliyinən Orucun ölümünə yandı. Bax, helə kişilər var idi. İndi o kişilər yoxdu. Yaxşı kişilər yaxşı atdarı mindi, getdi (S.25).

## 185. KÜRDOĞLU MƏHƏMMƏD

Kürdoğlu Məhəmmədin anası Çəlikdardandı, dədəsi Qaraçanlıdandı. İki qardaş olufdular – Məhəmməd, bir də Yunus. Ağdərəni sonradan rayon eliyiflər, sifdə bir hissəsi Kəlbəcərə, bir hissəsi Tərtərə baxırmış. Bir milisyə Məhəmmədin arvadın çağırıf. Oğlunun adı oluf Əfqan. Çağıranda Məhəmməd xəbər göndərif ki, əgər mənim arvadımı içəri

salsan, özünü ölmüş bil. Arvad oğlu Əfqanı yanına alıf gedəndə Məhəmməd də dilənçi paltarı geyinif, gəlif kənardan müşahidə eliyirmiş. Arvada deyiflər ki, ərin nətər adamdı? Məhəmməd də dilənçi paltarında qapıda durufmuş ey. Deyif, bax, elə bir kişidi. Deyir, milisə verdilər ki, apar bunu Çəlikdara, evinə qoy. Həmin milis deyir, indi qaçaxlar dalımızcan elə gəlir, atın tapbıltısınnan yer tərpənirdi. Qapıya çatan kimi Məhəmməd dedi, silahı təhvil ver. Silahı təhvil verdim. Dedi, qorxma, sana dəymərəm. Çıxartdı mana bir dənə də onnux qızıl verdi. Dedi, mənim üsdümə gəlib eliyəndə göyə güllə at, mən bilim ki, sən ordasan. Birdən səni vuraram.

Məhəmmədin, üzdən irağ, bir ala iti var idi, əgər gülləynən vurmasan, bir qoşunu qaytararmış. Atriyad çox fikirrəşir ki, nətər eliyək. Ala it bilsə, qoymuyajax biz Yunusu tutax. Ataların misalı var. Deyir, qonşu xayin olmasa, kor qız ərə gedər. Gəlif qonşunu örgədillər, qonşu keçəni yağın içində əridir, qoyur soyuyur, keçə donur. Atır, it keçənin yağını yeyəndə dişinə keçir, hürə bilmir. O şəkildə içəri girillər. Atriyadın naçanniyi deyir ki, Yunus, qabağıma düş, gedək. Yunus gözün açır, – ayağının ucunda tapanca var imiş, böyründə də xənçəl, – baxır ki, atriyadın naçanniyidi. Çırağı yandırıf qoymuşdu taxçaya. Tullanıf nətər vurursa, beş nəfəri öldürür, bunu vurammıllar. Pəncərə varmış, isdiyir ki, ordan addıya, çırağı söndürmək yadınnan çıxır, kölgəsi düşür. Kölgəsi düşəndə bunu vurullar, ala iti də öldürüllər. Gedif anasına deyillər, oğlunu öldürdük. Deyir, siz mənim oğlumu öldürəmməzsiz. Arvad gəlif baxır ki, Yunusu öldürüflər, ala iti də. Deyir, düşman, mən sənin qabağında ağlamıyajam söyünəsən. Mənim oğlum ölüfsə də, qanına beş qan alıf. Amma bil ki, Məhəmməd bu hayıfı sizdə qoymuyajax.

Nəysə, Məhəmmədə xəbər ötürür. Bu da isdiyirmiş qaçaxlığı buraxa, amma düşman qoymuyuf. Deyir, Yunus, mən isdiyirdim qaçaxlığı buraxam, amma indən belə buraxmıyajam. Səni öldürənnərdən sənin qanı alajam. İnayətnən Vilayət Qoturru dərəsinin Comart kəndinnən imiş. İnayəti tutur göydən asır, boynunun damarını kəsir, qanı ovcuna dolur, qanını içir. Deyir, oxxay, ürəyim soyudu. Qardaş, qanını aldım.

Bir gün tükanı yarıflar. Məhəmməd yoldaşlarına deyir, aparın evə qoyun, təzə gələn qaçax mənim yanımda olsun. Bu qaçağı da milisyə örgədif göndərmişdi ki, Məhəmmədi öldürsün. Təzə gələn qaçağı göndərir ki, su gətir. Amma gələndə mənim adımı çağırma, düşman eşidər, bizi vurar. Suyu qoy yanıma, duranda içəjəm. Bu da fikirrəşir ki, sən öl, yaxşı fürsətdi. O biri yoldaşdar da gedif, ayrı vaxt bunu öldürə bilmiyəjəm, indi öldürüm. Bu gedir su gətirir. Gəlir ki, Məhəmməd yatıf. – Məhəmməd, Məhəmməd. Cavab vermir. Nişan alır atır. Bu su gətirməyə gedəndə Məhəmməd papağı kötüyün başına qoyur, elə düzəldir ki, elə bil Məhəmməd burda yatıf. Özü də ağacın dalında gizdənir. Bu, kötüyə güllə atanda ordan çıxır deyir ki, anası göyçək, elə atmıllar ey, belə atıllar. Orda onu vurur.

Qamanovun anası Kəlbəcərli imiş, Məhəmməd hər dəfə Zod kəndinə gələndə Qamanov atriyada xəbər göndərirmiş. Nə qədər xəbərdarlığ etsə də, əməlinnən qalmır. Elə gəlir ki, Qamanovun da, üzdən irağ, elə itdəri vardı, deyir, atdını atdan yerə endirirdi. Gəlir içəri elə girir ki, itdərin xəbəri olmur. İçəri girir ki, Qamanov doğrama yeyir. Qamanov bunu görəndə quruyur. Arvadın adı Gülən idi. Arvad duruf ki, əlin başına ata. Deyir, bajı, yaylığını başınnan

aşma, bunu qabağındakı çörəyə bağışdıyıram. Mən sana demirəmmi məndən əl çək, mən gələndə atriyada xəbər vermə? Nə isdiyirsən, ə, məndən? Qamanov quruyuf qalır. Deyir, səni bir o çörəyə bağışdıyıram, bir də bajıma bağışdıyıram. Get, bir də belə şey eləmə. Dalın-dalına çıxıb gedir.

Kəlbəcərdə Kərim var idi, Kərim bunun dalına düşür. Deyir, Kərim, sana bir güllə vurajam, ölənə kimi nalan getməsin. Kərimin qolunu oynağınnan vurmuşdu, ölənə kimi onun qolu beləcə qaldı. Orda Qulu olur. Qulu bundan əl çəkmir, əl çəkmir. Qulunu ombasınnan elə vurmuşdu ki, ölənə kimi süründü.

Gedir Laçına, dosdunun evinə. Bir dənə uşax güllə atanda güllə gəlir buna dəyir. Deyir, ə, uşax səni vurdu. Deyir, o uşağın gülləsi döyül, Allahın gülləsidi, gəldi mana dəydi. Kəlbəcərin Umutdu kəndi var, sonra Ağdərəyə verdilər. Gedir ki, orda düşmanı var, onu öldürə. Görür qarannıxdı, bir şey ağarır. Əlin orya vurur, ağzına belə aparanda baxır ki, duzdu. Deyir, düşman, gəlmişdim səni öldürəm. Sənin evində mənim ağzıma tam dəydi, bu tama bağışdıyıram, səni öldürmürəm. Bax, Məhmməd heylə kişi oluf. Öləndə onu aparıf basıdırıllar şuma. Mir Cəfər deyir, o iyid adamdı, onu el adətiynən aparın qəvirsannıxda basdırın. Gəlif çıxardanda hərə bir söz deyir. Yoldaşı deyir ki, ölənin arxasınca danışmax asandı, kişiydiniz, onun sağlığında deyərdiniz (S.25).

## 186-187. QARAQOYUNLU QAÇAQLARI

Qaçax Cəmil Bala Qaraqoyunnudan oluf. İki qardaş oluflar. O vaxdı onlara müəyyən qədər vəzifə veribmişdər,

amma sovet hökumətinin gəlməyini bunnar xoşdamıyıf. Bala Qaraqoyunnunan Böyük Qaraqoyunnunun arasında ojax var idi. İki kəndin arasında təpədə idi, ora ziyarətə gedirdik. Gejə hər dördüncü gün axşam düşəndə orda görürdün ki, çıra yanır. Qardaşdarın üçü də çıxıllar ora, gələn ordunun qabağını kəsməyə, – Ağırgörünməz deyirdik, – orda erməniləri bərk qırıllar. Ordan da başdıyıllar qaçaxçılıx eləməyə. Qış düşür. Sovet hökumətindən qaçannarın hamısı yığılır bir yerə. Deyillər ki, kəntdə qalsax, bizi gəlif tutajaxlar. Köçüllər Alagöllərə ki, burda bizi tuta bilməzdər. Praduktların da gətirillər. Kəlbəcərdən Qaçax Abbasəli olur, Böyük Qaraqoyunnudan iki nəfər olur, Bala Qaraqoyunnudan Qaçax Cəmil, qardaşdarı olur. Xeylax qaçax olur. Ayləlikcən tökülüllər Alagöllərə. Qar düşəndə deyillər ki, bunnarı indi qıra bilərik. Bir tərəf qayadı, qayadan qaça bilməzdər, çıxış yolun da biz kəsirik. Burda bunnarı tuta bilərik. Hər kəntdən, məsələn, Qaçax Cəmilin qohumların kənddən götürüllər. İnək dağınnan Qaçax Qurban oluf. Götürüflər gəliflər Alagöllərə. Bunnarı qabağa verillər ki, əgər təslim olmasanız sizi qırajeyih. Bax, orda Qaçax Cəmil, Kəlbəcərli Qaçax Əmirasdan, İnəkdağlı Qaçax Qurban, bir də Kəlbəcərli Kürdoğlu – dördü də orda olur. O vaxdı Cəmilin qohumudu deyə mənim babamı da aparıfmışlar. Deyir, belə baxdım ki, Qırma dediyimiz qayanın döşünnən quş quşduğuynan səkə bilməz. Həm qar idi, həm də gediş yolu yoxuydu, nə də burdan güllə orya çatdırmazdı. Deyir, baxdım ki, Qaçax Cəmil qabaxda gedir, əlində də tüfəng, dalıncax da üş nəfər. O qayanı keçif Kəlbəcərə gedillər. Tərtər çayını keçəndə Kəlbəcərli Əmirasdanı gülləliyillər. Aldadıf kəndə gətirillər. Kəndə gəlir gejə. Çuğul

hər yerə olur da. Xəvər verillər, bunun dalınnan düşəndə Tərtər çayını keçəndə çayın suyu çox imiş, bunu vurmuşlar. Amma Cəmil, Abbasəli sağ keçillər Azərbaycana. Amma gəlif üzə çıxmadılar. Cəmilin bir qardaşı oğlu Yapon kişiyə iyirmi beş il iş vermişdilər. İyirmi beş ildən sonra qayıtdı gəldi Tərtərin Cəmilli kəndinə (S.27).

**187.**

1918-ci ildə Göyçə qaçıf. Göyçə qaçanda Qaçax Cəmil də qaçıf, Kəlbəcərin Geştək kəndində Kəlbay Xan oluf, gedif orya. Mənim babalarım gedif – Kəlbəcərin Otaxlı kəndi var – Məşədi Əliyə qonağ olub. Xalamın dayısı oluf, qoçağ adam oluf. Kəlbəcərdə Cəmillə rastdaşıf. Deyif, sən nə qoçax adamsan Cəmil, gedək görək Göyçədə nə var, nə yox. Otaxlı Göyçəyə yaxın idi, Geşdək uzağ idi. Deyif, birdən-birə kəndə gedərik evlərin içində adam olar, bizi vurallar. Daşdı Güney var idi Ağkilsə ilə Böyük Qaraqoyunnu arasında. Deyiflər, gedək dəyirmana yenək. Yeniflər ki, Ələsgərin oğlu Bəşir də burdadı. Bəşir güllə atan adam oluf. Bəşir bunları görəndə kövrəlif. Deyiflər, niyə kövrəldin? Deyir, ə, bizim kəndə qırx harava getdi, səksən də erməni. Camaat apardığın aparıf, aparmadığı qalıf. Gedillər yığıf aparmağa. Deyif, bəs sən gülləcil adamsan, niyə buraxdın? Deyif, mən bir nəfər səksən nəfərə neyniyə bilərdim? Nəysə, götür-qoy eliyiflər. Ağkilsədə qalax daşı var idi, ora ojağ idi, bir də Ağkilsə ilə Nərimannı arasında Hüsən çayı var idi. Hüsən Məhərrəmgilin babası idi. İlk dəfə Göyçəyə o gedif qaraqoyunnular tərəfindən, orda çayın qırağında məhlə salıf. Yazda çay daşıf evi basıb, onda köçüf ağammədli məhləsində ev tikib. Onnan kalafası qalmışdı, Hüsən çayı deyirdilər. Burda söhbət eliyif,

deyif, onda Həsənnən mən yenim Hüsən çayına, sən də Qalax daşına çıx. Hüsən çayına çatanda erməni haravaları qabaxlarına çıxıf. Çıxanda güllələşmə başdıyıf, Həsənin atını ermənilər gülləynən vuruf. Vuranda Cəmil deyif, at cəhənnəm, özünü səngərə ver. Yetmiş üç ermənini öldürüf-lər, yeddisi çay aşağı qaçıf. Öküzləri qabaxlarına qatıb apa-rıllar Kəlbəcərə. Cəmil deyif ki, öküzləri camaat arasında bölün, amma ağsakqallardan bir xayişim var. Həsənə iki öküz verin. – Niyə? – Satıb özünə bir at alsın. O vaxdı at da maşını əvəz eliyirmiş. Bu yaznan yayın arası oluf.

Payız hərrənəndə Cəmil gəlif Həsəni görüf. Deyif, Həsən, cavanlardan da götür gedək, bir az mal-heyvan yığax gətirək, camaatımıza verək. Bular gəlir bizdə pir var idi, pirə çıxanda Göyçə ayağı altında görükürdü. Hər axşam olanda orda ojax yanırdı. Heylə sınaxlı yer idi, Pir ojağı deyirdilər. Bular gəlif pirə çıxır, Həsənin olur mauzeri, Cəmilin olur üçatılan tüfəngi. Belə baxıllar, baxanda görül-lər Sarıyaqub kəndinnən Basarkeçərə sarı gedəndə böyük düzəngah var idi. Yaman çox mal-heyvan var. Cavanlara deyir, gedən kimi mal-heyvanı yığmıyın. Yanında adam olar, əlində silah olar, sizi vurar. Güz üsdə durun, adam olmasa yığın, biz sizi burdan müşahidə eliyirik, gözdüyə-jeyik. O üçatılanın uzun lüləsi var idi, içi burux-burux. Nəysə, bular mal-heyvanı yığanda baxıllar – Nərmannı kəndi ilə bizim aramızda Üçtəpələr var, – ermənin qoşunu gəlir. – Ə, öyün tikilsin Həsən, ermənidə top var, pulamyot var, uşağı qırajax. Sən get uşaxlara kömək elə, mən onları qayta-rajam. Deməli, Cəmil ordan atırmış, atırmış, görür kü, artıx lüləsi qızdı, o birisin götürürmüş. Heylə erməni qoşunun geri qaytarır, mal-heyvanı yığıf aparıllar.

Sovet hökuməti gələndə Cəmil də milisyə işdiyirmiş. İndi bular ermənini öldürəndə deyirmiş Cəmil, vur getsin, əyə, Bəhrəm, vur. Həsən Cəmilə deyir ki, biz yetmiş üç adam öldürmüşük, bizim adımızı bilillər, gej-tez bu işin üsdü açılajax. Gəl çıxax Gəncəyə gedək. Deyir, ə, dığa deyəjək bizdən qorxur. Deyir, qorxmax söhbəti döyül ey, yetmiş üç adam öldürmüsən. Eşitmir. Həsən çıxıf gəlir. Anamın dayıları 1940-da Gəncəyə gəlif, vəziyyət belə olanda Həsən də çıxıf gəlif Gəncəyə. Ələsgərin oğlu Bəşir də Kəlbəcərin Yanşax kəndinə gedif, onun qəbri də ordaydı (S.25).

## 188-195. USTA OĞRULAR

Oğru Abbas o qədər məşhur imiş ki, Zərzibili daşıyıb yeyirmiş da. Zərzibildə uşağ ağlıyanda deyirmişlər, kirimiş dur, yoxsa Abbasa deyəjeyik, səni aparsın. Elə olur ki, bu gedir Zərzibilə oğurruğa. Birinin bajasına çıxır, əlini atır ki, heyvanı çıxarda. Bu mament bulud Ayın qabağından çəkilir, adamın kölgəsi yerə düşür. Deyir, doğ, Ay, doğ. Zərzibil yığıf saa verəjək (S.31).

## 189.

Göyçədə çən-duman, çiskin deyilən şey olmuyuf. Beş-altı kilometir qarannıxdan adamı seçə bilirdin. Bu da gejə üç, dördə işdəmiş gedif ki, Ayın üzü tutuluf, kimsə bunu görməz. Dəmiryolun keçir, Zər kəndinə çatanda Ay doğur. Duruf baxır. Yolu yarı eliyif axı. Deyir, kopoğlun Ayı, doğ. Zərzibil yığıf elə sənə verəjək (S.13).

**190.**

Zərzibildə bir kişi bayrama qoş borduyurmuş. Axşamlar yatanda da qoçu qılçına bağlıyırdı ki, Abbas gəlif aparacax. Bir gün Abbasa xəbər verillər ki, filankəs yaxşı bir qoç borduyuf. Yəqin orda adamları varmış. Gedir çıxır bajaya, baxır. Kişi görür ki, Abbas kəndiri atdı, bajadan sallanır. Yorğanı başına çəkib yuxuluğa vurur özünü. Abbas gəlif düşür, erkəyi bağlıyır kəndirə, dartıf çıxarır. Abbas gedənnən sonra kişi çığırır, arvad, dur, Abbas erkəyi apardı (S.13).

**191.**

Qonşu kənddə uşağın biri yatmırmış. Bu uşağı qorxuzurlarmış ki, Abbas gəlif muncuğu yeyəjək. Bu uşağın da üsdündə bir dənə göz muncuğu oluf. Abbas deyir ki, bax, mən nə əzirdim burda, bu uşağın muncuğun mənə yedizdirələr. Bu uşağı yatızdırıllar. Arvad deyir, gözüm bir şey kəsmir, bu gejə Abbasdan yaman danışmışıx, o qoçu damdan gətir ayağıma bağla, gözümüzün qabağında olsun. Bunu da Abbas eşidir. Nəysə, saat dörd oluf, beşə işdəmiş Abbas Allah kömək olmuş qoçu açıf aparır, muncuğu da açıf uşağın bələyin böyrünə qoyur. Deyir, mən isdəsəydim, bunu da apardım (S.13).

**192.**

Orda Oğru Məmmədxan var idi, onun davanı yerə dəymirdi, barmağının ujunda yeriyirdi. Bir qarabağlı itini tərifliyir. Bu da deyir ki, gejə gələm, o itini çuala salam aparam, nə deyərsən? – Ə, deyir, nə danışırsan? Mənim itim göydə gedən quşu yerə salır, sən nə danışırsan? Gətirir

kilimləri böyür-böyürə çuval kimi tikir. İt gendən gələndə ağzının birin bu tərəfdən tutur, birin o tərəfdən, keçəni itin başına keçirir. Altı dənə də quzunu-qoyunu aparır. Çoban sabah durur ki, altı dənə quzulu qoyun yoxdu, bir də it yoxdu. Deyir, sən öl, bunu Məmmədxan apardı. Gedir ki, qoyun evinin yanında otlayır, iti də bajadan salıf dama, bajanı da örtüb. Qoyunun üçünü verir ona, üçünü də gətirir, bir də iti götürür gedir qarabağlı (S.25).

## 193.

Topu addı bir kişi olur, qonşu kəntdən bir inəh gətirir. Payız vaxdı tozalanqı[60] qar tüşüfmüş, ev yiyəsi qonşu kəntdən qarın iziynən gəlir, gəlir düz Topu kişinin evinə. Baxır ki, qazan vurhavur qaynıyır. O vaxdı Qamanov Bəhram sovet sədri oluf, inək yiyəsi gedir buna şikayət eliyir. Bu da bilirmiş ki, Topu oğrudu dana. – O vaxdı onun evinin yerində məktəb tikildi. O məktəbin fundamentin qazanda bəlkə də əlli, altmış dənə inəh kəlləsi çıxdı ordan, kiliflərdə gizdədirmiş dana. – Ev yiyəsi gəlir ki, qazan qaynıyır. Deyir, yoldaş Qamanov, bax, mənim inəyimi gətirif, qazan da təndirin üsdə bişir. Topu kişi deyir, ayə, bunun inəyi döyül. Gətirir bir ayrı inəyin başını buna gösdərir. Deyir, bu sənin inəyindi? Deyir, hə, mənim inəyimin başıdı. Deyir, ə kopoğlu, öz inəyin başını gətirif indi qoya-jam qavağa, onda görüm nə deyəjəksən. Sən öz inəyini tanımırsan, başqasın inəyinə deyirsən mənim inəyimdi. Sənin inəyinin başı odur a, ordadı (S.15).

---

[60] tozalanqı – toz kimi

**194.**

Topu Kəlbəcərdən gedib bir nəfərin malını gətirif, kəsif, qazana dolduruf, yediyini yeyif, qalanı da orda. Kəlbəcərlilər də bilir oğru kim olar. İzdiyə-izdiyə gəlif Topunun qapısına. Qamanov Bəhrəm o vaxt rəhbər işçi oluf. Gəlif onu tapıf ki, yoldaş Qamanov, belə-belə, mənim malımı oğurruyuf gətirif. – Ayə, kim gətirif? Deyif, filankəs, Topu. Deyif, gəl gedək görək. Topu eşidif ki, inək sahibi izi tapıf, tez öz inəyinin başını kəsir. Ünnənməsin də. İnək yiyəsi gəlif deyir ki, malımı sən gətirmisən. Deyir, ay kişi, öz malımı kəsmişəm, alışma eləmişik, odur, ətinin yarısın da bişiririk. Deyir, başı hanı bə? Gedir öz inəyinin başını gətirir. Deyir, bax, bu da mənim inəyimin başı. Deyəndə inək yiyəsi deyir, Qamanov, elə bu mənim öz inəyimin başıdı. Deyir, üzr isdiyirəm, belə şeləşən, gedib öz inəyinin başını gətirif deyəsən ki, bə bu kimindi? Bax, belə oğrular oluf (S.17).

**195.**

Orda oğrular çoxuydu. Zərzibildə Xasayıdı, bizim kənddən Lətif idi, Nərimannıdan İfoy, İnək dağınnan Şəxavət, Ədalət, Zoddan Heydər. Deməli, gedillər oğurruğa, on beş, iyirmi dənə çıxardıllar. Heydər deyir ki, orda ağ əmlik var, onu da gedin gətirin. Gedəndə it hürüyür. Dümağ it olur. Hürüyəndə çoban qalxır. Qaçıllar, Sevan gölündə buzu qırıllar, girillər içinə. Bax, orda İfoy da öldü, Şəxavət də öldü, bir də Heydərin bir qardaşı vardı, o da öldü. Zərzibilin də starşı oğrusu Xasaydı. İfo Xasayın qardaşıgilə kirvəliyə gedifmiş. Baxır ki, qapıda yaxşı qara əmlik var, amma ev yiyəsi heyvana qıymır, gətirir beçədən-zaddan kəsir. Deyir, kopoğlu, darıxma. Səhər hava işıxlanan vaxt gedir çıxır orya, həmin

əmliyi kəsir, baratasını[61] yığır, əti çıxardır, götürür gəlir. Axşam gələndə deyir, a kopoğu, ye, öz malın kimi yeginən. Yemiyənin malını yeyəllər (S.6).

## 196-199. QARAQOYUNLU

Xaxoyun əmisi qızı gedəndə Kalbay Cəfərin qardaşı – özü də qardaşağaymışdar ha, – söz atır Səlviyə. Səlvi gəlif ərinə deyir ki, məni sən almısan, yoxsa Kalbay Cəfər alıf? Deyif ki, o nə sözdü? Deyir, belə-belə. Kalbay Cəfərin tayfası seyitdərdi, Xaxoyun tayfası da alaboğazdılardı. Güllələşmə başdıyıf, amma heş kimə güllə dəymir. Məşə Məhəmmədəli çox əzazil adam oluf. Adam aparırmış Məşədə. Gedəndə quldurlar qumun altında gizdənif nizəni qarına soxub camaatı öldürülləmiş. Amma o gedəndə deyillərdi, dəli seyid gəldi, amandı, güllələşmə eləmiyin. Məşədi Məhəmmədəliyə dəli seyid deyillərmiş. Məşədi Məhəmmədəli oğlu Kalbay Cəfərə, Kalbay Hüsöynə deyir ki, siz oğulsuz? Bu qədər güllə atmısız, birin də vura bilməmisiz. O tüfəngi mənə verin, görüm. Tüfəngi əlinə alan kimi Xaxoyun əmisi Kalbay Şuvanı gülləynən vurur. Bu hadisədən sonra seyidlər gedif Səngərə sığınıllar. Ora da Nərimannı kəndinin ərazisi imiş. Nərimannıda Qlava Balı olur. Buna deyillər ki, buranı bizə ver, müvəqqəti sığınax, sonra çıxarıx. Qlava Balıya deyillər, olar ora sığındısa, sonra çıxmıyajax. A kişi, vermə. Deyir, yox.

Yazda Məşədi Musa Allahverdiyən gedif Kəlbəcərin Lev kəndinnən mal alıf gəlillərmiş. Kalbay Cəfər bunu bilif. Ağ qaya varmış, gedif orda gizdənif. Bular da gəlif rahata

---

[61] barata –heyvanın başı, ayağı, dərisi, içalatı

çıxıf. Deyiflər, mal da dincəlsin, oturax bir qismət də çörək yeyək. Malı buraxıflar, isdiyiflər oturuf çörək yeyələr, Allahverdiynən Məşədi Musanı – ikisin də Kalbay Cəfər gülləliyif. Qaraqoyunnu kəndinə xəbər düşüf ki, hak-hesab belə. Gedif meyidləri gətirif basdırıflar. Kalbay Cəfərnən Xaxoyun düşmənçiliyi ordan yaranıf.

Nərimannı kəndində İtburun Qasım oluf. Qasımnan da Kalbay Cəfər dosduymuş. O vaxdı da atnan rayona gedif gəlillərmiş. Gedif gələndə Qasım yolu kəsib Xaxoyu tut-durur. Kalbay Cəfərə xəbər göndərir ki, düşmanı tutmu-şam. Kalbay Cəfər gəlir, beşatılan da çiynində. Kalbay Cəfər sərrast atan oluf. Deyir, bir adam Xaxoya əl qaldıra, yerində gülləliyərəm. Xaxoyu çağırıf ki, çıx. Çıxanda deyif, Xaxoy, biz kənddə düşmanıx, amma burda bir kəndçiyik, sözümüz birdi. Yola düşüflər, kəndin altına gəlif çatanda deyir, Xaxoy, burdan belə düşmanıx. Mənim yolum ordandı, sənin yolun burdandı.

Kalbay Cəfər kasıb oluf. Kalbay Cəfərin dədəsi Məşədi Məhəmmədəli dünyasın dəyişəndə Xaxoy bir sərnic ərin-miş yağ göndərif, bir çual da un. Deyif ki, gedin Kalbayıya deyin ki, Xaxoy deyir gələn qonağı ac yola salmasın. Gələn demiyəjək Kalbay Cəfərin qapsına getmişdim, deyəjək Qaraqoyunnu kəndinə getdim, bizi aj yola saldılar. Düş-mənçiliyimiz gənə düşmənçilik olsun. Elə də qonağını yola salıf. Sora gəlif Kalbay Cəfəri tutuf Şuşa qalasına salıflar. Xaxoy gedif qızıl verif bunu buraxdırıf. Qalanın naçalniyi bunu buraxanda deyif, Kalbay Cəfər, səni kim buraxdıra bilər? Deyif, məni buraxdırsa, bircə Xaxoy buraxdıra bilər (S.25).

**197.**

Mənim anamın atasının dayısı olub Kərəm, pəhlivan oluf. Səmənd ağanın cangüdəni olub, amma kasıb oluflar. Üç qardaş oluflar. Kərəm, İmanqulu, İmac. İman imiş, İmac deyillərmiş. O balaca imiş, hələ uşağ imiş. Kasıb olduxlarına görə özü Səmənd ağanın cangüdəni imiş, qardaşı İman da Xaxoyun quzusuna gedirmiş. Xaxoyun arvadı Zöhrəbanı Kəlbəcərin Təkəqayası kəndindəndi. Nəysə, bunun arvadı İmana çörək vermirmiş. İman da quzunu qoyur, çıxıb gedir. Kərəm qardaşına deyir, bala, biz danışmışıx axı, o hakk verəjək, bə quzunu niyə qoyuf gəlifsən? Deyir ki, qağa, Xaxoyun arvadı mana çörək vermir. Deyir, elə. Deyir, hə.

Kərəm gedir bajısı Salatıngildən kilim gətirə, əriştə kəsələr. Xaxoy kənardan bunu çağırır. Deyir, bəs biz danışmışdıx, amma qardaşın razılığı pozur. Kərəm deyir, uşax sənin qapında nökərdi, uşağa niyə çörək vermirsiz, ə? Buna söyünc eliyir. Gedif bajısıgildən kilimi gətirəndə Xaxoy gülləni götürür, Kərəmi gülləynən vurur. Araya düşmənçilik düşür. İman and içir ki, qardaş, sənin qanını yerdə qoymuyajam. İman kənddən çıxır gedir, on səkgiz yaşı tamam olanda bir dənə onatılan, bir dənə də xəncər götürür, gəlir. Çox hərriyir, Xaxoy bunun girinə keşmir. Ölü bayramı günüymüş, camaat ölü namazına duranda Xaxoyun dədəsi Ələsgəri öldürür, xəncəri kürəyinnən soxur, qarnınnan burub çıxardır. Qanını yalaya-yalaya gedir girir əmisi Namazın damına. Deyir ki, qardaş, qanını aldım. Evi mühasirəyə alıllar, bunun əlində xəncər, onatılan, kim içəri girə bilər ki? Səmənd ağanı gətirillər. Səmənd ağa deyir ki, a oğul, gəlmişəm sana kömək eliyəm, cavannığ eliyif birdən məni vuruf eliyərsən. Deyir, ağa, gəlmisən, xoş gəlmisən,

harya desən, orya gedəjəm, amma düşman qabağında mənim silahımı əlimdən alma. Deyir ki, səndə ki bu qeyrət, kişilik, mənəviyyat var, arxeyin ol. Səmənd ağa olan yerdə kim yaxın gedə bilər? Orda yanına salır, Nərimannı ilə bizim aramızda Oğrugörünməz var, aparır orda buraxır. Deyir, gəlmişdim Kərəmin xatirinə səni qurtarmağa, çıx get. Bax, belə işdər oluf (S.25).

## 198.

Qan yatırmağa gedəndə ağsakkallar deyərdi ki, bala, dalaşmax var, öcəşmək yoxdu. İndi bir səhvlik olub, cavannar cavannığ edib, belə şeylər eləmiyin. Mənim anamın babası Bəhlul kişi var idi. O deyirdi ki, – babamın atasının adı Ələsgər olub, – mən quzuçu idim, qoyunu da quzuya qatırdılar. Kalbay Miri gəldi qoçun ikisini ayırdı, iyirmi dənə qoç var idi, apardı qoyununa qatdı. Axşam gələndə belə baxanda dedi, Bəhlul, oğul, a bala, qoçların ikisi hanı? Dedim ki, Məşədi əmi, Kalbay Miri ayırdı, qoyununa qatdı. Nəysə, çağırdı, Kalbay Miriyə ağzına gələni dedi. Kalbay Mirinin qardaşı Abbasəli əlində kərənti gəldi. Albaba da əlində şana getdi. O vaxdı ağaşdan şana qayırırdılar. Albaba dedi ki, Abbasəli, gəlmisən, vur da, biz fürsəti birinci düşmənə veririk. Deyəndə dedi ki, yox, sən vur. And içirdi, deyir, Albaba nətər vurdusa, Abbasəli Qoşabulağın üsdünə yıxıldı. Ona kimi qardaşı Kalbay Miri gəldi, əmisi oğlanları, bəylər, xanlar gəldi, Rəsul gəldi, döydü, hamısını qırdı. Abbasəlinin arvadı Münəvvər arvad gəldi, yaylığını açdı ki, Albaba qardaş, bunların naaşın mana bağışla. Dedi ki, buları götür, get burdan. Albaba elə kişi idi, elə adam idi. Qaçax Cəmil bircə Albabadan qorxurdu (S.25).

## 199.

Bizim tayfaya alaboğazlılar deyillər, Qazağın Dağ Kəsəmən kəndindəndi. Deyir, yayda yaylağa gedif qışda evinə qayıtmıyan qazaxlıya göyçəli deyilir. Biz Dağkəsəmən kəndinnən gəlməyik, alaboğazlılarıx. Onnan sonra ağammədlilər, nağılar, xaşdar varıydı, seyidlər varıydı, bala qaraqoyunnu varıydı. O vaxt sovet höküməti yarananda bizim ərazi üç kənddən ibarət olub: Bala Qaraqoyunnu, Böyük Qaraqoyunnu, bir də Seyidlər. Bunları gətiriblər Qaraqoyunnuda yerrəşdiriflər. Əvvəl ayrı-ayrı otuz-qırx ev olufdu, ordan köçürdüf gətiriflər bir yerə cəm eliyiflər. Seyidlər Səngərdən gəliflər, evlərinin yeri bilinirdi biz qaçana qədər. Bala Qaraqoyunnu sünnidi, amma Böyük Qaraqoyunnu şiə. Biz nə sünni, nə şiə ayırmamışıx, qız vermişik, qız almışıx. Şəxsən mənim əmimin yoldaşı Bala Qaraqoyunnudan idi, can deyib can eşitmişik. Atam rəhmətdik deyirdi ki, biz Qazağın Dağ Kəsəmən kəndindən getməyik, Ətağanın kökündənik. Qazaxda Ətağa olubdu, onun kökündənik (S.6).

## 200-201. QANLI

Qazaxda Qannı Allahverdi adında adam olur. Öz qohum-əqrabasıynan köçüb həmin kəndə gəlir. O da Göyçə gölünün ətrafında yerrəşən kənd idi. Göyçə gölünün səviyyəsi sonralar çəkildi, o hissələr bataxlığa çevrildi. Orda hündür qamışdar bitirdi. Mal-heyvan saxlayanda camışdar girirdi suyun içinə, orda yeyirdi. Sovet dövründə kanallar çəkildi, su çəkildi, nəhayət, ora oldu quru qamışdıx. Qış vaxdı camaat o qamışdarı biçirdi, sankaya yüklüyüb gətirib hey-

vana verirdi. Su olmayannan sonra o qamışdıx da məhv oldu, ora böyük bir torf yatağına çevrildi. Orda çıxan torpağı İçmiədzinə daşıyıf aparırdılar, kübrə kimi torpağa verirdilər. 70-ci illərdə orda torf zavodu tikdilər, ordan torpağı yığıf presliyirdilər, yanacax kimi məktəblərdə, idarələrdə istifadə edirdilər. Kənddə ona qədər tayfa var idi. Rəhimlilər, hajı nağılar, avıllar, əmrahlılar (əmrahlılar Sətənağaç kəndindən gəlmə tayfa olmuşdu. Burdan orya getmişdilər, nəhayət, ordan bir qardaş ayrılıb qayıtmışdı bu kəndə). Sora cəlillər, əhmədlilər, nayımlılar.

Əmrahlılar qarapapax tayfasından oluf, gəliflər Göyçənin Daşkənd kəndinə. Bir müddət orda yaşıyannan sona Əmrahın atası olufdu Kolux Məmməd[62]. Kolux Məmməd Daşkənd kəndində koxa olufdu, dörd atı, otuz bir baş malı, yüz yetmiş baş qoyunu olufdu. Beş oğlu, bir qızı olufdu. Sonra ordan Qannı kəndinə gəliflər. Təxminən iyirmi il orda yaşıyıflar. Gülüstan müqaviləsində artıq çarın qoşunları gəlif çatıfdı Sətənağaç kəndində çay var, o çaya qədər. Yerevan quberniyasının xanı Hüseyn xan bunların qarşısın almax məqsədiynən, çünki çar qoşunları gəlif keçirmiş nə qədər də irəli, atdarını otarıllarmış. Bunun qarşısını almaxdan ötrü deyir, könüllü qaydada kim köçür qoy köçsün orya[63]. Təzdən bizim babamız Kolux Məmməd köçür orya. Orda bir alaçıx tikir, onnan sonra da başqa tayfalar yığılır orya. Demək, olufdu məşəd hüseynlər, çəkməlilər, əmirlilər. Kolux Məmmədin beş oğlu oluf: böyük oğlu Hacı Qərib, kiçik oğlu

---

[62] Söyləyicinin dediyinə görə, ağacdan tikilmiş komalara kolux deyirdilər. Məmməd də ağacdan koma tikib müvəqqəti orada yaşadığı üçün Kolux Məmməd adlandırılıb.

[63] Sətənağac kəndinə

Əmrah olur. O birsi oğlannarı da Ramazan, Qəhrəman və Hüsən. Məşədhüsöynlər olur, onlar da Ağbulax kəndinnən gəlillər. Onlar Qəzvinə köçmək isdiyillər. Çünki onların İranda titulları olufdu, şah onlara yer verif. Məşədi Hüseyn kişi şahnan danışıf, Qəzvində onların torpaxları varmış, gəlin məskunlaşın. Bunlar da köç bağlıyıf gedəndə İran-Rus müharibəsi başdıyır, yoldan qayıdıflar geri. Məşədi Hüseyn kişi deyir, əşi, mən biyabır oldum, köç yığmışam, qohum-əqrabanı başıma yığmışam, indi də qayıdım kəndə? Bu biyabırçılığı qəbul eləmir, o qardaşların içinnən ayrılır dənizin kənarıynan gəlir. Görür bura münasib yerdi, o da burda məskən salır. Göyçə gölünün Martuni rayon hissəsində erməni-müsəlman davası olur, orda Qızıltorpax olur, ordan iki tayfa gəlir: məşədi ibrahimlilər, çəkməlilər. Baballar tayfası olur. İran tatları Gədəbəyin mis mədənlərində işdiyillərmiş, onlar da aylə qurur, orda məskən salır. Beş qardaşın hər biri Sətənağacda[64] böyük tayfadı, ancaq bizim babamız Əmrah kişi qayıdıf gəlir Qannı kəndinə (S.9).

### 201.

Qannı Allahverdinin böyük imkanı olufdu, varı-dövləti çox olufdu. Belə bir versiya da var ki, bir gün onun at ilxısını burdan oğurladırlar, Araz çayın keçirdirlər. Bu da atdarın izinə düşür. Xurcunu doldurur qızılnan, atı minir, gedir ilxının dalınca. Gedif Araz çayını keçəndə at dərin

---

[64] Söyləyicinin dediyinə görə, Sətənağac, əslində, zədəli ağac deməkdir. Həmən yol Gədəbəydən gəlib mis mədəninə gedirmiş, eləcə də Göyçə camaatı o yolla gedib mis mədənində işləyimiş. Onda o kənd yox idi, meşə və palıd ağaşdarı var idi. İldırım vurub o ağacların birini zədələyir, sətənağac adı da oradan qalıbdı.

yerə düşür, qızıl dolu xurcun ağır olduğuna quyrux hissədən sürüşüf düşürmüş. At, deyir, quyruğunu qaldırdı belə (şax tutur – tərt.), o xurcunu saxladı, üzdü çayı keşdi. İznən gedir, ilxının yerini tapır. Orda deyir ki, bu atdar mənimkidi. Deyir, a kişi, sən kimsən ki bu atdar səninki ola? Deyir, bu atdar mənimkidi. İntaası mən demirəm ki, bu atı mana pulsuz verin. Bu atdarı mana satın. İndi bilmirəm ucuz verillər, baha verillər, yəqin hörmət eliyəllər. Obşim, kişinin ilxısını verillər özünə. Deyir ki, maa bir köməkçi olsun ki, Araz çayını addadax. İlxı Araz çayını keçənnən sonra ona kömək eləyənə deyir ki, sağ ol, sən qayıt. At axı gəldiyi yerə rahat qayıdır. Bizim tərəfdə Qoşatəpə deyillərdi. Ora çatanda ayğırların kişnəməsi kəndə çatdı. Burda kim ki atı oğurratmışdı, həmin adam təcili, deyir, kənddən çıxdı. Bilməsin axı. İranda buna demişdilər atı kim satıf. Sonra elə olur ki, orda nəsə bir qan eliyir, – Kəlbəcərdə bir Qannı kəndi var, – gedif o Qannı kəndini salır (S.9).

## 202. ƏBLƏH

Şah Abbas gəlif burdan keçirmiş. Bunu ermənilər[65] söylüyürdü o vaxdı. Şah Abbasın qoşun dəsdəsin burda at ilxısı var imiş. Bu at ilxısı da buların əkin sahəsinə ziyan verirmiş. Elə birinci görüşdə deyir, nə təklifiniz var, nə sözünüz-söhbətiniz? Deyir, vallah, şah sağ olsun, sizin bu ilxılar çox ziyan verir bizə, əkin sahələrin, örüşü xarab eliyir. Bunun xoşuna gəlmir. Deyir, əşi, bular əbləhdi. Əbləh qanmaz adama deyilir. O vaxdan kəndin adı qalır Əbləh. Qalxır Azad kəndinə, indiki Yeni Zod kəndinə. Azad

[65] Göygöl rayonunun Əbləh kəndində yaşayan ermənilər

kəndinə çatanda baxır ki, bunu duz-çörəhnən qarşılıyıllar mədəni qaydada, nətər lazımdı. Bir az söhbət aparannan sonra deyir ki, buları vergidən azad elə. Elə oranın adı qalır Azad, buranın adı qalır Əbləh (S.9).

## 203-204. ZOD

Arxamız dağlardı. Dağlar da ki, yaylaxdı. Qəşəh çəmən, çiçək, nə bilim, hər şey. Yaylaxlara köç yazda başlayırdı. Bizdə havalar soyuğ olur, maydan sonra yaylağa çıxırdılar. Qabaqdan bütün kəndin adamları çıxırdı, özlərinə dəyə qururdular. Sonra get-gedə bu azaldı, camaatın mal-qoyunu da azaldı. Ancax kalxozun heyvanları, qoyunu, malı yaylağa çıxırdı. Bayax dedim, Zodun tarixi çox böyükdür. Zodda qızıl mədəni olub. Mənim yaxşı yadımdadı. Əvvəldən bilinmirdi burada nə var. 1950-ci ildə artıq mən onda 7-ci, 8-ci sinifdə oxuyurdum, Gürcüstandan oruya yoxlamaya gəliflər. Birinci olar tapmışdılar ki, burda belə bir şey var. Ondan sonra yoxladılar, orda quyu qazdılar, tunel qazdılar. Ordan külüklər çıxdı. Bizdə orda bir bina var idi, adına meçid deyirdilər. Demək, ərəblərin meçidi oluf. Son vaxtlara qədər qalırdı, bizim kəndin, qalxozun hasılatın orda götürürdülər. Meçid adıynan qalıb. Həmin yer gözəl bir yerdir də, düzənlik yerdir. Bəzi yerlərdə bundan hündür yerlər var idi. Ona deyirdilər dəvə damı. Dəvələr gələndə orda yeyib, orada da yatıllarmış. Həmin ərəblər ki, orda filiz çıxardırlarmış, özdə onlar zonaynan gedib. Ta indiki kimi qazıb tökmüyüf. Damar hardadı, o damarnan gedillərmiş. Özdə çıxartdıxlarını qoyun dərisinnən hazırranmış dağarcıxlarda daşıyıllarmış. Ordan filizi

çıxardıllarmış, dəvələrə yüklüyüb göndərillərmiş Ərəbistana. Onların həm külükləri çıxmışdı, həm də paltarın tozu qalıb orda. Həm də bizim qavırsannığın bir tərəfində ərəblərin qəbri var idi. Biz baş daşı qoyurux, onlarınkı bax, belə döşəmə idi.

Kəndimizdə 26 tayfa var. Birinci elə özümüzkün adını çəkim, naxırçılar tayfası. Kənddə ən böyük tayfa oluf. O vaxtı cavan vaxtımıydı, naxırçılar deyəndə utanırdım. Bilmirdim kökü nədi bunun. Sən demə, bizim kökümüzün əsli Mustafa kişi oluf, altı oğlu oluf. Bunun çoxlu malı, qoyunu, atı – hər şeyi varıymış, elə buna görə də bunnara naxırçılar deyillərmiş. Hajılar tayfası, xəlfəlilər var, xaxoylar var, kəsəmənnilər, tatlılar oluf. Kəndimiz üç yerə bölünüb: Tatlı, kəsəmənli, hasansu. Yəni tatlının camaatı bir-birinə qohum camaatdı. Deyirdilər Qazağın Tatlı kəndinnən gediflər. Kəsəmənli kəndin orta hissəsinə deyirdilər. Olar da deyirdilər ki, buların çoxu Kəsəmən kəndinnən gedif. Hasansu da sonradan yaranmışdı (S.17).

**204.**

Zod kəndi Qazaxdan köçmə olufdu. Orda məhəllələr var: hacılılar məhəlləsi, qaraqoyunnular məhəlləsi, kəsəmənlilər (Dağ Kəsəmən kəndindəndirlər). Orda var hasansuyu. Hasansuyu Qazağın kəndidir. Tatlı Dağ Kəsəməndən köçənlərdi. Bunlar yaylağa gəliflər, sonra orda qalıf məskunnaşıflar. Bu hakda geniş bir şey danışım sizə. Mən əmim uşaxlarını Qazaxda Dağ Kəsəməndə tapdım. İndi də gedirəm toylarına-zada, onlar da bizim toya, ölü yerinə gəlir. Atamın atası öləndə deyir ki, ay bala, sən allah, mənim bir qardaşım oğlu Dağ Kəsəməndədi. Yollar açılsa, get gör

o sağdımı. Elə olur ku, aradan on beş, iyirmi il keçir, ara düzəlir. Durur gedir Dağ Kəsəmənə. Orda bir kişidən soruşur ki, Hajı kişi harda yaşıyır? Deyir ki, bax, yuxarıdakı evdə Sayalı arvad var, bilsə o bilər. Gedillər Sayalı arvadın yanına. Deyir, ə, o bir həftədir ölüf. Onun uşağıynan tanış oldular. Olar Zoda gəldilər, indi də bizə gəlif gedillər. Məhlələr: hajılar, hajısülöylər, hajı namazlılar, qaraqoyunnular, kəndin ayağında zərgərlərlidi, tatlıdı. Çuxur məhlə, siçannı məhlə deyirdilər. Üç qəbirsannıx var idi, ikisi xrisdiyan qəbirsannığı idi. Alban qəbirsannığı oluf, amma onu ermənilər öz adlarına çıxdılar, kilsəni sökdülər, təzədən təmir elədilər. Qoç şəklində qəbir daşları var idi. Nurcanyan var idi katib, onun hamısını kamaza yığdırdı, apardı.

O vaxdı xanlıxlar arası müharibə gedirmiş Qarabağda. Bunu da babam danışırdı. Deyir, bir dəsdə atdı gəldi. Dedi ki, Qarabağda xanlıxlar arasında müharibədi, biz gedirik müharibəyə. Bu qızı qoyuram sənin evində, qayıdanda sənin hədiyəni verəjəm. Deyir, bunu öz yoldaşımnan yatızdırdım, mən başqa çadıra keşdim. Çallar deyilən yer var bizdə, yaylaxdı. Elə oldu ki, bunnar getdi, bir aydan sonra gəldi çıxdı. Deyir, üşdən biri gəlif çıxmadı, hamısı qırılmışdı orda. Gəldi bizə salam verməmiş qızı çağırdı, apardı qırağa, nə danışdı, nə danışmadı, gəldi dedi, bura gəl. Çıxartdı bir mauzer verdi, bir də altındakı atı verdi. Dedi, bu sənin kişiliyinin hədiyyəsidi, ala. Qızı da götdü getdi. Görünür qızdan soruşuf ki, sənə söz dedilərmi. Qız da deyif, məni arvadınnan yatızdırıf. Bax, belə şeylər də olufdu (S.12).

## 205-206. BALA MƏZRƏ

Kənddə qızılhajılı tayfası, Hajı Əhmədli tayfası, korlar tayfası, qorxmazlı tayfası, qarallar tayfası, mollələr tayfası, hüsənli tayfası var idi. Bizim tayfa qorxmazlı tayfası olub. Bizim tayfanın əsli Türkiyədəndi. Rus-türk müharibəsində bunlar qaçqın düşüf, gəliflər Borçalıya. Borçalıda bir müddət qalannan sonra Nikalay Azərbaycan xannıxlarını dağıda-dağıda gəlir. Digər xannıxları dağıdannan sonra qalıf İrəvannan Naxçıvan xannığı. Bunların generalı bir neçə dəfə İrəvan xannığına hücum eliyif, işğal eliyəmmiyif. İrəvan xanı Hüseynqulu xan ağıllı adam oluf. Görüb ki, çar qoşununun qabağında tab gətirəmmiyəjəh. Gürcüstanda, İranda nə qədər qarapapax türkləri var, onun hamısını çağırıf ki, gəlin İrəvan xannığında yaşıyın, sizə böyük imtiyazlar veriləjək, İrəvan xannığını Çar Rusiyasının işğalınnan qoruyax. O cümlədən Borçalıdan da gətirif. Onun çağırışınan mənim ulu babalarım da gəlif orya. Adı İsmayıl olufdu. Bunlar süvari dəstə düzəldib Qarabağ tərəfdən çar qoşunlarının qabağını saxlamağa. Qazax, Şəmşəddin tərəfdən də bir dəsdə xannığı qoruyufdu. 14-cü ildən 28-ci ilə kimi həmin o çağırdığı qarapapax türkləri süvari dəstələrnən xannığı qoruyufdu. Xannıx süqut eliyəndən sonra buralar Nikolayın əlinə keçib.

Mənim ulu babamın altı oğlu olufdu. Birinci gəlif düşüflər Şişqaya kəndinə. O vaxtı da Göyçədə heyvandarrıx, bir də əkinçilih üçün yaxşı şərayit olufdu. Bunlar heyvan saxlıyıllarmış, həm də əkin əkib taxıl istehsal eliyillərmiş. Bunlar belə planlaşdırıllar ki, üç qardaş qalsın Şişqayada xırda buynuzlu heyvan saxlasınlar, ora dağlıxdı

deyə qoyun, keçi saxlamağa şərayitdidi. Üçü də məslahətdaşıf ki, gəlsinlər Bala Məzrəyə. Bala Məzrədə də camış, mal, at saxlamağ üçün yaxşı şərayit var idi. Həm çoxlu biçənəhlər oluf, həm də saz dediyim böyük otarax olufdu. Bunlar da gəlib burada mal-qoyun saxlıyıflar. Üç qardaşın törəməsi qalıf Şişqayada, o biri üç qardaşın törəməsi gəlib Bala Məzrəyə. Şişqayada qalannar İsmayılın oğlanları Hakverdi, Yusif, bir də Qorçu oluf. Bala Məzrəyə gələnlər isə Mövla, Novruz, Xıdır oluf (S.37).

## 206.

Bala Məzrədə hardasa 18-20 tayfa var, hər tayfaan da gəliş yeri var. Göyçənin əksəriyyətinin Qazax əhalisinnən bağlılıxları var. Yaşdı adamlar deyirdi, məsələn, naymılı tayfası gəlif Qazaxdan, Qazağın Kəsəmən kəndinnən, biri gəlif Çaylıdan, biri gəlif Səməd Vurğun kəndinnən. Kənddə naymıllı, mollaəllər, qəribli, kalvaylılar var, ən böyüh tayfa qorxmazlılar idi, məsimli var, həsənli var, hajaslanlı var, korrar tayfası var, xıdırrı var, hüsənni var – ən böyüh tayfadılar. Mən Xıdırrı tayfasındanam. Mənim babam deyirdi ki, bizim əslimiz Qazaxdan gəlmədi. Amma neçənci ildən gəlmədi onu deyəmmirdi. Təsərrüfatnan məşğul olan adamlar oluf, gəlif düşüflər Göyçə gölün ətrafına, görüflər gözəl yerdi, elə orda da məskunnaşıf qalıflar.

Bala Məzrədə üş dənə ziyaratgah varıydı. Məsələn, Seyid Zülfüqarın əsli irannıdı. Zülfüqar dayının dədəsi İrandan gəlib. İranda hakimiyyət dəyişkənniyi dövründə Göyçəyə gəlib, bizim kənddə bir adamnan münasibət qurub. O da deyif ki, gedək bizim kəndə. Gələndə kənddən bir qızla evləndiriflər. Anası hajıəhmədlilər tayfasındandı, amma yoldaşı qorxmazdıdan idi. Bir də Züləş kişi varıydı, onun da

ojağı varıydı. Onun adı seyidiydi, ona ojax demək olmazdı, onu seyid kimi qəbul eliyirdik. Bir də yanar ojax vardı. Züləş kişinin evinin içində bir dənə ziyaratgah daş vardı, onun da ətrafını bağlamışdılar. Mənim atamın ana tərəf qohumudu. Orda həftənin dördüncü günü çırax yanırdı. Hamı da gedif ziyarat eliyirdi. Bir də Qızıl Hajılılar tayfası var, Məşədi Qəsim kişi, onun da ziyarətgahı var idi. Seyid Yaquf var, onnarı köçürtmüşdülər Tərtərə, amma o evə heş kim bünövrə qoymadı, hamı da gedif ziyarat eliyirdi. And içəndə də deyirdilər Seyid Yaqubun ojağı haqqı (S.29).

## 207. AĞKILSƏ

Ağkilsədə ən böyük tayfa bizim tayfa idi – hacılar tayfası. Alməmmədlilər, şükürlər, qurbanlar, kürduşağı. Kəlbəcərdən gəliflər deyə onlara kürduşağı deyiflər. O vaxd bizdə Kəlbəcərə kürd deyirdilər. Hətəmxanlılar olufdu. O kəndin yaranma tarixi belədir. Məşədi Xəvər oluf. Məşədi Xəvər İranda hansısa şahın vəziri oluf. Bular o vaxdı ova çıxıf. Göyçə o vaxdı sıx meşəlik oluf. Bizim kəndin içində bir kilsə oluf, kiləsinin yanından da bir bulax çıxırmış. Ora hardansa su gətiriflər saxsıynan. İran şahı ova çıxanda bular gəlillər çıxıllar göllər tərəfə – Kəlbəcərin bəri üzünə, Göyçənin dağına, buralarda ov eliyillərmiş. Bir canavarı qovullar, gəlif girir dəməyinə. Şah deyir ki, kim bunu çıxarar? Heş kim cəsarət eləmir. Məşədi Xəvər deyir, şah sağ olsun, sizin sözünüz yerə düşməsin, mən çıxardaram. Məşədi Xəvər qoluna ədyal-mədyal doluyur, girir içəri. Deyillər, guya onun içəridə qazdığı yuva geniş olur. Girişi dar olur, amma içərisi geniş olur. Obşim, bu girir içəri,

orda canavarnan çarpışır, vuruşur, bunu öldürür. Qayıdıf çıxanda görür qarannıxdı, gejə düşüf, heş kim də yoxdu. Şah bunu qoyuf çıxıf gedif. Bu da yaralanıb eliyifmiş görünür. Deyillər bu öldü-elədi, canavar yedi bunu. Meyidin də çıxarıf aparmıyıf ey şah bunun. Yaralı vəziyyətdə gedir şahın yanına, ürəyin boşaldıf. – Sən nətər adamsan? Mən sənin bir kəlmə sözünə həyatımı risk elədim, sən meyidimi də olsa gətirif yiyəsinə vermirsən ki, bunu dəfn eliyin. Obşim, qayıdıf gəlir evinə. Hamı tökülüşür, gözün aydın olsun. Bulara deyir, mən şaha sözümü dedim, o sabah bizim kökümüzü kəsəjəhdi. Kim mənnən getmək isdiyir gəlsin, biz beyjə burdan çıxmalıyıx. Səhər axtaranda biz burda olmamalıyıx. Bax, ordan yığışıf gəliflər – yəqin ova gələndə buraları görüfmüş, – bizim kəndə. Onda Zod kəndi də varmış, Zər kəndi də. Zər kəndi indiki yerində deyil, yuxarı kalafalar deyilən yerdə olufdu. Olar gəlif tökülüflər kilsənin yanına. Sıx meşəlik oluf buralar. Burda ojax qalıyır, çörək bişirillər. Zər-zibillər görür ki, burda kimsə gəlif ojax qalıyır. Olar burya basqın eliyillər, bular da onlara qarşı qoyullar, qaçmırlar. Beləliknən, o kəndin orda kökünü salıflar (S.18).

## 208. CANƏHMƏD

Kəntdə böyüklü-kiçikli iyirmi üş tayfa var, ən böyük tayfa olub dıkqıllar tayfası, qədimalılar tayfası, çəkməlilər tayfası. O tayfaların da çoxunun hələ iyirminci ildən qabax, əsrin əvvəllərindən ordan köçü oluf. 1905-ci ildə orda qaşqınnığ oluf. Bizim kənddən qaşğın getmiyif, görünür əli silahlılar kəndə qoymuyuflar da erməniləri girməyə. Hətta Ermənistanda qarışıxlıx olanda 18-ci ildə bizim kənddən

Böyük Məzrəyə köməyə gediblər, dörd nəfərimiz orda şəhid oluf. Həmin kəndi mühasirəyə alıblarmış, onda bizim kənddən oraya köməyə gediblərmiş. Əsrin əvvəlinnən də qavax orda oluf Sultan Əli Qışlax. O kişi, görünür, varrıhallı adam oluf. Öz təsərrufatını qışlağa çıxardırmış. On səkkizinci əsrin əvvəllərində qədər o adnan gedif, sonra da Canəhməd adlanıf.

Qaraimannan bizim aramızda dağ var idi, onun başında Ocax təpəsi var idi. Qıraxları daşla hörülmüşdü, balaca bir qapısı var idi. Girirdik qapısınnan, oranı ziyarət eliyirdik, nəzirimizi qoyub çıxırdıx. Ocaq təpəsinin yanında bizim babamızın yurd yerləri oluf. Bir kişinin üç oğlu oluf, biri yox oluf, ikisi onun yanında qalıf. Rəvayət eliyillər ki, o ocağa maral gəlif sağılırmış. Bir müddətdən sora marallar gəlmir. Ondan sonra bu kişinin yurdu məhv olur, ordan köçüllər, gəlillər Gədəbəyin Söyüddü kəndinə. Gəlif Gədəbəydə məskunnaşannan sonra ora torpaxla bağlı Çar Rusiyasından iki mütəxəssis gəlir. Yerli nümayəndələrlə əraziyə baxış keçirir. İdarədə carçı işdiyirmiş. Bular da buna təklif eliyillər ki, get bularnan ərazini hərrən da ərazini tanıyan adam kimi. Yaxın kəndlərin ərazisini hərrəniflər, müəyyən özləri üçün qeyd götürüflər. Payız günüymüş, hava da soyux imiş. Kəndə gəlillər. – Kimdi bu kəndin sahibi? Hərə bir tərəfə dağılıf gedir, rusu sayan olmuyuf. Kişi də görüf hamı dağıldı, aktivlərdən heş kim bunu evə dəvət eləmədi, hava da soyux, bunu evlərinə aparır. Kişi də kasıf adam oluf. Orda bəyin bacısını qaçırıfmış, o da ajıxnan onu qırağa tulluyuf, bir komada yaşıyırmış. Buların da bir keçiləri varmış. O dövrdə heç kimin imkanı yoxdu. Heyvan çöldən gələndə keçi də gəlir qapıya. Arvad keçini sağır, kişi gətirir

keçinin başını kəsir. Rus da görür bir dənə keçidi, bunun da başını kəsif olara verdi. Balacaboy kişi oluf, arvad da cannı arvad oluf. Təzdənnən səhərisi günü gediflər idarəyə. Bu kişiyə deyiflər, gedək sənə nə qədər isdiyirsən torpax verək. Orda Maarif kəndi var, o kəndin ərazisində böyük bir sahəni veriflər bu kişiyə. Torpağı onun adına sənətdəşdirif çıxıf gedillər. Özü də tapşırıflar bu ərazi bunundu, onun vergisi bu kişiyə gələjəh. Sonra o torpağın sənədini itirir. Dıkqı adı da ordan əmələ gəlir. Boyu balaca olduğunnan Dıkqı Süleyman deyiflər (S.22).

# III. XATİRƏLƏR

## 209-213. 1918-Cİ İL QIRĞINLARI

Zod kəndi qoçaq kənd oluf. Ermənilər bizdən qorxurdu. Bizim camaat bir dəfəyə altmış ermənini qırıf. 1918-ci ildə ki Azərbaycanı Sulikovlar hissə-hissə qırıf getdilər çıxdılar Zoda, Səməd ağanın evinə gəldilər. Camaatdan tələb elədilər ki, bizim altmış nəfər əsgərimiz var. Sulikov özü, qardaşı, ondan başqa bir nəfər də oluf, 57 nəfər də onların əsgəri oluf. Səməd ağanın da elə böyük binası yoxuydu. Hasilat qayırmışdılar çayın qırağında, iki göz xırdaca otağıymış. Altmış nəfər insan, altmış at harda yerləşməlidi? Nə qədər ki biz burda qalajıyıx, hər şeynən biz təmin olunmalıyıx. Bizim də namuslu, qeyrətli ağsakqallarımız oluf. Deyiflər ki, bunların dediyinnən bizimki tutası döyül. Ondan sonra Cahangir ağa deyirdik, o da ağalıxdandı, onun böyük bir evi varıydı. Deyiflər, gedək orda bular nahar eləsinlər. O vaxtı bizdə otax-zad yoxuydu, qara ev damı deyirdilər, ortadan bajası varıydı. Təndir içəridə yanırdı, hər şeyimiz orda həll olunurdu. Oraya gedəndə həm də qış oluf, mart ayının 19-u. Belə məsləhət eliyiflər ki, qurtarmalıyıx ee. Qüvvəli oğlannar, cavan oğlannar silahlanıflar, deyiflər, elə eliyin heş kim görməsin sizi. O vaxtı, üzr isdiyirəm, malın püfünnən təzək kəsiblər, qalax quruflar. Deyiflər, o qalağın dalına girin, nə bilim hasarın dalına, daşın dalına, heş kimin başı görühməsin. Bu həddə ki gəldi, mən özümü hasardan atacam, siz də atəş açın, ya qismət mən salamat qalam, ya qalmayam. O da qlava oluf qaraimannı Məşədi İsa olufdu. Onların idarələri Böyük Məzrədə oluf. Qlava oluf,

Göyçənin bir neçə kəndinə rəhbərlik eliyirmiş. Çarın yanına gedən adam oluf ey. Bu da özünü hasardan atan kimi hər tərəfdən atəş açılıf, hamısını qırıflar. Biri qaçıf. Qarlı vaxt imiş də. Deyiflər, dalınca kim gedəjək? Bizdə Kor Hümbət oluf, yaxşı atan oluf. Deyif, ə, kənara durun, hara gedirsiniz? Atəş açıf onu da vuruf. Bizdən bir nəfər ölüf, onların altmışı qırılıf. Bu bir nəfər niyə ölüf? Bu da tamahkarrığ eliyif. Gedif ki, biri yıxılıf, isdiyib onun silahını götürə, o da salamatıymış, bunu vuruf. Bundan sonra Daşnaksütun partiyası hay-küy qaldırıf ki, necə olur olsun onların hamısı tutulmalıdı. Gəliflər, Zoda girə bilmiyiflər. Ondan sonra səhra məhkəməsi təşkil eliyiflər, gedin kimliyindən aslı olmuyarax harda tapdınız, güllələyin. Ondan sonra bizim camaat ordan çıxıf, bir müddət Azərbaycanda, Kəlbəcərdə qalıf, Söyüdlü deyilən yerdə qərargah təşkil eliyiflər. Dağın bu üzü bizik, o biri tərəfi Kəlbəcərdi. Burda bir müddət qalannan sonra ermənilər yenə də bijdih işdədif. Sulikovlar qarabağlı oluf, Qarabağdan gediflər. Onların adamları gəlif rayona, deyiflər ki, barışığ eliyəjeyik. Amma rayonun bəyi də Səməd ağaynan çox yaxın imiş. O da bilmiyif ki, bunu öldürələr ha. Təzdənnən xəbər göndəriflər ki, gəlsinnər, barışığ eliyək. Səməd ağa da inanıb. Buraya gələnnən sora vəziyyət dəyişif, onların hamısını qırmışdılar. Rayonun alt tərəfində Çaxırrıya dönən yolda – orda dedilər quyu var, mənə də göstəriflər, – nə bilim ölümü, dirimi aparıf orya töküf qırmışdılar. Onnan Səməd ağanı da öldürdülər.

Bunu da deyim ki, Aşığ Ələsgər o vaxtı Kəlbəcərdə oluf, Seyidlərdə. Piyada gəlib, nətər gəlif gej gəlif. – Nə var, nə yox? Deyiflər ki, barışığa getdilər. Deyir, əlini dizinə vurdu, dedi, pahoo, mən gejikdim. Səməd ağanın başında bir qara bulut vardı, o niyə getdi? (S.17)

**210.**

Bizim kənd ağalıx kəndi olub. 1813-cü ildə Vəli ağa addı bir nəfər Qazax rayonunun Dağ Kəsəmən kəndinnən – bilirsiz ki, Göyçə gölü hamısı Qazax qurberniyasına baxıf, – orya yaylağa gəlirmiş. Sora o müraciyət eliyif çara ki, mənim varım-dövlətim çoxdu, o əraziləri mənə bağışdıyasınız. Elə də çar onun ərizəsinə baxır və Kəvər qubernatoruna ərizə ilə müraciyət eliyir, Səməd ağanın babası Vəli ağa gəlir bizim kənddə məskunnaşır. Onnar dörd qardaş olur. Vəli ağa bizdə məskunnaşır, Qulu ağa Böyüh Məzrədə, Böyüh ağa Çaxırrı kəndində məskunnaşır, Hüseynqulu ağa da Nərimannı kəndi varıydı, orda məskunnaşıf. Bizim kənd çox böyük təsərrüfatıydı, 1200 hektar əkin sahəmiz var idi. Bura gələndə biz 970 təsərrüfat idik. Kəndin əksəriyyəti adınnan bəlli idi ki, Qazaxdan köçmə idi. Məhlələrin adı: baş adlanırdı Hasansuyu, orta adlanırdı Kəsəmənli, aşağı da adlanırdı Tatlı. Bizim kəntdə bir Alban kilsəsi varıydı.

Bizim kənd qoçax kənd oluf. 1918-ci ildə Sülikov adında bir palkovnikin başını bizim kəntdə kəsiblər. Deməh, Kəvərdə, Bala Məzrədi, Şişqayada camaatı doldurublar komalara, yandırıflar. Qurbernator deyif ki, Zod elə belə kənd deyil ha, o millət çox cəngavər millətdi. Deyir, onnarı elə eliyəjəm, diz çöhdürəjəm. Elə də gəlib 60 nəfərnən Səməd ağanın evinə. Deyir ki, bu qədər nalok verməlisiz, ot, taxıl. Məşədi Məcoy addı bir ağsakqal kişi olur. Bu deyir ki, ağa, yaz ağzıdı, camaat bu qədər otu, taxılı hardan alsın? Deyir, bilmirəm, daşı daş üsdə qoymuyajam əgər mən dediyimi yerinə yetirməsəz, hamınızı əsir götürəjəm. Qaraimanda Məşədi İsə addı bir qlava olub, çox cəngavər adam olub, sonra Aşıx Ələsgərin oğlu Bəşir oluf,

sərrast atan. Bunnarı məlumatlandırıblar, gəliflər. Səməd ağanın qardaşı Yunus bəy oluf. Qavaxca atışma oluf, Yunus bəyi yaralıyıllar. Məşədi İsə deyir ki, – Yunus bəy, deyəsən, rəhmətə gedif, – Səməd ağaynan danışmışam, siz dövlət adamısınız, sizə toxunmağ olmaz, beyjə qalın, sabax dediyiniz vergilərin bir qismini yığıb sizi yola salajayıx. Məşədi İsə də camaata deyifmiş ki, – o əraziyi mən yaxşı tanıyıram. Ərazi daşdan hasarlanmış yer oluf, ağalıx evinin böyrü – mən qamçını əlimdən salajam, əyiləndə, – orda Kor Hümbət oluf, çox dəhşətdi atan oluf, bular da artıx hər şeyi hazırlıyıfmış, – siz Sülikovu vurmalısız. Məşədi İsə çıxanda Sülikov deyir, sən Məşədi İsə yox, Məşədi Lisasan, qabağıma düş! Onatılan da arxasında. Bu elə də eliyir. Zabora çatanda qamçını əlindən salır, əyilməyinən hopbanmağı bir olur. Sülikov onatılannan atır, üş dənə güllə papaxdan keçir, başına dəymir. Elə olur Kor Hümbət onun (Sülikovun – tərt.) başınnan vurur. Nəysə, onun başını kəsillər, baş danışırmış, deyir. Çox nəhəng adam oluf. Sülikov vurulanda onatılan böyrünə düşüfmüş. Hələ ölmüyübmüş də. Meci addı bir dənə kişi isdiyif ki onatılanı götürə, Sülikovun böyründə balaca tapanca olur, çıxardıf onu vurmuşdu. Yəni onnarın altmışın da məhv eliyillər. Nərimannı kəndiynən bizim aramızda Nəzik qovu deyirdilər, oların meyidin hamısın töküllər ora.

Səməd ağanın ölümü necə oldu? Danışım mən onu sizə. 1918-ci ildə, aydın məsələdi, çar ordusu buların tərəfdarıydı, buların topu, tüfəngi. Şişqayanı, Bala Məzrəni, dib kəndlərin hamısını qıra-qıra gələndə, bir dənə Sərkis addı ağa oluf, varrı adam oluf, Səməd ağanın dostu oluf. İsmarış göndərif ki, Səməd ağa, qoşun gəlir, kəntdən çıxın. Səməd

ağa kəntdən çıxır, camaat da çıxır. Səməd ağa İstibulaxda məskunnaşır, Aşıx Ələsgər Qannı kəndində məskunnaşır. Qannı kəntdə iki tayfa olur. Dəyirmanda dən üyüdə bilmillər. Aşıx Ələsgər hörmətdi adam olur, onu orya göndərillər ki, sən orda dur, qoy camaat barışsın, gəlsin dənnərini üyütsünnər. Aradan bir il keçənnən sora Sərkis ağa işmarış göndərir ki, Səməd ağa, gəlin barışax, qayıdın da. Sən demə, bunun hamısı tələymiş. Qarabağdan bir dənə palkovnik gəlib o daşnaklardan, deyif ki, Sülikovun qanı gərək Səməd ağadan alına, mütləq Səməd ağa ölməlidi. Eləcə də Səməd ağa bir neçə hörmətdi adamnan bərabər barışığa gedir. Aşıx Ələsgərin oğlu da orda olur, amma o getmir. Gedir dədəsinə deyir ki, Səməd ağa səkgiz nəfərnən barışığa getdi. Deyir, ayə, onu ala çəkiflər[66]. Gedin onu qaytarın. Bəşir gəlir, Hasansuyu deyilən tərəfə gələndə baxır ki, artıx Səməd ağanın dəstəsi rayona çataçatdı, mümkün döyül, dalınnan gedə bilmir. Səməd ağa içəri daxil olanda baxır ki, Sərkis ağa yoxdu. Amma arvadı bunun yanınnan keçəndə deyir ki, nahax gəldin, ağa. Baxır ki, evdə yeməh, işməh, ermənilər yeyillər, içillər. Gəlif deyir ki Səməd ağaya, Sülikovun başını niyə kəsdirdin? Deyir ki, o çox qannar töhmüşdü, çox başdar kəsmişdi, onun başı kəsilməliydi. Deyir, onda bir çölə bax. Baxır, bunnan gələnnərin hamısın başın kəsiflər. Səməd ağaya bircə dənə şillə vurur, bir şilləynən ürəyi partdıyıf ölür.

Tapdıx Əmiraslanov danışırdı ki, – Allah rəhmət eləsin, – 54-cü ildə mən rayonda ikinci katib işdiyəndə Daşkəndnən rayonun arasında qırmalıx daş var idi. Qırx-

[66] ala çəkmək – hiylə işlətmək, aldatmaq

bulaxdan bir qoja erməni gəldi maa dedi ki, yoldaş Əmir-aslanov, Səməd ağanın dəsdəsin bax burda quyular vardı, ora doldurdular, üsdün daşdadılar. Doğrudan da, ekskvator oranı sürüyəndə ordan insan meyitdəri çıxdı və oranı mən basdırdım.

– Aşıq Nəcəfi də orada öldürüblər?

– Kamoda bir dənə türmə olub, Aşıq Nəcəfi aparıb salıflar ora. O qədər gözəl oxuyurmuş ki, türmə rəisinin arvadı ərinə deyir ki, yadındadımı, mənnən evlənəndə demişdin sənin nə arzun varsa, hamısını yerinə yetirəjəm. Deyir, mən indi də hazıram. Deyir, o oxuyan türkü görürsənmi? – Nəcəf də çox yaraşıxlı, şəxsiyətdi bir oğul oluf. – O yazıx döyülmü, deyirsiz iki günnən sora ölməlidi. Tapancanı çıxardan kimi arvadını vurur. Deyir, mən elə bilirdim ki, mənim həyat yoldaşım təmiz erməni qanınnandı. Deməh, sənin qanın qarışıxdı. Arvadını tapancaynan vurur. Aşıx Nəcəfin belinə samavar bağlıyıllar, zülümnən onu elə öldürüllər (S.15).

### 211.

Səməd ağa deyif ki, erməni məni çağırır. Zoddu yığılıf ki, öyün yıxılsın, getmə. Erməni quduruf, səni öldürəjək. Deyir ki, erməni mənim çörək təhnəmdi, gedəjəm. Mirzə Əsgər də ölüf, atamgil yetim qalıf. Səməd ağa Pəri nənəmə deyif ki, mən irayona gedirəm. Bir gəvə qoy, aparım verim, bu yetimlərinə yardım yazdırım. Nənəm də bir gəvə verir. Mənim atam da iri imiş, bunu da ata mindirir, gəvəynən gedillər Basarkeçərə. – Atam bunun hamısın maa danışıf. – Getdik, deyir, ermənininin qudurmuş vaxdıdı, Səməd ağayı saldılar içəri. Atam, deyir, mən qaldım eşikdə. Deyir, bir

ermәni gәldi dedi, ә, sәn Mirzә Әsgәrin oğlu döyülsәn ki? Dedim, hә, oyam. Deyәndә dedi, qaç, indicә Sәmәd ağayı öldürәcәklәr, sәni dә onun yanında. Gejә saat dörtdә atam piyada gәlir Zoda. Dәdәmi aparıllar ki, bәs Sәmәd ağa nejoldu? Deyir, mәn eşikdә qaldım, Sәmәd ağayı saldılar içәri. Bircә şillәynәn öldürmüşdülәr.

Mәşәdi İsә addı qaraimannı sovet sәdri var imiş. Selikov gәlir. Mәnim dәdәmin әmisi Cavoy varrı imiş. Deyif, xarcı hazırrıyıfsanmı? Deyәndә deyir ki, nә xarc? Deyәndә qalxır Cavoy әmimә bir şillә vurur Selikov. Vuranda burda balaca dalaşdarı olur, bular başının dәsdәsin çәkir gedir. Gedәndә Mәşәdi İsә deyir ki, gör ermәni bizi nәtәr çığnadı ki, gәldi öz idaramızda Cavoyu vurdu. İndi mәn onnarı alladıf gәtirәjәm. Çıxıf eşikdә Selikova deyir, filan gün qonağım olun. Kәnarda da, atam deyir, idara var böyük. Savah, deyir, Mәşәdi İsә heyvanı kәsdirdi, qonaxlığ eliyir. Selikov gәldi, deyir. İçәri dolanda zoddunun hamısın hazırrıyıflar. Hasar var, dәdәm deyir, hamısı hasarın arxasına yığılır. Mәşәdi İsә deyir, mәn baldonumu paçamın arasına yığıf hasardan hopbananda ataşı açın. Selikov idaradan eşiyә çıxanda zoddu güllәyә qoyma deyir. Selikov yıxılanda, atam deyir, Meci var idi bizim kәnddә, yürür ki, silahını belinnәn ala. Sәn demә, bu, ölmüyüfmüş, hәrriyif Meciyi vurur. Ana deyәn kim, mama deyәn kim, qırılan kim, qalan kim. Belә qırıflar. Sonra anası da gәldi, bajısı da gәldi. Dedi, Selikovun ayrı şeyini istәmirik, başını verin bizә. Başını zoddu çәkdi, altı kilo gәldi. Deyirdim, ata, altı kilo da baş olarmı? Deyir, bu yekәlikdә idi. Selikovun başını da atmışdılar Böyük Arğalığ deyirdik ora, orda itdәr yedi.

Atam deyir, üş dəfə qaşqınnığa düşmüşük. Deyir, elə yandırmışdar Zodu. Gejə buları qıranda ermənin biri qaçır Muxdar kişinin öyünə. Deyir, məni ölümdən xilas elə. Əhlimanın babası Muxdar kişi bu ermənini aparır uzaxdan ötürür. Sonra Zodu yandırmağa gələndə həmin erməni qoymuyuf onun öyünü yandıralar. Yazıf ki, Muxdar kişi, sən məni ölümdən xilas elədin, mən də sənin öyünü. Difara yazıbmış. Atam deyir, öyləri elə yandırmışlar ki, bircə difarlar qalmışdı. Kəntdə bir öy salamat döyüldü (S.32).

**212.**

Silikov başının dəsdəsiynən gəlif camaatdan vergi yığırmış. Orda yüzbaşı olub, Məşədi Məcoy. Buna deyiblər ki, bizə vergi ver. Deyib ki, yaxşı. Aradan bir həftə keçib, bunlar yığmıyıb. Bunlar Xan ağanın evində imiş, 40 nəfər imiş. Silikovun qardaşı Məşədi Məcoya bir şillə vurur. Deyir, niyə yığıb vermədin? Deyir, ə, camaat kasıbdı, camaatın nəyi var, mən yığam verəm? Məşədi Məcoy çıxıb deyir, qırıl, a zoddu, qırıl, ə. Erməni gəlib kəndin içində sənin ağsakqalını vurur. Camaat tökülür. Töküləndə onlar qaçır dolur Xan ağanın evinə. Məşədi İsə çox iyid adam oluf, Allah ona rəhmət eləsin. Onlar deyib ki, Məşədi İsə gəlib bizim təhlükəsizliyimizi təmin eləsə, biz burdan çıxarıx. Məşədi İsə gəlib deyib ki, onları çıxardacam. Filan yerdə hasar var, ordan keçəndə əyilib əlimi atajam məstə, tifarın dalına atılajam, onda oların hamısın qırarsınız.

Gəlif danışanda Silikovun qardaşı deyif ki, bu Məşədi İsə döyül, Məşədi lisadı. Düşür bunların qabağına, Xırda oğlu Əli var idi, onların hasarına çatanda tullanıb o tərəfə keçəndə Silikov arxadan nətər atırsa, güllə başını sıyırıf,

papağı götürüb gedir. Sıyırıb gedəndə – Ağayar danışırdı, mən demirəm – Silikovu vuruflar. Deyiflər ki, guya Silikovun onatılanının qundağı qızıldan idi. Bizim Qaraqoyunnu kəndinnən Məmmədtağı yetirif ki onatılanı götürə, bu da, sən demə, ölmüyübmüş, bunu vurub. Daşkəndli Hajı Qasım deyif, ay ağılsız müsurman, qoy bunu öldürək, ondan sonra götürün da. Özüzü niyə qırdırırsız? Hajı Qasım onu güllənin qabağına verib, öldürənnən sonra başını kəsib götürüb. Bu səfər buların yeddisi qaçıb. Yeddisi qaçanda Kor Hümmət gedib bunların dalınca, Nərimannının altında Göy körpüdə yedisin də öldürüf. Dəli Bayram var imiş, biri qaçıb onun evinə girif. Dəli Bayram onu demiyib, gizdədif, gejə də buraxıf, qaçıb gedif. 39-un öldürüflər. Silikovun başı, deyir, bəlkə də yarım saatdan çox arpa-buğda deyirdi, ölmürdü.

Aradan bir müddət keçənnən sora Səmənd ağa deyif ki, ermənilərnən barışığ eliyək. Hajı Qasım, Aşıq Ələsgər, Məşədi İsə deyif ki, ağa, o barışıxdan qan iysi gəlir. Otuz dokquz adam öldürmüşük, barışığ olmaz. Nəkqədər bular deyif, Səmənd ağa buları eşitmiyif. Gedif Basarkeçər rayonuna. İsəcan ağa, Hamazasp, Hayqaz – bularnan danışıf ki, barışıx eliyələr. Nəysə, yığılıf gediflər Basarkeçərə. Deyiflər, danışığı harda eliyək? – Şişqayada Tanrıverdinin evində. Bular hamısı yığılıf gedif, Aşıq Nəcəfi də gətiriflər ki, barışığı orda eliyək. Tanrıverdinin evi balaca oluf, qonşuda böyük ev damı varmış, ora yığılıf eliyəndə ermənilər pusquda durufbuş. Yüyürüf buları mühasirəyə alıflar. Tanrıverdinin bir dosdu varmış, erməni onbaşı. Bu onbaşı Tanrıverdinin arvadı Mələyə deyif ki, Mələk bacı, Tanrıverdigili öldürəcəklər, gəl mən səni alım, qoymuyum sənin uşaxlarını öldürələr. Biz orda təndir üsdə dəmir qoyurdux,

ona həsirgah deyirdik. Həsirgahnan nətər vurufsa, erməni yerində qalıf. Qapını kilitdiyir. Bajadan oğlannarını da çıxarıf dağlarnan qaçıf Tərtərin Qara Cəmilli kəndinə. Orda Məmmədqulu oluf. Məmmədqulu bij adam oluf, bajadan çıxıf qaçıf. Səmənd ağaynan bərabər on yeddi nəfəri gətiriflər Basarkeçər rayonuna, İsəcan ağanın qapısına, qalanın orda yandırıflar.

Daşkəsəndə Asim paşa var imiş, onun yaxşı ilxısı var imiş. Səmənd ağa bir gün əmisi oğlu Mahmud ağaya deyif ki, gedək onun ilxısını yığax gətirək. Elə də gedif ilxını yığıf gətirəndə güllələşmə oluf, orda Mahmud ağa ölüf, Asim paşanı da Səmənd ağanın adamları öldürüf. Basarkeçərdəki erməni ordusunun başçısı Asim paşanın bajısı oğluymuş. Deyiflər ki, Səmənd ağa barışığa gəlif. – Hansı Səmənd ağa? Deyiflər, zoddu. Deyif, ə, o mənim dayım Asim paşanı öldürən Səmənd ağadı? Onatılanı çıxardıf ki, bunu vura, İsəcan ağa qoymuyuf. Su quyusu varmış. İsəcan ağaynan Səmənd ağa su quyusunun yanında söhbət eliyirmiş. Oocuna daş alıf gəlif qulağın divinnən nətər daşnan vurufsa, Səmən ağa düşüf quyuya ölüf. Deyiflər, Səmənd ağa öldü, barışığ olmaz. Buların hamısını öldürüflər, bircə Hajı Rəhimi buraxıflar. Aşıx Nəcəfi də kəmərdən yuxarı soyunduruf qaynar samavarı dalına şəlliyiflər. Həmən afisserin (Asim paşanın bajısı oğlunun – tərt.) arvadı Nəcəfi görəndə – Nəcəf də o qədər boylu-buxunnu, gözəl oğlan oluf ku, deyir, buxara papağını qoyuf gələndə elə bilirdin yaranel gəlir. – görəndə deyif, ə, belə oğlu da öldürmək olarmı? Arvadını gülləliyif ki, türkə gözün düşdü, yazığın gəldi? Nəcəf baxır ki, artıq Hajı Rəhim çıxıf gedir, ölüm ayağıdı. Orda deyir ki:

Hajı Rəhim, Aşıq Əsədə denən,
Mənim də qaydıma qalsın, ağlasın.
Ali məclislərdə toy yığılanda
Hərdən de yadına salsın, ağlasın

Fələk bəd gətirdi bahar yazımı,
Eşidən ağlasın xoş avazımı.
Sinəsi sədəfli telli sazımı,
Qiyasa[67] deginən çalsın, ağlasın.

Özüm yaxındayam, könlüm uzaxda,
Mənim də taleyim düşdü bəd vaxta.
Gəncədə, Şamxorda, Tovuz, Qazaxda,
Aşıxlar xəyala dalsın, ağlasın.

Köhlən at belində gəzdiyim dağlar,
Dumana, çiskinə dözdüyüm dağlar.
Nəcəf əməlimi üzdüyüm dağlar,
Çəmənləri viran qalsın, ağlasın (S.25).

**213.**

Bir gün İrəvannan gəlirəm avtobusnan, bir kadın da oturuf böyrümdə. İrəvannan gələndə Kəvərnən Sevan arasında bir yeməkxana var idi. Getdim orya, yemək yedim, kanfet var idi, bu kanfetdən götdüm gəldim. Buna da kanfet təklif edəndə ermənicə dedim, xala, kanfet götür. Dedi, qadan alım, sən azərbaycannısan? Dedim, hə. Sən də azərbaycannısan? Dedi, hə. – Anam, məni bağışda, mən bilmədim axı sən azərbaycannısan. Nəysə, otdux. – Hardansan? Dedi,

[67] Aşıq Nəcəfin şəyirdidir.

Daşkənddənəm. – Adın nədi? Dedi, Xanım. – Hardan gəlirsən? Dedi, demə, oğul, mənim başıma çox bəlalar gəlif. Dedim, niyə? Dedi, on səkgizinci ildə ki ermənilər gəldi, qan su yerinə axdı, azərbaycannıları çox qırdılar. Məni, mənnən başqa da bir göyçək azərbaycannı qadını erməni afiserrəri aldı. İxdiyar əlimdə döyül, bir şey eləsəm, başıma bir güllə vurajaxdı. Mən kiməm? Sovet hökuməti quruldu, ermənidən mənim iki qızım oldu, bir dənə də oğlum. Bir gün, deyir, bazara çıxmışdım, gördüm azərbaycanca danışıx səsi gəlir. İnanmadım. Çünki ərim deyirdi ki, türklərin kökün kəsmişik. – Ermənilər bizə azərbaycannı demirdi, türk deyirdilər. – Nəysə, inanmadım. Qulağımı şəklədim, gördüm, yox ey, azərbaycanca danışıllar. Dedim, qardaş, azərbaycannısan? Dedi, hə. Dedim, bəs belə deyillər. Dedi, anam, yalan deyillər, biz azərbaycannıyıx. Otdum, deyir, elə bildim İrəvan şəhəri başıma hərrəndi. Getdim kənd sovetinə ərizə verdim ki, mən boşanıram. Yığıldılar ki, əşi, o vaxdar gedib, artıx barışığ oluf, gediş-gəliş var. Dedim, yox. Daha bulara ayrı söz deyəmmirəm qorxumnan. Dedim, mən boşanmax isdiyirəm. Boşandım, oğlum dədəsiynən qaldı, qızdarım mənnən gəldi. Çimdim, getdim Mirabbas ağanın məscidinə. Dedim, ey məscid, məni bağışda, günahımnan keç, zəlalət ayağında olmuşam, ixdiyar əlimdə olmuyuf. Dirimiz olmuyuf, gavıra satılmışam. Məni bağışda. Uluxannıda azərbaycannıya ərə etdim. Əli addı bir oğlu olmuşdu. Dedim, oğul, arzu eləmişəm ki, öləndə kaş Göyçə torpağında ölüm, mən Göyçə torpağına qismət oluzm. Həmən qadının oğlu Əli gəldi oruya. Bizim kəntdə Aşıq Cahad vardı, onun qardaşı Aşıq Hilalın qızını aldı, arvad da gəldi bizim kəndimizdə dünyasın dəyişdi, bizim qəvirsannığa basdırdılar (S.25).

## 214-217. 1988-1991-Cİ İLLƏR DEPORTASİYASI

Mən özüm orda məəllim işdiyirdim. Orda həmkarların sədri var idi, Böyük Məzrədən idi. Həmkarların sədri olduğuna görə münasibətimiz var idi. Bir gün maa dedi ki, – amma vəziyyət çox kəskinnəşmişdi, – Hakverdi məəllim, maşınnan məni apar kəndə qoy, saa bir-iki kəlmə sözüm var. Dedim, buyur. Getdik, alayın-şalayın bir kismət çörəh də yedih. Obşim, mənə dedi ki, məəllim, rayona çox gedif gəlmə. Artıx rayon azğınnaşıf, sakqallılar rayonu götürüf. Məəllim adamsan, döyərlər, söyərlər, bihörmət eliyəllər. Dost kimi çörəh kəsirih, vaxt ikən, hələ bu hak-hesab qarışmamış çıx get. Mən də gəldim evə. Sünnət şənniyi var idi. Dedilər, dəvətnamən var, dəvətlisən. Getdim. Orda ağzımnan qaçırtdım ki, mən evi satıram. Hətta evimə pul da gətirən oldu. Atam dedi ki, sən bunu qonşuya satajaxsan, qonşu da sabah çıxıf gedəjəh, o da yazıx olajax. Birinci xəbərdarrığı mən ordan aldım.

Niyə bizə dəymirdilər hələ ki? Çünki tütün plantasiyası var idi bizim kənddə. Tütün plantasiyasında işdəmişdik, tütünü hazırrığa hələ verməmişdik. Orda demişdilər, tütünü təhvil verin, tapşırıx belədi. Tütünü apardıx məntəqədə dəyər-dəyməzinə təhvil verdik. İkinci sortu üç yazdılar, üçü dörd yazdılar. O qədər cana yığılmışdıx ki, çıxax gedək. Bir gün də ayın axırı idi. Kalxoz sədri camaatı yığdı başına. Dedi, ay camaat, birinci katibin tapşırığıdı, nəyiniz var yığışdırın. Tapşırıx verdi ki, rayona gəlməyin. Hər evə də iyirmi litir benzin verin, qoy köçünü uzaxlaşdırsın. Bizə də yaxın rayon Kəlbəcər idi. Kəlbəcərnən bizim aramız otuz beş kilometir idi. Qaraqoyunnu Kəlbəcərə yaxın idi,

mən apardım uşaxlarımı bir gejəliyinə bu kəndə qoydum. Savahısı bir kanisser benzinimi aldım, maşın tutdum, apardım uşaxları Kəlbəcərə. Tökdüm Kəlbəcərə, qayıtdım gəldim. Axı evimiz var, eşiyimiz var. Bir gün baxdm ki, İsmayıllı ermənilər tölküldü bizim kəndə. İsmayıllının Qalagah, Sultan kəndin erməniləri. Daa sorğu-sual yoxdu. Qapı bağlıdırsa, dəmirnən açırdılar, veşdərini tökürdülər. Tapşırıx belə idi, hansı ev xoşunuza gəlir, açın, veşinizi yığın. Bir gün Kəlbəcərdən gəldim ki, bizim qapını qırıflar, hamilə qadındı, bir dənə də cavan oğlandı, giriflər evə. – Siz kimsiniz? Dedilər, bəs sən kimsən? Ev bizimdi. Elə həmin günnən məni evə qoymadılar, evə yiyələndilər. Sora bir nəfər gəldi. O müvəqqəti olarax oranın sədri idi, sovet sədri kimi bir şey idi. Mana dedilər ki, bunnan müqavilə bağlayırsan, bağla. Mən də bunun evin görməmişəm. Bu da ayağın diriyif ki, bu nə evdi ki, mən bunnan müqavilə bağlıyım. Mən təkcə evimin himinə, allahımız hakqı, neçə ton sement işdətmişdim. Qazdıxca görürdüm küllühdü, yumuşaxdı, məjbur idim qazım bərkə çıxana qədər. Xülasə, bir müqavilə yazdıx, amma kənd sovetinin peçatı olan müqavilə də heş zaddır. Onu natarius təsdiq eləmir. Bunu qoydum civimə, eləmədim tənbəllik, getdim İsmayıllıya. Ləzgilərnən ermənilər bir yaşıyırdı o kənddə. Sədrin şoferinə dedim, filankəsin evi hansıdı? Güldü. Dedi ki, onun evi var? Kimin mal-qoyun sırası idi, onu göndərirdilər, beşdən-üşdən də verirdilər. Onun evimi var? Apardı, Allaha and oslun, it damına oxşar bir dam görkəzdi. Başımı tutdum burda nətər ağladım. Başımı yola-yola getdim İsmayıllıya. Birinci dəfə idi İsmayıllıya gedirdim. Birinci katib məni qarşıladı. – A bala, noluf? Dedim, belə-belə. Gəldilər bizim

evə zornan girdilər, müqavileyi də görkəzdim. Bunun da evi yoxdu. Nətər dolmuşamsa, ağlaya-ağlaya deyirəm, sözümün çoxun heç buna çatdıra bilmirəm. Sora bu dedi ki, kamsamolda Ələkbərov adında bir katib var Bakıda, onnan bir general gələjəh sabah. Sabah gəl, biz səni qəbul eliyəjeyih. Uzun sözün kəsəsi, bu general maa dedi, mən burdan gedəjəm Yerevana, orda deyəjəm o kimsə çıxsın, onun evi yoxdu. Huşum gətirmədi ki, burda kimin evi yaxşıdırsa, onu gözaltı elə da. Bu generalın təşkilatçılığınan getdim Qazağa, vayenni avtobusa mindim, getdim Basarkeçərə. Getdim ki, o dığanı çıxardıflar, bu dəfə ayrı birisi gəlif girif. Yenə belə bir müqavilə onunnan bağladıx, həmin peçatnan o evi mənə verdilər. Çiy kərpişdən tikilmiş ev idi. Bir müddət orda qaldım. Atam 41-45-də qolunnan yaralanmışdı, həmin yaranın yerinə pərdə gəlmişdi, ət yox idi. Bu kişinin yarası sulanmağa başladı. Apardıx həkimə, həkim dedi ki, qardaş, burda radiasiya var, radiasiya ilə əlaqədar bu yara sağalmır. Bu kişini aparın öz iqliminizə uyğun yerdə yaşıyın. Mən də atamı götdüm, gəldim Göygöldə işə düzəldim, nağd pulnan bu evi ermənidən aldım, burda məskunnaşdım (S.7).

**215.**

Bizi onlar çox çətin vəziyyətdə çıxartdılar. Çətin belə oldu ki, gözlədilər, qışa dönəndə camaatı qorxuya saldılar. Bizim heş bir şeydən xəbərimiz yox, hərə öz işində, öz güjündə. Günnən-günə vəziyyət çətinləşdi, yolları bağladılar, rayonun kəndləri də mərkəzi yollarnan bir-biriynən əlaqəlidi. Mərkəzdən kəndlərin yollarını bağladılar, uzernən[68]

---

[68] uzer – səsgücləndirici

danışırlar. Hay-küy düşdü ki, sakqallı ermənilərdi, gəlib-lər, o vaxtkı kimi Göyçöyü qırajaxlar. Camaat da əl-ayağa düşdü ki, nağayrax, neyniyək? Camaat özünümüdafiyə dəstəsi yaratdı. Bizdə nə vardı ki? Onlar səsucaldıcı ilə öz kəndlərinin sərhədində durullar, yüksək səslə danışıllar, bizə hədə-qorxu gəlillər. Bizim kənddə yığışdı cavannar, ağsakqallar, əli yava tutan, bel tutan, dırmıx tutan, şiş tutan. Bizim də silahımız o oldu. Kəndi müdafiyə üçün gejələr post qurdux. Bir müddət belə keçənnən sonra səs-sorax çıxdı ki, rayona sovet əsgərləri gəlif. Bu qıy-küydə rayona gedənnəri döydülər, təhlədilər, əlində olan veşi alıb dağıtdılar. Kəntdərin hamısı bir-biriynən culaxlıdı da, bir-birini tanıyırdılar. Eşidirdik ki, filan kənddə filankəsi döyüflər, filankəsin veşini alıflar. Ölüm eləmirlər, amma döyürdülər. Bu minvalnan xəbər gəldi ki, rayona əsgərlər gətiriflər. Sevindik, dedik, Allah, sana şükür, nə yaxşı gəldi, da sakitçilik yaranar. Sovet qanunu ilə işdiyən ağsakqallar da təbliğat aparıllar ki, qorxmayın, sovet hökuməti dağıl-mıyıf. Əsgər də gəldi, tədbir görüləjəh, panikaya düşməyin. Bir də baxdıx, daşnaklar genə qıyını-küyünü kəsmir. Ulti-matum verillər, rayonun tanınan adamlarının adını çəkillər, bunları öldürəjeyik, bunlar tez çıxsın rayondan. Camaat da gejə ehtiyatını buraxmır. Həmən o dediyim əl ağacınnan, yabaynan, belnən qaroul çəkirik. Rus əsgərlərinin də gəldiyi bir həftə olar. Bir də baxdıx Böyük Məzrə tərəfdən – Böyük Məzrə Basarkeçərə yaxın idi, sonra bizim kənd idi, aramız dörd kilometir idi. Böyük Məzrədə həm azər-baycannılardı, həm ermənilərdi. Həmin Böyük Məzrənin körpüsündə lapeti əyliyib üsdündə uzer quruflar, ultima-tumu ordan verillər. – bir Qaz-66 gəlir. Biz də ağacnan

yolu bağlamışıx. Rus afiseri idi. Rusca dedi ki, yolu açın. Niyə bağlıyıfsınız? Rusca bilənnər dedilər ki, siz bilmirsinizmi? Bə niyə gəlifsiniz? Erməni bizi qırır. Dedi, yox, siz erməniyi qırırsınız. – Nətər biz erməniyi qırırıx? İçi də dolu əsgərdi. Bizə təkid eliyir ki, şlanqbaumu açın. Biz də deyirik, yox, aşmıyajıyıx. Düşdü aşağı. Dedik ki, siz niyə gəlifsiniz? Bizi qorumağa əlifsiniz, yoxsa erməniyə qoşuluf bizi qırmağa əlifsiniz? Dedi, tapşırıx belədi bizə. Azərbaycannılar erməniləri qırır, biz erməniləri müdafiyə eləməyə gəlmişik. Soruşdux bəs harıya gedirsiniz maşınnan? Dedi, biz gedirik – qonşu kənddə də erməni kəndi var, Noragerd. O kənd də bizim torpaxda tikilib 26-cı ildə. 18-ci ildə daşnaklar qaçıb gəlib bizim kəndə, 26-cı ildə bizim torpağı veriflər qaçqın ermənilərə, orda kənd salıflar. – o kəndi qorumağa. Təkid elədi, – o vaxt da sovet qanunundan qorxurdux dana, – şlanqbaumu açdıx, bunlar getdi. Ondan sonra baxdıx vəziyyət yenə çətinləşir.

Aradan 1-2 gün keşdi. Qabaxda Kərkibaş kəndi var, dağın o üzündədi, Göyçə elə bil dağın arasındadı. Kərkibaş kəndi o üzdədi, biz də bu üzdə, amma bir-birimizə tuşux. Yaxın məsafə 4-5 kilometirdi. Bir də baxdıx ki, günün günorta çağı onların kəndlərindən alov qalxdı. Bunların tayalarını yandırıflar daşnaklar, ondan sonra camaat hay-haraya, qıya düşdü ki, ay ermənilər gəlir. Bir də xəbər gəldi ki, Şişqayaya gəlib erməni dolub. Şişqaya da Azərbaycan kəndlərinin ortasındadı. Çəmbərək rayonu ilə bizim Basarkeçər rayonunun arası da qırx beş kilometirdi. Həmən Çəmbərək tərəfdən gəlif azərbaycannılar olan kəndləri keçib Şişqayaya doluflar. Milləti qırajaxlar, camaata dağınıxlıx düşdü. Qojaları, qadınları, uşaxları çıxartmaxdan ötrü

dağlara düşdülər. Kəndin camaatında nə qədər ov tüfəngi var idi hamısını yığmışdılar. Camaatdan tələb elədilər ki, tüfənglərinizi gətirin siyahıya aldırın, yoxsa cinayət içi açılajax. O adnan camaatdan ov tüfənglərin yığmışdılar. Kalxozda mülkü müdafiyə dəstəsi var idi. Onların da təlim keçməsi üçün həm məktəbdə, həm kalxozda tüfəng var idi. Onları da yığmışdılar. Yazıx camaatda nə var idi? Qocalar, yaşlılar, uşaxlar dağlara düşdülər ki, Gədəbəyə çatalar. Gədəbəyə də getməkdən ötrü gərək ermənini içindən keçəsən. O vaxt da dağlara qar yağırdı. Diribaşların beş-altısı keçir Gədəbəyə, qalanı da qayıtdı gəldi ki, borana düşüf qırılırdıx. Bununnan da vəziyyət çətinləşdi. Kəlbəcər sağ olsun ki, skoruları göndərdi. Skorular gəldi, arvad-uşağı, əli tutmayanları daşıdılar Kəlbəcərə. Keşmiş sovet rəhbər-liyində qeyrətliləri var idi, Azərbaycanın bütün maşınna-rını göndərdilər Göyçəyə. Nəkqədər Zil, Kamaz, Qaz-53 var idi, onların hamısını Ermənistana göndərdilər. Şoferlər gəlif kənddə durdular, kim qavağına getsə, saxlıyırdı. Camaat lazım olan veşlərin götürdü, qalanı qaldı. Bu ərəfədə ermə-nilər – həmən o daşnaklar, sakqallı deyilənlər, qonşu kəndlərin erməniləri kəndə doldu. Camaat burda veşini yığır, bunlar da camaatın malını-heyvanını daşıyır. – Ə, belə olmaz, tanışsan! – Onsuz da, – deyir, – siz qoyuf gedir-siniz. Tanışı da belə deyir ha. Camaatın malı, toyuğu, heyvanı, inəyi, qoyunu, nəyi var idi, kartofu, kələmi, meyvəsi – hamısı qaldı. Göyçədə də payıza dönəndə o qədər məhsul olurdu, aşıb-daşırdı. Kalxozda camaat işdiyirdi, yanvara çatanda alırdı məhsulunu, o məhsulun hamısı da qaldı. Camaatın bir illik gəliri qaldı ermənilərə, ondan sonra nə qədər veşi-vüşü var, qaldı ermənilərə. Ermənì-

lərin qojaları da gəlif veş aparırdı. Biz əlimiz tutanı maşına yığırdıx, onlar da öz maşınlarına yığırdı. Camaat o vəziyyətnən kənddən çıxdı. Deməк, rayondan maşın çıxırdı, Göyçənin uzax kəndlərindən çıxan maşınnar gəlirdi, inanırsan, düz Gədəbəyə qədər maşınlar qatar kimi arxa-arxaya gəlirdi. Aralarında boş məsafə yox idi. Onun hesabına camaat salamat çıxdı, qırğın olmadı. Dağa-daşa çıxan adamlardan qırğın oldu, amma Azərbaycandan maşınlar gəlməsəydi, çox adam qırılardı.

Ermənilər tarix boyu belə olufdu. Səksən səkgizinci ildə bizim yaşadığımızı atalarımız, babalarımız yaşamışdı. Sovetin qorxusunnan onu da danışmırdı yazıxlar. Sovet hökuməti okqədər azərbaycannıları sıxışdırmışdı ki, ağsaqqallarımız heş zad danışmırdı. Fürsət düşəndə xəlvətdə danışırdılar ki, 18-ci ildə həmən bax indiki kimi... Onunçün qorxuya düşdü də camaat, içində o dövrdə yaşananları bilən var idi. Andranikin dəstəsi gəlməmişdən ermənilərnən azərbaycanlıların gənə münasibəti olufdu. Tanış olanı oluf, dost olanı olufdu. Onlar tanışlarına xəvər göndərif ki, qırajaxlar sizi, çıxın aradan. Onda da camaat elə qırğın görmüyüfmüş dana. İnanan çıxıfdı, inanmayan qalıf kənddə. Kənddən on-on beş adam gedifmiş, qalan kənddə imiş. Aprel ayında Andranikin dəstəsi – o qırğından salamat çıxannar danışırdı, – gəlir günün günorta çağı kəndi mühasirəyə alır. Erməni quldurları süvarı imiş, onların əsgərlərinin əlində beşaçılan var idi. Azərbaycanda da nə var? Ulağı var, öküzü var. Yaz vaxdı olur, camaat da əkin-səpin eliyirmiş. Günün günorta çağı mühasirəyə alıflar. Bizdə də Göyçə gölünün qırağında Bala göl olufdu. O Bala göl sonra quruyuf çəkilif, sıx qamışdıx əmələ gəlmişdi. Meşə kimi

qamışdığ oluf ey. Ordan həmin göy qamışı biçif gətirillərmiş, mal-heyvan yeyirmiş qışda, yayda da orda otarıllarmış. Qışda qamış quruyanda onun qurusunu biçif ojaxda yandırıllarmış. Hər evdə də bir yığın qamış var idi. Bir yığın qamış da bəlkə min qom bağlıyıllarmış, yığıllarmış ehtiyat üçün. O qamışdarı hər evdə tökdülər damın üsdünə, camaatı doldurdular evlərə. Kim ki gəlmirdi, onu vurub yıxırdılar, – diribaş adamlar olufdu dana, ordan sağ çıxannar danışırdı, – daşnan başını əzirdilər. Diri-diri quyuya doldururdular. Qamandir deyirdi ki, güllə atmayım, quyuya tökün, üsdünnən də daş doldurun. Məşədi Hajıların quyusu oluf, orya dolduruflar, Rusdam kişinin qardaşı Ağa Rzanın, Ağa Mirzənin quyularına dolduruf öldürüflər. Öldürdüklərin öldürüflər, əldən-ayaxdan düşənləri, yaşlıları da dolduruflar evlərə. O qamışdarı yığıflar evin dörd tərəfinə, axşam düşəndə od vuflar. Həmi ev yanıf, həmi qamışın tüsdüsü, alovu camaatı qırıf. Bizim kənddən biri o qırğınnan qaşmışdı, 22-ci ildə sağ qalan adamlarnan qayıdıf gəlmişdi kəndimizə. O danışırdı. O vaxdı ev damları oluf da bizdə, ev damlarında divarda buxarı olurdu, onun da tüstü çıxması üçün bajası olurdu. Orda yanan odunun, qamışın xısı o bajadan çıxırdı. Həmən o dediyim adam baxır ki, dama od vuruflar – bu da 18-19 yaşında cavan adam imiş, – özü danışırdı ki, buxarının bajasınnan dama çıxdım, gördüm hər yer qatı duman, tüsdü, bir də elə bil ki Ay doğuf. Bajanın başına çatanda gördüm ermənilərin başı qarışıf, nəsə danışıllar. Qarannıx çökəndə bajadan düşdüm, deyir, qaşdım. Ermənilər bildi, öz dillərində nə dedilərsə, baxdım üş nəfər atdı mənim dalımca çapır. Mən də dumanın altınnan qaçıram. Baxdım üç nəfər atı mindi, mən tərəfə çapanda

– orda da taxılları sulamax üçün arxlar olur – özümü arxa verdim. Bunlar elə bildi mən Böyük Məzrə tərəfə keşdim, atı sürdülər Böyük Məzrə tərəfə. Bunlar uzaxlaşanda həmin arxnan qanala tərəf qaşdım. Duman, xıs bütün dünyuyu tutuf. Qanala çatandan sonra Kəsəmənnən Qaraimanın arasındakı dağlara tərəf qaşdım. Dağa çatanda çönüb dala baxdım, görüm, kənddə nə var. İnanırsanmı, deyir, kəndnən də dağın arası üç-dörd kilometir olar dana. O üş kilometirdən o camaatın qıyını, ahu-naləsini orda da eşitdim. Fikirrəşdim ki, daha durmax vaxdı döylü, dağlarnan qaşdım Daşkəsənə tərəf. İki sutkaya Daşkəsənə çatdım. – Onda Dəstəfur adlanırdı. – Dəstəfura çatandan sonra bir müddət Azərbaycanda girələndim. 22-ci ildə dedilər ki, Şura hökuməti quruluf, camaat qayıdır geri. Sağ qalan camaat Azərbaycana ki gedif sığınıfdı, dəsdələşdik, gəldik kəndə. Gəldik ki, kənddə bir dənə daş daş üsdə deyil, hamısın yandırıflar, dağıdıflar. Təzdənnən tikiflər, quruflar, yaşıyıflar. 22-ci ildə 350 nəfər oluflar, amma qırğınnan qabağ 1731 nəfər idi. İndi gör nə qədər itki oluf, nə qədər qırılıfsa, 350 nəfər geri qayıdıf (S.37).

**216.**

Ermənin ən qarışıx kənd idik biz. Əvvəllər hiss olunmurdu, istər Böyük Məzrədə, istər Çaxırrıda. Bu iki kəndin ikisində Livan, Suriya erməniləri məskunnaşmışdı. On səkgizdə gələnnər idi. On səkkizinci ildə Andranikin qoşunnarı ki bizim rayona hücum eliyif, onda bizim kənd çıxıf. Pərakəndə halda hərə bir rayona düşüf, mənim babamgil də indiki Samux rayonunun, o vaxtı Qasım İsmayılov addanırdı, Bağçakür, bir də Bağmannar kəndində yerrə-

şiflər ta ki iyirmi beş-iyirmi altıncı illərə qədər. Sonra babamgil ordan qayıdıf. Nənəm deyif, mən burda yaşıya bilmirəm, havası bizə uyğun döyül, nəsə qayıdıflar geri. Geri qayıdanda görüflər ki, Türkiyə ermənilərinən Livan erməniləri gəlif bizim evləri tutuflar. Onda kəndin rəhbərləri babama deyiflər ki, biz bunnara şərait yaradana qədər bir tərəfdə özünüz yerrəşin. Day çıxartmıyın evdən, harda qalajaxlar? Bizim kəndin ortasından Məzrə çayı axırdı, o çayın sağ sahilində evlər yoxuydu. Sağ sahilini həmin ermənilərə veriflər o vaxtı. Onlar üçün torpağ veriflər, evlər tikiflər, onlar yerrəşiflər orda. Çayın sol sahilində azərbaycannılar idi, sağ sahilində də erməniləri yerrəşdirmişdilər.

Bir yerdə yaşadıx ta ki, səhv eləmirəmsə, altımış üç, ya altmış dördüncü illərdə yenidən bir qarışıxlıx yaranıf Xuruşovun devrində. Qarışıxlıx yarananda Maskvadan Ermənistan Mərkəzi Komitəsinə əmr göndərilif ki, təcili bu məsələ ardan qaldırılsın. Həmən vaxt mənim babam, Suriya, ya Türkiyə ermənisi Artunyan Misaq kişi varıydı, onnan bir oturuf durardı. Onların birgə şəklini çəkiflər çay sürfəsi arxasında ki, bunnar yalan söhbətdi. Burda azərbaycannılarnan ermənilər bir-birilərinən belə mehriban şəraitdə dolanıllar. Həmən şəkili Maskıvaya – Dostluq sərgisinə göndəriflər ki, yalan söhbətdi.

Yetmişinci illərdə mənim atam kəntdə rəhbər işdə işdiyirdi, kəndin partiya təşkilatının katibi idi. Kalxoz sədirrərinin seçkiləri olurdu ildə bir dəfə, hesabat verirdilər. Mərkəzi Komitədən, Nazirlər Sovetinnən nümayəndələr gəlirdi, o hesabatda iştirak eliyirdilər. Hesabatdan sora qaydaydı ki, kalxozun sədri evində gələnnərə stol açar, qonaxlıx verərdi. Atamı da dəvət eliyif orya. Oturuf-

lar, yeyif-işdikləri yerdə, bu vaxtı həmən məclisdə bir dənə də general oluf, bu general badəni götürüf tost deməyə başdıyıf. Mən bunu içirəm yenilməz erməni xalqının sağlığına. – Bu bilmir ki, burda azərbaycannı var. – Erməni xalqı yenilməz xalqdı, biz bu dövləti qurajeyıx dənizdən-dənizə, eşq olsun erməni xalqına, məhv olsun türklər! Bu sözü deyəndə atam yerinnən qalxır, generalı ağır təhqir eliyir ki, sən harda gəlif, nə danışırsan? Mərkəzi Komitədən gələnnər, general görür ki, burda azərbaycannı var. Ev sahibi – kalxoz sədri atama yaxınnaşır. Quliyev, xayiş eliyirəm. Deyif, ə, nə Quliyev? Deməli, siz bizi bura gətirirsiz təhqir eləməyə? Siz kimsiniz ki, dənizdən-dənizə dövlət qurursunuz, türkü də məhv eliyirsiniz? Atam məclisi tərk eliyir. Sora atam gəldi, gördük ki, hirslidi. Soruşdux, dedi, nəsə bunlar iş törədillər, bunun axırı yaxşı qutarmıjax. Sonra elə oldu ki, day mən Çaxırrı kəndinə gəlin getdim. Baxdım ki, bu kəndin abı-havasınnan Məzrənin abı-havası eyni döyül. Burdakı ermənilər daha aqressivdilər, bunlar Liviyadan, Suriyada gələnnər idilər.

Sumqayıt hadisələri ki oldu, bu hadisələr yavaş-yavaş başdadı qaynamağa. Mənim bacılarım burda yaşıyırdı, mən burya gələsi oldum. İki gün burda qaldım, qayıtdım. Qayıdanda direktor məni çağırdı dedi ki, Quliyeva, deyiflər ki, sənin maaşın kəsilsin, bir həftə dərsə buraxılmasın. Dedim, niyə? Dedi, bəs Maarif şöbəsinnən icazə almadan gedifsən. Dedim, nə vaxtdan bəri məəllim Maarif şöbəsinnən icazə alır? Sizdən icazə alıf getmişəm da. De, gəlsin məni kimsə qoymasın dərsə! Həmən mamentdə mən məəllimlər otağına getdim ki, bizdə bir məəllimə var, bu yoxdu dərsdə. Bunun da əri Daşnaksütun partiyasının üzvü olufdu, imkannı adam

oluf da rayonda, vəzifələrdə oluf. Soruşdum ki, həmin məəllimə hanı? Dedilər, Yerevana gedif. Dedim, nə yaxşı gedifdi? Direktor bu söhbəti bir də təzəliyəndə mən güldüm. Dedim, Qazaryan, bilirsən mən Gəncəyə niyə getmişdim? Dedi, yox! Dedim, filan məəlimə niyə gedif Yerevana, Daşnaksütun partiyasının pulunu keçirməyə gedif? Mən də, rəhmətə gedən bir oğlan vardı, onun ayləsinə kömək aparmışdım. Deyəndə bu mənim gözümün içinə baxdı. Dedim, nəyə baxırsan? Onda zavuçumuz azərbaycannı idi. Dedi, Durna, sən nə iş görürsən? Dili bağla. Dedim, yox, bağlamıyajam. Niyə, onnara olar, bizə yox?

Aradan iki gün keçmişdi. Dedilər direktor səni çağırır. Getdim ki, bunun otağında bir nəfər var, – rayonda göy-göyərti satan mağaza var, oranın satıcısıdı, – bu, içəridə var-gəl eliyir. Birdən başımı qaldırdım ki, Andranikin şəklini gətirif bunun kabinetinə vuruflar. Dedim, Qazaryan, bu nədi? Deyəndə bu yerə baxdı. Dedim, onu ordan çıxart. Bu, sovet hökümətinə əks olan adamdı, bunun şəklin ora vurmağ olmaz. Onda bu qayıtdı ki, sizin nə işinizə qalıf, o bizim işimizdi, indən sonra o şəkil orda durajax. – O şəkil ordan çıxajax, – deyif otaxdan çıxdım. Aşağı düşdüm. Zavuçumuz dedi, Durna, noluf, niyə hirsdənmisən? Dedim, bu nə özbaşınalıxdı? Dedi, ay qız, sus, daha hakimiyyət bunlardadı. Həmən direktorun bacısınan məəllim yoldaşıydıx. O mənim qoluma girdi, onunla danışa-danışa gedirik evə. İnzibati idarənin yanına çatanda gördüm burda xeyli adam var, amma kəndin adamları döyül, hamısı sakqallı. Dedim, Hayıstan, bunnar kimdi? Bizim kəndin adamı döyüllər. Dedi ki, bunnar kənar yerdən gələnnərdi, Daşnaksütun partiyasının üzvləridi. Görürsənmi, bu işdərə biz qarışmırığ, bu işin axırı çox pis

olajax. Mən sənə bir bacı kimi tövsiyə verim, sən qar yağmamış kəntdən çıx. Dedim, o nə deməkdi, kəntdən çıx nədi? Demək, bunnar gözdüyüllər ki, məhsul toplansın, məhsul içəri yığılannan sonra azərbaycannıları çıxartsınnar ki, məhsul bunnara qalsın. Aman allah, içimə bir qurd düşdümü? Yoldaşım da qonşu kəntdə məəllim işdiyirdi. Bu gəldi. Dedim ki, Sabir, bilirsən nədi? Hayıstan mana belə bir söz dedi. Dedi, o dedisə, deməli, həqiqətdi.

Məktəb bağlananda məəllimlər kalxoza kömək eliyirdilər ot yığımında. Yoldaşım da gedirdi köməyə. Evdə iş görürdüm, qonşunun balaca qızı gəldi dedi ki, Durna məəllimə, bilirsən nədi? – Qırxbulağ kəndi erməni kəndi idi. – Qırxbulaxdan kəndə basqın var. Dedim, elə şey olmaz. Dedi, vallah, traktorru, bulduzerri, belli, lapatkalı gəlillər kəndin üsdünə. Kəntdə də kişilər hamısı dağda ot biçinindədi. Durdum başı alovlu – bizim də ev dikdədi, yüksəkdədi, – getdim ki, beş-altı nəfər qadın yığılıf, bir-iki qoca-qoltuğ kişidi, bir də orta məktəb uşaxlarıdı. Mən gedəndə dedilər, ay məəllimə, bu nə olan şeydi? Hələ orya bax. Baxdım, aşağıdan gəlirlər. Dedim, qorxmuyun, rayon yiyəsiz döyül. Kəndin rəhbərləri var. O vaxtı sovet hökumətinə inanırdıx. Bu mamentdə bir də baxdım, – rayon icrayə komitəsinin sədri azərbaycannı idi, bizə də qohum idi, – bu gəldi. Vilisdən düşmədi, vilisin qapısını aşdı, hirsdi-hirsdi dedi, sən nə əzirsən burda? Dedim, İmaməliyev, nətər nə əzirsən? Görmürsən kəndin üsdünə basqına gəliflər. – Sən get evə, saa bir şey eliyəllər. Dedim, olajax hamıya olsun, olmuyajax da cəhənnəmə olsun. Bu, vilisi sürdü, çıxdı getdi. Bu mamentdə milis maşını gəldi, yanında da iki-üş nəfər sovet ordusunun əsgərrəri. Bu gəldi, salam, Quliyeva,

noluf? Dedim, a bala, görmürsən nolufdu? Dedi, narahat olmuyun, bu dəyqə qarşısını alajıyıx. Bu, əsgərləri də götürdü, getdi onların qabağını kəsdi. Dayandırdı, qoymadılar ki, kəndə yaxınnaşsınlar. Bunnan da narahatçılıx başdadı. Artıx bildik ki, vəziyyət gərgindi.

Hər gejə kəndin kişiləri qaroul çəkillər ki, kəndə hücum-zad olar, arvad-uşağ var kəntdə. Yoldaşım dedi, belə olmaz, mən gedim Azərbaycana, heç olmasa, bir ev kirə-zad tapax, görək axırımız nolur. Yoldaşım gəldi Gəncəyə, mən evdə uşaxlarnanam. Yoldaşımın əmisinin uşaxlarıdı, bir də qonşunun uşaxlarıdı, hamısını yığıflar bizə ki, bura ujqar evdi də, burya çatana qədər xəbər olajax ki, kəndə basqı var. Birdən yoldaşımın əmisi arvadı pərdəni aşdı, dedi, buy, gəldilər. – Aaz, – dedim, – kim gəldi? Bizim evin qarşı tərəfində yüksək bir dağ varıydı, onun başına da ermənilər bir dənə xaç daşı qoymuşdular, ziyarətgah kimi. Çıxıflar o daşın başına, belarusdarnan kəndə işığ salıllar. Bunnara deyilif ki, azərbaycannılar bu gejə mal-heyvannarını kəntdən çıxardajax. İndi bunnar kəndə nəzarət eliyillər ki, heyvannarı çıxardanda azərbaycannıların əlinnən alsınnar. Bu həmən traktorun işığıdı ki, bizim evin üsdünə düşür.

Bunnar uşaxları götürüf qonşunun evinə gedillər. Mən hələ arxeyin silahı-milahı götürrəm ki, bunnarın arxasınnan çıxım. Getdim ki, ayə, aşağı qonşular hamısı gəlif bu qonşunun evinə doluf ki, beyjə kəndə basqın var. Nəysə, bu uşaxları burdan çıxartdım, qarşı tərəfdəki ev yoldaşımın bibisinin eviydi, getdik orya. Mən pəncərənin qabağında durmuşam, qarannıxda baxıram ki, görüm, hələ dəyişiklik nə var. Silahı da pəncərədən verdim bunlara. Dedim, əmi, ala verim sizə, amma bizim evə bir şey olma-

sın. Sovet ordusunun əsgərləri də kəntdədi, guya kəndi müdafiyə eliyillər. Belə baxdım ki, üş nəfər əyilə-əyilə bu tərəfdən gəldi keşdi, hasarın arxasında yerə yatdılar. Dörd nəfər də bu tərəfdən gəldi. İndi ermənilər kəndi nəzarətə götürüflər ki, bu evdən çıxan mal-qaranın qabağını kəssinlər. Pəncərəni aşdım dedim ki, ay əmi, yeddi nəfər orda yerə yatıf, ehtiyyatlı olun, birdən silahlı olallar. Gecə saat ikiyə qədər o qarın üsdündə yatdılar. Gördülər ki, yox, bir şey olmadı, bunlar qayıtdılar burdan getdilər.

Səhər xəbər gəldi ki, bəs Gəncəyə avtobus gedəjəh, uşaxları kənddən çıxartmağ isdiyillər. Yoldaşım dedi ki, biz də uşaxları verək aparsınnar. Dedim, tələsmiyin, qoy mən aşağı düşüm, görüm nə var, nə yox. Düşdüm aşağı, deməli, çökəhdə uşax baxçasıdı. Mən uşax baxçasının qavağınnan keçif gedəndə baxdım ki, ayə, bizim azərbaycannılar həmişə burya yığılırdılar, meydan deyirdilər orya, burda bir dənə azərbaycannı yoxdu. Əli məəllim əlinnən məni çağırdı. Getdim dedim, ay Əli məəllim, noluf? Dedi, aaz, sən orda nə əzirsən? Dedim, niyə? Dedi, ermənilər gətirif qurban kəsiflər ki, meydanı aldıx, ta meydan bizimdi, türklər bura çıxa bilməz. Sən də oraynan gəlirsən, demirsən başına oyun açallar? Dedim, bə deyillər avtobus... – A, nə avtobus, hamısı yalan şeydi, elə şey yoxdu. Mən geri qayıdanda gördüm bu qırılmışdar uşaxları da alıf yedəylərinə, hərəsinin də əlində bir çamadan, bir sumka gəlirlər. Tez özümü catdırdım dedim, a bala, avtobus-zad yoxdu, uşağı qaytarın geri. Ermənilər inzibati idarənin qabağınnan gördülər ki, bunnarın əlində çamadan-sumka var, – indi deyillər içi doludu, – ordan töküldülər. Bu vaxt sovet sədrinin anası, arvadı, həmən dediyim məktəb direkto-

runun bajısı – bunlar da yola çıxdılar. Çıxanda mən bu uşaxları qomarradım doldurdum bunların məhləsinə. Dedim, onsuz da, ermənin in məhləsidi, burya heş kim gələ bilməz. Ordan qışqırdılar ki, ta o məhləyə girdilər, geri qayıdın. Bunnar geri qayıtmadılar, başdadılar bir-bir evlərə basqın eləməyə. Dedim, ta yuxarı çıxmax qutardı. Gəlin düşəyin aşağı, – qaynatamgilin evi aşağıdadı, – gedəyin ora, görək başımıza nə iş gəlir. Gəldim ki qaynatamgilin qapısında iki erməni var. Qaynənəmə dedim ki, bunnar kimdi? Dedi, gəliflər ki, malları bizə satın. Dedim, satın da. Dedi, kişi satmır ki, ucuz alır. Dedim, a bədbaxt qızı, indijə eləcənə götürüf gedəjəhlər, hər nə verillər qənimətdi, alın da. Kişi inəhləri verdi, amma qoyun, keçi, damnan bir hinduşka, qaz, toyux qalıb. İndi qaynənəm qonşu ermənini çağırır ki, gəl daşı apar. Erməni gəlib hinduşkaları, toyuxları, yemi daşıyıb aparır. Güya ağlıyır, bizə canı yanır. Biz də evimizin içini çıxartmışıq artıx, gətirmişik burya (Göygöl rayonuna – tərt.) həmən ərəfədə. Uşaxları da gətirmişik, təkçə mən qalmışam, yoldaşım da gəlib burda ev axtarır. Gör nə ağıllı adamam da, əlimizdə olan pulumuzdu, paramızdı, mənim özümün qızıllarımdı – hamısını saxlamışam orda, qoymuşam sumkanın içinə. Evimizin böyründə putka kimi yer düzəltmişdi yoldaşım, qırıx-söküyü onun içinə yığırdıx, qoymuşam orya. Dedim, aman allah, sumkalar getdi. Tələsik özümü verdim yuxarı. Deməli, həmən o toyuğu-cücüyü daşıyan ki var, onun uşaxları da talana çıxannarın içindədi. Bizim evə çatanda bunun oğlu qoymuyuf evə əl vurmağa ki, bu evi biz götürmüşük, burya əl vurmuyun. Bu da qismətdir da. Putkanın qapısını aşdım ki, sumkalar yerindədir. Sevinirəm. Sumkaları götürdüm düşdüm aşağı,

onda mənə xəbər gəldi ki, gəlsin partiya işlərini təhfil versin. Yoldaşımın əmisigilin evin yolun qırağındaydı. Sumkaları qoydum məhlədə vannanın altına, özüm endim idarəyə.

Getdim, Allah, belə başımı qaldırdım ki, burda kimlər var. Hamısının sakqalı burdan, adama elə baxıllar ki, deyirsən bu dəyqə səni oxluyajaxlar. Amma məni seçə bilmillər, çoxu elə bilir ki, mən erməniyəm. Elə idarəyə daxil olanda savxozun direktoru dedi, Quliyevacan, gəldin? Dedim, hə. Dedi, qalx yuxarı, mənim otağıma. Qalxdım ki, afiserrər oturuf, stolun arxasında da mərkəzi komitənin nümayəndəsidir, nazirlər sovetinin sədr müavinidi, bir də rayonun rəhbər işçilərindəndi. Bu üzümə baxdı, dedi ki, siz bura azərbaycannısız, yoxsa Azərbaycannan gəlməsiniz? Dedim, xeyir, buralıyam. – Onda sizə bir sual verim. Bəs Sumqayıt hadisələrində on üç yaşında erməni qızdarı maşının kapotun üsdünə bağlıyıf başına oyun açıflar. Belə üzünə baxdım, dedim, mən onu eşitməmişəm, amma bilirəm ki, Qafanda azərbaycannı qızdarın başına elə bir oyun açılıf. Deyəndə bu arxadakı qayıtdı ki, bu kimdir? Dedi, ə, tanımırsan? Quliyevin qızıdır. Dedi, bu az aşın duzu döyül. İçimə bir qurd düşdü. Dedim, mən nə qələt eləmişəm gəlmişəm burya. Onda nazirlər sovetinin sədri qayıtdı ki, Quliyeva, sizdən bir xayiş eliyim. Sizin kənddə bir neçə aylə var, Məmmədəli, Tağı, Cəmşid. Onnar gedən maşınnarı geri qaytarıflar, kənddən çıxmağ isdəmillər. Siz onnara çatdırın ki, kənddən çıxsınnar, yoxsa burda qan içində qalajaxlar. Mən də güldüm. Dedim, vallah, mən cavanam, bəlkə mənə o qədər təsir eləməz elimi, obamı qoyub çıxmax, amma onnar bu yaşda kəndi qoyuf, eli-obanı atıf getsin mən o sözü onnara deyə bilmərəm. Bu mamentdə də qapı açıldı,

partiya komitəsinin şöbə müdiri var, bizim qonşu ermənidi, bu qapıdan girdi. Azərbaycan dilində dedi, Durna, sən nə gəzirsən burda? Dedim, partiya işlərini təhfil verirəm. Dedi, dur çıx. Çıxdım. Dedi, sən görmürsən dünya dağılır? Onnar yetim uşaxlar oluflar, onnarı atam böyüdüf. İndi deyirəm ki, çörək itmir. Bu, yanındakına dedi ki, tez sənədləri götür, Durna çıxsın. Dedim, sənədləri kimə verim? Dedi, direktora. Direktoru çağırdılar. Direktor gəldi. Gördüm, bir nəfər gəldi qapının ağzında durdu, ayağının birini o tərəfə, birini bu tərəfə, bu direktora bir vərəqə verdi. Direktor gətdi vərəqi qarşıma qoydu ki, yaz ki, sən könüllü çıxırsan kəntdən. Dedim, bu sözü sən mana deyirsən? Utanmadın sən bu sözü mana dedin? Mən torpağımı, vətənimi qoyuf gedirəm? Bu kağızı stolun üstünnən nətəri itələdimsə sənətdərnən bir yerdə getdi stolun o başına. Rayonnan gələn dedi, Durnacan, peçatı ver, çıx.

Asta qaçana göy imam qənim, o qapıdan nətər çıxdım, nətər özümü çatdırdım yoldaşımın əmisinin məhləsinə bilmirəm. Sumkaları götdüm alt yolnan qaynatamgilə getdim. Orda da Məmmədəli dediklərinin gəlinnəri çıxdı qabağıma. Dedim, yığışın, burda qalmağ bizim üçün ta qutardı. Yoldaşımın əmisi maşın tutmuşdu, gecəynən kənddən çıxdıx. Gecəni qaldıx Pəmbəhdə, səhər tezdənnən yola düşdük, gəldik Orcanakidze kəndinə. Şofer dedi ki, burdan o yana biz gedə bilmirik, qabağı kəsiflər. Dedik, ay bala, niyə kəsiflər? Hamısı da erməni soferləridi. Dedi, bəs deyillər ki, Şəmkirin Cəyir kəndindəki ermənilərin köçü gəlsin salamat, onnan sonra biz köçü buraxarıx. Nəysə, gecə saat ikiyə qədər bizi saxladılar o çölün düzündə. Gecə saat iki idi, şöfer gəldi dedi ki, mərkəzi komitədən gəldilər yolu aşdılar, sizi

aparırıx. Gəldik Gədəbəyin üstündə Başkəndnən Saratof-kanın arasında göl var, həmən orda maşınnarı saxladılar. Dedilər, köçdəri tökün bura, biz Azərbaycana keçə bilmərik. Köçdəri tökdülər həmən o düzə. Mən də yoldaşımın əmisinə dedim ki, köçü elə tök ki, kənddən çıxan birinci bizi görsün. Bu mamentdə baxdıx kənddən Qaz-51 maşını gəldi. Gördüm içindəki qadındı, üstəkilər kişidilər. – Ay bajı, salam. – Salam. – Haranın köçüdü? Dedim, bəs Çaxırrının. Dedi, bəs Qayabaşının köçü hanı? Dedim, vallah, mən bilmirəm yolda qoşuluflar, qoşulmuyuflar, bu nağdı Çaxırrının köçüdü. Dedi, mən oralıyam, burda aylə qurmuşam. Gedirəm, öz qohumlarıma rast gəldim onların köçün götürəjəm, gəlmədim, gəlif səni götürüf gedəjəm. Bir də baxdım ki, maşın gəldi yanımda dayandı. Dedi, bizim qohumlar yoxdu. Bizi yığdılar maşına, getdik. Getdik ki, yazıxlar evdə hazırrıx görüflər ki, Göyçənin köçü gəlir. Allah onlara can sağlığı versin, Gədəbəy camaatı bizə çox kömək oldu.

Bu qadın da kəndin həm buxaltırıdı, həm zapravşikidi. Tezdənnən qalxdı, dedi, Durna, məni çağırıflar, mən gedif maşınnara benzin verəjəm. Bu gedənnən sonra mən bunun evini-eşiyini yığışdırdım, bir də baxdım, gəldi. Dedi, Durna, gəl gedək, maşını özün istə. Hamı maşın isdiyir, maşın çatmır, sənin də köçün maşının üstündədi. Heş olmasa, köçün tökülməsin. Dedim, gedək. Savxozun direktoru elə sizin kimi cavan oğlandı. Məni görən kimi yaxınnaşdı. – Bajı, xoş gəlifsiniz öz vətəninizə. Dedim, çox sağ olun, qadan alım. Dedi, keçin gedək kabinetə. Getdik ki, camaat qaynıyır, millət ordadı. Dedi, istəyiniz nədi? Dedim, bizim köç olan maşın boşalmasın da, onu bizə verin, hara gedəjik, gedəjik. Bu mamentdə şofer içəri girdi, putovka yazdırırdı. Dedim ki,

bax, budu şofer. Sən demə, bunun da arvadı erməni imiş. Dedi, bura bax, bu məəllimə köçünü Respublikanın hansı zonasına aparajax aparsın, benzini qutarajax, cibinnən tökəjən. Gələndə mən sənin pulunu verəjəm. Birdən bunlardan pul alarsan, nəsə eliyərsən, bu kəndə qayıtma. Dedi, məəllimə, indi gedə bilərsiz.

Ordan düşdük yola. Köçü Xannara buraxmadılar. İsgəndərov[69] yolu bağlıyıf ki, Xannara qaşqınnar daxil olmasın. Arxa yolnan getdik. Mixaylovka kəndində yoldaşımın əmisi arvadının qohumları vardı. Dedi, gedəyin orya. Getdik orya, bizi qarşıladılar. Yoldaşım Əbləh kəndini isdiyirdi. Qadınnarı düşürtdülər burya, kişilər getdilər Əbləh kəndinə. Əbləyə gedəndə də ermənilər hələ kəntdən çıxmıyıflar, bunnarı Əbləyə buraxmıyıflar. Təzdən o qohumlar oturuf maşına, qayıtdıx gəldih Xannara. Burda da ev yox, eşik yox, bax bu evi Sabir məllim bir təhər bir nəfərin vastəsiynən tapıf. O vaxdan elə burda yerləşdik (S.30).

## 217.

Mən iş fəaliyyətimə komsomoldan başlamışam, yetmiş dokquzuncu ildən səksən üçüncü ilə qədər raykomda komsomol işləmişəm. Elə o vaxtdan münaqişələr varıydı. Gediş-gəlişdə baxırdın ki, burunnuyurlardı adamı. Azərbaycannı kimi burunnuyurdular ki, türk nəəzir burda. Sonra elə oldu ki, səksən yeddinci ilin axırlarında vaxtılə Yunis Rzayevin qapıçısı olmuş Yevqoyan bizdə birinci katib idi. O bizə məlumat verdi ki, vallah, o dağa qar yağır, bu dağa qar yağır. Vaxtında özünüzə əlac eləyin. Bu, Yunis

[69] Rayonun o dövrdəki rəhbəri Qərib İsgəndərovu nəzərdə tutur.

Rzayevə olan hörmətə görəydi ki, bizə dedi vaxtında özüzə yer eləyin. Elə oldu səksən səkgizinci il gəldi, fevralın iyirmi altısında Sumqayıtdakı hadisələr, sonra Qarabağda Bəxtiyarın ölümü. Bu vəziyyətdər yaranannan sonra – bizdə kalxoz sədri varıydı, Daşkənddən gəlmişdi, Rüstəmov – o dedi ki, Yevqoyannan danışmışam, o deyir narahat olmasınlar, heş kim tərpənməsin. Bir də ağsakqallarımız varıydı, deyirdilər Sovet höküməti ölmüyüb ki, bizi burdan qovalar. Amma gəlib bizim kəndin içinnən Kəlbəcərə aşırdılar. Biz Kəlbəcərnən həmsərhəd idik, dağın o tərəfi Kəlbəcərdi, bu tərəfi biz idik. Ta gələnnən sonra elə oldu ki, postlarda durdux. Zoddular qorxusunnan kəndlərə girməyə cəsarət etmirdilər. Yetmiş dokquzuncu ildən daşnak partiyasına markalar satırdılar. Həmin markaları gətirirdilər, məktəblərdə birini beş-on qəpikdən satırdılar. O markaları azərbaycannılar alırdı, intaası, biz bilmirdik həmin pullar hansı fonda gedir. Səksən səkgizinci ildə də vəziyyət gərginləşəndə Rüstəmov Valeh vardı, Nərimannıda kənd sovetinin sədri işdiyirdi, o bizi silahnan təmin elədi. Postlarda duranlara üş dənə ov tüfəngi, bir də patron verdi özümüzü müdafiyə etmək üçün. Əvvəllər kalxozun çovanlarına axot[70] paylayırdılar, onu yığmışdılar. Silah-sursatın hamısını qeydiyyata almaq bəhanəsinən yığmışdılar. Kəndin girəcəyində sağ tərəfdə Ağkilsəy, Zərzibil, Zoduydu, qabaq tərəfimiz Nərimannıydı. Bu biri tərəf də Qayabaşı, Qoşabulağ idi. Biz ortadaydıx. Biz yoldanca gözdüyürdük ki, yoldan gələrlər maşınnan. Baxdıx ki, imkan yoxdu, yavaş-yavaş doğma yurdumuzu tərk etməyə başdadıx.

---

[70] axot – ov silahı

Bizim kəndin camaatınnan, mən təmiz söz deyirəm də, nə döyülən, nə söyülən oldu. Çünki biz həmsərhəd idik, intaası, rayona getmək, gəlmək qadağan idi. Praduktu maqazinlərə gətirmirdilər. Camaatın yetişdirib yığdığı nəyi vardısa, hamısı eləcənə qaldı. Bizdə tütünçülük idi. O qapı olmazdı ki, orda bir ton, iki ton tütün olmuya. Camaatın malı, qoyunu, gətirən gətirdi, gətirmiyən qaldı. Əlixan vardı, üç yüz baş intensiv toğlu saxlıyırdı. Dedim, ə, bu ev-eşik cəhənnəmə, sən gəl qabağa düş, daldan da mən haylıyajam, bunu aşırax Azərbaycana. Dedi, məni tutarlar, Salman. Mən oldum, o oldu, o toğluyu qoymadı gətirək. Mən də təzə ev tikmişdim, evin içində heç uşağım iki gün qalmadı. İki mərtəbəli məktəbimiz vardı, stolu, stulu, hər bir avadannığı. Hamısın qoydux orda çıxdıx. Oktyabr ayınnan maşını olannar köçünü yığıb gətirirdilər, amma kütləvi çıxış noyabrın ortasınnan dekabrın onuna kimi oldu. Bizdə əsas Kəlbəcərə gəldilər. Mən özüm şəxsən gəldim Gədəbəyə balaca maşınnan, orda maşınnar yazırdılar köçü gətirmək üçün. Yevlaxdan Qara adında bir şofer var idi, Zil sürürdü, hündür də bortu var idi. Bu maa düşdü. Dedi, beş yüz manat alajam. Bunnan getdik, köçümüzü yığdıx. Kalon təşkil olundu. Gərək o kalon düzələydi ki, gəlib Məzrədə plannan keçəydi. Məzrədə də azərbaycannıynan erməni bir yerdə yaşıyırdı. O plannan keçənnən sonra rahat gələ bilirdin. Qara dedi ki, məəllim, narahat olma, ya öləjeyih, ölsəh də qanımızı alıf öləjeyih. Bu Zilnən ayaxlayıf keçəjəm. Heç kalonu da gözləmədi bu, sürdü gəldi. Ordan polis maşınnarı dayanmışdı, əl elədilər ki, saxla. Saxlamadı, vurdu keçdi, çıxdıx gəldik (S.6).

# IV. NAĞILLAR

## 218. YAZIYA POZU YOXDUR

Vəzir Allahverdi xannan Şah Abbasın bir rəvayətin eşitmişəm. Rəvayətə görə, Şah Abbasnan Vəzir Allahverdi xan – o vaxdı heç kim heç kimi tanımırdı axı, – bir gün vəzir şaha deyir:

– Şah, gəl bir dərviş libasında gəzəh, görəh insanlar necə yaşıyır, bizdən razıdılarmı?

Elə də gəzillər. Bir kəndə girəndə baxır ki, bir damka var. Şah deyir, vəzir, burda gejəliyəjih. Deyir, şah sağ olsun, burda görmürsən? Deyir, burda yaşıyan da insandı da, görəh necə yaşıyır. Qapıyı döyüllər. Baxır ki, bir naxırçı çıxdı. Deyir, biz dərvişih də. Deyir, vallah, görürsən də bir bölüh külfətim var, arada da pərdə. Şah deyir, eləcə bu qapın ağzında biz yatajıx. Deyir ki, axı evdə bir zənən xəylağı var, özü də uşağa yatır. Əşi, – deyir, – biz qapın ağzındaja xurcunumuza söykənif yatajıx da. Day üzü gəlmir də ev yiyəsin.

Nəysə, bular burda qalmaxda olsun, naxırçının bir dənə oğlu var. Vəzir eşiyə çıxır. Baxır ki, bir kölgə keşdi. Deyir, sən kimsən? Deyir, mən yazı yazanam, taleh yazanam. Deyir, sən nə yazdın? Deyir, bax, bu naxırçının bir oğlu oldu, şahın da filan haramısınnan bir qızı oldu, o qızı buna yazdım. Da bunu axşam danışmır. Səhər duranda şah deyir, vəzir, niyə beləsən? Deyir, şah, bilmirəm yuxuydumu, məni qaramı basdı. Belə bir hadisəyə rast gəldim. Deyir, nə hadisə? Deyir, mən qapıdan çıxanda baxdım bir kölgə. Dedim, sən kimsən? Dedi, mən yazı yazanam. Bu

naxırçının bir oğlu oldu, Şah Abbasın da filan haramısınnan bir qızı oldu, o qızı buna yazdım. Deyir, ə, nə yazı, mən şah, bı naxırçı.

Sabah olur, naxırçını çağırtdır. Deyir, sənin neçə uşağın var? Deyir, ürkütməsən, saymax mümkün deyil. Deyir, dəəsən bir oğlun da oldu. Onun ağırrıxda qızıl verirəm, verirsənmi o uşağı mana? Deyir, verərəm. Arvadı deyir, a kişi, neynirsən? Deyir, bax, gör neçədi. Oğlumuz yoxdu? Bir xurcun qızılı uşağa verir. Uşax da bir qırmızı mələfədə. Deyir, vəzir, onu götür. Bir dağın kəlləsinnən gedəndə deyir, vəzir, bunu tulla o dağın başınnan dərəyə, görüm o yazı yazan nətər yazıb.

Göydə qartal uçurmuş. Qartal da qırmızı şeyə çox həvəsli olur. Dərəyə şığıdığıynan bu qırmızı mələfəni caynağına keçirməyi bir olur. Dağın başında da çoban qoyun otarırmış. Baxır ki, qartal caynağında nəsə gətdi. Yerə qoymax isdiyəndə, it buna cumanda – rəvayətdi da, – qartal bunu qoyur qaçır. Çoban gəlir ki, qırmızı əysidə bir uşaxdı, barmağın əmif yatır. Bunnarın da uşağı olmurmuş. Bunu götürür, keçinin südünnən-zaddan buna verir. Axşam evinə çatanda deyir, ay arvat, Allahtala bizə züryət yetirif. Deyir, nə? Deyir, bax, bunu qartalın caynağınnan xilas eləmişəm. Belə də bunu götürür arvat köynəyinnən keçirir, evlatdığa götürür. Bu böyüyür, yaxşı bir oğul olur. Deyir, ay ata, sən qojalıfsan, daa sən naxıra gedəsi olma. Mən gedirəm işdəməyə, sən havağa kimi heyvan dalınca qaçajaxsan?

Şahın qızı yuxuda görür ki, sevgilisi gəlir. Qarabaşdarı çıxardır. Deyir, bax, filan yolnan bir nəfər gələjəh, onu gətirin bura. Elə də olur. Amma vəzir uşağın qoluna

baxanda baxır ki, burasında (biləyinin üstünü göstərir – tərt.) yekə qara xal var, anadangəlmə xal. Rəvayətə görə, kimin ətdən qara böyük xalı olursa, peyğəmbər evladı sayılır. Bunu vəzir görür. Nəysə, qız bunu çağırtdırır. Xəlvətcə şahın bağında görüşüllərmiş. Çuğul ölmüyüf, ölmüyəjəh də. Şaha çatdırıllar ki, əyə, qızın bir oğlannan görüşür. Bunu güddürür, tutdurur. Deyir, sən kimsən? Deyir, mən naxırçının oğluyam. Vəzir oğlanın qoluna baxanda görür ki, bu həmən uşaxdı. Yazı yazan yazıb axı. Deyir, şah sağ olsun, bilirsən o kimdi? Deyir, kimdi? Deyir, dərədən atdığımız uşaxdı. Deyir, vəzir, başın bədəninə ağırrığ eliyir ha, başını vurduraram. Deyir, şah, mən olanı deyirəm. Deyir, yaxşı.

Üç aynan, dörd aynan şah ova çıxarmış. Bunun başqa bir şəhərdə cəlladı varıymış. Cəllada bir məhtub yazır, uşağa verir. Yazır ki, çatan kimi bunun boynunu elə vurarsan qanı da yerə dammasın. Çıxıb gedir ova. Qız bilir ki, bu oğlanı edam etdirəjəh atası. Bunu güdür. Deyir, hara gedirsən? Deyir, şah maa məhtub verib, onu çatdırmalıyam. Deyir, ver görüm. Təzədənnən yazır ki, cəllad, mən gedirəm ova, mən gələnə kimi qırx gün qırx gecə toy çaldırarsan mənim qızımnan bu oğlana, altınnan da möhürünü vurur. Cəllad baxır ki, bir oğlan məhtub gətirif. Bunun nə ixtiyarı var. Gəcavələr bəzənir, gəvələr döşənir, dəvələr kəsilir, qoyunnar kəsilir, toy başdıyr.

Aradan qırx gün keçir, şahnan vəzir ovdan qayıdırmış. Baxır ki, əyə, bu cəllad olan şəhərdən toy səsi gəlir. Deyir, vəzir, o nə toydu? Deyir, qızınan oğlanın toyudu. Deyir, vəzir bu dəfə səni bağışdamıyajam, – o vaxdı bir boyun vurdurma var idi, bir də parçalama. Parçalama

şəhərin girəcəyinnən ağaşdar asılırdı, insanların qıçasın hərəsin birinə bağlıyıf ağaşdarı buraxanda onu iki cırırdı. Bir də heylə cəza varmış. Deyir, səni parçaladajam. Deyir, əgər mən səf deyirəmsə, parçalat. Elə də gəlillər ki, gəcavada oğlannan qız bəzənif oturuf. Deyir, cəllad, saa məhtub göndərmişdim, hanı? Deyir, şah sağ olsun, bax. Baxır ki, qızı yazıfdı. Deyir, həə, yazıya pozu yoxdu (S.15).

## 219. ŞAH ABBASIN İÇKİNİ QADAĞAN ETDİRMƏSİ

Şah Abbasnan Vəzir Allahverdi çıxıllar əyaləti gəzməyə. Gəlillər bir əyalətdən keçillər. Şah Abbas da əyinlərin dəyişif, təğyirlibas oluflar. Şah Abbas görür, küçədə bir adam yatır, itdər də bunun ağzın yalıyır. Deyir, vəzir, bu nədir? Deyir, şah sağ olsun, dünən qonşuda xeyir iş olufdu, bu o qədər içif ki orda, evə gedif çıxammıyıf. Qaytarıfdı, itdər də ağzın yalıyıf böyründə yatıfdı. Deyir, vəzir, bu nə deməkdi? Deyir, heş nə, belə adətdi. İçillər, özdərin apara bilmillər. Heç evdə arvad-uşağın da xəbəri yoxdu bunnan. Deyir, yaxşı, oldu. Bə birdən müharibə başdadı, biz nağarajıyıx, ay vəzir? Müharibə başdadı, hamı bu vəziyyətdə kefli, küçədə itdər ağzın yalıyır. Biz nətər başqa bir devlətnən müharibə eliyəjeyih?

Şah Abbas qayıdır geri, qırmızı geyinir, taxta çıxır. Fərman imzalıyır. Vəzirə deyir, yaz! Mənim əyalətimdə şərab addı şeyi istehsal eliyənin də, içənin də, qəbul eliyənin də boynu vurulsun. O vaxt da şərab çaxır imiş da. Kimin nəyi var gejə axıdır çöllərə ki, evində tutmasınnar. Şah Abbasın adamları bilsə ki, mənim evimdə şərab var, asdırajax.

Bu minvalnan kəndin kənarında bir qoja arvad yaşıyırmış. Bunun da əri-zadı yoxumuş, daxmada bir oğul saxlıyırmış. Bu fərman çıxanda uşax yeni doğulubmuş. Uşax hələ bilmir şərab nədi, içgi nədi. Uşax böyüyür. Belə rəvayət eliyillər ki, bir vəşi şir dadanır kəndə. Əlinə keçəni parçalıyır, doğruyur tökür, birin də götürür, çıxır gedir. Şah Abbasın pəhlivannarı çıxır şirin qabağına, şir parçalıyır pəhlivannarın, öldürür hamısın. Şah Abbas deyir, vəzir, bir əncam qıl, adam qalmadı. Şir parçalıyıf qırır hamısın. Deyir, şah sağ olsun, gəl belə eliyək. Növbəyə salax, hər evdən gündə bir adam getsin da. Şirə bir adam lazımdı da. Onu yesin, çıxsın getsin. Bir adamı çıxarax kəndin qırağına, şir gəlsin, götsün getsin. Şah deyir, yaxşı fikirdi, siyahını hazırla.

Siyahı hazırlanır. Gündə evdən bir adam çıxır özlərinin razılığınnan ki, sən get şirin qabağına. Şir də götürüf parçalıyır, çıxır gedir. Növbə bu qoja arvada çatır. Oğul deyir, ana, gəl halallaşax. Ya sən getməlisən, ya mən. Mən dura-dura səni göndərərəmmi şirin qabağına? Bəs qıraxdan baxan nə deyər? Deməzmi, boynu yerə soxum, bir anası var, anasın da şirin qabağına göndərir. Ana, özüm gedəjəm. Deyir, oğul, mən qoja arvadam, ölüf gedəjəm, qoy məni şir yesin, sən yaşa. Evləndirməmişəm, sən subay oğlansan. Bu da cansız bir oğlan olur. Arvad görür oğlu təkidinnən əl çəkmir, gedəjəhdi. Deyir, oğul, onda ayağını saxla, gedərsən. Deyir, ana, sözü de. Arvad gedir evin küncündən qazır bir küpə çıxardır. Yerdən qazma daxmadı. O vaxdı quruşka demirdilər, köhnə parçlar olurdu. Parçı qırmızı suynan doldurur. Deyir, oğul, gedirsən, ala bunu iş, get. Oğlan başına çəkir, görür, indiyə qədər işdiyi suların

tamınnan döyül. Oğlan dərinnən nəfəs alır. Deyir, oğlum, noldu, xoşuna gəldimi? Deyir, ana, elə bil ciyarımın yanğısı bir az söndü. Deyir, onda bir parç da iç. Bir parç da doldurur verir, bunu da içir. Deyir, ana, gedə bilərəmmi? Deyir, oğul, get.

Vəzir Allahverdi xan, hamı yığılıf, şirin camaatı götürüf aparmasına tamaşa eliyillər. Görüllər şir ordan qaça-qaça gəlir, bilir da adam harda olajax. Camaat da yığılıf tamaşa eliyir. Həmişə şir qaça-qaça gələndə onun qabağına çıxan qaçırdı, şir dalınnan gedif tuturdu, parçalıyıf aparırdı. Görüllər şir gəlir ayannan bəri yüyürə-yüyürə, bu qoja arvadın da oğlu şirə qarşı yüyürür. Bular qavaxlaşıllar. Qavaxlaşanda şiri tutur, ağzını cırır, üsdündə oturur.

Şah Abbasa xəbər çatır ki, deməzsənmi, bir uşax çıxdı şirin ağzın parçaladı, üsdündə də otdu. Deyir, ə, uşağı tapın gətirin bura. Cavan uşaxdı, aparıllar. Şah Abbas deyir, səni öldürmüyəjəm, düzün de, görüm, nətər oldu? Mənim pəhlivannarım var beş sənin boyda, şir oları öldürdü, sən şiri parçaladın. Deyir, şah sağ olsun, mən də bilmirəm bu sirri. Mən evdən çıxanda anam mənə iki parç qırmızı su verdi. O suyu işdim, elə bil mənim qollarıma qüvvət gəldi. Deyir, sən kimin oğlusan? Deyir, filankəsin. Deyir, ə, arvadı çağırın. Arvadı çağırıllar, arvad gəlir. Deyir, ay arvad, səni də öldürmüyəjəm, mənə düzünü de. Deyir, Şah Abbas, mən sənin fərmanının əksinə çıxmışam. O vaxdı sən belə bir fərman elədin ki, bunu istehsal eliyən-filan, mənim də gözümün ağı-qarası bircə oğlum var idi. Bu bir küpə şərabı gizdətmişdim ki, bunun toyunda camaata yüz qıram-yüz qıram paylıyaram. Bu məqsədnən saxlamışdım. Satıf puluynan oğluma toy eliyərəm. Gördüm

oğlum şirin qabağına gedir, bunnan iki parç verdim ki, heç olmasa, ürəyi səngisin. Şah Abbas görür, oğlanın dediyinnən arvadın dediyi düz gəlir. Şah Abbas deyir, vəzir, mənim fərmanım yanlış fərman olufdu. İndi təzə fərman imzala. Deyir, Şah Abbas sağ olsun, de. Deyir, vəzir, yaz ki, bu günnən sonra mənim əyalətimdə hamıya icazə verirəm şərab da istehsal eləsin, çaxır da istehsal eləsin, amma qəbul eləməkdə şir ağzı cırana qədər. İki parçdan artığ olmaz. Da küçədə yatıf itdər ağzın yalıyana qədər yox. Həmin günnən Şah Abbasın fərmanı qüvvəyə minir. Da keflənmək söhbəti yoxdu, iki parç şərab adamı kefləndirməyəcək ki (S.41).

# V. LƏTİFƏLƏR

## 220. BƏHLUL DANƏNDƏ

Bəhlul Danəndə gedirmiş, çoban da çayın qırağında heyvanı suluyurmuş. Çoban başdıyır heyvana qurrey-qurrey eləməyə. Bəhlul Danəndə deyir, ə, çoban, o nə deməkdi? Deyir, qurrey deyirəm ki, heyvan su işsin da. Deyir, çay yanındadı, özü gəlif su içəjəh da. Sən niyə qurrey-qurrey eliyirsən? – Ə, deyir, onun içində elə qanmazdarı var ki, sən qurrey deməsən, yadına düşmür (S.22).

## 221. EVİMİ YIXANA OXŞAYIRSAN

Bir gün bir kişi gəlib birinə qonağ olur. Üç-dörd gün burda qalır, arvad yemək bişirir, bu basır hamısın yeyirmiş. Deyir, arvad, sənin gətirdiyin qonax hamısını basıb yeyir. Nətər eliyək bu çıxsın getsin? Deyir, ay kişi, mən elə edərəm ki, o gedər. Gedif kəndin içini gəzərsən, gəlif deyərsən ki, ay qonax qardaş, kəndin içinə çıxmışdım. Deyillər, arvadın xəstələnib ölüb. Qonax deyir, ölüb, ölüb də, birin də alacam. Deyir, arvad, bu baş tutmadı? Deyir, belə elə. Bu dəfə gəl de ki, uşaxların ölüb. Gəlib deyir ki, uşaxların qırılıb. Deyir, qırılıb qırılıb da. Burda evlənəjəm, arvadım olajax, uşaxlarım da olajax. Görür ki, qonax getmir. Deyir ki, arvad, gəl, biz çıxax gedək. Bunlar çıxır gedir. Qonax baxır ki, ə, bular da çıxıb gedir. Bu, kıravatın altında gizdənir. Arvadnan kişi qayıdıf gəlir ki, qonax evdə yoxdu. Deyir, arvad, şükür, qonax çıxıf gedif. Bir yeddi illik xoruzumuz var, gətir onu kəsim, yeyək. Kəsir, bişəndə deyir ki,

arvad, mən kimə oxşuyuram? Deyir, filan bəyə oxşuyursan. Sərnicin arxasına vurub oynuyur. Deyir ki, ay kişi, sən toy çal, mən də oynuyum. Oynuyur. Deyir ki, əti kıravatın altına qoy, ayağımız ilişər, tökülər. Elə ordaca da qonağ əti çəkir qabağına, yeyir. Bular da oynuyannan sonra deyir, arvad, əti gətir yeyək. Baxır, ət yoxdur. Bu vaxt qonax kıravatın altınnan çıxır. Deyir ki, mən kimə oxşuyuram? Deyir, yedillik xoruzu yeyif öyümü yıxana oxşuyursan (S.25).

## 222. KƏLBƏCƏRLİ İLƏ ŞUŞALININ DOSTLUĞU

Bir Kəlbəcərli oluf, Şuşalı dostu var imiş. Şuşalı qatırnan gətirif burda ayın-oyun satırmış, hər gələndə də kəlbəcərlinin evinə qonağ düşürmüş. Elə olur, bir gün kəlbəcərlinin yolu düşür Şuşaya. Gedəndə soraxlaşıb bunun qapısını tapır. Şuşalı görür Kəlbəcərli gəlir, tez qatırın axırında gizlənir. Gəlir, arvadı çıxır qapıya. – Bajı, axşamınız xeyir. – Hər vaxdınız xeyir. – Filankəs evdədimi? Deyir, yox, səfərə gedif. Deyir, ay bajı, indicə gördüm axı, dama girdi. Deyif, yox, qardaş, mən sənə deyirəm evdə yoxdu. Tənbəllik eləmir, içəri girir ki, qatırın axırına uzanıf. Deyir, ə, qonağ eləmirsən eləmə, qatırın axırına niyə uzanırsan? Çıxıf gəlir.

Aradan iki il keçəndən sonra şuşalı deyif, ə, kəlbəcərlidi, yadınnan çıxmış olar. Bir də ayın-oyun götürüf Kəlbəcərin Alçalı kəndinə gələndə uşağ isdiyif dillənə, deyif, sakit olun. Gənə buna hörmət-zad. Axşam söhbət düşəndə – Kəlbəcər camaatı da yaxşı darı əkirmiş, – deyif ki, a qardaş, bir ayı peyda oluf. – Ə, bəs onu niyə vurmursunuz? Deyif, ə, nə danışırsan? Onu vurmaxmı olar? Daraşar camaatı yeyər,

buraları dağıdar. Deyir, silahınız varmı, verin mən vurum. Deyif, vura bilərsənmi? Deyir, hə. Gedir baxır ki, darını nəsə yeyir. Deyir, görürsənmi, oraları ayı dağıdıf. Nişan alıf atır, qatır anqırıf yıxılır. Çıxıf gəlillər. Tezdənnən durullar orya qatır, burya qatır, qatır yoxdu. Gəlillər ki, bay, axşam vurduğu öz qatırı imiş. Deyir, ə, bə nağarım? Kəlbəcərli deyir, Şuşada qonağını, zəmidə də qatırını tanımırsan, mən nağarım, ə? (S.25)

## 223. İKİ YALANÇI

Yalanı uyduranda gərək elə yalan uydurasan həqiqətə uyğun ola. İki qardaş olur, biri bərk yalan danışırmış. O biri qardaş deyir, qardaşım yalan danışır, gərək mən də yalan danışım, görək nə olur. Camaatın içində deyir ki, göydə bir küçük dünən elə zingildiyirdi, elə zingildiyirdi. Bunun üsdünə düşüllər ki, ə, göydə küçük zingildiyər? Tapaşdamağ isdiyəndə o yalançı qardaş çıxır deyir, əyə, niyə döyürsüz, a bala? Düz deyir. Qarğa götürər küçüyü göyə, göydə də küçük zingildiyər. Bu da onu görüfdü. Gərək yalan danışanda düzəliş verəsən (S.27).

## 224-226. AYRIM LƏTİFƏLƏRİ

Bir günnəri ərbeşih[71] meşədə hərrənirmiş, ağaş kəsənnəri axtarırdı. Meşəynən gedəndə görür takkıltı səsi gəlir. Yaxınnaşanda görür kü, bir adam meşədə ağac kəsir. Bu da cantarağ[72] adam imiş. Buna çatır. – Ə, ağacı niyə

---

[71] ərbeşik – meşəbəyi

[72] cantaraq – cüssəli

kəsirsən! Ağacı qırmağ olmaz! Ağacı kəsən nə qədər yalvar-yaxar eliyir, bu əl çəkmir. Bunun ayağını bağlıyır, oturdur ağacın divində. Gedir rayona xəvər versin ki, meşədə ağac kəsəni tutmuşam. Gedir xəvər verir. Ancax ayaxlarını bağlıyır, əlləri açıx ağacın divində oturduf. Bular deyir, ə, bə nejoldu? Deyir, ayağını bağladım, ağacın divində oturur. Bular deyir, ayağını bağladın, əli ki açıxdı. Bir az duruxur, deyir:

– Ə, o bizim kəndçidi. Mənim yadıma düşmüyüfsə, onun da yadına düşmüyəjək.

Gedillər ki, doğrudan da, ayağı bağlı ağacın divində oturuf[73] (S.22).

## 225.

Ayrım Tağı gəlif Gəncəyə at almağa. Gəncə lotuları yığışıf ki, atı neynirsən. İki ildən sonra qojalajax. Gəl sənə atın yumurtasını verək, apar, içinnən balası çıxajax. Qarpızı qoyullar bunun xurcununa. Gedir, dağdan keçəndə xurcun düşür atın belinnən, qarpız dağdan üzü aşağı yumalanır. Kolun divinnən keçəndə dooşan koldan çıxıf qaçır dana. Əlin göyə qaldırıf Allahtalaya yalvarır ki, yaxşı, yumurteyi qırdın qırdın, dayçeyi niyə qaçırtdın? (S.22)

## 226.

Biri olur, dağda ot yığırmış. Kəndiri götürür, otu biçir. Deyir, alanəm olsun, gəlif apararam. O vaxt qatırın belinə palan qoyullarmış. Bu kişi də yaşdı adam oluf. Özünə güvənmiyif. Yaşdı kişilər atı hündür daşın yanına çəkif heylə minirlərmiş. Ata minəjəh. Allaha yalvarır:

---

[73] Söyləyici bunu ayrım lətifəsi adlandırdı.

– Ya Həzrət Abbas, ya Allah, kömək elə, mən bu atın belinə minim.

Özündə güj tapıf hoppanır atın belinə, o biri tərəfdən düşür yerə. Deyir, ə, mən dedim biriniz kömək eliyin, demədim ayağımdan qaldırın atın üsdünnən aşırın (S.22).

## 227-252. BƏHRAM QAMANOV

Bəhram Qamanov uzun müddət Zodda işdiyibdi, kolxoz sədri olufdu. Onun xalası Kəlbəcərdən gəlir, gədikdən keçəndə borana düşür, elə gədikdə də ölür. Xəbər verillər, rayonnan polisdər gəlir, bunu götürüf aparıllar. Qamanova çatır ki, xalanı aparıflar, uje polisə çıxardıflar. – Ə, – deyir, – meyidi neyniyəjəhlər? Gedif orya. Onda Ağasaryanın vaxdıydı. Deyif, a yoldaş, bu mənim xalamdı ey. Deyir, xalandı, sübut elə. Deyif, nətər sübut elə? Bu heyvan döyül çıxarıf birkasını göstərim. Deyirəmsə xalam mənimdi, demək mənimdi (S.17).

## 228.

Bir gün oğlunu kolxoz sədri qoyuflar. Bu da mənim kimi yaşdı adamdı. Əvvəldən də çox yeyən, içən, kefqom adam oluf, indi yaşdanıf. Oğlu da buna bir dəst kastyum alıf. Deyif, ay dədə, elə elə bulama dana. Buların da evi çayın o tərəfindədi. Nəsrin diki deyirik, camaatın yığnax yeridi, kastyum qoltuğunda gəlif orya. Uşaxlar deyif:

– Ay Bəhram dayı, ə, bu kastyumunu niyə geyinmirsən barı?

Deyir:

– A bala, Becan deyir ki, bulamaginən. Mən də əynimə geyinmirəm ki, bulana (S.17).

**229.**

Zodlu Qamanov uzun müddət qalxoz sədri işdiyif. Özünnən sonra oğlun qalxoz sədri qoyuflar. Zodda da Topdaş deyirdilər, camaat hamı ora yığılırdı. O da işdən çıxmış adam, gündə gəlirdi ora, ağsakqallarnan söhbət edirdi. Oğlu deyir, ay dədə, bu nə gündədi, paltarın köhnədi. Gedif buna bir dəst qəstyum alıf gətirir. Geyinif gəlir, oturur Topdaşda. Qayıdıf gedəndə deyir, ay ata, bu paltarı dünən almışam, bunu niyə çirkləndirifsən? Səhər duruf gedəndə köhnə paltarın geyir, bunu da qəzetə bükür, qoltuğuna alıf, gəlir oturur Topdaşda. Camaat:

– A kişi, nə iş görürsən?

Deyir ki, a qardaş, oğlum deyir çirkləndirirsən, mən də qoltuğumda gəzdirirəm (S.27).

**230.**

Oturuf çörək yeyəndə oğluna deyir ki, ay Qaçay, gör eşiyə yağırmı? Qaçay da Qanığı çağırır. Deyir, ə, iti niyə çağırırsan? Deyir, itin üsdü isdanıfsa, onda eşiyə yağır (S.31).

**231.**

Qamanovun böyrəyi ağrıyırmış. Həkim buna deyif ki, sidiyini gətir, analiz ver. Bu da analiz üçün sidiyindən bir şüşəyə götürüb qoyufmuş. Arvad evi süpürəndə bunu aşırır. Aşıranda deyir, Qamanov məni öldürəjək. Gətirir arvad özü siyir, ora qoyur. Bu da, sən demə, hamilə imiş. Aparıf analizi verəndə həkim təəccübnən baxır. Deyif, nəyə baxırsan? Deyir, analiz belə göstərir. Gəlif aravada deyir, ateyin goru belə olsun, bu nədi? Deyir, Qamanov, evi süpürəndə töküldü, özüm siydim (S.31).

**232.**

Xanlarda vayenkomat var idi, onun arxasında balaca bazar var idi. Bədoy buranın bazarkomu oluf. Bir dəfə ayaxyolu düzəltdirif. Qamanov rayona qonax gəlir. Bədoy deyir, Qamanov, sən dədənin goru, gəl bax, gör orda nə tikdirmişəm. Gedir görür ayaxyolu tikdirif biri qadın, biri kişilər üçün. Deyir, dədənin ehsanı olsun, bunu yaxşı eliyif tikdirmisən (S.31).

**233.**

Qamanovu rayona qonaxlığa çağırıllar. Yaxşı yemək-zad hazırlıyıllar. İnəyin tənini gətirif qoyullar ortalığa. Bu durur şalvarın açır. Deyillər, Qamanov, bəs nağarırsan? Deyir, belə yeməyin belə də çəngəli olajax da (S.31).

**234.**

Qamanov Bəhramın anası Kəlbəcər qızı olufdu. Bir gün xalası, – demirəmmi Göyçənin qışı çox sərt keçir, – bulara gəlməh isdiyəndə, – 52-53-cü illərin hadisəsi oluf. Onda mən birinci, ikinci sinifə getmişəm. – gədih deyillər Kəlbəcərnən bizim aramızda, orda borana düşüf ölür. Nəysə, bu xəbər çatır, harava göndərillər, bunu gətirillər. O vaxdı şüar yazmaxdan ötəri qırmızı parça verirdilər. Arvadın adı Güləniydi, mənim anamın qohumuydu. Ağ tapmıllar, arvadı qırmızı parçaya büküllər, dəfn eliyillər. Arvadına da Cınqılın qızı deyirdi. Gəlir deyir, ay Cınqılın qızı, çörəh-mörəh. Deyir, Bəhram, hər şey yaxşı oldu, amma ağ tapılmadı, yazığı qırmızı parçaya bükdüh. – Hay başın batsın, – deyir, – mən xalama bələdəm. Ora çatan kimi o, cavan qızdara qırmızıyı verib ağı alajax (S.31).

**235.**

Samalyotu çox tərifliyillər. Deyir, ə, samalyotu çox tərifliyirsən. Dilim-ağzım qurusun, bəlkə göydə onun benzini qutardı. İndi mən sana o boyda nərdivanı hardan alım ki, yerə düşəsən (S.25).

**236.**

Bir gün də, üzdən irağ, Zər kəndinə hüzür yerinə gedirmiş. Bir iti varmış, it bunnan əl çəkmir. Deyir, Allahın heyvanı, görürəm mənnən əl çəmirsən. Ala pulu, sən get, mən getmirəm (S.25).

**237.**

Mənim atam Zodda baş mühasib işdiyirdi. Rəhmətdik Qamanovun da – Göyçənin Molla Nəsrəddini deyirdilər ona, – atamnan sözü-söhbəti tuturmuş, gəlif oturubmuş idarədə. Zodda Dəli Həmid olur. O gəlir atama deyir, bunu yaz, bunu yaz. Atam da əhəmiyyət vermir. Deyir, ə, bilirsən mana nə deyillər? Mana Dəli Həmid deyəllər. Qamanov rəhmətdik də ordan qayıdır deyir ki, ə, Həmid sən tək dəlisən, bunlar nəsillihcə dəlidi[74] (S.43).

**238.**

Qaçaxlar Kəlbəcərin meşələrində gizdənillərmiş, müəyyən vaxtdarda kəndə gəlif azuqə götürüllərmiş. Qamanov təşkil eliyirmiş. Qamanov özü hökumət işçisi oluf, kənd sovetdiyində işdiyif, qalxoz sədri də işdiyif. Ümumiyyətnən, sayılıf-seçilən adam oluf. Gejə müəyyən

---

[74] Söyləyicinin atası dəllər tayfasından idi.

dövrdə gəlillərmiş, ərzağı yığırmış, bunnara verirmiş. Bir gün bilillər bunu, ermənilər böyük polis dəstəsinnən gəlillər. Elə seçilən ev də Qamanovun oluf. Bəs burda qaçaxları gözdüyəjeyik. Qamanov bilib ki, xəvər sızıf. Nətər eyləsin, neyləsin? Qaçaxlar gələndə düşəjəhlər axı dallarına. Xeylax öküzü var imiş yer-zad əkmək üçün. Ermənilər atdarı bağlıyanda öküzdərnən bir dama, fermaya bağlıyıllar da. Tapşırır ki, gejə gedif yəhərləri atın belinnən götürün, öküzdərin belinə bağlıyın. Gejə hay-küy düşəndə ki qaçaxlar gəlif, atışma düşəndə polisdər qalxır ki, minsinnər ata, yəhər hardadı, ora cumullar da. Nə qədər eliyillər, getmir. Qamanov sonra inkar eliyir ki, mən eləməmişəm, qaçaxlardan kimsə gəliv, onu eliyif qəsdən (S.43).

**239.**

Bir gün də zəhləsi getdiyi bir adam varmış, Gürzalıymış səhv eləmirəmsə adı. Hasansuyu da biznən Səməddi kimi Zoddan bir az aralıydı, piyada gedif gəlirdik. Əsas idarələr də kənd soveti idi, kalxoz idi, onlar da Zodda yerləşirdi, Nəsirin diki deyirdilər, bir balaca təpə varıydı, onun üstündəydi. Qamanov o yannan gələndə görür Gürzalı duruf yolun qırağında. Bilif ki, deyəjəh, məni də götür atın tərkinə, mən də idarəyə gedirəm. Üzünü bu tərəfə çöörür ki, guya görmür də. Gəlir, böyrünnən keçir. Nəsirin dikinə çatanda isdiyir atdan düşsün, görür, Gürzalı bunnan qavax düşür. Deyir, Qamanov, sağ ol, elə məni də gətirdin düşürdün. Yəni o qədər dolu adam oluf ki, nətər atın tərkinə minif bunun xəbəri olmuyuf (S.43).

**240.**

Nərimannı kəndi var qonşuda, orda kalxoz sədriymiş. Nərmannı camaatı da Zoda qarşı bir az aqressiv idi. Köhnə dövürmüş də, atnan gedirmiş, arabaynan gedirmiş, günorta özünə yemək aparırmış. Amma qayıdıf gəlir ki, abed eləsin, görür, bunun evdən gətirdiyi qatıxdı-nədi, onu Nərmannılar oğurruyuf yeyifdi. Bir dəfə, iki dəfə, üş dəfə... Qaqarinin kosmosa uçan vaxdarı olufdu, altmış birinci il oluf. Carçıya deyir, camaatı yığ, qalxozun iclasın eliyəjəm. Camaatı yığır. Deyir, ay camaat, bilirsiniz nə var? Qaqarin Aya uçub, birinci dəfə Aydadı. Amma gedif ki, nərmannılar artığ orda örüş yeri bölüllər (S.43).

**241.**

Qamanov Göyçədə yaşıyır, Bədoy da Xanlarda. Qamanov Xanlara yas yerinə gəlifmiş. Bədoy bundan əl çəkmir ki, dur gedək bizə. Bir deyir, iki deyir. Deyir, yorulmuşam. Nə qədər eliyir, bunu razı sala bilmir. Bədoy deyir, gedənin dədəsinin goruna nallıyım. Bədoyun tayfasına Çarıxsız Abdulla deyillərmiş. Qamanov deyir, heləmi Bədoy? Dədən gora nalsız getdi. Nallıyan idin onu nallıyardın, gora nalsız getməyərdi (S.43).

**242.**

Bir dənə də arası olmuyan kolxoz sədri varmış, Ayrım Cavad deyirdilər, Bala Məzrənin kolxoz sədridi. Axşam iclas imiş rayonda. Qamanov atnan gedir. Bir ərazi varmış, Bala Məzrənin ərazisidi, sonra orda beşmərtəbə evlər saldılar. Ordan keçəndə Qamanov görür, bir erməni heyvan otarır. Zoda aidiyyəti yoxdur ey, Bala Məzrənin

ərazisidi. Atdan düşür, şallağı çəkmənin içindən çıxardır, şapbaşap bunu döyür. Ermənini salır şallağın altına, döyür, döyür, döyür, yarımcan eliyənnən sonra deyir, get, kopoğlu, mana da Ayrım Cavad deyəllər. Ayrım Cavadnan arası yoxdu axı. Erməni özünə gələnnən sonra gedif şikayət eliyir. Prakror soruşur, ə, kim vurdu? Deyir, Ayrım Cavad vurdu. Ayrım Cavadı tutuf soxullar içəri. Nə qədər döyüllər. – Ayə, deyin görüm mən nağarmışam? Axırda ermənini gətirif bunun üzünə qoyullar. – Bu idimi səni döyən? Deyir, yox, bu döyüldü. Ayrım Cavad deyir, a kişi, dəymiyin, mən bilirəm güllə mana hardan gəlif (S.43).

**243.**

Qalxozun idarəsi Hüsən çayının bir tərəfində idi, qalxozun fermaları digər tərəfdə idi. Qamanov qalxoz sədri olanda iki-üç dənə erməni gəlir qalxozu yoxlamağa. Bunlara deyir, gedək yemək yeyək. Yaz vaxdı olur, çaydan keçmək mümkün döyül. Çayın üsdünnən tir atıflar. Yerli camaat qoçaxdı, tirdən keçə bilir, amma yoxlamağa gələnlər şəhər adamıdı, bacarmırlar. – Ə, vallah, keçəmmiyəjeyih. Bu deyir, neynim, nağayrım? Bunun hərrəməsi odur ki, aktdar hamısı papkanın içindədi, papkanı bunun əlinnən çaya salsın. Özü kənd adamıdı, tirin üsdünnən keçir. Erməni deyir, ərə, bə biz nətər keçək? Deyir, sən burda xamsan, – orda da eşşək otduyur, – ona min. O eşşək buruyu tanıyır, gündə əlli dəfə keçir bu tirin üsdünnən, o səni keçirdəjək. Eşşəyi minir, hoş, hoş. Eşşək nə qədər gedəjək? Bir addım, iki addım, tarap düşür suya. Su papkanı aparır. Erməni deyir, ə, papkeyi tut, ə, papkeyi tut. Nə papka tut. Bunun hərrəməsi papka idi ki, papka getsin (S.43).

**244.**

Aşurovun dədəsinə Topal Məhəmməd deyirdilər. Qar yağıfdı. Topal Məhəmməd Qamanovun üsdünü kəsif ki, dur gedək bizə qonax. Deyir, ayə, get, gələjəm dana. Deyir, nətər gələjəhsən, bizim evi tanımırsan? Bu da axsıyırmış, axsadığına görə ona Topal Məhəmməd deyiflər. Yeriyəndə ayağını çəkə-çəkə yeriyirdi, qarda iz salırdı. Deyir, ə, izinnən gələjəm dana (S.43).

**245.**

Mılı 1948-də Göyçədən köçüf gəlif Xanlarda yaşıyırdı. Burda bir məclisdə Qamanov buna deyir, a Mılı, filan şeyi filan elə. Mılı da hörmətdi adam oluf, vəzifədə-zadda oluf. Deyir, adımı düzgün denən. Deyir, adın nədir ki? Deyir, Mehbalı. Ayə – deyir, – mən səni ordan Mılı yola salmışam. Nə bilim sən gəlif burda Mehbalı olmusan (S.43).

**246.**

Bədoynan Qamanov çox möhkəm dost oluflar. Qamanov qalxoz sədri oluf, Bədoy da onun buxaltırı oluf. Qamanov hazırcavab olmasına baxmayarax yazı-pozu işini bilmirdi, amma Bədoy savatdı oluf. Həmişə bular rayona bir gedillərmiş. Gedif yeməkxanada oturanda hesab ödəmək vaxtı gələndə Bədoy kişi qəzeti alırmış əlinə, guya qəzet oxuyur. Qamanov deyir, ə Bədoy, o qəzetə nə yazılıf? Yazılıf ki, Bədoy yesin, Bəhrəm versin? Adam oğlusan, bir gün də sən hesabı ödə də (S.22).

**247.**

Buraya – Xanlara gəlifmiş. Bizdə Aşrux varmış, onun dədəsi 48-də gələnnərdən oluf, bazarkomun müdürüymüş. Qamanov da Xanlara yas yerinə gəlifmiş. Aşrux buna deyir, bazarda işdiyirəm, gəl gedək sənə göstərim. Bazara girəndə göstərir ki, bax, bunu mən tikdirmişəm, bazarı belə abadlaşdırmışam, belə eləmişəm. Axırda ayaxyolunu göstərir. Deyir, bax, bunu da mən tikdirmişəm. Deyir, hamısı öz yerində. Amma bu ayaxyolunu yaxşı eliyif tikdirmisən, dədənin ehsanı olsun (S.22).

**248.**

Oğlunun evinə gələndə oluf. Toya gəlibmiş. Gejə işıx keçir. Hərə bir tərəfdə deyinir ki, bu işıx niyə keşdi. O vaxd da işığı matornan verillərmiş, gejənin bir vaxdı da matoru söndürüllərmiş. Bu da narahat olur ki, bu işıx niyə keşdi, nətər oldu. Axırı bunu sakitləşdirillər ki, get yat, burda adət belədi. Səhər durur stolbadan o işığı vurur baltaynan. – Ay dədə, neynirsən? Deyir, qoy mənim işığımın ixtiyarı özümdə olsun ki, istədiyim vaxt keçirim, istədiyim vaxt yandırım. Qonax oturub stolun başında işıx keçsin, niyə? Ondan sonra o ancax çırax yandırırdı, işıx yandırmırdı (S.22).

**249.**

Bir dəfə Nərimannı kəndinin içinnən keçif rayona gedirmiş, yol da məktəbin qabağınnan keçirmiş. Böyük Məzrə kəndində də Səmədov oluf, orda kalxoz sədri imiş. Görüf Səmədov səhər-səhər turnikdə çəkinir. Çatır rayona, rəyisə xəbər verir ki, Nərimannının kalxoz sədri özünü asıf. Bu da iki-üç dənə polis göndərir, gedin görün nə məsələdi.

Səmədov da bir evdə kirədə qalırmış dana. Gəlillər ki, direktor oturuf çay içir. Ermənilər deyir, şükür, Səmədov, salamatçılıxdı. Deyir, ə qardaş, deyin görüm noluf axı? – Ə, bə deyillər sən özünü asıfsan? Birdən yadına düşür ki, turnikdə dartınanda Qamanov körpünün altınnan keçirdi, o gedif xəbər verif. Deyir, o Qamanovun işi olajax (S.22).

**250.**

Bədoyun Qamanovnan çox zarafatları oluf. Deyir, a kişi, görmüşük kişinin beş-altı oğlu olar, birinin adını Əli qoyar, birini Vəli qoyar, ad tapmaz Bədoy qoyar. Bu, ata-anasının bir oğludu, adını Bədoy qoyuflar (S.15).

**251.**

Qamanov Bəhrəm kalxoz sədri işdiyəndə o vaxdı qurban kəsillərmiş yağış yağsın deyə. Deyillər Bəhrəm kişi, quraxlığ əkini məhv eliyir, bir qurban kəsginən, yağış yağsın. Bir qurbanı götürüllər, örüşün ətrafına dolandırır, ordaca kəsif camaata paylıyıllar. Sabahsı Zərkəndə yağış yağır, amma Zoda yağmır. Deyir, Allaha qurban olum, qurbanı kəsən mənəm, aparıf Zərziblə yağdırırsan (S.15).

**252.**

Onun bir işçisi olur İsgəndər kişi, adına da Qırdoy İsgəndər deyirdilər. Balaca kişi olub. Bunun kalxozunda işdiyirmiş. Bəhrəm eşidir ki, bu xəsdələnif, dünyasın dəyişir. İşçisi oluf da, gedir buna baş çəkir. Deyir, ay Qırdoy İsgəndər, nətərsən? Deyir, yoldaş Qamanov, gündə on dəfə gedirəm o dünyaya, qayıdıram bu dünyaya. Söyür bunu:

– Ə, şələş oğlu, yol ölçürsən? Niyə qayıdırsan? Getmisən, qal orda da (S.15).

## 253. KOR MUSA

Bizim kənddə Kor Musa vardı, Kor Əlif vardı, bir də Kor Qardaşxan. Üçünün də gözü qıyığ idi. O vaxdı kəntdən gələndə sankaynan gedirdilər. Bular Bala Məzrəyə nəyəsə gedillərmiş. Üçü də oturuf sankaya, gedillər. Bala Məzrə camaatı da çox baməzə camaatdı. Yerli-yersiz fərq eləmirdi, hər kəsnən zarafat eliyirdilər. Qışın günü, sanka gəlir. Arıxlardan[75] da bir-ikisi çöldəymiş. Görüllər bir sanka gəlir, üş nəfərdi, üçünün də gözünün biri kordu. Bular idarəyə girif deyillər, üş nəfər gəlir, üçü də elə bil seçilif, üçünün də bir gözü kordu. Camaat da maraxnan çıxır çölə görək nədi. Kor Musa çox hazırcavab kişi idi. Başa düşür ki, bular niyə çıxıf çölə. Yaxınnaşıb salam verir. Bala məzrəlilər də bulara baxıb gülüşür. Deyir, ə qardaş, eşitdik burda kor yoxdu, gəldik döl salmağa. Hərə bir tərəfdən bu arıxların üsdünə düşür. – Ə, nanəcib, aldınmı cavabını? Di get (S.22).

## 254-255. ƏLİŞ KİŞİ

Azərbaycandan iki yoldaş oluflar, Göyçəyə toya gedəsidilər. Pulları qutarır. Əliş də dülgər idi. Fikirrəşillər neyniyək, neynəmiyək. Əliş kişi taxtadan bir tabut düzəldir, tabutu yolun qırağına qoyur. Ağlıyır ki, arandan gəlirdik, qardaşım rəhmətə gedif. Camaat da gətirif tabutun üsdünə pul-zad qoyur. Hava da bulutduğ imiş, dolub durub. Bir qurzavoy maşın saxladırlar, tabutu maşına qoyullar, özləri də çıxır maşının üsdünə. Bunun biri də,

---

[75] Baməzəliyi ilə tanınan nəslin adıdır.

deyəsən Əliş özü olur, görür yağış yağır, girir tabutun içinə ki, yağış kəsəndə çıxaram. O vaxdı avtobus az olduğunnan maşın sahibi yolda getdikcə piyadaları götürür. Beş-altı adam da yolda götürür. Əliş də fikirrəşir, görüm yağış kəsdi, kəsmədi. Tabutun qapağın aralıyıb əlini çıxardır. Maşındakılar elə bilir tabutdakı ölü dirildi, özlərini maşından atırlar. Qarşıdan da maşın gəlirmiş, görür camaat özünü bir-bir maşından atır. Şoferə əl eliyillər ki, ə, camaat töküldü qırıldı, bir əylə, gör noluf. Bu da əyliyif, görür hərə bir yerdə düşüb qalıb. Deyir, ə, noluf? Deyir, tabutun içindəki ölü dirilif (S.22).

**255.**

Əliş rayona gedəndə görür ermənilərin toyudu. Buna da pul lazımdı. Gəlif içəriyə girəndə görür ki, qarmonun qabı pulnan doludu. Çatan şabaş verir muzukantlara, verilən şabaşları da qarmonun qabına yığıflar, qab pulnan doludu. Bir mağar quruflarmış, mağarda da bircə dənə lampışka yanırmış. Axşam düşüf, Əliş pulu aparmalıdı axı. Üş manat verir ki, mənim zakazımı çalın. Əlinin birini yerə atır, birini yuxarı, indi sınıyrmış görüm əlim çatırmı. Uzun adam olur rəhmətdik. Bir əyilir, iki əyilir, əlinə də heş nə keçmir ki, vuruf lampışkanı qıra. Züy tutan da deyir, bu Əlişin oynamağınnan heş gözüm su içmir. Əlinə bir daş keçən kimi atdığınnan lampışkanı qırır. Zülmət qarannıx olur. Hay-həşir düşür. Lampışka tapıf ora bağlıyana qədər görüllər nə qarmonun qabı var, nə Əliş. Əliş pulları götürüf aradan çıxıf (S.22).

## 256. CABBAR KİŞİ

Cabbar kişi oluf. O vaxdı, üzr isdiyirəm, Şişqayada donuz fermasında işdiyirdi. Bunu partiyaya keçirmək isdiyillər. Gətirillər oturdullar. Buna Marksın, Engelsin şəkillərini göstərillər, heç birini tanımır. Axırda Lenini göstərillər ki, bəlkə bunu tanıyar.

– Ə, bu kimdi?

Bir az fikirrəşib deyir:

– Bu heç bizim sovet hökumətinin adamına oxşamır (S.22).

## 257. XANLAR KİŞİ

Bizdə Xanlar kişi varmış. Gəlir bura Azərbaycana, qayıdanda Daşkəsəndən qayıdıf gedirmiş. Bir qapıya gedir ki, məni qonax eliyin, hava soyuxdu, burda daldalanax. Deyir, onda mal damında daldalan, evdə olmaz. Bu gedif daldalananda baxıf ki, yekə xoruzu var. Bunu evə qoymuyuflar, bu da ev sahibindən ajıxlıdı. Xoruzun başını büküf qoyur qanadının altına. Çıxıf gedəndə ev yiyəsi deyir, niyə gedirsiniz, xoruz bannıyanda gedərsiniz? Deyir, xoruz yolda da bannıyar (S.25).

## 258. QARA QAR YAĞIR

Bizdə Bəxdiyar kişi oluf. Bəxdiyar gəlif Bərdədə Vəli ağaya qonağ olur. – A bala, haralısan? Deyir, göyçəli. Deyir, a bala, çox Göyçə, Göyçə deyillər, ora nətər yerdi? Deyir, ağa sağ olsun, orda qara qar yağır, qara gün doğur. Deyir,

ə, nə danışırsan? Elə şey olarmı qara qar yağsın, qara gün doğsun? Nə vaxt gəlsəm mən onu görə bilərəm? Deyir, Novruz bayramınnan bir gün sonra gəlsən, görə bilərsən.

Deyilən vaxt Vəli ağa gəlir, Məşədi Musaya qonağ olur. Bəxdiyar da Məşədi Musanın nökəri imiş. – Ə, Vəli ağa, xoş gəlmisən, nə yaxşı belə? Deyir, gənə ölmüş Bəxdiyar olajax, o söz ondan çıxar. Onu çağırır. Deyir, ə, ağanı ayannan bəri niyə gətirmisən? Deyif ki, Məşədi, mən sözümün yiyəsiyəm. Xoş gəldin eliyənnən sora deyir, oğul, vədinə əməl elə. Özü də deyif ki, gələjəm. Əgər sənin dediyin düz oldu, bax, bu göy atı verəjəm sana. Düz olmadı, ev-eşiyini dağıdıf, səni də döyüf gələjəm. Deyir, ağa, mən sözümün yiyəsiyəm. Sabah açılır. Sabah açılanda görür qar yağır. Deyir, ağa, mən sənə dedimmi qara qar yağır. Yer qardımı, qarın üsdünə qar yağırmı? Deyir, hə. Nəysə, günorta qar kəsir, gün doğur qarın üsdünə. Deyir, mən sənə dedim ki, qara gün doğur. Qarın üsdünəmi gün doğuf? Deyir, hə. Deyir, ağa, deyəsən, bu ölmüş səni uduf axı. Atı da ona bağışdıyır, çıxıf gəlir (S.25).

## 259. KALVALI

Bir gün Kalvalı yolla gedirmiş. Səfər Verdiyev oluf. Şoferə deyif ki, bunnan benzin istə, gör nə deyir. Bu da öz eşşəyini minif gedirmiş. Məni bağışda, üzr isdiyirəm. Gedəndə əyilir deyir ki, Kalvalı kişi, benzin qurtarıb, bir az benzin ver. Üzdən irağ, eşşəyin quyruğunu qaldırır, deyir ki, canımçün, mənimki də noldadı. Deyir, gör dana nətəər eliyirsən. Məni bağışda, üzr isdiyirəm. Deyir ki, gəl şlankından sour, qoy çıxsın, tök maşına. Səfər Verdiyev deyir ki, bu köpəkoğlu bizi biyabır elədi. Prakrora deyir ki, onu çağır,

dolaşdır, sal içəri. Prakror bunu çağırır. Deyir ki, Kalvalı kişi, bir qadın sənnən ərizə verif. Xalxa sataşmısan. Bu nə məsələdi? Cavab ver görək. Məni gənə bağışda, gənə üzr isdiyirəm. Zadını çıxarıf stolun üsdünə qoyur ki, prakror sənnəndi ey, mənnən döyül. Kişiyə cavab ver görək, niyə elə iş tutmusan? Prakror deyir, səni and verirəm Kalvalı, heç kəsə demə. Bir dəst kostyum alır, ayakqabı verir, deyir, çıx get (S.25).

## 260-263. RƏFİ KİŞİ

Kəlbəcərdə birinci katib olub. Bu da çox baməzə adam olub, həm də hazırcavab olub. Burya katib gələndə deyillər ki, Rəfi kişi səni bağlıyar. Deyir, ə, Rəfi kimdir ki, məni bağlıya. Deyir, vallah, sən onnan bazdaşa[76] bilməzsən. Deyir, yaxşı. Onu güdün. İrağ üzdən, onun bir boz eşşəyi olur, aradabir minir, rayona gəlirmiş. Deyir, qış imiş, bir metir də qar yağıb. Buldozer təmizdiyif o tərəf, bu tərəfə. Rəfi başın sallıyıf rayon tərəfə gəlirmiş eşşəhnən. Buna xəbər çatanda şoferi çağırıb ki, Vazı xodda, getdik. Gəlir, türkün məsəli, maşını bunun arxasına diriyir, başdıyır siqnal verməyə. Bu nə qədər eşşəyin başın vurur, ora-bura çəkir, eşşəyi yoldan çıxarda bilmir.

– Ay eşşək qardaş, yoldan çıx.

Rəfi kişi hoppanır eşşəyin üsdünnən düşür. Deyir:

– Cənab katib, mən yoldan çıxdım, qardaşına başa sal, o da çıxsın (S.33).

[76] bazdaşmaq – bəhsə girmək, bəhsləşmək

## 261.

Rəfi kişi bir gün eşşəyə bir vedrə yumurta yühlüyür, Göyçəyə gətirir. Rəfi kişini də ermənilər tanıyır, bilillər baməzə adamdı. Dığalar yığılır bunun başına, başdıyıllar bunu danışdırmağa, o biri dığalar da bir vedrə yumurtuyu təmiz daşıyıllar. Bu bir də belə çönür ki, vedrə boşdu, altının samanı qalıb. Samanı da altdan qoyub ki, yumurta qırılmasın. Vedrəni götürüb deyir, a Basarkeçərin dığaları, Rəfi kişi nə bazara gəlif, nə də yumurta satıf. Vedrəni götürür, çıxıf gedir (S.33).

## 262.

Bir gün Rəfi gəlif Qamanovnan görüşür. Bilir ki, Qamanov ona bir söz deyəjəh. Onu qavaxlayır deyir ki, salam məlöyküm, yoldaş Qamanov, nə hallısan? Deyir, öz aramızdı, ay Rəfi, sən mənnən yallısan. Deyir, daa mənim sana sözüm yoxdu (S.25).

## 263.

Raykom katibi yolnan gedirmiş vilisnən. Bu da uzunqulaxnan qavaxda gedirmiş, belində nəsə yük aparırmış. Raykom katibi həvəsli imiş o kişiynən qavaxlaşım, görüm o nətər adamdı. Görür ki, bu, ulax qavağında gedir. Buna deyillər, Rəfi kişi budu. Yaxınnaşır buna. – Salam məlöykü. Deyir, əlöykü salam. – Ay dayı, hardan gəlif hara gedirsən? Deyir, ay bala, bir az odun qırmışam, evə aparıram. Maşını yanında saxlıyıf deyir, ay dayı, bizim maşının benzini qutarıf, bir az bizə benzin ver. Bu da eşşəyin quyruğunu qaldırır, deyir:

– A bala, mənimki də noldadı (S.22).

## 264. ZURNAÇI BABIL

Qayabaşında Zurnaçı Babıl kişi oluf. Ziyad Şərifov milisnən gedirmiş. Qayabaşılı da, üzdən irağ, eşşəknən gedirmiş. Ekskvator qarı kürüyüfmüş, yol yox idi kənara çıxa. Şərifov başını maşının pəncərəsindən çıxarır deyir ki, eşşək qardaş, yoldan çıx. Eşşəkdən düşür, çıxır kənara. Deyir ki, mən çıxdım, qardaşına de, o da çıxsın (S.25).

## 265. ALLAH, DOLU DUASI BUDUR

Hava qurax keçəndə qurban kəsəllərdi, Mir İsmayıl ağa deyilən seyid vardı Toğulcada, çox sınaxlı seyid idi, ona dolu duası yazdırallardı. Bunun əmisi[77] kəndin ağsaqqalıdı. Duanı yazdırıb atnan örüşü gəzdirirdilər, oranı dolu vurmurdu. Bir gün də, deyir, kişiyə duanı verillər ki, bunu atnan örüşə hərrə. Bu da böyün eliyərəm, sabah eliyərəm, kişinin yadınnan çıxır. Camaat da umutdudu ki, kişi duuyu hərriyif da. Dolu tapbatap əkini döyür. Arvad tələsik duuyu çıxardır dolunun qabağına:

– Allah, Allah, bax, əlimdəki dolu duasıdı (S.10).

## 266. ÖLƏN SİZDƏN OLSUN

Bizim kənddən iki nəfər Böyük Məzrəyə ölü yerinə gedibmiş. Ölən erməni idi. Orda ağlaşma qurublar. Deyib ki:

Ölən sizdən olsun,
Bel-kürək bizdən.

[77] Ərini əmisini nəzərdə tutur.

Dil deyən sizdən olsun,
Ağlayan bizdən.

O birsi də böyürdən deyib ki:

Aaz, elə demə, duyallar,
Dalına ağac soxallar (S.13).

## 267. QƏLYAN HÜSEYN

Qalyan Hüseyn atamın əmisi idi, pastayannı uzun qalyan çəkərdi. Bu da dağlarda olanda orda ispalkom işdiyirdi. Çox hazırcavab adam olufdu. Kəndə gəlmək üçün yeddi-səkgiz kilometr yol gəlirdi. Kəndə gələndə Gəncə lotuları bunun qabağını kəsir ki, Hüseyn dayıdan bir yaxşı söz eşidək. Bu da qarayanız kişi olub, qara çəyirtkə deyillərmiş bu kişiyə. Bir günnəri lotular yolda bunun qabağın kəsillər, görək bundan bir yaxşı söz eşidərikmi. Bunun qabağın kəsillər ki, a kişi, kimsən, səni öldürəjeyik burda. Deyir, ay bala, niyə öldürürsüz ki məni, dərdiz nədi? Biri yerdən bir şey götürür əlinə. Deyir, əlimdəki nədi? Düz deməsən, öldürəjeyik səni. Hüseyn kişi nə bilsin bunun əlindəki nədi? Öz-özünə belə baxır. Deyir, a qara çəyirtkə, sana dedimmi bir yerdə qal.

Hopbandın o üzə,
Tullandın bu üzə,
Axırı düşdün tora, çəyirtkə.

Lotu əlini açır:
– Ə, əlimdə çəyirtkə olduğun nə bildin? (S.41)

## 268. ALLAH BELİMİ QIRSIN

Altmış dördüncü ildə oluf, Dosdux parkı salırdılar Basarkeçərnən Daşkəndin arasında. Kəndlərin hamısından uşaxları yığıf aparıllar ki, ağacəkmə aksiyasıdı, gedin, kömək eliyin. Uşaxlardan biri ermənin in belini oğurruyur. Yaşdı ermən i oluf. Gəlif deyir, mənim belimi sizmi götürüfsüz? Deyillər ki, yox. Deyir, bəs bu belin sapı mənim belimin sapıdır. O birsi də sapı çıxardıf beli paltarının altında kürəyində gizlədir. Əlini qoyur belin üsdünə. Deyir, a dayı, əgər o bel sənindisə, Allah mənim bu belimi qırsın. Erməni də inanır, uzaxlaşıf gedir (S.37).

## 269. QOVURUN DÜZÜNƏ QƏDƏR BOŞDUR

Dalbadal ölü düşəndə bir nəfəri göndərirdilər qəbirsannığa ki, get, biz gələndə deginən yer yoxdu, yer yoxdu, gəlməyin. Zod kəndində dalbadal ölü düşür. Birin göndərillər get orda dur, biz cənazəni gətirəndə qışqır ki, yer yoxdu, yer yoxdu, hara gətirirsiz? Bu da yaxşı vurur, gəlir oturur orda. Cənazəni gətirəndə deyir:

– Gətirin ə, gətirin, Qovurun düzünə qədər boşdu (S.14).

## 270. ZƏRZİBİLİN KÜLƏYİNƏ TIĞ SOVURAM

O vaxdı tığ deyirdilər, taxılı xırmana tığ yığırdılar, külək qalxanda onu sovururdular. Kişi yatır, arvadına deyir:

– Arvad, külək başdıyanda maa xəbər ver, buğdanı sovurum.

Kişi yatır. Arvad görür, külək başdadı, kişi də şirin yuxudadı. Gəlir, deyir:

– A kişi, külək başdadı.

Kişi deyir:

– Hansı tərəfdən başdadı?

Arvad deyir:

– Bu tərəfdən.

Zərzibil tərəfi göstərir. Kişi deyir:

– Buna bax ey, mən nə kişiyəm aaz, Zərzibilin küləyinə tığ sovuram (S.14).

## 271. ƏSNƏK ƏSNƏK GƏTİRƏR

Demək, bir kişinin qonağı olur. Oturullar süfrəyə, arvad çörək gətirir. Qonax əsniyir, arvad da əsniyir. Kişi şübhələnir ki, arvad da əsniyir, qonax da, bunların bir-biriynən parolu var. Arvad yemək gətməyə gedəndə – samannıx deyilən yer olur, – kişi arvadı samannığa salır, möhkəm döyür. Gəlir oturur, başdıyır qonaxnan barabar çörək yeməyə. Qonax əsniyəndə ev yiyəsi də başdıyır əsnəməyə. Deyir, əsnək əsnək gətirirər, vay samannıxdakının gününə (S.14).

# VI. YUXUGÖRMƏ

## 272.

– Qazan asanda ölünün adını çəkib duz atmaq var idi?

– Atırdılar. Hamısını da deyirdilər. Bu gün xörək bişirməmisən, soğança eliyirsən, soğana addarını çəkif atırsan. Ruhlar gəlir evə, o elə gerçəhdi ki. Mənim atam anamnan tez rəhmətə getdi. Nəsə, anam qaldığı evdən çıxıf gedif üçüncü qardaşımın evində qalıf da. İndi oğuldu da, aparıfdı anasına bir az baxsın. Mənim atam eləjə yuxuma gəldi. Dedi, ay qız, sənin anan acığ eliyif gedif. Gəlirəm, ananı evdə tapmıram. Mən durdum telefonnan zəng elədim. Balaja gəlinimiz telefonu aşdı. Dedim, Aliyə, anam hanı? Dedi, neynirsən? Dedim, de görüm, anam hanı? Anam iki həftədi evimizdə yoxdu. Dedi, sən Gəncədə, biz Bakıda, nə bilirsən anam evdə yoxdu? Dedim, mən saa sözün düzün deyəjəm, de görüm, anam hanı, anam hara gedif? Dedi, vallah, Rasim aparıfdı ki, iki-üç həftə baxsın. Dedim, evdə dalaşığınız-zadınız olmuyuf? Dedi, yox. Dedim, anama deyərəm, sora saa deyərəm. Dedim, bə kimə zəng vurum? Dedi, qardaşına zəng vur. Qardaşıma zəng vurdum axşam işdən gələndə. Dedim, ver telefonu anama. Dedim, ana, sən iki həfdədi evdən çıxıfsan? Dedi, anan ölsün, sən nə bildin? Dedim, bax, böyün bir həfdədi atam yuxuma gəlir ki, mən gəlirəm, anan evdə yoxdu. Anan evdən ajığ eliyif gedif. Dedi, bıy, anan ölsün, a bala. Bir də yuxuna gələndə atana denən ki, anam deyir mən hələ onun yanına gəlməh isdəmirəm. Mən bir il də yaşamax idiyirəm. Dedim, yaxşı, sənin ismarışını çatdırajam. Heç atam qoymadı, atamın ili çıxmamış anamı götdü apardı (S.16).

## 273.

Qardaşım mana həmişə deyirdi ki, başını bağla, səni özümnən Haca aparajam. Deyirdim, qardaş, sənin pulunnan getmək isdəmirəm, isdiyirəm öz pulum olsun. Deyir, nə fərqi var sən, ya mən. Amma başını bağla. Mən də namaz qılıram, amma başımı bağlaya bilmirəm. Məndə zob olduğuna görə nəfəs ala bilmirəm. Yuxuda gördüm, elə gözəl azan oxunur. Azanın səsinnən getdim, gördüm yekə bir meçitdi. İnan, oğul, qurban olum sana, bəlkə nə qədər meyvə yemişəm, hamısını götürüf iyliyirəm, mən ordakı meyvənin iysini hələ heç bir meyvədən almamışam. Meyvələrin elə iysi vardı, ilahi, meyvələrin iysi oraynan bir idi. Anam yekə bir qazan asıb xörək bişirir. Millətin hamısı oturuf, namaz qılan, oturan, hamısının başı bağlı. O meçidə mən girmək istədim, girəndə bir dənə kişi gəldi, qapının ağzında durdu, məni içəri buraxmadı. Qapının ağzınnan qışqırdım, dedim, ay ana, mən gəlmişəm ey, məni içəri buraxmırlar. Məni də çağır, mən də gəlim içəri. Anam gəldi. Oğlan durdu qapının ağzında, qoymadı biz görüşək. Dedim, ana, yaxşı, hamınız burdasız, bəs Ramiz hanı? Dedi, Ramiz meçitdə namaz qılır. Dedim, ana, mən elə isdiyirəm ora gəlim. Ona yalvardım, elə yalvardım ki, burax məni, qoy gedim. Mana nə desə yaxşıdı? Dedi, get, səni üç ildən sonra bura gətirəjeyih (S.16).

## 274.

Bir söz də sizə söylüyüm. Deyillər, yuxuya inanmıyın. Mənim böyük bacımın yeddi qızı var idi, oğlan uşağı yox idi. Mənim də beş qızım var, demirəm, onların hərəsini yüz oğul əvəzinə çox isdiyirəm. Bajımın gəldi daldan dala

bir oğlu oldu. Oğlu olanda bunun yoldaşının qaynı bunlara bir qurban gətirir. Onlar Bəyimsarovda qalırdı. Oğlan uşağı olduğuna görə bir dənə heyvana qırmızı bağlıyıf bunun qapısına qurban gətiriflər. Mənim atam da üçüncü qardaşıma nişan qoyur Şəmkirdə. Bakıdan gəlif bajımgilə gedir. Bajımgilin qapısında heyvanı görəndə deyif bu nə qəşəh heyvandı. Bajım da utandığınnan demiyif ki, bunu bizə qurban gətiriflər. Atam buna deyər ki, bu heyvanı ver, nişan aparırıx, aparax ora. Atadır da, bajım üz vurmuyuf, heyvanı verif. Bajım qujağında o uşağı elə götdü mənim üsdümə gəldi ki, uşağ ölmüşdü. Qurban da işgi olan yerdə kəsilərmi? Uşağı götdü bu Gəncəyə gəldi. Bajı, uşağ ölür. Uşağı apardıx həkimə, həkimlər uşağa yaxın durmadı. Mən dirəndim həkimə... – Amma onun yuxusunu görmüşdüm. O yuxunu indi deyəjəm. – Həkimə dirəndim ki, həkim var ölünü dirildir, həkim var dirini öldürür. Biz bu uşağı nətər aparax gedək? Yeddi qızın gözü bu uşağın üsdündədi. Mən uşağımı verirəm sana, uşağı aperasiya eləginən. Uşaxda bağırsax keçməzliyi oluf. Uşağı aperasiya elə, öləjəh ölüsünü verin, aparıf gedək. Həmin uşax bu dəyqə Bakıda işdiyir. Həkim dedi, yox ey, mən isdəmirəm bizim əlimizdə ölü olsun. Dizdərimi yerə qoydum, həkimin xələtindən tutdum, yalvardım. Dedim, nə desən eliyəjəm, bircə uşağı aperasiyaya götür. Mana ərizə yazdırdılar, qol çəkdirdilər, amma uşağın anası mən döyüləm axı. Uşağın anası qalıf qıraxda. Hər şeyi imzaladım, verdim həkimin əlinə uşağı. Apardı uşağı aperasiya elədilər. Əməliyyatdan çıxanda dedim, həkim, uşax? Dedi, Allaha pənah. Uşağın heç bir yaşı yox idi. Mana dedi, uşağa üç gün də bax, üş günnən sonra sana cavab deyəjeyih. Üş gün dizimi yerə qoydum o uşağaca

qulluğ elədim. Uşax ayılannan sonra dedilər, uşağa nə yedizdirirsən? Dedim, ancax ana əmir. Dedi, indi otur uşağı əmizdir, görək uşax tutuf əmə bilirmi? Dedim, mən uşağın anası döyüləm ki.

İndi gördüyüm yuxunu danışım. Gecə mənim yuxuma gəldi girdi. Mana dedi ki, bu uşağa qurban gəlif, özünüz də seyidsiniz. Uşağın qurbanı harda kəsilif? Haramzada yerrər göstərdi. Mən bunu bacıma demədim, dedim uşağa bir şey olar, atam da, anam da – hamısı günahkar olur da. Uşax sağalıf ayağa qalxannan sonra dedim, ay ana, otur burda. Mən bacıma bir sual verəjəm. Dedim, ay bacı, sənin uşağına qurban gətirmişdilər? Dedi, hə, gətirmişdilər. Dedim, sən o qurbanı harda kəsmisən? Dedi, kəsməmişəm. Belə anamın üzünə baxdı. Anam dedi, bıy, anan ölsün. Aaz, yoxsa bizə verdiyin heyvan uşağın qurbanı idi? Dedi, ana, hə. Dedim, ana, gecə onu mana dedilər. Mana dedilər ki, bu uşağı sağaltsa, sən sağaldajan. Uşağı götdü qujağıma qoydu həmən o kişi, uzun sakqallı, nurani bir kişi idi. Dedi, bu uşağı sən sağaldajan, bu uşağı sana bağışdıyırıx. Dedim, ana, onçan mən həkimnən ayağ-ayağa durdum ki, bu uşax sağalajax, onu aperasiya eliyin (S.16).

### 275.

Yuxuda gördüm ki, dağın aşağısındayam, hündür dağdı. Dayılarımın ikisi də əlinə bel alıf arx qazıllar suyun qabağını dayandırmağa. Su elə gəlir, elə gəlir, nətəri. Birinin adı Yaqub dayı idi, biri Savalan dayı. Mən buna dedim, ay dayı, nə iş görürsünüz? Dedi, nə iş görəjeyih, buna bax, selin içində nə yata bilirih, nə dura bilirih. Dedim, yağış yağmır, bu su hardan gəlir? Dedi, başı qaldır. Belə başımı

qaldırdım ki, anam dağın başında duruf. Demək, o mənim anamın göz yaşıdı, gəlif dayılarımın yerin isdadır, onlar öz yerlərində ruhları şad oluf yata bilmir. Mən getdim Bakıya. Dedim, ana, sana bir söz deyəjəm. Dedim, ana, mən dayılarımı yuxuda gördüm. Sənin gözünün suyu mənim dayılarımı qoymur ki, yerlərində rahat yatsın. Dedi, ay bala, bunlar niyə sana gəlif deyir, bə mana niyə demirlər? Dedim, ona görə ki, sən onları incidirsən. Onnan sonra mənim anam dayandı, daha ağlamadı (S.16).

# VII. TÜRKƏÇARƏLƏR

## 276.

Yadımdadı ki, mənim böyüh dayım oğlu, əməlli başdı keçinmişdi. Arvatdar qoydular qabaxlarına, elə bil ağladılar da. O uşax mənnən iki yaş kiçik idi. Sora nənəm onu neynədi? Onu ojağın başına doladı, sora onu qırmızı parçaya pühdü, ojax olan evin astanasını qazdılar, üş dəfə o uşağı ordan saldılar çəkdilər, uşax odu yaşıyır. Qapının girişinin altını dərin-dərin qazdılar, ordan keçirdilər. Bugünkü kimi yadımdadı. Onu qırmızı bir şeyə pükdülər, onun altınnan keçirdilər. Nənəm rəhmətə gedənə kimi hər il bir qurban kəsirdi o uşağa. Qapının ağzına çənət deyirik. Uşağı ordan keçirirdilər, bir dənə də yumurta qırırdılar. Kim ki xəstələnirdi, onu ojağın başına gətirif doluyurdular, ordan bax helə keçirirdilər, orya da uşağın paltarınnan qoyuf basırırdılar. O uşax da sağalırdı. Uşağı quyudan keçirənnən sonra yumurtanı da qırıf quyunun içinə atırdılar, üsdünü də basırırdılar (S.16).

## 277.

Toxunan, vurğun vuran adamları astanadan keçirirdilər. Mənim balaja bir qardaşım var. Olan hadisəni deyim, başıma gələni deyim. Böyük bajımın toyudu. Axşam hamı yığılajax, oğlan evi qız evini toya dəvət eliyir. Bajı, qardaş gedir, amma ata-ana oğlan evinə toya getmir. Anam balaca qardaşımı mənim dalıma şəlləmişdi, özü inəkləri sağırdı, şər qarışmışdı. Deyirəm ey bizim ojax olan yerdə. Oranın uzun karidoru var. Mən də tələsiyirəm axı, hamı toya gedir, mən də getmək isdiyirəm. Bu uşağı mən karidorda vurdum

ki, sən niyə yatmırsan. Sən yatsaydın, səni yüyrüyə qoyuf gedərdim. İndi mənim əlimnənmi, nəynənsə o uşağı o karidorda vurğun vurdu. Dedilər, vuruluf. Mən uşağı aşdım verdim anama, əynimi geyif toya getdim. Toydan gələndə gördük ki, anam uşağı qoyuf ortaya, uşax ölü vəziyyətdədi. Anam mana dedi, sən neynədin ki, bu uşax belə oldu? Dedim, mən heş nə eləmədim, o uşağı karidorda döydüm. Dedi, qaç dayını çağır. Savalan adında bir dayım var idi. Dayım gələn kimi bir dənə tüfəngi götürdü, uşağı uzatdı yerə, arxadan köynəyini kəsdi. Uşağı üş dəfə o tüfəngin halqasında keçirtdi. Həmən bizim astananı qazdı, uşağı üç dəfə ordan keçirtdi, uşax sağaldı. Ondan sonra anamın qaloşdarını, mənim bir cüt ayakqabımı ora atdı, basdırdı. Mənim ayakqabılarım da qəşəh idi. Elə hey ağlıyırdım ki, mən oranı qazıf ayakqabımı çıxardajam. Anam elə məni hey gözdüyürdü ki, birdən qazıf ayakqabını çıxardaram. Mana dedi, onu ordan çıxartsan, qardaşın öləjəh. Ondan sonra qorxdum, daha dinmədim (S.16).

## 278.

Bir qadın vardı, bizdən aşağıda qalırdı dərədə. Heyvanını aparıf sürüyə qatanda, çayın qırağında, dedilər, guya toxunuflar o qadına. Qırxlıydı da, körpə uşağı var idi. Deyirdilər, elə qadına şər vaxdı çölə çıxmağ olmaz. Bizim kəndin camaatı yenə töküldü, o çayın qırağında təpə kimi yer varıydı, oranı qazdılar, o arvadı bax yenə elə keçirtdilər, gəlin sağaldı, qalxdı əyağa (S.16).

## 279.

Deyirdilər ki, bunu vurğun vurufdu, bu qorxufdu. Onda yeri qazırdılar tülkü yuvası kimi, elə qazırdılar ki, orta hissənin torpağı dağılmırdı, qalırdı. Onu parçaya büküf o başdan salıf bu başdan da çəkif çıxardırdılar. Onda nəsə də oxuyurdular. Bir onda eliyirdilər, bir də ildırım vuranda. İldırım vuran adamı yerə qoymurdular, havada çəkirdilər. Vurğun vuranı isə yernən sürüyüb çıxarırdılar. Tok vuranı parçaya bükürdülər, amma vurğun vuranı paltarrı keçirirdilər. Son vaxtlar adamlar tənbəlləşmişdi deyə o yer qazmeyi tərk eləmişdilər. Çoban tüfənginin kəmərinnən keçirirdilər. Xəsdeyi üç dəfə keçirirdilər, keçirif qutarannan sonra da oranı uçururdular (S.37).

## 280.

Bax, o qapının astanası var e, o astanadan keçirtmə varıydı. Belə varıydı ki, uşağa toxunurdular, uşax səksənirdisə, gətirirdilər astananı qazırdılar, uşağı da qırmızıya bükürdülər, o astananın altından bəriyə, anarı üç dəfə aparıb gətirirdilər. Evin girəcəyində astananı qazırdılar. Gecə yuxuda sərbəst yatmayanları, nəzər dəyənləri astanadan keçirirdilər.

Bəzən mollaya gedirlər dua yazdırırdılar, o duanı da gətirirdilər içəri tərəfdən görünməyən yerdən maykasına tikirdilər, qoy bu dua onun üstünnən əksih olmasın (S.6).

## 281.

Qızılca səpən uşağı qızıl suyunda çimizdirirdilər. Qızılı suya salıf onun suyunda çimizdirirdilər, özü də ona demirdilər boy bu nətər səpif. Deyirdilər, maşallah, maşal-

lah, nə qəşəh səpif, gül-çiçək açıf. Yəni ciyardan o təmiz çıxsın, ciyarda qalmasın. O, deyir, ciyardan səpir. Boy sözünü işdətmirdilər, deyirdilər güllü-çiçəkli oluf, nə gözəl səpif, yəni ciyar təmzidənsin, içəridə qalmasın. Bir də qırmızıya bükürdülər ki, qoy təmiz səpsin. Pastayannı da şirin şeylər yedizdirirdilər, acı, turş şey vermirdilər. Nənəm deyirdi, qızılcanı indi çıxartmasan, qəbirdə sümüyün çıxardır. Biz də gülürdük ki, sümük nətər qızılca çıxardır. Deyirdi, bala, vallah, görmüşəm. Birində qəbri açıflar, sümük elədi qıpqırmızı səpif. İndi çıxartmasan, qəbirdə də olsa çıxardırsan (S.16).

## 282.

Mənim dayımı salmışdılar inəyin dərisinə, belə tikdilər ki, onun canındakı xəsdəliyi dəri çəksin. Dayım pis vəziyyətə düşmüşdü. O dəridən sora dayım sağalmışdı. Soyuxlamanı heylə müalicə eliyirdilər. Gördülər bunun ayrı əlacı yoxdur. İnəyi soydular, kişini də lümbələm soyunduruf dəriyə bükdülər, üç gün qaldı dəridə. Ondan sonra dayım sağaldı. Onun içində elə tərləyirdi, soyuxdəymə canınnan çıxırdı (S.16).

## 283.

Yadımdadı, mən yeddidə oxuyurdum, anam səhər duruf heyvan sağmağa gedəndə görüf topuğunun divində bu yekəlihdə elə bil su töküf yandırmısan, suluxluyuf qalxmışdı. Əsli qarı vardı, çağırdıx ki, gəlif baxsın. Dedi, qurbağa tap. Yaz ağzıdı, yer donufdu. Bizim evin alt tərəfi qaramannıx[78] var. Dedi, gedin oranı qurdalıyın, ordan çıxar. Ordan

[78] Qaramannıx – bataqlıq

bir dənə qurbağa tapdıx. Qurbağanın əlini-ayağını tutdular, qarnı üsdə qoydular tuluğun üsdünə, onu sarıdılar. Anam da çığırır, bağırır, irgənir qurbağadan. Dedi ki, necə ki bu qurbağa ölmüyüf, aşmıyın. Obşim, arvad həyəcandan yatdı. Ayılanda gördü, daha qurbağanın ürəyi döyünmür. Aşdılar götürdülər, gördülər elə bil onun ayağında yara olmamışdı. Deyirdilər, həvəs yarasıdı. O qurbağa onun zəhərin çəkib ölmüşdü (S.18).

## 284.

Yaz vaxdı qoyunlar çıxıf otduyurdu, axşam tırığa düşürdülər. Niyə? Göy ot yedikləri üçün. Həmin təzəyin iysi elə ajı olurdu ki. Sən demə, o, ciyarların, bronxların bir nömrəli dərmanı imiş. Həkimlərnən girirdilər, damı təmizdiyirdilər. Deyirdim, əmioğlu, sən niyə belə iş görürsən. Dam təmizdəmək nədir ki? Biz ölməmişik. Deyir, sən onu bilməzsən. Beləcənə oturururdu, iydən göz çatdıyırdı. Gözdərindən su tökülürdü. İysi ciyarrarın və gözün dərmanı idi. Ordan çıxırdılar, çaynan qaymaq içirdilər (S.31).

# VIII. İNANCLAR

## BƏRƏKƏTLƏ BAĞLI İNANCLAR

1. Qadınnar büyün çörək bişirəjəkdisə, su qoyurdu, başın-gözün yuyurdu, salavat verirdi, ondan sonra çörək yoğururdu. Amma indikilər unun bərəkətin də qaçırıllar. O vaxdı anamgil nehrə çalxıyanda bilirdilər ki, adna günü nehrə çalxıyajeyih. Onda təmiz çimirdilər, baş-gözdərin yuyurdular, onnan sonra nehrə çalxıyırdılar (S.5).

2. Anam nehrə çalxayanda oxuyardı:

Çalxa, çalxa, yağ olsun,
Damağımız sağ olsun.
Qoyun bizim, mal bizim
Atamın canı sağ olsun.

Anamın bir belə (əli ilə göstərir – tərt.) duası var idi, nehrənin üsdünə bağlıyırdı. Guya onda yağı bol olajax (S.10).

3. Pendiri payızdan qayırırdılar, o özünü tutana qədər əvvəlki pendirdən bir az saxlıyırdılar ki, tam qutarmasın. Köhnə təzəyə qarışmalı idi. Yağı da, pendiri də, balı da bir az qabda saxlıyırdılar ki, köhnəynən təzə qarışsın. Qabda iki-üç kusok qalanda təzə pendiri onun üsdə qoyurdu ki, bərəkətdi olsun (S.10).

4. Qonşudan bir gün getdim süd isdədim, vermədi. Bir gün də dedim, sən allah, bir litr süd ver, təcili lazımdı. Gətdi ipişkayı yandırdı, içinə tökdü. Süd verirdinsə, deyirdin

qaytaranda qabı yuma. Bizdə əsas duzdur, həmin qabın içinə bir az duz tulla, ver. Bir də, xəsdə düşmüşəm, qapına dərmana gəlirəmsə, əvəzində ya qəpik verirəm, ya da üsdümnən nəsə qoparıf verirəm (S.1).

5. Heyvan satırsan, bərəkəti getməsin deyə tükündən yolursan, mal satırsan, quyruğunu qırx. Atı satanda yüyənin vermirsən, eşşəyi satanda palanını vermirsən (S.1).

6. İlin-ayın axırında qavı yumax yox idi. Deyirdilər ki, qavı yuyanda din-bərəkət gedir. Qalırdı sabağa, sabah yuyurdux. Evi süpürürdük, süpürgəni də evin küncünə qoyurdux ki, evin bərəkəti eşiyə çıxmasın (S.1).

7. Təndirdə çörək bişirəndə təsadüfən olurdu hansısa biri küt gedir. Deyirdik, mama, ver bizə, pul tapax, ver bizə, pul tapax. İnanc var idi ki, küt gedən çörəyi yeyən pul tapar (S.36).

8. Stolun üsdə çörək qalanda nənələrimiz deyirdi, çörək ortalıxda qalmaz, çörəkləri yığın. Erməni stolu döyül ki. Erməni stolu açığ olar, kim gəldi bir şey götürər. Yedin, çörək gözdəməz, günahdı, birinci çörəyi götürün. Mən nəvələrimə də deyirəm, yediniz, stoldan duranda çörəyi də götürün, aparın yerinə qoyun, sonra dalın yığışdırın (S.4).

9. Yas yerinə gedirsən, görürsən hamı çörək yeyir, hamı çörəyi ayaxlıyıf qalxır. Gözləmirlər ki, heç olmasa, "Fatihə"si verilsin. Deyirəm günahdı axı, o çörəyi niyə ayaxlıyıf qalxırsız? Qoyun molla surfa duasın versin, ondan

sora qalxın. O günahdı axı siz onu ayaxlıyıf gedirsiz. Mənim nənəm həmişə deyirdi ki, stolun üsdünü yığışdıranda birinci çörəyi götürün, sonra boşqablarınızı yığın. Bizim qonşu var, onun qardaşı Dəli Məmmədlidə qalır, adı Qoşun idi, bizim kəndə qonax gəlir. Atam bunu qəbul elədi, yemək-zad yedilər. Biz yekə qızdarıx, stolu biz yığmalıyıx. Atam dedi, ay qız, gəlin bu stolu yığışdırın. Mən birinci çörək qabını əlimə aldım. Çörəyi yığanda kişi məni çağırdı yanına, mənim düz alnımdan öpdü. Ağsakqal, yaşdı bir kişi idi. Dedi ki, mən indi gördüm ki, sən çörəyə necə hörmət qoyursan. Çörək yerə düşərdisə onu üç dəfə öpüb göz üsdə qoyardılar (S.16).

10. Nənəm bizə deyərdi ki, kişi xaylağının şalvarın yuyanda onu ayaxlarınnan başı aşağı asmayın. Biz gülüf deyirdik, nənə, niyə? Deyirdi, kişinin civi boş olur. Onu heç vaxt təpəsi aşağı sərmiyin. Şəxsən mənim qızlarım da təpəsi aşağı sərir. Deyəndə helə sərmiyin, deyillər, ay mama, köhnə adətdi. Deyirəm, ay bala, görün kişilərinizin civində pul varmı? Deyillər, guya papanın civində pul var? Deyirəm az-çox onun civində pul qalır, amma sizin kişilərinizin civində pul varmı? (S.16)

11. O vaxdı analarımız nehrə çalxıyanda onun südü yağlı olsun deyə altına gətirif yarasa ölüsü qoyurdular. Haça ağac qururdular, iki tərəfində də kəndir olurdu. Nehrəni ordan asırdılar. Onu yırğalayanda südü yağlı olsun deyə altına yarasa ölüsü qoyurdular (S.37).

12. Şər qarışan vaxtı qapının arasında durmax olmaz, ya çölə çıx, ya içəri gir. Əlini belə qoyuf (qapının kəndarına

söykəyib – tərt.) durmax olmaz, deyir, qapını kəsirsən, ruzu paylanan vaxtdı (S.4).

13. Şərnən darın arası surfa açmağ olmaz. Ya bir az ertə yeməlisən, ya da şər keşməlidi, onnan sonra yeməlisən çörək. Həmən vaxdı çörək yemək olmaz (S.4).

14. İlin axır çərşənbəsində bulağ üsdə gedirdilər, ordan yeddi daş götürürdülər. O daşın birin nehrə çalxayanda içinə atırdılar ki, bərəkətli olsun (S.6).

## YAĞIŞLA BAĞLI İNANCLAR

15. Qurbağanı diri-diri arxası üsdə qoyasan gərək, yağış yağanda qurbağa qayıdıf çönür. Neçə ki yağış yağmıyıf, o qurbağa çönə bilmir. Qurbağanı qırmızı parçaya büküf torpağa basdıranda yağış kəsir (S.15).

16. Yağış yağır, kəsmir da. Qurbağanı tutursan, qırmızıya bükürsən, torpağa basdırırsan. Guya qurbağa çığırajax, gün çıxajax, yer quruyajax[79] (S.5).

17. Təndirin içinə dəmir atırlar üsdünə qazan qoymax üçün. Biz ona xəsirgah deyirik. Yağış çox gedəndə onun üsdünə duz töküb eşikdə yağışın qabağına qoyurdux ki, kəssin (S.5).

---

[79] *Tərtibçinin qeydi:* Şərurda qurbağanı öldürüb arxası üstə qoyanda deyirdilər, tez üzü üstə çevirin, yoxsa Allaha boğma çıxardır.

18. Deyirdilər, qurbağanı arxası üstə yerə basdır, qoy yağış yağsın (S.6).

19. Bizdə ağsakqallar deyirdi, qurbağa ən saf canlıdı, dəymiyin ona. Yeganə canlıdır ki, onun ifrazatında heç bir bakteriya yoxdur. Ona zərər vurmamışıx. Qurbağanı öldürəndə deyərdilər sellab olar (S.2).

20. Lal bulax deyirdilər[80]. Ora gedəndə gərək səssiz gedif, səssiz gələsən. İşdi quraxlıx keçsə, gedif gətirirdin o sudan, bir damcı atırdın axar çaya, dünya dağılırdı. Bir nəfər göndərirdilər ora. O sudan gətirirdi, ağsakqala verirdi. Ağsakqal duasını oxuyurdu, onu çox atmırdı, bir damcı tulluyurdu. And olsun Allaha, deyirdilər çayın qırağınnan qaçın. Bir də baxırdın dünya dağıldı (S.40).

21. Dirrik vaxdı quraxlığ uzun çəkəndə – nurani adamlar vardı bizdə, – onlar məsləhət eliyirdilər ki, getsinlər daş gətsinlər. O daş hardan gəlirdi? Daşkəsənnən Göyçənin arasında Qoşqar dağı var, o Qoşqar dağına iki nəfər nurani adam gəlirdi. Onun biri dilmac gəlirdi, biri lal gəlirdi ki, danışmağ olmaz. Bu niyyət eliyif, gəlif ki, daş apara yağdırmağa. Daşı götürən adam danışmıyajeydi. Dağdı da, eldi, komdu, yaşayışdı, soruşallar ki, eloğlu, hardan gəlif hara gedirsən? Onda daşı götürən danışmamalı idi, yanındakı dilmac bunlarnan danışıf yollarına davam eliyirdilər. Gəlirdilər Qoşqara. Qoşqarın ayağınnan – bilmirəm cənub tərəfinnən, ya şimal tərəfinnən – bir dənə daşı götürül-

[80] Cil kəndində yerləşir.

lərmiş, onnan sonra da qayıdıllarmış. Daşı götürən daşı aparıf qapalı bir yerə qoyurmuş, hava işıxlananda daşı aparıf – bizdə Qarabulax var idi, təzə gəlinnəri o bulağın başına suya çıxarırdılar ki, cəmiyətə qarışsın, nişana, toya getsin, – həmin bulağın gözünə salırdılar. O nuranı adam daşı bulağın divinə qoyurdu, onnan sonra gəlirdi. Mahmud kişi var idi, nuranı adam idi, ən çox o gedirdi. Məhəmməd kişi, Rüsdəm kişi gedirdi, daşı onnar gətirirdi. Onun hansı gətsə, salırdı bulağın musduğuna, gözdüyürdülər. Sən inanırsanmı, o daş suya düşən günü bulud-zad yoxdu ey, gün adamı yandırır. Ya axşam, ya günorta bir yağış tökürdü, inan Allaha, möcüzə idi. Baxırdılar ki, yeri-yurdu su doldurdu, onnan sonra deyirdilər, o daşı çıxardın. Daşı çıxardan kimi yağış kəsirdi (S.37).

22. Kim ki ilandan danışır, deyirdilər, ayə, qıybatımızı qılıllar. Bir ilan qurbağeyi udur da. Deyir, ilan qurbağeyi udanda ilanın ağzınnan o qurbağeyi buraxdıran adamın nə günahı var keçir. İlan qurbağanı tutuf udmax isdiyir, adam ona maneçilik törədir, ilanı onun ağzından xilas edir, onda ilannan qurbağanın arasından keçərsə, onun nə günahı var hamısı yuyulur. Mən onu eləmişəm. Bir dəfə günorta üsdü idi, isdi hava idi. Evin böyrünə çıxanda bir də baxdım, orda nəsə tərpəndi. Baxdım ki, – onda da cavan vaxdım idi, qorxmax bilmirdim nədir, – ilandı, ağzında da qurbağadı. Mən ilana yaxınnaşanda bu qurbağanı buraxdı, onda mən onun arasından keşdim. Amma onda bilmədim belə bir tilsim var. Mən buların arasınnan keşdim ki, ağac götürəm ilanı öldürəm. Mən ağac götürənə qədər ilan otun arasında itdi (S.37).

23. Bizdə Qəndab arvad varıydı, aylə qurmamışdı. Qəndab arvada deyirdilər ki, get qəbirsannıxda təzə ölünün qəbrindən bir belə torpax götür, gətginən, çaya tökginən. Arvad gətirif tökəndə yağış yağır. Bir də gedirdilər Seyid Abbasəlinin ojağına. Sənəm arvad varıydı, ondan Seyid Abbasəlinin qurşağını alırdılar, gətirif suya salırdılar, yağış yağırdı. Deyirdilər ki, elə tökginən ki, heç olmuya, bir saat çəksin da yağış. Onu yuvaş-yuvaş suya tökürdü. Çox vaxt deyirdilər, bir az çox götür, qoy yağsın da. Seyid Abbasəlinin arvadı bir az natəmiz adam idi, onu qoymurdular ki, ona əlini vuran pak adam olmalıdı (S.6).

## UŞAQLA BAĞLI İNANCLAR

24. Babam Hajdan gələndə muncux gətmişdi. Uşağ olanda o muncuğu gəlif bizdən aparırdılar, uşağın üsdünə tikirdilər. Bir də baxırdın qırxı çıxannan sonra bir kilo, iki kilo şakaladnan gətirif muncuğu verirdilər. Qapının ağzına zincir vururdular. Tapşırırdılar evə çiy ət gətirmək olmaz, uşax səpişih tökür (S.13).

25. Uşağın saçını qırxı çıxanda qırxıllar, onu da götürüf saxlıyıllar. Mən bu saat nəvəmin birin saçını saxlıyıram. Ermənistandan burya qardaşımın saçın sandığın içində gətirmişdilər. Onu da dayısı qırxmalı idi, dayı nəmər verməli idi (S.1).

26. Uşağın dişi düşəndə yükün dalına atırdıx. Deyirdik, çotal dişimi sana verirəm, inci dişini mana ver (S.1).

27. Mənim atamın atası əht eləmişdi, piyada Kərbalaya gedib gəlmişdi. Üç aya getmişdi, üç aya da gəlmişdi. Adı Kalba Usub idi. Deyibdi ki, mən əhdimə sadiqəm, piyada demişəm, piyada da getməliyəm. Atamın da adını Qurandan götürüblər, peyğəmbər adıdı, Musa peyğəmbərin adıdı. Atamın qulağında sırğa taxmağ üçün deşiy olub. Nəzir demişdi ki, sırğa alacam. O vaxdı UZİ-zad yoxuydu. Elə bilif qızı olacax. Kərbəladan aypara formasında sırğa alıb gətirmişdi ki, qızım olsa, qulağına taxacam. O da oğlan oldu, qulağını deşdirib onun qulağına taxmışdı. İndi bacımdadı o sırğa. Atam, anam ona verdi.

Qardaşımın uşağında da bacım aparıb gəlini xəstəxanaya. Həkim deyir, nəmərini verərsən. Deyir, aaz, mən bilirəm, peyğəmbər olacaxdı mənim uşağım. Uşax sünnətdi olub. Gəlib deyiblər ki, ay Xumar, sən nə bilibsən bu sünnətdi olacax? Deyir, cünki niyyət eləmişəm, atam rəhmətə gedib, atamın adını qoymalıyam. Uşax sünnətli olmuşdu (S.36).

28. Əmimgil yetim oluflar, mamamgil də yetim oluflar. Üzbəüz qonşu oluflar. Əmimin birincı ayləden səkgiz il uşağı olmadı. Uşağ olmadığına görə arada söz-söhbət olurdu. Səkgiz ildən sonra qızın anası qızı boşadı, dağdan bir dənə gəlin aldıx gətirdih. Bunun uşağı olurdu ölürdü, olurdu ölürdü. Mamam lavaş bişirirdi. Əhd elədi ki, ilahi, ocax yiyəsi, onun uşaxlarını mənə ver, ona vermə. Mənim adımda olsun. İndi bu saat, bax, əmim oğlunun nəvəsi var. Mamamgil dağ rayonnarına gedəndə – qışda ora maşın işləmirdi, sankalarnan gəlirdilər Leninakana, ordan gedirdilər, – mamamnan atam getdilər bir çobannan danışdılar, quzu aldılar. Quzunu saxladılar. Uşağ oldu, indiki kimi yadımdadı,

çəkisi üş kilo yeddi yüz qram idi. O quzunu çobana kəsdirdi atam, soydu, qramına qram[81] onun ətini tərəziyə qoydurdu. Ölüyə nə lazımdırsa, mamam Masisdən hamısını götürmüşdü, məçitdə seyiddən almışdı. O əti yudu, sidr-kafurradı, hər bir şeyini elədi. Atam apardı köhnə bir qəbirsannığa basırdı. Sonra uşağı gətirdilər bizə. Mamam köynəyinin yaxasını cırdı, uşağı keçirtdi, sonra əmim bir manat pul verdi, mamamdan o uşağı aldı. O uşağın adını Qurannan götürdük qoydux. Sonra əmimim üş qızı, bir oğlu oldu.

– O ətin basdırması nə anlama gəldi ?

– İlahi, mən payımı verdim, ta mənim balalarıma dəymə. Onnan sonra əmimim usaqları ölmədi, qaldı. Bu mənim gözümün qabağında olan hadisədi. Mamam eləmişdi, biz də uşağıydıx. O ərəfədə də qonşumuzun qaynı gəlini elə elədi, uşağı özü götürdü. Elə mamam elədiyi adət kimi elədi, onun da uşaqları qaldı (S.36).

29. Uşaq, məsələn, yerimirdi. Deyirdilər, aaz, bunun çiləsi var. Xəlvirin içinə qoyurdular, dörd yol ağzında qoyurdular, yanına da kanfet, şaqalat, mer-meyvə qoyurdular. Uşağın da ayağını bağlıyırdılar qırmızıynan. Təmiz adam gəlirdi, kəsirdi, o kanfetdən də götürürdü. İnam varıydı, uşax yeriyirdi.

– Malın qabağına çıxardırdılar?

– Nahır gələn vaxt dörd yolun ağzına qoyurdular. Dururdular kənarda, iqruşka qoyurdular, uşax oynadırdı, başı qarışırdı. Yoldan keçən təmiz adam bilirdi ki, bu çilə üçün qoyulufdu. Gedirdi onu qayçıynan kəsirdi, meyvələri də götürürdü, uşax da yeriyirdi (S.36).

[81] Uşağın çəkisi qədər quzunun ətindən götürür.

30. Mən də qırxlı olmuşam, bibim nəvəsi də qırxlı oluf. Evdə adam olmuyuf, anam tək oluf. Bu vaxdı bibimin gəlini içəri girib. Anam özünü döyüf öldürdü ki, sən niyə gəlinin üsdünə getdin. Tez get bir iynə gətir, dəyişin. Onda, deyir, bir-birilərinə iynə verillər. Deyir, getdi içəridən ulduzu qırıx iynə gətirdi. Allah, bibim, deyir, elə havalandı ki, sən niyə ulduzu qırıx iynə gətirdin, o uşağın taleyində nəsə ola bilər. Sonra mən xəsdələnif eliyəndə anam söyürdü ki, o iyneyi verəndə mən bilirdim ki, bu qıza nəsə olajax.

Nənəmin bəyazı var idi, uşağın bələyinin üsdünə bağlıyırdılar. Uzun formada tikilmişdi, içində yəqin Qurana aid sözlər idi. Uşağın bələyinə bağlıyırdılar ki, uşağa nəzər toxunmasın. Ağ parçanın içində olurdu. O ana nənəmin idi, kənddə kimin uşağı olurdusa, gəlif aparırdılar uşağın üsdünə bağlamağa ki, o uşağı qoruyur (S.30).

31. Xalamın uşağı olmuyuf, məni götürüf veriflər xalama. Beşinci sinifə kimi mən doğma atama, anama xala deyirdim, amma xalamnan xalamın yoldaşına ana-ata kimi baxırdım. Elə oldu, məni götürənnən sonra xalamın gəldi bir dənə qızı oldu, yeddi dənə qurban kəsdilər. Onun dalınnan bir cüt ekiz oğlu oldu. Mənim atamın Qoşabulaxda kirvələri vardı, ora kirvəliyə gedirlər. Ordan qayıdanda öz doğma anam məni çağırdı, – indi xalamın iki dənə körpə uşağı var, özü də qırxlıdı, bu rəng parça vardı, kirvə pay vermişdi, – o parçanı qoydu, bir də xeylax kanfet qoydu ki, apar getginən. Mən onu götürdüm gəldim, içəri girəndə xalamın eltisi mənə dedi, bu nədi? Dedim, bilmirəm, xalam verifdi. Aşdı, göy parçanı görəndə arvad məni döydü. Dedi, o göy parçanı niyə bu qırxlı çağaların üsdünə gətirifsən?

Guya yaşıl parça, göy parça qırxlı çağanın üsdünə gələndə uşax göyərir. Məni döydü, sonra suyu isitdi, o parçanı da saldı suyun içinə. Mana dedi, o suyu tök, mən bu çağaları çimizdirim. Həmin parçanın suyunnan da uşaxları çimizdirdi. Onların dağdağannan hazırlanmış yekə muncuxları vardı. Nənəm deyirdi, onu asanda uşağa göz dəymir, uşağa heş nə toxunmur. Pastayannı o uşağın beşiyinnən asılı idi. Dağdağanın intresni muncuxları var idi, deyirdilər, onu da Hajdan gətirif mənim babam. Kəntdə nə qədər qadın uşağa yatanda o muncux hamının evində gəzirdi (S.16).

32. Uşağı olmuyannar niyyət tutur ki, uşağım olsun, axır çərşənbədə diləndirəjəm. Uşağı olandan sonra da boynundan bir torba asırdı, yeddi qapı diləndirirdi. Bizim kənddə də var idi o adət. Bizim kəntdə bir kişi var idi, yalan olmasın yeddi-səkgiz qız uşağı olmuşdu. O əhd eləmişdi ki, oğlum olsun, diləndirəjəm. Sonradan bir oğlu oldu, adını Dilənçi qoydu (S.37).

33. Kimin oğlan uşağı olmurmuş, niyyət eliyirdi ki, yeddi il bunu diləndirəjəm. Bayramda torba tikirdi, asırdı böyrünnən, yeddi qapıya gedirdi, baja payı isdiyirdi. Bu əhd eliyirdi ki, oğul övladım olsun, bunu yeddi il diləndirəjəm. Gətirif baja payı qoyurdular, kimi yumurta, kimi kətə çörək, Yerevan kətəsi qoyurdu. O da yığırdı aparırdı, evində ehtiyac yoxuydu, kasıbın birinə verirdi (S.6).

34. Olan kimi uşağa ad qoyurdular. Gej qoyanda deyirdilər, uşax yalançı olar. Yoldaşım rəhmətə getmişdi, onun adını nəvəmə qoyanda yaxşı bir stol aşdım, molla gətirdim ki, adın düşəri olsun. Qəvr üsdünə getdim, elə bil ondan

ixtiyar aldım, mollanı apardım ey, ondan sonra da gəldim evdə yemək yeyəndən sonra, duasını oxudu, uşağın adını da qulağına dedi. Onda adam özünü sərbəst hiss eliyir (S.4).

35. Mən onuncu sinifi təzə qutarmışdım, İrəvana getmişdim. Orda xüsusi həyətdər var idi, kənd kimi həyətli evlər idi. Bir aylənin üzvü dedi ki, bir uşax var, satırıx, alarsanmı? Dedim, mən özüm uşağam, isdəmirəm. Dedi ki, bir manat verərsən, çox yox. Bir manat verif uşağı aldım. Aldım qucağıma, sonra uşağı qaytardım bunlara. Məni örgətmişdilər ki, uşağı qucağa alarsan, sonra da bizə qaytararsan. Deyərsən uşağı saxlayın, evlənmək vaxdı olanda gəlif aparacam. Uşax mənim uşağımdı. Elə də dedim. Soruşdum, bu nə hak-hesabdı? Dedi, bu gəlini təzə gətirmişik, onun uşağı olmur. Bizə dedilər ki, olan uşax da qalan döylü. Təki bunu satasan, amma müsəlmana sat (S.34).

36. Bizdə hana qururdular, gəvə toxuyurdular. Xüsusi ağaş varıydı, ona paz deyirdilər, hananın iki tərəfinnən çalırdılar tarım durmaxdan ötəri. Toxuyannan sora indi onu ötürməh lazımdı, pazı çıxardırdılar, ağır adamlar o ağacın üsdünə çıxırdı, ağacı endirirdilər aşağı. Və təpihnən vururduxca gəvə sürüşürdü yuxarı. Gəvə qalxdıxca qadınnar altlarına taxta qoyurdular, elə-elə toxuyurdular, gəvəni kəsirdilər. Kəsənnən sora o nəzih ötürmə çubux olurdu, onu bir dənə uşağa verirdilər, deyirdilər, min, çıx eşiyə. Qavağına qız çıxsa qız, oğlan çıxsa oğlan olajax.

– Nəyi verirdilər əlinə?

– Gəvədən çıxan ağac varıydı, nazih ağac. Vərəngəlan deyirdilər ona. Aylədə hamilə qadın varsa, vərəngəlanı verirdilər oğlan uşağına ki, çıx eşiyə, qavağına qız çıxsa qız, oğlan çıxsa oğlan olajax (S.15).

37. Uşağın bir yaşı tamam olanda saçını qırxırdılar. Babası dedi qırxıla, tərəzidə çəkilə, neçə qıramdısa, o qədər pul kasıblara verilə. O tükü yerə atmağ olmaz. Onu gərək kəsəsən, kağıza, salafana büküf divarın deşiyinə qoyasan ki, ayağ altına düşməsin. Köhnə arvadlar uşağın yastığın içinə qoyurdular. Düşən göbəyi də bar verən ağacın divinə basdırırdılar (S.30).

38. Uşax olanda babası qucağına alıf dualıyıf qulağına pıçıldıyıf sənin adın budu. Bizim bir uşağımız rəhmətə gedif. Bu olanda mən isdiyirdim ki, onun adını buna qoyax. Sabir dedi, yox, qoyma, o ki bizə qismət olmuyuf, qoyma. Uşağ olur qalmır, ölürsə, ona erməni adı qoyurdular. Mənim bacımın adı Kifayətdir, beşinci qız idi. Atam adını Kifayət qoydu (S.30).

39. Babanın adını nəvəyə vermək isdiyəndə uşağın qırxı çıxanda molla gətirirdin. Sürfə təşkil eliyirsən, molla uşağın qulağına nə oxuyur, nə oxumur onu bilmirəm, ondan sonra elan eliyir ki, bu uşağın adı babasının adını yaşatmalıdı. Bir də razılığ alırsan da. Nəvəmə atamın adını qoyanda anamdan da, qardaşlarımdan da razılığ aldım. (S.6).

## GÖZ QAYTARMAQ, NƏZƏR VƏ QORXULUQLA BAĞLI İNANCLAR

40. Dərələyəzdəki evin qabağına arğalığın[82] başını vurmuşdum. Nəzər qaytarmağ üçün qapıya qoç buynuzu, keçi buynuzu vururdular. Yolluyurdular, deyirdilər, göz tikanı yığıb gətir. Gətirirdim. Neynirsən? Dedi, aparın birin

[82] arğalıx – dağ keçisinə deyilir

malın qabağına qoy, birini gətir meyvə ağaşdarının böyrünə qoy, nəzər dəyməsin (S.5).

41. Tutax ki, sənin gözümdə var. Nətər eliyirdim ki, o göz mənə dəyməsin? Sən gedənnən sonra duz yandırırdım. Gördüm keçmədi, hardasa sənin paltarınnan oğurruyuram, yandırıram, özümü də onun tüsdüsünə verirəm ki, sənin gözün maa dəyməsin (S.1).

42. Göz qaytarmağ üçün yeddi dənə rəngli sap götürürdülər, nəsə oxuyurdular, uşağın qoluna bağlıyırdılar. Bir də külü nəsə oxuyub havaya atırdılar. Kül göydə qalanda deyirdilər, bədnəzər gedir (S.23).

43. Qorxuluğu götürmək üçün ovcuna un alırdı, oxuyub, Allah, sən bunun qorxuluğun götür deyib unu evin tavanına atırdılar. Təndir yananda evin tavanı xıs olur, Xudavənd aləm, sən özün kömək ol, bunun qorxuluğun götür deyib unu ora atırdılar (S.37).

## QADA-BƏLA İLƏ BAĞLI İNANCLAR

44. El qurbanı deyirdik. Doludan, xata-bəladan qorunmağ üçün, məhsuldarlığı artırmağ üçün camaat pul yığırdı. Evdə aylənin sayını götürürdülər. Sənin evində on nəfər var, bunun evində beş nəfər var, ona görə bölgü aparırdılar. Niyyət eliyən adamlar var idi, o işə xidmət eliyirdi. Gedirdilər, o pulları evlərdən yığırdılar, hamı da o pulu verirdi. Plyus da kolxoz dəstək olurdu. Bir mal, iki mal o dəstək verirdi. Alırdılar, gətirirdilər, ev-ev bölürdülər. Adam

başına beş yüz qıram düşürdü. Bütün camaat yığılırdı, onu aparıb örüşü hərriyirdilər, gətirib qurban kəsirdilər, el qurbanı, qada qurbanı deyirdilər ona. Xəta-bəladan qorusun, məhsullarına ziyan dəyməsin. Yaz qabağı həmişə el qurbanı kəsirdilər. Aprel ayında əkin-biçin ərəfəsində təbii hadisələrdən qorunmağ üçün el qurbanı kəsilirdi, çiy paylanırdı. Orda da içalatı bişirilərdi, qulluğ eliyənlər yeyərdi (S.44).

45. Qurban demisənsə, kəsməslisən, qurbanın üsdünnən qurban ötürmək olmazdı. Bizim mal-heyvanımız çox idi. Görürdün kü, məsələn, qonşu qurban deyib, amma gücü çatmayıb qurban kəsməyə. Onda atam erkək quzunu aparırdı, deyirdi, halal xoşun olsun. Al bu qurbanı kəs, üsdünnən qurban addatma. Qurbanın üsdünnən bir il də, iki il də addatmax olmaz. Demisən, kəsməlisən. Şəxsən Cahangir rəhmətə gedəndə ağladı, qohum idi, simsar idi. Dedi, Allah mənim dilimi kəssin, qurban dedim, qurbanı kəsmədim. Atam dedi, sənə ayıb olsun, – atam onnan böyük idi, – niyə gəlib demədin? Bu uşağ avariyaya düşdü, heş nədən öldü getdi. Erkək quzunu apardı bağladı qapısına. Dedi, apar kəs, halal-xoşun olsun, bu ziyannan qayıt. Üç ildi bu qurbanı deyibsən, niyə kəsmirsən? Sənin varın yoxdu, döylətin yoxdu? Adam qurbanın üstünnən qurban[83] addatmaz (S.36).

46. Xalamnan böyür-böyürə qonşuydux. Yadıma gəlir ki, buların küçədə tut agaçı varıydı. Qışda gömgöy göyərdi, tut gətirdi. Özü də oranın qışı sərt olurdu da. Dedilər ki, onun dibində qan axıtmax lazımdı, qurban kəsməh lazımdı.

---

[83] İsmayıl qurbanını nəzərdə tutur.

Xalamda da qoyun-quzu yoxuydu. Qəşəh bir xoruzu varıydı. Mollaynan məsləhətləşdi, dedi, onun dibində olar o xoruzu kəsim, qan çıxardım da, qoy evimə ziyan vurmasın? Qışın günündə bu tut ağacı göyərdi. Xalamın yoldaşı o xoruzu onun dibində kəsdi, qəşəh təmizdədilər, qurban əti kimi hərəyə bir tikə yeddi evə verdi. Dedi, qazanları qaynasın. Ziyannıx xalam görmədi. O yadımdadı. Amma dedi ki, xoruzdan qurban olmaz. Dedi, qurban kəsmirəm, qan çıxardıram, mənim evimə, uşaxlarıma ziyan vurmasın bu ağac (S.36).

47. Qada qurbanı İsmayıl qurbanından qabax kəsilirdi. Qoymurdular İsmayıl qurbanı onun üsdünnən addasın. Deyirdilər, İsmayıl qurbanı onun üsdünnən addasa, imkan eliyif kəsməsən, gərək iki dənəsin kəsən. İki il keçdi iki dənə, üç il keçdi üç dənə. Hamı İsmayıl qurbanından qabax kəsirdi onu. Özü də gətirif bizim ocaxda kəsirdilər. Şəxsən mənim bu qızımın altı il olmadı uşağı. Mən burda özüm təşkil eliyirdim. Heyvan alırdıx. Nətər alırdıx? Bizim qonşular yoxdu? On iki nəfər, on nəfər yığılırdıx, pul qoyuf iri bir qoç alırdıx. Hər evdən də duz alırdım, burda molla var idi, ona oxudurdum, o heyvana yalatdırırdım, duzun qalanını qırağa qoyurdum. O heyvan kəsilənnən sonra on iki evə pay qoyurdum. Qurban əti tərəziyə qoyulmaz. Qurban ətini ki tərəziynən aldın, o qurban sayılmır. Ürəyinə kimi bölürdüm. O duzu da on iki nəfər arasında bölürdüm, deyirdim aparın – onu nənəm eliyirdi deyə mənim yadımdadı, – duz qabınıza atın, duzunuzu da onun üsdünə atın. O oxunmuş duzdu, din-bərəkət onun içindədi, qoyun eviniz bərəkətli olsun. Heyvanın bir budu da onu kəsənə çatırdı. Qurban kəsilən heyvanın yununu yolub yastıx eliyirdilər, uşağın başı altına qoyurdular. Onu nə döşəyə qatmırdılar, nə də

ayağ altına atmırdılar. Sümüyünü quyu qazıb basdırırdılar. Heyvanın başı altına ləyən qoyurdular, qanın hamısı o ləyənin içinə axırdı. Qanını da bişirib toyuxlara verirdilər.

Uşax sünnətli doğulanda qurban kəsirdilər (S.16).

## OVÇULUQLA BAĞLI İNANCLAR

48. Qardaşım Familin özü. Getmişik çölə, kəhlik durufdu. Vurdum. Bu çığırdı, nə çığırdı. – Onu sən niyə yerdə vurdun? – Ə, harda vurum? – Niyə uçurduf vurmadın? Dedim, ə, heç yerdə vura bilmirəm, uçurduf göydə nətər vurum? O nə olur olsun qaçırdırdı, qaçırdannan sonra vururdu. Deyirdi, xəbərdarlığ eylə, sonra vur. Deyirdim, vallah, mən heylə vura bilmərəm. Mənimki odur ki, durduğu yerdə vurum. Deyirdi ki, yatdığı yerdə heyvanı vurmax haramdı (S.5).

49. Orda içalatını bişirirdik. Doğruyurdux, pay-pay bölürdük. Deyirdi ki, üzünü tut o tərəfə. Deyirdi, bu kimin? Deyirdi, məsələn, Fazilin. – Bu kimin? – Korğulunun. Heylə bölüşdürürdük. Günüz ova çıxmırdıx. Günüz gedəndə kimsə bilərdi, şikayət eliyərdi, bizi tutardılar. Gedəndə də gejə ikidə-üşdə gedirdik ki, heyvan yatan vaxdı başının üsdünü kəsək. Bir də səhər otdamağa duranda başının üsdünü kəsirdik. Mən ən çox sürgüyə gedirdim. Altdan səs eliyirdim, o biri ovçular da bərələri tuturdu. Bunun üsdünə gedəndə bu vururdu, o birisinə çatanda o biri vururdu. İki nəfər gedirdik sürgüyə. Elə eləməlisən ki, heyvan bərəyə sarı gedə. Üçü-dördü bərədə oturufdu, hansına çatırdı, orda vururdu. Qayanın arxasında gizlənirdi. Siqaret çəkmək olmaz, danışmaq olmaz, şaqqıltı olmaz. Səhər ertəyə külək üsdən aşağı əsir, onu təyinnəşdirib oturursan (S.5).

50. Yüzüncü ov düzəldisə, vurmamalısan. Yüzüncün vursa, özü ölməlidi o ovçunun. Özü də yüzüncü heyvan belə fırranır, tik durur deyillər. Ona ombadurma deyillər. Ova gedirdik, elə heyvan olurdu ki, nə sürgüynən, nə zadnan, bir də baxırdıx özü öz xoşuynan hədəfə gəlirdi. Bizim Famil ona güllə atmırdı (S.5).

51. Yaşlılar deyirdi ki, filan vaxdı filan heyvanı vurdum, onun əciridi, çəkirəm. Mənim atamın dayısının adı İmran olub. Qulamı (atın yekəsinə deyilir – tərt.) gülləynən vuruf, onun ili onun ilinə qarışıf. Dedilər ki, onun ahı tutuf onu (S.5).

52. Rəhmətdik atam deyirdi ki, bir heyvannan neçəsin vurufsan? Deyirdim, ay lələ, mən onu sanamıram axı. Deyirdi ki, atarsan, nə vaxt ki sənin atdığın heyvan yıxılmadı, dörd ayağı üsdə durdu, deməki, o yüzüncü heyvandı (S.5).

53. İsdiyir donuz olsun, cüyür olsun. Heyvanın iki dənə qabax ayağı var, iki arxa ayağı. Bunu addelni çıxardırdım. Qabırğanı ortadan bölürdüm. Üç nəfərikmi, hər tərəfində bunun yeddi dənə, altı dənə qabırğaları olur. Üç nəfərin arasında onu bölürdüm. 21 dənə qabırğadırsa, adama yeddi dənə qabırğa düşür. Üç dənə qabax qolların hərəsini, üç dənə arxa qol. Bax, beləcənə bölürdüm, Allaha and oslun, səksən faizində elə gəlirdi ki, arasında 20-30 qram fərq olurdu[84].

[84] Bu məlumatı bizə ovçuluqla məşğul olan Topalhəsənli kənd sakini Fərrux Məmmədəli oğlu verdi.

## XIDIR NƏBİ, AXIR ÇƏRŞƏNBƏ VƏ BAYRAMLA BAĞLI İNANCLAR

54. Balaca çiləyə deyirdilər ki, aranın yazı gəldi. Aran zonasında fevral ayından əkin-biçin başdıyırdı. Deyirdilər, payızda yağan qarın ömrü var, çilədə yağan qarın ömrü qısadır. Gün uzuyur, havalar isinməyə doğru gedir, qar əri-yir. Ona görə deyirdilər, qışda yağan qarın ömrü uzundur, çilədə yağan qarın qorxusu yoxdu. Göyçədə Bala çilə çox sərt keçirdi. Bir rəvayət var. Deyir, Bala çilə Böyüh çilədən soruşur, sən neynədin? Deyir, mən getdim insanları kürsün ətrafına yığdım. Deyir, sən olara hörmət etmisən. Mən oları təndirdən soxub külfədən çıxardajam. Bala çiləynən boz ayın arasında Xıdır Nəbi deyirdilər. İnsanlar meşoxnan dəyirmanda, hətta bəzən kirkirədə qoud üyüdürdülər. Qoyurdular qarannıx, xəlvət bir yerə, Xıdır Nəbi gəlib ona əlini basacax (S.15).

55. Xıdır Elləz deyirdik. Köhnə dediyim damlar ki vardı bacalı damlar, xaşıldan da cavan qız, cavan oğlannar götürürdü, niyyət edib qoyurdu bacaya. İzdiyirdik, quş gəldi dimdiklədi, hansı səmtə getdi o qız gedəcək o səmtə. Axşam tərəfə də şirin şirniyyatdar, Yerevan kətəsi bişirərdilər, təndir kətəsi bişirərdilər, qovut olurdu, onu da şirniynən qatırdılar. Bayramdan hardasa 15-20 gün, bir aya qədər məsafə irəlidəydi. Özü də küləkli olurdu, bilirdik ki, Xıdır Nəbidi, Xıdır küləyidir. Torpağı sanı ömür versin bizlərə. Nənəm deyirdi ki, Xıdır Nəbi gəldi, Kürdoğlu qayada qaldı. Kürdoğlu gedir yaylağa. – Yaylaxda kəndin sürüynən malı-qoyunu qalırdı ota görə. Biçirdilər, taya qururdular.

Qoyun-malı orda saxlıyırdılar. – Kürdoğlu yaylaxdan gələndə boran qalxır, bir yana tərpənə bilmir. Niyə deyillər, oddan, sudan qar amannıdı. Yəni suda boğularsan, odda da yanarsan, amma qara daldalansan, sənə heş nə olmaz. Oturur, ta yorulur. Quru qar yağır, yağır, bunun üsdünü basırır. Bir də o vaxdı baxır ki, qarın bir tərəfinnən gün düşdü. İşıq düşən yerdən qarı eşib ordan çıxır. Ordan onun adı qaldı Kürdoğlu.

O vaxt camahat buğdanın yaxşılarınnan seçirdi, biz də uşağıydıx, sevinirdik. Su dəyirmanında üyüdürdük. Yadıma gəlir ki, bal qatanlar da varıdı, kəlləqənddən şərbət düzəldirdilər, şərbət qatırdılar, vallah, adamın ağzının tamı da orda qalıfdı. Həm buğdanın iysi adama xoş gəlirdi, həm də çox doyumlu olurdu. Zəyrək qatılırdı. Zəyrək, bilirsən, indi çörəyin üzünə vurullar, amma o çox yağlı bir şeydi. Onu da buğdayla qovururdular. Başa düşmürdük ki, bu bizim təzyiqimizi qaldırır. Buğdanı qavırıllar, onu kirkirədə çəkillər. Xaşıl bişirillər, cavan qızlar, oğlannar onnan götürüb bir damın üsdə qoyullar, görək məni kim isdiyir, quş hara gedir. Öz başıma da gəlif. Mən yoldaşımı alanda mal tövləsinin üsdünə çıxdım, xaşılı qoydum, özüm uzandım. Tövlənin üsdünnən baxanda buların evlərinin arxası görsənirdi. Quş getdi, – balamın canı üçün, – düz buların qapısına qoydu. Dedim, o qızı mən alacam. O vaxdı inam var idi (S.42).

56. Xıdır Nəbi fevral ayının 13-14-nə düşürdü. Niyyət eliyirdilər ki, oğlumun uşağı olsun, mən də qovut qoyuf niyyət qoyajam. Qoorğa qovrulurdu, yarım meşox buğda qovrulurdu. Kirkirədə evi yola salmağ üçün azca çəkilirdi, amma bizim evdə yarım meşox, bir meşox buğda qoorulardı, sankaya qoyuf dərmanda üyüdüf gətirərdilər. Niyyət

qoyulan gejəsi cırtdanquş deyirik, burada da bitir, çırtçırt yanır. Yananda qığılcım saçırdı. Başına pambıx doluyardıx, nehrə yağına batırardıx. Onu da həmin gün yandıran evin kişisi, ya qadını qüsullanırdılar. Meşoğun ağzını aşmazdılar. Axşam anam meşoğun ağzını açırdı, ələyi götürüb bir mejmahıya əliyirdi qalax formasında. Onnan sonra dediyim çöpün başına pambıx dolayıb yağa batırıb evdəki külfətin adınnan qovudun üsdünə qoyurdular. Hərənin adına bir çöp qoyurdular, heyvanın, toyux-cücənin, imamların adına bir çöp qoyurdu, aparırdı adam olmuyan evə, otağın bir gözünə ki, burda yatan yoxdu. Ya da Göyçədə öy damı var idi, orda heş kim yatmırdı, aparıb öy damına qoyurdu. Kişi şamları yandırıb gəlirdi. O da Allahın möcüzəsidi. İndi gətirif qouda çöp qoyuf yandırsan, çöp qoudu yandırar, ev-eşiyə od düşər. Bir elə çöpdən hamısı yanır, yumalanır düşürdü, amma evə heç nə olmurdu. Səhər gedirdilər, sevinirdik görək Xıdır Ellaz gəlifdimi. Gətirirdilər ki, bax, gəlif, bura nişan qoyuf. Kim ki niyyət eliyif qoymurdusa, o qoutdan qav-qav onnara göndərirdik. Qoudu kimi şərbət qatırdı yeyirdi. Soğança qayırırdılar, bir az da şirin atırdılar, o daha qüvvəli olurdu. Kim ki pesox qatırdı, o soğança eləmirdi, şərbətli su ilə qarışdırıb yeyirdi. Kim ki pesoğ atmıyejeydi, soğança hazırlıyırdı, qoudu da ona qatırdı. Doyumlu olurdu. Onu yeyəndə adamı axşama kimi tox saxlıyırdı. Rəvayətə görə, iki qardaşdılar Xıdır və Ellas. Olar ölmüyüf (S.27).

57. Anam qovurğanı kirkirədə çəkirdi, içinə çətənə də qatırdı dadlı olsun, yağlı olsun deyə. Bəzi adamlar kişmiş, qoz qatırdı. Çətənəni ayrıca qovururdu, qatırdı qovurğaya, sonra anam onu boşqaflarda kimin ki imkanı yoxdu, qayıra

bilmirdi, onlara da göndərirdi. Qovudu şərbətnən qarışdırıb yeyirdilər. Hələ südnən də eliyirdik dadlı olsun deyə. Anam südü qaynadırdı, qovudu tökürdü onun içinə, qarışdırırdı. Fevralın ikinci həftəsində olardı, üç gün davam eliyirdi. Qonşu arvatdar yığılıf kömək eliyirdi. Elə olurdu meşoxnan qovurğa qovrulurdu. Təndiri qalıyırdılar, yekə sajı qoyurdular, onun içində qovururdular. Yekə də surfa açırdılar. Qorğanı ora töküb üsdünü də örtürdülər ki, qovurğa yaxşı qızarsın.

Bir gün Xıdır Nəbidə meşoynan qovut eliyər, yekə teştdərə tökər. Babam deyər ki, qoyun Xıdır Elləz gəlsin, əlini bassın, sonra yeyilsin. Aparallar teşti qoyallar soyuxluğa[85]. Nökər gejə ajar. Görər ki, ürəyi gedir ajınnan. Ay Allah, nağarım, neyniyim? Qovut ordadı mana baxır, heş olmasa, onnan bir belə qayırım yeyim. Fikirrəşir, deyir Xıdır Elləzin əli oldu, mənim əlim oldu, nə fərqi var. Durur gedir qəşəh əlini basır qovudun üsdünə, atın nalını gətirir bir böyrünnən basır, qovutdan da götürür, gətirir qayırır yeyir, gedir yatır. Səhər tezdənnən Gülü nənəm qalxar, görüm, Xıdır Elləz gəlifmi. Görər Xıdır Elləz gəlif əlini basıf, nalı da düşüf. – Ay Qulu, ay seyid. Deyif, nədi, a Gülü. Deyif, qurban olduğum gəlif, əlini də basıf, nalı da düşüf. Beş dəyqənin içində kəndə xəbər yayıldı ki, Xıdır Elləz gəlif seyidin evinə. Seyid Qulu babam da çox dərrakəli kişi idi. Girif içəri, deyif hanı? İçəri girif belə baxıf, belə baxıf. Nökəri çağırıf ki, bəri gəl. Deyif, nədi, ay seyid? Deyir, heş nə eləmiyəjəm, bircə düzünü de. Bunu sənmi eliyifsən? Deyif, ay seyid, hə. Ajdım, özümü saxlaya bilmədim. Deyif,

---

[85] soyuxlux – əl damı

camaatın içinə yayılıf, bunu mən geri götürə bilmərəm. Gətirin o cöngüyü kəsin, camaata paylıyın, amma bir də belə bir iş eləmə. Axı sən mənim hörmətimnən oynuyursan. Deyif, a seyid, nağarım, nəfsim yol vermədi (S.30).

58. Xıdır Nəbi fevralın on biri-on beşi arası idi. Sajda qovurğa qovururdular, kirkirədə çəkif qovut hazırlıyırdılar. Deməli, ələkdə onu əliyirdilər, yekəsinnən xaşıl çalırdılar, amma narın hissəsinnən qout eliyirdilər. Qoudu çanaxlara tökürdülər, üsdünə qırmızı parça örtürdülər. Çıra yandırırdılar. Bunun qoja nənəsi Xıdır Nəbiyə qovudu çəkif, çanağı qoyuf, üsdünü də qırmızıynan örtüfdü. Bu da (yanındakı şəxsi göstərir – tərt.) bijin, zinanın biriydi, mənnən oxuyurdu. Bu məytəfə gedəndə tez dururdu da. Onda bir dənə nal tapıfdı, qoudun üsdünə nalı basıfdı. Guya Xıdır Nəbi gəlif, atın izi düşüf. Ayə, məytəfdən gəldik ki, Allah, bu qapıya arvatdar yığılıf. Salavat çöyürən kim, dua eliyən kim. Bu da gülür böyrümdə. Dedim, ayə, nədi o? Deyir, sonra deyərəm. Gəldik ki, arvatdarın hamısı yönü qibləyə duruf salavat çöyürür. – Ayə, bu nədi? – Ayə, gejdən duruf məytəfə ələndə götdüm nalı, qoudun üsdünə basdım, guya Xıdır Nəbi gəlif. Belə baxdım, dedim, ayə, boynu yerə soxum, sən günah qazanmırsanmı? Dedi, nə günahı var, arvatdarı ibadətə çağırdım. Gəldik, ay Allah, kəndin bütün arvatdarı yığılıb, hamı salavat çöyürür (S.44).

59. İlkinə Xıdır Nəbi gəlirdi. Fevralın onu-on dördü arası Xıdır Nəbi keçirilirdi. Bizdə tayfa-tayfa keçirirdi. Bu gün filan tayfanın Xıdır Nəbisidi, sabah başqa tayfa keçirirdi. O ərəfədə doğulan uşaqların adını Nəbi, Xıdır qoyur-

dular. Mənim yadıma gəlir, anamgil danışırdı, dayımın adı Xıdır idi. Deyirdilər, Xıdır Nəbidə olubdu, ona görə Xıdır qoyublar. Mənim yoldaşım bir gün qoudu qayırıb qoyub. Olar da dindardı, seyitdilər. Deyir, gejdənnən durdum, ayağımı beləcə basdım qouda. Səhər anam deyir, Bayram, a Bayram, bir bu yana bax. Qağam, deyir, gətdi bir qurban kəsdi. Beşinci gün axşam çıra yandırırdılar. Qəntəpər çöpünnən çıralar düzəldib hərənin adına bir çıra yandırırdılar. Çıra yandırannan sora qouddan götürüf qayırıb uşaxlara verirdilər. Çıranı yandırmamış uşaxlara bir damcı da olsun vermirdilər (S.5).

60. Bir kəndi buğdamız var, o zaman da ajdığ kimiydi. Bunun qapağını anam qaldırdı ki, – anam da ərkəsöyün adam idi, dokquz qardaşı var idi, – qout qayırajam. Deyəndə dədəm dedi, buralarnan bir eliyəssən. Dədəm pis söz işdətdi. Anam tulladı buğdanı, – ərkəsöyün adam idi, – dedi, lazım döyül, qayırmıram. Elə də borandı, fevral ayıdı. Səhər anam yuxudan durdu. Dedi, Allah sənə nəhlət eləsin. Yuxuda gördüm ki, boranda bir göy atdı gəldi, qapıya bir qamçı vurdu, dedi, kilitdidi. Şallağın, deyir, səsinə oyandım. Atama belə dedi ey, biz də uşağıx. Dedi, Allah sənə nəhlət eləsin. Xızır peyğəmbər idi o, əlində qamçı qapıya nətər vurdusa. Dedi, kilitdidi. Ondan sonra dədəm getdi bir vedrə buğda gətdi, dedi, nə qədər qayırırsan, qayır. Buğdanı qovururdux, qoyurdux orya. Soyuyurdu, qəşəh kirkirədə çəkif, əliyif yumuşağını götürürdük, yarmasınnan nə istəsən bişirirdik. Şərbətnən qarışdırıb yeyirdik (S.32).

61. Xıdır Nəbini biz fevralda keçirdirdik. Kənd var idi Xıdır Nəbi deyirdi, kənd var idi Xıdır Elləz deyirdi. Novruzdan əvvəl Xıdır Nəbi başlıyırdı. Xıdır Nəbi bayramının əsas atributu qovud idi. Sajda qırmızı buğdadan qovud qoururdular. Çox adam eliyirdi onu. Dəstərdə onu un kimi çəkirdilər, onu yağnan, balnan, pesoxnan qarışdırıb şərbənd eliyirdilər. Sonra onu bir az qaynadırdılar, halva şəklinə düşürdü. Kim isdiyirdi boşqabda yeyirdi, kim isdiyirdi dürmək büküf yeyirdi. Xıdır Nəbi də şən keçirdi. Onu niyyət eliyif teştlərdə qoyurmuşlar qaranlıx yerə. Guya ki, Xıdır Nəbinin atı gəlirmiş, Düldül imiş onun atı da, əlini basırmış, nişangah olurmuş. Ona görə də onu müqəddəs hesab eliyif Göyçədə dədə-baba adət-ənənəsi kimi keçirdirdilər (S.37).

62. Raminin[86] nənəsinin bu il bir oğlu ölüfdü, irağ evdən-eşikdən, o biri ili də bir oğlu ölüfdü Xıdır Nəbi günü. Onda belə təsəvvür yaranır Xıdır Nəbi onlara düşmür, ona görə onlar qeyd eləmir (S.23).

63. Bizə deyirdilər ki, ilin axır çərşənbəsi – həqqi onu mən gördüm, – su axmır. Dedilər, get su doldur gətir. Mən getdim ha vedrəni belə atdım, – böyüh də çayımız varıydı, – su dolmadı. Mən onu başa düşmədim. Deyir, onda nəsə niyyət eləməlisən. Su axmadı, axmadı, bilmədim axı. Dedim, bu çay niyə axmır? Elə deyənnən sora gördüm su elə getdi şarıltıynan. Vedrəni doldurdum gəldim. Dedim, ay nənə, su donmuşdu nətəri, su axmırdı, onçan gej gəldim. Nənəm dedi ki, bəs heş nə demədin? Dedim, yox, heş nə demədim. Anama dedi, bax, sana dedim, o uşağı örgət, yola salginən, niyyət tutsun getsin (S.16).

---

[86] Söyləyicinin həyat yoldaşıdır.

64. Axır çərşənbədə stolun üsdünü bəziyirdilər, stolun üsdündə qızı oturdurdular, başına da qırmızı salırdılar. Qızın qabağına güzgü qoyurdular, su qoyurdular. Uşağ idi ey. Bax, nənəmgil o uşağa deyirdi, sən nə görürsən? Uşax deyirdi, nənə, çay görürəm, çay axır. Deyirdi, tay nə görürsən? Bax, bu gün də o mənim yadımdadı. Dedi, nənə, nənə, bir dənə adam çaynan axıb gəlir, özü də üsdü-başı qandı. Onda mən gördüm nənəm əlini atdı başına-başına döydü. Anam zornan tutdu saxladı. Sən demə, nənəmin qardaşı əsgərrihdə oluf, eləcə o salamat gəlmədi (S.16).

65. Birində onun bibisi məni döydü. Onun isdədiyi oğlan var idi. Niyyət eliyif ki, görək biz evlənəjeyikmi. Bizim evdə yağımız qutarmışdı, mağazin yağı almırdılar, deyirdilər, ona ermənin əli dəyif, mundardı. Mağazinnən alıf əritdiyi yağdan mana verdi, – mənim atamın bibisi qızı var idi, – dedi, apar bu yağı dəyişdir, onun verdiyi nehrə yağını götür gəl. Mən yağı götdüm getdim, o mağazin yağını götürdü, küpənin içinnən nehrə yağınnan çıxarıf verdi. Yağ qar dənəsi kimi dən-dən idi, xoşuma gəldi. Belə ağzıma qoydum, – sən demə, qız da qapının dalında duruf qapı pusurmuş, – dedim, ay ana, ay ana, bu yağdan heş nə pişirmə, elə pis iylənir. Onda gördüm bunun bibisi çıxdı qapının dalınnan, məni elə döydü, elə döydü, anam onun əlinnən zornan aldı. Özü də otdu o ki var ağladı. Dedi, biz uje evlənmiyəjeyih. Həqqətən də, evlənmədilər. Zornan başqasına ərə verdilər (S.16).

66. Deyirdilər, xalçanı darda qoymuyun. Bir məhərrəmlih girəndə deyirdilər ki, xalça darda qalır. O xalçanı çalışırdıx məhərrəmlih girməmiş qutarax ki, xalça darda

qalmasın. Məhərrəmlikdə də qətl sınannan sora hana qururdux, qətl sınmayınca biz hana qurmurdux. Bir də ki, Novruz bayramı gələndə tələsiyirdih ki, xalçaları tez kəsəh, tez kutarax ki, bayram gəlir da, şənnih eləməyə. Gəvənin üsdə oturmayax. Qonşu gəlif mana köməh eliyirdi ki, Məhərrəmliyə qalmaginən. Nənələrimiz deyirdi ki, xalça darda qalmamalıdı. Tez toxuyun, tez qutarın ki, darda qalmasın. Məhərrəmlikdə də qətl sınana kimi heş nə eləmirdik, qətl sınannan sonra gətirib hananı qururdux. Axır çərşənbəyə qədər xalçanı qutarardıx, bir də bayram qutarannan sonra hana qurardıx (S.16).

67. Aprelin ikisi sulaşma günüdü. Bizdə yumurta bayramı olub. Nişannı oğlannara yüz bir yumurta pay aparılırdı. Mənim qardaşım nişannı idi, qız da ayrı kənddən idi. Olar dedilər, adətdi, biz sizə yüz bir dənə boyanmış yumurta gətirəceyik. Mənim rəhmətdik anam dedi, mən yumurta isdəmirəm, gətirməyin. Qoymadı gətirsinlər. Ondan bilirəm bayramda yüz bir yumurta pay aparmax olub. Oğlan evi qız evinə xonça göndərirdi, olar da onun cavabında qalın, ərdək, yumurta, şakalad göndərirdilər. Yumurtanı soğan qabığıynan boyuyurdular. Bizim kənddə kollar vardı, onun kökünü qaynadırdılar, yumurtanı da atırdılar içinə, qıpqırmızı olurdu (S.35).

68. Apreldə ermənilərin bir bayramı olub, can gülüm, onların sulaşma günü idi. Cavan qızlar, oğlannar başlarına çələng qayırırdılar, su cürdəyi götürürdülər, əllərinə də bir quruşqa alıf düşürdülər kəndin canına. “Can gülüm can-can” oxuya-oxuya kəndi gəzirdilər, qabaxlarına çıxanı

suluyurdular. Mahnını da bizim dildə oxuyurdular. Mahnının sözlərini erməni dilinə çevirmişdilər, amma nəqərat hissəsini azərbaycanca deyirdilər. Onlar rəhbərəh yumurta boyuyurdular (S.30).

69. Axır çərşənbədə niyyət tutuf eşiyə çıxırdım, görüm kişi səsi gəlir, ya qadın səsi gəlir. Kişi səsi gələndə bilirsən niyyətin yerinə yetəcək, amma qadın səsi gələndə yox (S.13).

70. İnanc var idi, səməni seyrək oldusa, o evin bərəkəti olmaz. Sıx olanda deyirdilər bu il bərəkətli olajax (S.13).

71. İlin axır çərşənbəsində qızlar yığılırdı bir otağa, bir qızı göndərirdilər ki, mis kasada su gətir. İki stəkan verirsən, deyirsən, get su gətir, birini dolu gətir, birini boş gətir. İndi hansı qabı ürəyində tutsa, onu dolu gətirsə, niyyəti qəbul olacax, boş gətirsə, onda qəbul olmuyacax (S.5).

72. İlin axır çərşənbəsi sulaşma olurdu. Ondan sonra Novruz bayramı gəlirdi, qurşaq-qurşaq deyirdik. Bajalardan qurşaq sallıyırdıx. Təzə gəlin ilin axır çərşənbəsinə qədər suya getmirdi. Qarasulax deyirdik, kəndin başı idi, orda mal-heyvan yoxuydu, suyun duru yerində saat altıda gedirdilər toynan, nağaraynan. Təzə gəlinnər yığılırdı, orda kanfet paylıyırdılar. Orda qara zurna çalırdı, oynuyub gəlirdik. Ondan sonra təzə gəlin suya çıxırdı. İlin axır çərşənbəsi vaxtı duruf gedib çaydan su gətirillər, qum gətirillər. O qumu evin küşdərinə atırdılar, malın axırına sudan atırdılar. Qəntəpər çöpünü yandırıb malın içində də ondan iylədirdilər. Çərşənbə tonqalını qalıyırdıx. Anam

deyirdi, aparın tonqalın külünü toyux hininə tökün, qoy toyux yumurtaya düşsün (S.5).

73. İlin axır təkində bulax başına çıxırdıx. Kim gedif bulağın başına şirniyyat qoyajax? Kim getsəydi, deyəjeydi filankəsin qızı bulağa birinci gedif. Elə bil ona qarşı rəğbət yaranırdı. Birinci gedən odur. Sonradan gələn o kanfeti götürürdü, başqa kanfeti qoyurdu (S.38).

74. Bayramda biz nişanlı qızdara xonça aparırdıx. Bir ayın gəlinidi, deməli, butun qonum-qonşu o qıza xonça aparırdı. Bəlkə qıza iyirmi dənə xonça yığılırdı. O xonçalarda pay qoyulurdu, məsələn, qaynənəsinə, qaynatasına dəsmal-corab qoyulurdu, saroşka qoyulurdu bəyə. Xalam qızı təzə gedibdi, xonça apardıx. Sonra o xalam qızı köhnədən gedibdi iki dənə uşağı da var, anam pay qoyurdu ku, apar bunu xalan qızına. Onnar da bizə gətirirdi (S.36).

## MƏHƏRRƏMLİK, AŞURA VƏ YAS İLƏ BAĞLI İNANCLAR

75. Seyid Bayramın ojağında bəziləri niyyət eliyib qətl sınan gün şərbət paylıyırdı. Uşağı ağköynək eliyirdilər, əmgəyinnən çərtirdilər. Onnan sora ələm gəzdirirdilər. Aşıq Hajının dədəsi Qərib Abbas gəzdirirdi, cannı kişiydi, qəşəng oxuyurdu. O gəzdirdi ələmi, ələmi coşdururdu. Gejə məhərrəmlikdə kəndin ortasıynan yolda şaxsey gedirdik:

Yezidə bax yezidə,
Çıxsın iki gözü də.
Yezid minib atına,
Nəhlət onun zatına (S.5).

76. Məhərrəmliyin üçünə kimi nə sabın əzilməzdi, nə də çimmək olmazdı. Ömürboyu qoymurdular ki, kımsə ağzına sakqız alıf çeynəsin. Uşaxlara da qadağan eliyirdilər. Qovurğa da qovurmurdular. Qovurğanı bizdə tez-tez qovururdular, təndiri yandıranda qovurğa da qovururdular. Amma məhərrəmlikdə nə qovurğa qoymurdular, nə də qoymurdular uşaxlar sakqız çeynəsin. Deyirdilər, ağzınız əyilər. Qətl sınana kimi hamı pal-paltarın yuyurdu ki, qətl sınannan sonra üç gün sabın əzilməz, paltar yuyulmaz (S.16).

77. Atam rəhmətdiyin ələmi var idi, məhərrəmlikdə ələm gəzdirirdi. Bizim kəndin içindən çay keçirdi. Uşaxlar daşın altına iyirmi qəpik qoyuf ki, görək ələm gəlif bunu tapırmı. Ələm coşan ələm idi. Atam ələmi götürür çaydan keçir, ələm gəlir iyirmi qəpiyi gizlətdiyi yerə başını qoyur. Çaydan keçəndə mənim atamın ayağında bir damcı su olmadı. Bütün kənd məətdəl qaldı. İndi o ələm durur qardaşımgildə. Məhərrəmlikdə o səsdənir. Gəlin onu sandıxdan çıxardır, qoyur yükün üsdünə. Gələn nəzir qoyur, yaylıx bağlanır, pul bağlanır. O ələmin üsdünə nə qədər pul yığılır, həmin pula ya ət alır imam yolunda ehsan verilir, ya da halva çalınır. Gələn qızlar da ələmə bağlanmış yaylıxdan götürüllər ki, ağrımıyax, biri başına, biri belinə bağlıyır.

Ələm babamnan qalmadı, Əlinin atının nalıdı. İndi beş barmax gəzdirillər ey, bizim ələm elə deyil. Bu atın nalıdı. İki dənə ələm var idi, biri yaralı, o coşmurdu. Biri coşurdu. O yaralıya gavırın qılıncı dəyif, o coşmurdu, amma o biri coşurdu (S.24).

78. Çox susayanda Məşədi ağa deyirmiş, üç xortum için, ovcunuzu salavatdıyın, o sizin yanğınızı keçirəcək. Həm də su içəndə deyillər: "Salam olsun Hüseynə, nəhlət gəlsin Yezidə" (S.8).

79. Yoldaşım danışırdı. Deyir, gejə saat on ikidi, paltar yuyuram, sərgən atıram[87]. Deyir, gördüm ki, ya Hüseyn, vay Hüseyn səsi gəlir. – Öz aramızda deyirəm bunu ha. – Şiələrdə belə şey var da, ölü düşəndə şahsey-vahsey deyəllər. Deyir, dedim ki, burda kimsə ölüf, şahsey-vahsey deyillər. Çıxır küçəyə, bir aşağı baxır, bir yuxarı, heç səs yoxdu. Bir də gəldim, deyir, paltarı atanda, balalarımın canı üçün, başımın üsdə göydə deyillər: "Ya Hüseyn, vay Hüseyn". Məhərrəmliyə də az qalır. Paltarı tulluyuf qaçmışdı içəri, eymənmişdi (S.3).

80. Abuzər peyğəmbərin səhabələrindəndi, səhrada ajınnan öldü, heş kəsə baş əymədi. Oğlunu dəfn eliyəndə dedi: "Oğul, sənin əvəzinə o qavıra girməyə hazıram, hali-müqtəlidən qorxuram". Hali-müqtəli bilirsən nədi? Kişiləri qəbrin ayağınnan salıllar axı qəbrə. O vaxd çox ağır, çox ağır bir haldı hali-müqtəli. Onun da dərmanı rukuda çox qalmaxdı. Onun, deyir, dərdinnən mən qorxuram. Qəbrin özünün də sıxıntısı var da. Rukuda çox qalanda ona kömək edir (S.3).

81. Cənazəni götürürdün. Cənazə ağır gedəndə deyirdilər, bunun gözü geridə qalıfdı, ya oğlunu evləndirmiyif, ya qızını köçürtmüyüf, gözü dalda qalıfdı. Elə ölülər vardı, götü-

---

[87] sərgən atmaq – ipə paltar sərmək

rürdün, at kimi gedirdi. Deyirdilər, Allaha şükür, oğlunu evləndirif, qızını köçürüf, hamısını ev-eşik eliyif, ona görə onun meyidi yüngül gedir. Kiminki ağır gedirdisə, deyirdilər, onun gözü geridə qalıfdı (S.6).

82. Ölü gəlib yuxuna girsə, onda bizə deyirdilər ki, bir molla tapmalısan, ona Quran oxutdurmalısan, həm də bir halva bişirtdirməlisən ki, bu ocaxdan gözü çəkilsin (S.6).

83. – Sizdə ölü gözü ifadəsi var?

– Ölü gözü hə, onu gətirillər adamın ayləsini dağıtmaq üçün. Ölünün torpağına nəysə eliyillər, onu gətirif evə töküf istəmədihləri ayləni dağıdıllar.

Atanı, ananı çox isdiyəndə onun ayrılığına dözə bilmirsən. Yad adam həmin şəxsin qəbrinin torpağından bir ovuc gətirir, sən otduğun yerdə qəfildən sənin kürəyinə tökür. Qardaşımızdan bizi elə soyutdular. O torpax tökülənnən sonra mən elə bildim qardaş mənim qardaşım döylü. Bacıma dedim, biz niyə belə oldux? Sonra baxdım ki, kürəyim təmiz torpaxdı (S.16).

84. Yoldaşımın nənəsi deyirdi, ölünü gözü dalda qalır. İndi bax, bu gün adna günüdü, mən yemək asıram, bütün ölülərimizin adını çəkirəm, birinci növbədə imamlarımızın, ondan sonra duzu atıram. Yeyən yeyir, bir belə də atıram evin, ya damın üsdünə ki, bu da ölülərin ehsanı olsun (S.4).

## MÜXTƏLİF MÖVZULU İNANCLAR

85. Bizdə seyid var idi, sovet sədri işdiyirdi. Mən görüf eləməmişdim, amma deyirdilər, içif eliyirdi. Bir kişi

vardı, o bunun əksinə danışırdı ki, bu seyid adamdı, amma içir. O özü nağıl eliyirdi ki, gəldilər yuxuma girdilər ki, sənin o seyidnən işin yoxdu, biz ona icazə vermişik işməyə. Deyir, bir dəfə yox, üş-dörd dəfə gəldi yuxuma girdi. Ona görə deyillər, ağa ilə seyidin arasına girmək olmaz. İçir, içmir, özü bilər, Allah bilər (S.34).

86. Toyda birinin gözdəsi var idi. Bir də baxırdın, qız oynadığı yerdə başın çaarğatın atdı onun başına ki, bu mənimdi, mənim oğlum sənin qızını alajax. Toyda bir də baxırdın, qız oynayanda kəlağayını çıxarıb qızın başını bağlıyırdı ki, başqa adam o qızı isdəməsin (S.31).

87. At qoşa qoyurdular. Toy vaxtı altı-yeddi kilometr aralıdan at qoşa qoyurdular. Kimin atı birinci gəlsə, ona nəmər verirdilər. Gəlini at üstündə gətirərdilər, atın yüyənini də oğlanın atası tutardı. Gəlini düşürərdilər, gəvə salardılar yerə, ayağı altında qurban kəsərdilər. Gəlin o qurbanın başınnan bədəni arasınnan keçərdi. O qurbanın qanından gəlinin də, oğlanın da alnına vurardılar (S.15).

88. Tutalım ki, qız oynuyur, oğlanın anası da çıxıf oynuyur. Qızın yaylığını öz yaylığına bağlıyır, yəni sən mənim gəlinim olasan. Ya da gəlinin başına yaylıq atarmış (S.15).

89. Allah ölənlərinizə rəhmət eləsin, yoldaşım altı aydı rəhmətə gedib. Orda qəbirsannıxdayıx. Böyürdə bir qəbrin üsdünü götürürdülər. Ustalar çağırdılar ki, a məəllim, bura gəl. Dedim, nədi? Dedi, hələ buna baxginən. Müvəqqəti başdaşı qoyuflar, o başdaşının altını qazanda paketə oxşar

kağızın içində üş dənə şəkil, bu paketin üş tərəfi qıfılla bərkidilmişdi, möhkəm-möhkəm qıfıla düyünnər vuruflar. Bir də bir salafanda qurd yağı çıxartdılar. Şəkilin birinin üsdünə yazılıfdı Səbinə, oğlanın da adı Səlimdi, bir də uşax şəklidi. Dedilər, nağayrax? Dedim, gətirin bura. Nəkqədər elədim təzə qıfıllardı, aça bilmədim. Axırda əlajım kəsildi, qıfılı daşnan qırdım ki, hər kimdi yazıxdı. Amma düyünnərin hamısın aça bilmədim. Dünən də uşaxlara dedim, düyünün qalanın açın. Bir az da uşaxlar aşdı. Dedilər, nağayrax? Dedim, qoyun dursun, gəlif getdikcə o düyünləri təmiz açax (S.6).

90. Havanın necə olacağını yaşdı kişilər necə bilirdi? Altıncı, bazar gününnən praqnoz müəyyənləşirdi. Altı-bazar günü hava necə keçifsə, müəyyənnəşdirirdilər həftə o cür keçəcək. Altı-bazar əgər soyuxdursa, küləklidirsə, həmin həftə helə keşməli idi (S.14).

91. Bazar günü ermənilər xaçı suya salır. Həmin günü biz iş görmürük (S.25).

92. Qapıda saxsağan qırıldayanda deyərdik ki, xeyir söylə, yerini dəyiş, saa yağlı bağırsağ tulluyaram. Yəni xeyirdisə, yerini dəyişir. Onda uçub o tərəfə qonurdu. Yox, durduğu yerdə qırıldıyırsa, nəsə bir ziyannıx olur (S.4).

93. Əsl seyitdərdə bir nöksan olur. Məsələn, Seyid Bayramın qızı Sədətin qəbri Yevlağın Aran kəndindədi. Onda kəkələmə var idi seyitdik ona verildiyi üçün. Nəsib[88] var idi, uşağ idim, zornan yadıma gəlir, onun oğlunun qulağı yox idi (S.7).

---

[88] Nəsib Miskin Abdal ocağında oturan şəxsin adıdır.

# IX. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1. Arvad qohumunun iti də hürəndə adama xoş gəlir (S.17).

2. Bij odur qəlbindəkini demiyə (S.17).

3. Bir dənə tərəkəmə qızını şah aparır, çox gözəliymiş. Gündə plov, gündə yeməh-işməh. Bir gün yaylaxda baxır ki, arvadı bulama buluyur. Deyir, *ooy, bulamanı buleydim, buladıxca yalerdim* (S.15).

4. Bizim kəndin əvvəl adı oluf Çamırlı, sonra Hüseynqulu ağalı, sonra Nərimanlı adlanıb. Bizim kəndin yuxarı hissəsində Qarabulax deyilən yer var idi, əlini qoyurdun, torpax elə bil ləngər verirdi. Çamırlı adı da ordan gəlirdi. Sonra Hüseynqulu ağalı, sovet dövründə isə Nərimannı adlanıb. Bizim kəndin ağsakqalları deyərdi ki, Nərimannının torpağı qızıldı. *Nərimannı torpağında camışı yatır, camışı ver, onun altındakı torpağı götür*. Yəni kəlin altında qalan torpağı ək-becər, o kəlin özündən çox pul çıxardacax. Bu Nərimannı torpağına verilən qiymət idi (S.14).

5. Dağına baxıb qar yağıdırır (S.17).

6. Danışıq dananı qurda verər (S.17).

7. Deyir ki, gedin hər kəntdən bir dəli gətirin, Zoddan kim keçsə qarşınıza, onu gətirin. Doğrudan elədilər. Çaykəndəki ermənilərin, Göygöldəki ermənilərin çıxarılmasında onların böyük rolu varıydı (S.22).

8. *Dəyirman xoruzu kimi gəlirsən yeyirsən, qıpqırmızı olursan.* Mütfə yeyənlər haqqında deyilir (S.6).

9. Dişiin dividə şirə qalıb (S.17).

10. Əlində yağı qaynayır. Tələsən adam haqqında deyilir (S.17).

11. Ermənisən, xayinsən (S.18).

12. *Eşşəyin anqırmağınnan küçüyün qışqırmağı yaxşıdı*. Payız gələndə artığ əl-ayax çəkilir, mal-heyvan içəri yığılırdı. Bütün məhsullar toplanırdı, Göyçənin qışı başlanırdı. Ondan sonra bütün qışı oktyabrdan aprelə qədər aşıqlar dövran verərdilər. Aşıq Hajı dastanları o qədər şirin danışırdı, adam isdəmirdi o məclisdən çıxsın. Bir dəfə məclisdə hamı pul verir ki, Nurəddin[89] oxusun, Nurəddin oxusun. Aşıq Hajı da belə baxır, axı ona təsir eliyir, bu duran yerdə Nurəddinin oxumasın isdiyillər. *Deyir, a Nurəddin, eşşəyin anqırmağınnan küçüyün qışqırmağı yaxşıdı.* Oxu (S.30).

13. Gəlinlər həmişə qayınnarın çox isdiyiflər. *Gəlinnən qayının sirri bir oluf.* Qayın da gəlini çox isidiyif, isdəmiyif gəlinə söz deyilsin, həmişə gəlinin arxasında duruf (S.30).

14. Göyçəlinin tərifi: *Yayda yaylağa gedib, qışda arana qayıtmıyan qazaxlıya göyçəli deyilir* (S.37).

15. Həjətnən iş görərlər, höjətnən yox (S.17).

---

[89] Nurəddin Aşıq Hacının şəyirdi olub.

16. Hər kəntdən bir nəfər gətirillərmiş. Qırxbulaxdan birin gətirəndə deyir, mən sizə dedim gedin erməni gətirin, demədim, gedin qırxbulaxlı gətirin (S.13).

17. *Xəngəl-əngəl* – Qurutdu xəngəli yalnız səhər bişirirdilər. Bir dənə xəngəl yayanda bütün millət tökülürdü. Üç qonağın varsa, görürdün iyirmi dənə qonağın var. Özü də boşqafda yemirdilər, sinidə. Gədəbəylilər üstünə karof vurur, amma göyçəlilər vurmur. Beçəli xəngəl verirdilər. Xamırı yayırdılar, qurutu tökürdülər, yağı onun üsdünə, əti də xəngəlin üsdünə qoyurdular. Onu da nə axşam, nə günorta bişirirdilər, səhər tezdən bişirirdilər. *Nənəm deyərdi, xəngəl əngəl. Əngəlimiz yenə çox olajax.* Xəngəlin əngəli ən çox qurut əzməkdi, qurut əzmək çox əngəldi. Axşamdan qurudu suya qoyurdular, hər yarım saatdan bir onu ovuşdururdular. Elə olurdu bir gün axşama kimi onu əzirdin. Sabah xəngəl bişirəcəksənsə, axşamdan onun qurudun gərək əzəsən (S.16).

18. *Xoruzun quyruğu görünür.* Həqiqət üzə çıxanda deyilir (S.17).

19. İtə deyiflər, niyə hürürsən? Deyir, qorxudurdam. Deyiflər, bəs quyruğunu niyə buluyursan? Deyir, qorxuram (S.17).

20. İti danışana deyirdilər, nə zoddu-zoddu danışırsan? (S.12)

21. İtnən yal yeyirəm (S.17).

22. Kasıbın öyü yanıb dövlətliyə xəbər olub (S.17).

23. *Kərdiyar* – İki ləkdi, birində arpa əkmisən, birində buğda. Həmin ləkdən bir şax gəlir, düz ləkin ortasıynan gedir. Bilinmir ki, nə onnandı, nə bunnan. Ona kərdiyar deyilir. Amma bunlar onu qarışıq, metis mənasında işlədir. *Birinin anası ukraynlı, atası azərbaycanlıdır, ona kərdiyar deyillər* (S.22).

24. Kolxoza komissiya gəlir, kolxoz sədri də baməzə biri olur. Ona deyillər lətifə danışıb onları güldürərsən. Kolxoz sədrinin cavabı bu olur ki, *siçan deşikdən keçəmmiyif hələ dalına süpürgə də bağladılar* (S.17).

25. *Kürd şəri* – Fevralın axırı idi. Hər kəntdən nümayəndə yığıldı ki, getsinnən Maskvaya. Onnan əvvəl dedilər, gərək teleqram vurax. Mən on üç il Kəlbəcərdə işdədiyimə görə teleqram vuranın biri mən idim. Mən teleqram vurmuşam ki, bizi incidillər, bizi döyüllər. *Bir az da kürd şəri elədim ki, anamı döydülər rayonda ki, siz Sumqayıtda belə hadisələr törədibsiniz.* O üş nəfəri mənnən qoşdular ki, onnar fəhlə idi, cannı idilər, mən bir az əciy[90] idim. Maa qoşdular ki, qarda gedib gələ bilək. Aşdıx Kəlbəcərə, teleqram vurdux Padqornıya, Suslova, üş nəfərin adıynan göndərdik (S.27).

26. Martın üzünə nəhlət iyunun 15-ə kimi (S.17).

27. *Od qonşusu, gor qonşusu.* O vaxdı insannar təndirdə köz saxlıyırdılar, onun üsdünü külnən basdırırdılar.

---

[90] əciy – zəif

Səhər ertə o külü təmizdiyirdilər, həmin köznən ocax qalıyırdılar. Kərmədən onun üsdünə yığırdılar, təndirin külfəsin örtürdülər o köz yanırdı. Qonşunun közü olmayanda gəlib səndən aparırdı. Od qonşusu ona deyilir. Gor qonşusu isə eyni qəbirstanlıqda dəfn olunanlara deyilir (S.15).

28. Oğruya dağlar da boşdudu (S.17).

29. *Pendiri duzu, arvadı özü.* Axmaq arvada əri nağarsın? (S.31)

30. *Qırmızı alma göndərmək* – Xanlar rayonunda Qərib İsgəndərov var idi, katib idi. Dedi ki, ola bilməz, göyçəliləri bu kəndə qoymarıx biz. Qabağımızı kəsdilər, döydülər. Gəldik burda ermənilərnən ev dəyişməyə, yolda saxladılar avtobusları, dəfələrnən döydülər bizi. *Dedilər, qırmızı alma göndərmişik sizə, niyə gəlmisiz? (S.12)*

31. Qırx il quraxlıx oldu, heş nə olmadı, bir il yağıntı oldu, ajlıx oldu (S.17).

32. *Sürü dağa gedəndə axsax dalda qaldı, dağdan qayıdanda qabağa düşdü.* Eləsi var, irağ üzdən, qapısında itin də tanıyıram, indi həmin adamlar yolnan gedəndə adama salam vermir (S.24).

33. Tələsən tərsinə düşər (S.31).

34. *Toyda oynamaz, vayda ağlamaz.* Xeyrə-şərə yaramayan adam haqda deyilir (S.17).

35. *Yiyəsiz arvad yüyənsiz at.* Atı yüyənsiz saxlamaq mümkün döyül, arvadı da ərsiz (S.17).

# X. BAYATILAR

1. Bizdə Qoşnalı kişi varıydı. Çox əzazil adamıydı, gəlinnən yola getmirdi. Bir gün bu xəsdələnir, ölüm ayağındadı. Üş dənə də gəlini varıydı. Gəlinnərin çağırır ki, gəlin bura. Deyir ki, Kəlanın qızı, mən belə baxıram, bunlar məni urvata mindirmiyəjək. – Axı urvat qoymuyuf ki, urvata mindirələr. – Kəlanın qızı, məni belə deyif ağlıyarsan. Deyir, Qoşnalı əmi, nə deyif ağlıyım? Deyir, deginən ki, Qoşnalı əmi:

Gedirsən, at gedirsən,
At üsdündə mat gedirsən.
Əvvəlin geri qalmayıf
Öləndə prastoy saldat gedirsən (S.5).

2. Bizim kənddə bir kürd var idi, Kürd Səməd. Balacaboy bir kişi idi. Onun göyçək bir oğlu olmuşdu. Anam həmişə onu görəndə deyirdi:

Eləmi, qurud aşı,
Yeməyə qurud aşı.
Mövlanın könlü olsa,
Göyərdər quru daşı (S.10).

3. Yağış yağar, qar çilər,
Öyümüzə dolar elçilər.
Anam deyər qoy verək,
Atam deyər qoy görək (S.32).

4. Əzizinəm, yaranar bir
Yaranar yüz ildən bir.
Sən bilikdə, sən biçimdə oğlannar dünyaya
Gələr yüz ildən bir (S.32).

5. O tayda qoşdar durar,
Yerrərini xoşdar durar.
A gözəl qardaş, sən gedərsən[91],
Yardığın dağlar, tökdüyün daşdar durar (S.32).

6. Qar daşı,
Qarlı dağdan qar daşı.
Yaddan qardaş olmaz
Çağır gəlsin qardaşı (S.32).

---

[91] Söyləyici bayatını vaxtilə dağda çalışmış qardaşına uyğunlaşdırıb deyir.

# XI. OYUNLAR VƏ SİCİLLƏMƏLƏR

## 1-8. AŞIQ OYUNU

Heyvan kəsiləndə o aşıxları çıxarırdılar, onun bəzisini oyub içinə qurğuşun tökürdülər, ona sakka deyirdilər. Onu atanda gərəh şeş dura da, şeş düşə. Kimin aşığı şeş durursa, o qabaxkınnan aşıx alırdı. Onu da irəhliyirdilər, kəndirə düzüb dirəhdən asırdılar.

Sora buzun üsdündə cız çəkirdilər, aşıxları yan-yana düzürdülər. O sakka dediyim qurğuşunnu olurdu, onu buzun üsdünnən fırradırdılar, kimin aşığı gedif neçə dənə aşığı çızdan çıxarırdısa, oyun onun olurdu. Bax, belə bir oyun varıydı, aşığ-aşığ oyunu.

Aşığın alçı tərəfinə şeş deyilir. Onun bir tərəfi yasdı olur, içinə qurğuşun tökürdülər. Qurğuşun olmasa, hər saatı alçı durmazdı. Onun ortasını oyuf qurğuşun tökürdülər, o atan kimi şeş dururdu, həm də buzun üsdündə yaxşı sürüşürdü. Həm də uşaxlar onu satırdı bir-birinə. – Əyə, filankəsin bir qatar aşığı var e. Uşax da yumurtadan, puldan verib ondan aşığ alıf oynuyurdular. İpə keçirirdilər, onu dirəhdən asırdılar, boyuyurdular qırmızı, yaşıl (S.15).

## 2.

Bəybəyi iki nəfərnən oynanılırdı. Bəybəyi oyununda əsas bəyi vurmağ idi. Demək, kim o bəyi vursa, aşığ onun idi. Tutaq ki, beş aşıx o tərəfdə, beş aşıx bu tərəfdə, biri ortada olurdu. Bəy ortadakı aşığa deyilirdi. Deməli, ordan atırdın, yaxın gedəmməzdin. Tutaq ki, beş metrdən atmaq lazım idi. Neçə ki bəyə dəymiyif, sən udammırdın, elə ki

bəyi vururdun, aşığın hamısı sənin idi. Ona görə bəybəyi deyirdilər. Bəyi ki vururdun, aşığın hamısı sənin idi. Bəy hökmən o biri aşıqlardan fərqlənirdi. Onu rəngləyirdilər. Adicə nar qabığı ilə rəngləyirdilər, cürbəcür şeylərnən rəngləyirdilər. Qoç aşığı iri olurdu. Aşıxları biznən deşirdik, kəndirə keçirirdik, heylə saxlıyırdıx.

Aşığın iki növü var idi, biri bəybəyi idi, digəri də elə dururdular atırdılar. Kim vursa, vurduğunu o götürürdü. Aşıxları düzürdülər, müəyyən məsafədən də atırdılar. Hansını vursa, götürürdülər. Elə ki dayandı, vura bilmədi, o biri gəlirdi. Amma bəybəyidə bəyi kim vursa, hamısı onun idi (S.17).

**3.**

Dik duran tərəfə bəy deyirdik, onun əksinə eşşək deyirdik. Oyuna təktoxan deyirdik. Nərimannıda ən çox aşıq oynanılıb. Cız çəkirdik. Hesab elə, beş-altı nəfər aşığı qururdu. Aşığın dörd tərəfi var. Toxan, cik, bəy və eşşək tərəf. Dik duran tərəfə bəy deyirdilər, onun əksinə eşşək. Aşıxları qururdux. Tutax ki, beş nəfərik, hərəyə bir aşıx yerə qururdux, üş metr ölçürdük, ordan vururdux. Hərəmizin də bir sakkamız vardı. İçərisinə qurğuşun tökmürdük, onda deyirdilər, cığallıx eliyirsən. Aşıxları vururdux, vurulan aşıxlardan hansının toxan tərəfi düşürdüsə, onu götürürdü, düşməyənləri yerinə qoyurdu, bu səfər o birsi vururdu. Axırıncı aşıx udulana kimi oynanılırdı (S.26).

**4.**

Bir də aşıxnan "Əl üç addım" oynuyurdux. Əl üç addım nədi? Bayaxkı təktoxan oynundakı kimi aşıxları

düzürdük. Əlnən də eliyirdilər, biz ayaxnan hesablıyırdıx. Aşıx üç ayax məsafədə cızdan çıxıfsa, hamısı sənin idi, çıxmıyıfsa, qururdux o birsi vururdu (S.26).

**5.**

Cız çəkilir, dairənin ortasına aşıxlar düzülür. Mən vurdum, hesab elə, mənim sakkam cızın yanında qaldı, aşıx çıxdı. Cızdan çıxıfsa, bu dəfə başdıyırdım cızın divindəkiləri vurmağa. Elə olurdu yerə beş dənə aşıx qurulufsa, beşini də vura bilirsən. Amma o biri oyunlarda heylə şey yox idi. Yerə qurulan aşıx cızın üstündə dururdusa, sudya qoymuşuxsa, həmin aşıx o sudyanın idi. Eləsi var idi cığallığ eliyirdi. Deyirdik, Əli, sən sudyasan, sudyalıx elə, qoy heş kim cığallığ eləməsin. Sudya düzgünlüyü təmin eliyirdi. Aşıx cızın üsdündə qaldısa, o sudyanın payı idi.

Bir də sap deyirdik. Deyirdik ki, beş dənə hərəmiz aşıq qoyurux, sap atırıx. Nə idi sap? Yəni ki, bəy tərəf düşsə, neçə dənə də cik düşsə, onu götürürdü. Ondan sonra bir də atırdı. Bək düşmüyüf cik düşsə, onu udmudu, gərək bəy və cik düşə ki, onları uda bilər (S.26).

**6.**

Aşıx sıravı aşığ olurdu, bir də gülləli aşıx. Yekə aşıxlardan sakka düzəldirdik. Yekə aşıxları deşirdik biznən. Bizi qızdırırdıx, hardan ki, qurğuşun töküləcək, deşdiyimiz yerləri də noynan birləşdirirdik. Sonra qurğuşunu dəmir qabda əridirdik, anamızdan xamır alırdıx, deşdiyimiz aşığı xamırın içinə qoyurdux ki, qurğuşun dağılmasın. Qurğuşunu əridib onun çökək yerinə tökürdük. Qurğuşun dolurdu, soyuyan kimi götürüb üsdünü təmizdiyirdik, o

ağır olurdu. Aşıxda dörd-beş deşik açırdıx, o deşikləri də noynan birrəşdirirdik. Qurğuşunu həmin deşiklərə tökürdük. Aşıxlarnan həm düzmə oynuyurdux, həm də qala qururdux. Düzmədə aşıxları əsgər kimi düzürdük, düzəndən sonra ətrafına dairə çəkirdik, burdan da metrələyib ölçürdük. Yaşa baxırdıx, yekələr üç addım məsafə qoyurdu, balacalar bir-iki addım. Yerdən cız çəkirdik, o cızın arxasından ancaq ata bilərdin. Cızın arxasında duruf sakkaynan nişannıyıf vururdun. O dəyən kimi aşıxları dağıdırdı. Çölə çıxan sənin idi, çıxmıyan qalırdı orda. Ondan sonra gedirdi cızın qırağında dururdu, sakka ilə bir-bir aşıxları dənniyirdi. Neçəsi çıxsa, onun idi. Cızda qalanı sıra ilə düzürdülər, gənə atırdılar. Vurdu vurdu, vurmadı, ondan sonrakı atırdı. Axırıncı aşığa qədər oynuyurdular. Hərə də yerə beş aşıq, altı aşıq, on aşıq qoyurdu. Aşıq da o vaxdı dəyərli şey idi (S.37).

### 7.

Qalaqurma oynuyurdux. Hərəyə beş aşıq düşürdük. Dördünü yanaşı qoyurdux, onun üsdünnən gənə bir etaj, onun üsdünnən gənə bir etaj. Neçə etaj isdiyirsən qur. Əslində üç etaj olurdu. Ondan sonra onu da məsafə qoyuf ordan vururdun. Qalanın ətrafında da cız olurdu. Qaleyi vurdun, cızdan çıxan sənin idi. Çıxmayanı da yanında duruf çirtməynən vururdular. Kim çox çıxartsa, onun olurdu. Aşıqları da boğazınnan deşirdik, boyuyurdux yaşıl, qırmızı, sarı. O vaxdı parça boyamax üçün təbii rəhlər olurdu, anamızdan alırdıx, aşıxları onun içinə salıf boyuyuf, biznən deşif ipə düzürdüh. Ona da qatar deyirdik. Elə adam olurdu on qatar aşığı var idi. Elə adam vardı qatarı əlində, çiynində

saxlıyırdı, çox adam da torbaya doldururdu. Qala oyununda vuruf çıxardammasa, o birsi vururdu. Qalanı vurub dağıdannan sonra o birsi vuranda qala təkrar qurulurdu. Çıxan çıxardı, cızın içində olanı gənə qururdular. Yaxın düşdü, ondan sonra yaxındakını çirtməynən vururdu. Çıxartsa, birin də vururdu, çıxardammasa, qayıdıf düzürdülər gənə (S.37).

**8.**

Aşığın dörd üzü var: bəy üzü, gizir, oğru, əkinçi. Tini üstə dururdusa, yeddi il bəy. Gərək kimsə yeddi dəfə bəy ataydı ki, səni bəylikdən çıxarardı. Kim oğru düşdüsə, gizir deyirdi, bəyim, bəyim, oğrunu tutmuşam. Bəy də oğruya cəza verirdi. Deyirdi, ya bir çırtıx vur, ya iki çırtıx vur, ya qulağından dart, ya da başında əkin ək. Əkin də nətəri? Barmağın salırdı, kotan kimi başının dərisin sıyırırdı. Gizirin insafı vardısa, yavaşca eliyirdi, insafı yoxuydusa, bərk eliyirdi. Aşığın yastı tərəfi düşəndə bəy olurdu. Bəyin alt tərəfi gizir sayılırdı, sağ tərəf əkinçi, əkinçinin tərs tərəfinə isə oğru deyirdik. Bəyin baş tərəfi tininə duranda – o da hər saat durmurdu, çətin dururdu, – duranda da yeddi il bəy olurdu. Əks tərəfi tərsinə durada yeddi illik vəzir deyirdik. Onu bəylikdən salmaq üçün gərək yeddi dəfə bəy ataydın[92] (S.27).

## 9-10. YUMURTA DÖYÜŞDÜRMƏK

Bayram vaxdı yumurta döyüşdürmək olurdu, boz ay girənnən düz bayrama kimi. Demək, kimin yumurtası bərk olurdusa... Dadmax deyirdilər ona. İnsannar var idi ki, dişinə

[92] Bu oyun “Gizir-bəy” adı ilə də tanınır.

vuran kimi yumurtanın bərkliyini, boşluğunu bilirdi. Bir də günə tutuf baxırdılar. Əgər qabığı qalındısa, bərk yumurtadı, yox, qabığı nəzihdirsə, zəifdir. Belə bir adət vardı. Deyir, tut, vurum. Deyir, yox, sənki bərkdi. Gəl bir az əy qoyax. Bir var yumurtanın ucuna vurasan, bir də yumurtanın böyrünə vurasan. Buna əy deyillər. Deyir, bərk bilirsən, ala tut. Yumurtaların dəyişib ondan sonra tokquşdururdular. Yumurtanın başına baş deyirdilər, arxasına da künə. Birinci yumurtanın başını vururdular, sonra künəni (S.15).

## 10.

Bir çala qazırdılar, hellən qoyurdular. Kim orya çox yumurta salırdısa, o udurdu. Kim oyuğa yumurta saldısa, o biri ona bir yumurta ödəməli idi. Və yaxud bir vedrə yumurtanı qoyurdular ortalığa, baş tərəfdən birini sən götürürsən, birini mən. Dalaşdırırsan, axırda kiminki salamat qalırdısa, o vedrəni udurdu (S.15).

## 11-12. LÖPÜKDAŞ

Oyun daşnan oynanılır. Yastı daşa löpük, yumru daşa moza deyirdik. İki dəstəyə bölünürdük. Mozanı qoyurdux yerə. Torpağa yasdı daş qoyurdular, onun üsdünə də mozanı qoyurdular ki, vura biləsən. İki metr, beş metr aralıdan nəzik daşnan – löpüknən atırdıx. Löpüknən mozanı vururdun. Mozanın yanında qalan adam onu gətirib yerinə qoyurdu. Sənnən qabax qoya bilirdisə, sən uduzurdun, çıxırdın sıradan, qoymurdusa, sən udurdun. Hamı eyni məsafədən atırdı. Mozanın üsdündə duran adama moza sahibi deyirdik. Moza sahibi mozanı götürüb yasdı daşın

üsdünə qoymalı idi. Mozanı vurandan sonra sən qaçıb atdığın löpüyü götürüf yerinə qayıdırdın. O mozanı qurana qədər sən löpüyü götürüf yerinə qayıtdınsa, sən udurdun Yox, o səndən qabax mozanı yerinə qoydusa, sən uduzurdun. Sən uduzdunsa, moza sahibi ilə yerini dəyişirdin. O gəlirdi sənin yerinə, sən olurdun moza sahibi (S.27).

## 12.

Yerə dik yumru daş qoyurdun. Üş metr məsafədən ləpiyi atırdın, mozaya dəydi, dəydi. Dəymədisə, dururdun orda. Kim mozanı vururdusa, vura bilmiyənnərin belinə minif həmin məsafəni gəlirdi. Mozanın altına hamar daş qoyurdular, torpaxnan da barabar eliyirdilər ki, ilişməsin. Moza yumru daş idi, löpük isə yastı əl boyda daş idi. Çaydan əldə edirdilər.

Mismarı yerə düzürdük, beş metir də ara qoyurdux. Beş metrdən ləpiyi atırdıx, neçə mismar çıxardırdın, o mismar sənin idi. Kim çox mismar toplasaydı, az toplayanın belinə minib o məsafədən orya qədər gəlirdi[93] (S.6).

## 13. MOZADAŞ

Quyu qazırdıx, beş-altı dənə daş, ya aşıx yığırdıx, dəsdəyə bölünüf atırdıx. Kim o quyunu daşnan doldura bilirdisə, o udurdu. Ona da mozadaş deyirdik. Bir dənə quyu qazırdıx, yumru daşdardan yığırdıx. Ən çox aşıxnan oynuyurdux. Daşın sayı hamıda eyni olurdu. Onları ovucun içinə alıb atırdıx. Atdığımız daşın hamısı quyuya düşürdüsə, udur-

[93] Söyləyici bu oyunu "Löpükdaş" adı ilə təqdim etdiyi üçün bir başlıq altında verilib, əslində isə fərqli oyunlardı.

dux, düşmürdüsə, uduzurdux. Hamı eyni sayda daş atırdı. Fərz eliyək, beş dənə daşı ovcumuza yığırdıx, atırdıx. İki metir, üş metir məsafədən atırdıx. Xətt çəkirdik, o xətdən irəli keçə bilməzdik, ondan arxada durub atmalı idin (S.27).

## 14. ÇİLİNG-AĞAC

Üç xortta bir yeltə. Bunu normal vura bilsə, sərhədi keçə bilsə, bir haj qazanırdı. Kim ki onu yarımçıx qoydu, o biri gəlirdi onun yerinə. Birinci dəfə çöp atırdıx müəyyənnəşdirmək üçün kim işdiyəjək, kim atajax. Hər kağıza birimizin adın yazırdıx, qatdıyırdıx. Deyirdik, bunun hansı işdəsin, hansı toxmax vursun? Gözün yumurdu, kağızı götürürdü. Kimin adı çıxırdısa, o işdiyirdi, o biri vururdu. Birinci vuruş xortta ilə başdıyırdı. "Xortta gedən bir" deyif vururdux. Göydə çiliyi tutdusa, o gəlirdi toxmax atmağa, sən gedirdin işdəməyə. Gərək elə vurasan o çiliyi tutmaya. Xortta vuruşu vurandan sonra sən toxmağı yerə qoyursan, o düşdüyü yerdən çiliy götürüb atır. Gəlif toxmağa dəydisə, uddu səni, dəymədisə, sən keçirdin ikinci vuruşa. Deyirsən, "xortta gedən iki". Bu qaydada üç xortta vuruşu atırsan. Xortta vuruşu qutarannan sonra da yeltə vuruşu gəlir. Beş yeltə vuruşu olur. Yeltədə çiliyi əldə tutuf toxmaxla vurursan. Beş dənə yeltəni vuran bir haj qazanırdı. Hajın nə xeyri var? Haj əlavə can deməkdi. Sən növbəti dəfə uduzanda deyirsən, mənim bir hajım var və getmirsən işdəməyə.

Çiliyi, toxmağı söyüd ağacınnan hazırlayırdıx. Xortta vuranda toxmağı yerə qoyurdux, yeltə vuranda əlimizdə tuturdux. Sən çiliyi atdın, amma toxmağı vurammadın, çiliknən toxmax arasında qalan məsafə dirsəkdən az idisə, vurulmuş sayılırdı (S.12).

## 15-16. KOSA-KOSA OYUNU

Kosa-kosa oyunu bircə bizim kənddə idi, o biri otuz iki kəndin heç birində yox idi. Bax, biz onu bu kənddə də (Göygöl rayonu Şəhriyar kəndi – tərt.) davam etdiririk. Dəstədə kosa, doxdur, anbardar, polis, bir də arvad olur. O vaxdı oynuyanda şirniyyat yığırdılar, amma indi pul yığıllar. Qutu götürürdük, onun altına vururdux, dəf olsa, onu götürürdük. İndi maqnitafon götürüllər. Kosaya kürk geyindirirdik, dəridən də papax tikirdik, keçi sakkalı kimi sakkal düzəldirdik. Doxdura da ağ kardonnan papax tikirdik, əyninə ağ xələt geyirdi. Hamı başına qoyun dərisindən papax keçirirdi, ətrafı görməsi üçün göz açırdıx. Onda dəsdə üzvlərini heş kim tanımırdı. İndi hamı açıq-aşkar oynuyur. Gəlin də başına yaylıx örtürdü.

Gedif qapıya çatırdıx. Toy çalınırdı, kosaynan arvadı oynuyurdu. Arvad deyir:

Astanada tikdirmişəm,
Dədəm evinnən gələndə
Yolda vurdurmuşam.
Ay kosa, qarnım ağrıyır.

Kosa deyir, kəs səsini, köpəh qızı. Arvadı vurur, arvad yerə uzanır. Hambal yüyürür ki, ay həkim, Kosa arvadı öldürdü. Həkimin əlində taxtadan qılış olur. Qılışı belə oynadırdı ki, arvadı niyə öldürüfsən? Deyir, yaxşı, bax görək arvad öldümü? O da orasına-burasına baxırdı. Deyirdi, bunun yeddi qabırğası qırılıf. Ay Südabə xala, bu dirilmir. – Ə, niyə, bala? Deyirdi, gərək bir kilo şakalad ola. – Ə, yaxşı

gətirrəm. Gətirirdi bir qab şakalad, yumurta verirdi. Həkim də xəsdənin ora-burasına baxırdı, oxuyurdu:

Horhoruna mırmırım,
Gəl sənə dərman vurum.
Dərmanın keçi piyi.
Əritdim, ürütdüm,
Omalarına yeritdim.
Arvad, dur.

Bir də gözəl adət var idi. Dəsdələr qavaxlaşanda kosalar əlində taxda qılışnan çıxırdılar qabağa ki, dalaşax. Hansı qalib gəlsə, uduzan dəsdə yığdıxları payı ona verməli idi. Ona görə yekələr qavaxlaşanda dalaşırdılar, amma balacalar yekəni görəndə qaçırdılar. Taxtadan qılınc düzəldirdilər. Kosaya qoyun dərisindən hündür papax tikirdilər. Kürk tikirdilər, kürkü tüklü üzünə geyirdilər. Hambal veş daşıyan idi. Pay verəndə o açırdı torbasını, ora tökürdülər. O vaxdı boşqabnan şakalad, kanfet, yumurta, beş-on manat pul verirdilər. Kənddin başından düşüb ayağına qədər gəzirdilər, sonra bir yerə yığılıb payları bölürdülər (S.13).

**16.**

Kosa, gəlin, doxdur, milis. Gəlinə qadın paltarı geydirirdilər, doxdura da həkim xalatı geydirirdilər. Kosa da bığlı, dəfə-daraxlı olurdu, taxta qılış taxırdı. Buların axranları vardı, buları qoruyurdu. Bir də baxırdın ki, iki dəsdə qavaxlaşıb, ağaşdan qılış qayırıf kosalar, şakqaşak vuruşullar. Hər məhlədə bir dəsdə vardı. Sifətlərinə qara xıs[94]

[94] xıs – qazan hisi

çəkirdilər. Kosa da qoyun yunundan sakqal düzəldirdi, başına ucu şiş papax qoyurdu, əyninə də köhnə şinel keçirirdi. Dəstədə çalan da olurdu. Həyətə girirdilər, oynuyurdular, oxuyurdular:

A kosa-kosa gəlsənə,
Gəlif salam versənə.
Çömçəni doldursana,
Kosanı yola salsana.
Kosa bir oyun eylər,
Keçini qoyun eylər.
Yığar bayram torbasın,
Hər yerdə toyun eylər.

Ondan sonra arvad çıxırdı ortalığa. Arvad oxuyurdu:

Astanada tikdirmişəm
Dədəm evindən gələndə
Yolda vurdurmuşam.
Ay Kosa, qarnım ağrıyır.

Kosa da taxtadan düzəlmə xənçəli çıxarıb:

– A köpəh qızı, bu nə sözdü? – deyif arvadın qarnına soxurdu, arvad yıxılırdı. Onda Keçəl qaçırdı ki, vay, vay, a Kosa, arvadı öldürdün. Sən nə qayırdın, niyə arvadı öldürdün? “Arvad, arvad” – deyif ağlayır. Arvad qalırdı ortalıxda, ev yiyəsi nə qədər ki, gətirif pay vermiyif arvad qalxmırdı.

– Ə, yol verin, həkim gəlsin, həkim gəlsin.

Həkim gəlirdi, ev yiyəsinə deyirdi bunun vəziyyəti ağırdı. Şəkərbura, paxlava – bunların adını sayırdı, axırda da deyirdi ki, on manatın yarısı, beş manatın hamısı

olmasa arvad dirilməz. Ev yiyəsi bunları gətirirdi, kosanın xurcunun doldururdu.

Həkim ağ xələt geyirdi, keçəlin başına kapron corab keçirirdilər. Dərini tərs üzünə başlarına keçirirdilər. Elə bəziyirdilər ki, kənd adamları onları tanımırdı. Onlar elə yerdə hazırlaşırdı ki, dəstə üzvlərini heç kim tanımırdı. Buna qabaqcadan hazırlıq gedirdi.

Uşaqlar özləri ayrıca gəzirdi, bir də böyük adamlar oynuyurdu. Pay yığanın çantasını oğurramax məsələsi var idi. Kosanın kamandasına qıraxdan kimsə gəlif xurcunu oğurruyurdu. Polis payyığanı həmişə nəzarətdə saxlıyırdı ki, kimsə xurcunu oğurramasın. Bir də bir adət var idi ki, iki kosa qabaxlaşanda bunlar mütləq dalaşmalıdır. Dalaşırdılar, hansı qalib gəlsəydi, o biri kosanın yığdığı payı onun əlinnən alırdı. Ona görə dəstə yaradanda fiziki cəhətdən güjdü adamları yığırdılar ki, hansı dəstə ilə qabaxlaşsalar, onlara güj gələ bilsinlər (S.15).

## 17-19. SİCİLLƏMƏLƏR

Bajadan baxan dəndələn göz (= hildirə göz)
Birisi kəhər, birisi boz.
Mindim bozun boynuna,
Getdim Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymunuca ürkütdüm,
Qulağını da qırpıtdım.
Dağda gəzən hocalar (= xurcalar),
Vurdu qolum qırıldı.

Qolum qazanda qaynar,
Oğlax yanımda oynar.
Oğlağı verdim yerə,
Yer mana darı vedi.
Darıyı verdim quşa,
Quş mana qənəd verdi.
Qənətdəndim uşmağa,
Hak qapısın aşmağa.
Hak qapısı açıxdı,
İçi dolu palçıxdı[95] (S.37).

**18.**

İynə iynə,
Ucu düymə.
Bal balına,
Bələk qına.
Bal ağacı,
Ballı keçi.
Şam ağacı,
Şatır keçi.
Happan-huppan,
Yırıl-yırtıl,
Su iç, qurtul[96] (S.37).

---

[95] Söyləyicinin dediyinə görə, bu sicilləməni böyüklər uşaqlar yatanda söylüyürdü. Zod kənd sakini Kübra Məmmədovadan yazıya alınmış variantda isə sicilləmə aşağıdakı misralarla tamamlanır.
Böyük qardaşım Allah kalamın oxuyur,
Kiçik qardaşım da heş nə.

[96] Bu sicilləmə uşaqlar dəstəyə bölünəndə oxunurdu.

## 19.

*Ənzəli oyununda oxunan sözlər.*

Ənzəli, əl dəyməz,
İkidə heş dəyməz,
Üçdə bir az dəyərlər,
Dördə bir yan vurallar,
Beşdə quluş qırallar,
Altıda altda durallar,
Yeddidə papax qoyallar,
Səkgizdə getdim bir evə qonax.
Bişirdilər umac aşı,
İçinnən çıxdı siçan başı.
A hostana, hostana,
Keçi girdi bostana.
Bostançı vurdu, qılçı qırıldı.
Apardılar həkimə,
Həkim dedi vəkilə,
Vəkil dedi bökümə (S.37).

# XII. AYAMALAR

## Toğluca kəndində işlənən ayamalar[97]

Abbasəllər Hüseynalısı
Ağarzanın Nəsifi
Ağbaş Cabbar
Ağbığ Oruc
Ala Kərəm
Altıbarmaq Xəlil
Aşıq Mehvalı
Aşıq Rza
Bala Astan
Benzavoz Söyün
Bədəllər Məcidi
Bıçaq Hasan
Bığlı İsmayıl
Bic İvan (Məhəmməd)
Bic Qəmət
Bicoy Hasan
Bicoylar Məsimi
Binnətin Əhmədi
Boğus Əli
Burux Abbas
Büvxanımın (Bibixanımın) Əsgəri
Cane İsmayıl

---

[97] Toğluca kəndindəki ayamaların siyahısını bizə həmin kəndin sakini Qasımov Kamran Mehralı oğlu təqdim etmişdir. Ayamalara verilən izahlar və şərhlər də ona məxsusdur.

Ciqan Əli
Cindar Əli
Cöngə Musa
Cücə Bayram
Çayiçən Fərhad
Çempion Mikayıl
Çənə Bayram
Çoban Əsgər
Çoban İsa
Danaçı Hasan
Dəli İrvaham
Dəli Mamed
Dəli Məhəmməd
Dəli Rəşid
Dəmirçi Şəmşid
Diqran Behbud
Doxdur Məhərrəm
Doqquzbarmaq Bayram
Doyşan Əli
Dursunun Mayılı
Əmzik Hasan (Həsən)
Ərşək Hasan
Ət Məhər
Fıstıx Hasan
Fıttı Məhəmməd
Gilə Bayram
Gödək Rustam
Göy Vəli
Göygöz Səməd
Güləmin Əsgəri

Gülxarın Əlisi
Güllərin Məcidi
Hamamçı Musa
Hesafdar Oruc
Hozu Rustam
Xamoyun Mahmudu
Xamoyun Məhəmmədi
Xanımın Müzabili
Xəlilin Sultanəlisi
Xındı Məmməd
Xırdaca Məhərrəm
Xoz Ənvər
Xudular İsmayılı
İvoyun Hümbəti
Jeqan[98] Əli
Kalça Bayram
Kapitan Əli
Kar İsax
Kar Mehralı
Kar Nağı
Karol Astan
Keçəçi Şərif
Keçəl Heydar
Keçəl İsmayıl
Kələ Söyün
Kələvuran Astan
Konçanın Qurbanı
Kor Hasan

---

[98] Jeqan əlləm-qəlləm adama deyilir.

Kor Heydar
Kor Hümbət
Kor Oruc
Koroğlu Astan
Kosa Hüseyn[99]
Kosa İsmayıl
Kovoy Əhməd
Kök oğlu Vəli
Kürd Rza[100]
Qağa Söyün
Qalayçı Hasan
Qalayçı Məhəmməd
Qannı Əli
Qara Kərim
Qara Namaz
Qara Namazların Şəmistanı
Qara Vəli
Qarğıdalı Söyün
Qarovulcu Məsim
Qıllıbaş Fətullah
Qırıx Vəli
Qırım Əkbər
Qlava Bayram
Qocalar Avdıllası
Qocalar Nəvisi
Qonqur Əli

---

[99] Kəndirbaz yanında kosalıq edirdi.
[100] Sözü hütələk, yəni tez-tez dediyindən bəzən dediyi başa düşülmürdü, bu səbəbdən də “kürd” ləqəbi qoyulmuşdur.

Qotur Həvil
Qotur Kərəm
Quşdan qorxan İslam
Leylanın Cahanı
Ləngər Əli
Malyar Vəli
Mandının Hasanı
Mexanik Sadıx
Məcidin Əlisi
Məcidin Sultanəlisi
Mələyin Orucu
Məsmənin Meyfalısı
Məsmənin Yusifi
Mınqıdı Söyün
Mırıx Səməd
Milisə Məhəmməd
Minas Əhməd
Mirəstənin Hasanı
Molla Mastan
Molla Məhəmmədəli
Molla Məhəmmədtağı
Molla Rəhim
Montyor Söyün
Motal Hasan
Niyarın Abbası
Nuka Məhəmməd
Oxloy Əli
Öküz Musa
Paşanın Sənanı
Pisir Abbas

Pişik Abdulla
Pişik Bayraməli
Piyan Abbas
Poçtalyon Sadıx
Rəşidin Mamedi
Saldatın Əhmədi
Saldatın Mirzəsi
Sarı Mehralı
Seryoz İsmayıl
Səməndin Mehralısı
Şamanın Söynü
Şambanın Nurusu (Nurəddini)
Şaney Abbas
Şükürün Sərvəzi
Talıfın Əlisi
Tat Xəlil
Tat Məhəmməd
Tatların Qasımı
Tavarın Həmidi
Tavarın İsgəndəri
Tek İsgəndər
Təşkilat Bayram
Təşkilat Söyün
Timox İrvaham[101]
Tokar Arif
Topal İdris
Topal Mastan
Toves Mehralı

---

[101] İbrahim Allahverdi oğlu Timox adı ilə çağrılırdı.

Törəkə Məmməd
Traktirist Musa
Traktorçu Ziyat
Tülkü Mamed
Tüntülü Rüstəm
Un Musa[102]
Usta Kərəm
Uzun Əli
Uzun Hasan
Uzun Məhərrəm
Vicdan Mirqasım[103]
Yaxşının Söynü
Yalançı Murad
Yekəbaş Söyün
Yetim Əli
Yetim Söyün
Zavqar Əli
Zurnaçı Bayram
Zurnaçı Taplan

1) *Bəzi ləqəblər sonradan şəxs adına çevrilmişdir.* Məhərrəm Səfər oğlu boydan balaca olduğundan kiçik yaşlarında onu Xırdaca adlandırmışlar, sonradan adı da Xırdaca qalmışdı. Fətullah Kərəm oğlunun saçı çox qalın olduğundan uşaq vaxtı Qıllıbaş adlandırılmış, sonradan bu adla da çağrılmışdı. Məşədi Mir İsmayıl ağa oğlanlarından birinə atası Hacı Mir Sadıq ağanın adını qoyub. Ancaq elə uşaqlıqdan hamı onu “Baba” çağırıb. Hər yerdə də “Baba” kimi tanınırdı.

---

[102] Dəyirmanda işlədiyi üçün belə adlandırılıb.
[103] Mirqasım Mir Həmid oğlu elə Vicdan adı ilə çağrılırdı.

2) *Bəzən əsas ad unudulur, həmin şəxs ləqəbi ilə tanınırdı.* Məsələn, Bicoylar tayfasından Məhəmmədə Qara ləqəbi qoyulmuş, sonradan elə Bicoylar Qarası kimi tanındı. Məhəmməd Qurban oğluna qoyulan Osman ləqəbi ada çevrilmişdir. Heydər Namaz oğlu uşaq vaxtı Hediş çağrılmış, sonradan bu adla tanınmışdır. Adil Əli oğlu uşaq vaxtı Edil kimi çağrılmış, sonradan bu ada çevrilmişdir. Qəzənfər Muxtar oğlu uşaq vaxtı Qara oğlan adı ilə çağrılıb, böyüyəndə də Qaraoğlan kimi tanınmışdır. Hümbət Mahmud oğlu uşaqlıqdan Mosan kimi tanınırdı. Məhəmməd Şaban oğluna hansı səbəbdənsə Gümü ləqəbi qoyulmuş, sonradan valideyinlərinin qoyduğu ad unudulmuş, ləqəbi ilə çağrılmışdır.

3) *Bəzi ləqəblər tayfa adına çevrilmişdir: Bicoylar, Hallaclar, Qara Mollalar, İvoylar.* Məsələn, Allahverdinin ləqəbi olan "bico" sözü tayfanın adına çevrilmiş və tayfanın bir qolu Bicoylu kimi tanınmışdı. Tayfanın babası olan İbrahim uşaq vaxtı İbo adlandırılmış, sonradan bu İvoy şəklinə düşmüş, tayfa da İvoylar kimi tanınmışdı. Keçəçi (hallac) sənəti ilə tanınan tayfa elə Hallaclar kimi tanınmışdı.

4) *Bəzi tayfalar və adamlar gəldikləri məkanın adı ilə adlandırılmış, bu ad sonradan tayfa adına çevrilmişdir.* Məsələn, Qazaxlılar Qazax mahalından gəldikləri üçün belə adlanmış və sonradan həmin şəxslər bir-biri ilə qohum olmasalar da, hamısı Qazaxlılar adlanmışlar. Otoylular – Göyçə mahalının Kəvər nahiyəsindən və Qırxbulaq mahalından gələnlərə verilən addır. Qaçağanlar tayfa adı olub, əvvəl Lori-Pəmbək və Borçalı mahallarında məskunlaşmışlar, sonradan gəldikləri kəndin adı ilə Qaçağanlar adlandırılmışlar. Tayfanın ulu babası olan Qələndərin adı ilə həm də

Qələndərlilər kimi tanınmışlar. Göykisəli Abbasın ata babası isə Qırxbulaq mahalının Göykilsə kəndindəndir.

## Ardanış kəndində işlənən ayamalar[104]

Arxayın Hüseyn – həddən artıq arxayın olduğu üçün belə adlandırılıb.

Çəçənpapaq Hüseyn – başına həmişə çeçen papağı qoyardı.

Çıra Vəli – Uşaq vaxtı gözləri çıra kimi yandığına görə (göygöz olub) bu ad verilib.

Çika Qurban – Uşaq vaxtı deyirmiş ki, mən ÇK-yam. ÇK – Çerezviçaynaya Kommisiya sözünün qısaldılmış şəklidir.

Fəlakət Oruc – uşaqlarının qaleti (peçenyesi), oyuncaqları və s. evdən oğurlandığı üçün kənd sovetinə şikayət edir, evdə fəlakət baş verdiyini deyir. O vaxtdan da ayaması Fəlakət Oruc qalır.

Küllü Hüseyn – Uşaq vaxtı sünnət olunanda kirvəsi küldən çıxarmağa gəlmədiyi üçün belə adlandırılıb.

Qurra Hüseyn – həmişə qurrələndiyinə görə

Lopabığ Abbas – qalın, lopa bığı olduğu üçün.

Maqadan Əli – Rusiyanın Maqadan şəhərində yaşadığına görə belə ayama verilib.

Mozolot Məhərrəm – Mozalan sözündəndir. Sözü ilə qarşı tərəfi sancdığı üçün bu ayama verilib.

---

[104] Ardanış kəndindəki ayamalar həmin kəndin sakini Qoşqar Məmmədovdan toplanıb.

| | |
|---|---|
| Öldürəqam Abbas | – öldürəcəm, asacam, kəsəcəm kəlmələrini tez-tez işlətdiyi üçün. |
| Pişdi İsə | – Uşaq vaxtı ocaqda halva bişəndə əlini qaynar tavaya salır, əli yandığı üçün "əlim pişdi, əlim pişdi" deyə qışqırır. Bu ayama da oradan yaranıb. |
| Sprint Musa | – Sovet vaxtı "Sprint" lotereyasında jiquli avtomobili udduğu üçün. |
| Stilni Nəriman | – həmişə dəbli geyindiyi üçün. |
| Vodqlox Fərman | – Kolxozlaşma dövründə milislər kənddə kulak axtarırmış. Biri də Fərmanı göstərib (həmin vaxt uşaq olub) deyib ki, vot, kulak. |

## Bala Məzrədə işlənən ayamalar[105]

Topal Məhərrəm
Ağzıəyri Məhərrəm
Kürd Əli
Qacar Qurban
Qoja Qarğa (əsl adı Həsən idi)
Götük Həsən (balacaboy, arxası iri olduğu üçün belə deyilib)
Bığlı Alı
Vəşi Rza
Nuğulu bala (adı Nuğulu idi)
Topal Alay (müharibə veteranı idi)
Kor Qurban

[105] Bala Məzrədəki ayamalar həmin kəndin sakini Sadiqov Rüfət Qurban oğlundan toplanıb.

Qara Əsəd
Xodu Ləzi
Beşdik İslam
Arakel İsa (özünü karrığa qoyurdu)
Qıyqıy Qəmbər
Çapıx Dəmir
Qod İsa
Kəllə Zəhra (höcət olduğu üçün)
Ximir Məhərrəm (sənəti sınıxçı olub)

**Dızman kəndin işlənən ayamalar**[106]

*Söyləyicinin anası Dızman kəndindən idi, bununla əlaqədar həmin kənddə çox olmuşdur. Dediyinə görə, Dızman kəndində 32 kişi var idi, 14-nün adı Əli idi, hamısının da ləqəbi vardı.*

Aləşrəf Əli
Amansız Əli – Ovçu idi, heyvanlara aman vermədiyi üçün belə adlandırılıb.
Araz Əli
Çil Əli
Es Əli – ES traktoru sürdüyü üçün deyilib.
Gicanos Əli – əsəbi olduğu üçün belə ləqəb qoşulub.
Gilavın Əli
Gop Bayram – danışanda basıb-bağladığı üçün Gop Bayram adlandırılıb.

[106] Dızman və Saraldakı ayamalar Saral kənd sakini Şəmsiyyə Mustafayevadan toplanıb.

Xoruz Əli
Kərəm Əli
Kürd Əli
Qund[107] Əli
Lenin Əli
Mamador Əli
Məsim Əli
Məşədi Əli
Mırmır Əli
Ninduruş Əli

## Saral kəndində işlənən ayamalar

*Saral kəndində Aslan adını daşıyan beş nəfər var idi, hərəsinə bir ləqəb vermişdilər.*

Jıtqılı Aslan[108]
Göygöz Aslan
Melis Aslan
Bala Aslan

[107] Qunt ağac tirə deyilir. Qund Əli adı uzun olduğu üçün deyilib.
[108] Jidkost sözünün təhrif olunmuş şəklidir. Traktor sürdüyü üçün üst-başı həmişə mazut içində olduğuna görə belə adlandırılıb.

# XIII. SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Ağaməmmədova Güləndam İbrahim qızı, 1988-ci ildə Ermənistan SSR, Böyük Qarakilsə rayonu Gözəldərə kəndindən deportasiya olunub, təvəllüdü 1964-cü il. Göygöl rayonunun Şəhriyar kəndində məskunlaşıb. *Söylədiyi mətnlər. İnanclar: 4, 5, 6, 25, 26, 41.*

2. Alıyev Naxçıvan Zaman oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Pəmbək kəndindən deportasiya olunub. Göygöl rayonunun Yeni Qızılca kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 63. İnanclar: 19.*

3. Bağırov Məhəmməd Möhsüm oğlu, Gəncə şəhəri, Sevinc qəsəbəsi, təvəllüdü 1956-ci il, İnşaat texnikomunu bitirib. Əsli Gədəbəy rayonun Soyuqbulaq kəndindəndir, atası 1958-ci ildə Gəncəyə köçüb. *Söylədiyi mətnlər: 55, 67, 68, 69, 70, 110, 113, 114, 115, 116, 117, 118, 119, 120, 155. İnanclar: 79, 80.*

4. Bayramova Firuzə Əziz qızı, Göygöl rayonu Molla Cəlilli kəndi, təvəllüdü 1952-ci il. Atası 1948-ci ildə Ermənistan SSR, Vedi rayonundan deportasiya olunub. *Söylədiyi mətnlər: 88. İnanclar: 8, 12, 13, 34, 84, 92.*

5. Cabbarov Fazil Ziyad oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Daşkənd kəndindən deportasiya olunub, təvəllüdü 1952-ci il. Göygöl rayonunun Quşçu kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 34, 76, 121. İnanclar: 1, 16, 17, 40, 48, 49, 50, 51, 52, 59, 71, 72, 75. Bayatı: 1.*

6. Çobanov Salman İbrahim oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Qaraqoyunlu kəndindən deportasiya olunub, təvəllüdü 1957-ci il, ali təhsilli, riyaziyyat müəllimi. Göygöl rayonunun Hacıməlik kəndində

məskunlaşıb. *Söylədiyi mətnlər: 15, 37, 100, 195, 199, 217, 280. İnanclar: 14, 18, 23, 33, 39, 81, 82, 89. Atalar sözü: 8. Oyunlar: 12.*

7. Əliyev Hakverdi Allahverdi oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Qoşabulaq kəndindən deportasiya olunub, təvəllüdü 1949-cu il. Göygöl rayonunun Göyçəkənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 65, 78, 214. İnanclar: 93.*

8. Əliyeva Maral Xanoy qızı, 1988-ci ildə Ermənistan SSR, Çəmbərək rayonu Toğluca kəndindən deportasiya olunub, təvəllüdü 1938-ci il. Göygöl rayonunun Quşqara kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 101, 102. İnanclar: 78.*

9. Əmrahov Eldar Mahmud oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Qanlı kəndində anadan olub, təvəllüdü 1949-cu il. Göygöl rayonunun Göyçəkənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 200, 201, 202.*

10. Əmrahova Minayə Qəşəm qızı, Ermənistan SSR, Basarkeçər rayonu Sətənəxaç kəndi, təvəllüdü 1952-ci il. Göygöl rayonunun Göyçəkənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 29, 57, 265. İnanclar: 2, 3. Bayatılar: 2.*

11. Fərzəliyev Nurəddin Qəhrəman oğlu, Ermənistan SSR, Amasiya rayonu Qaraçanta kəndindən deportasiya olunub, təvəllüdü 1952-ci il. Göygöl rayonunun Qarabulaq kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 12, 41, 48.*

12. Hacıyev Rafiq Meydan oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1962-ci il, ali təhsilli. Göygöl rayonunun Zurnabad kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 164, 204. İnanclar: 20, 30. Oyunlar: 14.*

13. Hacıyev Ramiz Meydan oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1955-ci il. Göygöl rayonunun Zurnabad kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 17, 189, 190, 191, 266. İnanclar: 24, 69, 70. Atalar sözləri: 16. Oyunlar: 15.*

14. Hacıyev Razim Musa oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Hüseynquluağalı (Nərimanlı) kəndindən deportasiya olunub, təvəllüdü 1952-ci il, ali təhsilli. Gəncə şəhərində məskunlaşıb. *Söylədiyi mətnlər: 269, 270, 271. İnanclar: 90. Atalar sözü: 14.*

15. Hacıyev Vilayət Məmməd oğlu, Ermənistan SSR, Basakeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1941-ci il, ali təhsilli, coğrafiya müəllimi. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 30, 31, 47, 143, 144, 163, 169, 193, 210, 218, 250, 251, 252. İnanclar: 15, 36, 54, 87, 88. Atalar sözləri: 3, 27. Oyunlar: 1, 9, 10, 16.*

16. Hacıyeva Ofeliya İmran qızı, Ermənistan SSR, Basarkeçər rayonu Yuxarı Şorca kəndi, təvəllüdü 1959-cu il, orta təhsilli. Göygöl rayonunun Qızılqaya qəsəbəsində məskunlaşıb. *Söylədiyi mətnlər:10, 49, 53, 103, 104, 105, 106, 107, 108, 272, 273, 274, 275, 276, 277, 278, 281, 282. İnanclar: 9, 10, 31, 47, 63, 64, 65, 66, 76, 83. Atalar sözü: 17.*

17. Haqverdiyev Azadxan Vəli oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1935-ci il, ali təhsilli. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 44, 80, 127, 161, 171, 176, 180, 194, 203, 209, 227, 228. Atalar sözləri: 1, 2, 5, 6, 9, 10, 15, 18, 19, 21, 22, 24, 26, 28, 31, 34, 35. Oyunlar: 2.*

18. Həsənov Fikrət Kamandar oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Ağkilsə kəndindən deportasiya olunub,

təvəllüdü 1953-cü il, ali təhsilli. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 207, 283. Atalar sözləri: 11.*

19. Həsənov Zülfüqar Bayram oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Bala Məzrə kəndindən deportasiya olunub, təvəllüdü 1937-ci il. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 89, 90, 91, 92.*

20. Həsənova Lalə Teymur qızı, 1988-ci ildə Ermənistan SSR, Zəngibasar rayonu Qaraqışlaq kəndindən deportasiya olunub. Göygöl rayonunun Üçtəpə kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 50.*

21. Hüseynov Mətləb İsmayıl oğlu, 1988-ci ildə Ermənistan SSR, Vedi rayonu Bayburt kəndindən deportasiya olunub, təvəllüdü 1965-ci il, ali təhsilli. Göygöl rayonunun Kərəmli kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 109, 125, 126.*

22. Hüseynov Zeynalabdın Hüseyn oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Canəhməd kəndindən deportasiya olunub, təvəllüdü 1948-ci il, ali təhsilli. Göygöl rayonunun Quşqara kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 20, 21, 22, 23, 24, 32, 33, 123, 178, 208, 220, 224, 225, 226, 246, 247, 248, 249, 253, 254, 255, 256, 263. Atalar sözləri: 7, 23.*

23. Xancığazova Səkinə Qədim qızı, 1988-ci ildə Ermənistan SSR, Vorontsovka (Kalinino) rayonu Mixaylovka kəndindən deportasiya olunub, təvəllüdü 1972-ci il, texnikom təhsilli. Göygöl rayonunun Şəhriyar kəndində məskunlaşıb. *Söylədiyi mətnlər. İnanclar: 42, 62.*

24. İbrahimova Təzəgül Hüseyn qızı, 1989-cu ildə Ermənistan SSR, Böyük Qarakilsə rayonu Hallavar kəndindən deportasiya olunub, təvəllüdü 1962-ci il, orta təhsilli.

Göygöl rayonunun Çaykənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 6, 19, 36, 56, 62. İnanclar: 77. Atalar sözləri: 32.*

25. İsmayılov Möhübbət Bəhman oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Böyük Qaraqoyunlu kəndindən deportasiya olunub, təvəllüdü 1948-ci il, orta ixtisas təhsilli, baytar həkimi. Göygöl rayonunun Yeni Zod kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 54, 58, 98, 99, 111, 129, 135, 136, 137, 138, 139, 140, 141, 142, 148, 149, 150, 151, 152, 153, 154, 156, 157, 160, 167, 170, 172, 173, 174, 181, 182, 183, 184, 185, 187, 192, 196, 197, 198, 212, 213, 221, 222, 235, 236, 257, 258, 259, 262, 264. İnanclar: 91.*

26. İsmayılov Oqtay Qəzənfər oğlu, Ermənistan SSR, Basarkeçər rayonu Hüseynquluağalı (Nərimanlı) kəndi, təvəllüdü 1962-ci il, ali təhsilli. Göygöl rayonunun Hacıməlik kəndində məskunlaşıb. *Söylədiyi mətnlər:* 5. *Oyunlar:* 3, 4, 5.

27. Kərimov Cavanşir Kərim oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Qaraqoyunlu kəndindən deportasiya olunub, təvəllüdü 1952-ci il, ali təhsilli, fizika-riyaziyyat müəllimi. Göygöl rayonunun Göyçəkənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 4, 9, 16, 66, 97, 145, 186, 223, 229. İnanclar: 56. Atalar sözü: 25. Oyunlar: 8, 11, 13.*

28. Qasımov Suliddin Allahverdi oğlu, 1948-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Ağkilsə kəndindən deportasiya olunub, təvəllüdü 1929-cu il. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 42, 146, 147.*

29. Qəribov Yaşar Qurban oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Bala Məzrə kəndindən

deportasiya olunub, təvəllüdü 1962-ci il. Gəncə şəhərində məskunlaşıb. *Söylədiyi mətnlər: 79, 130, 131, 132, 206.*

30. Quliyeva Durna Əsəd qızı, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Çaxırlı kəndindən deportasiya olunub, təvəllüdü 1953-cü il, ali təhsilli, coğrafiya müəllimi. Böyük Məzrə kəndində doğulub, əmək fəaliyyətinə orada başlayıb, ailə qurduqdan sonra Çaxırlı kəndinə köçüb və Çaxırlı kənd orta məktəbində müəllim işləyib. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 2, 8, 25, 26, 27, 28, 46, 81, 82, 83, 84, 85, 86, 87, 165, 216. İnanclar: 30, 37, 38, 57, 68. Atalar sözləri: 12, 13.*

31. Ləzgiyev Zakir İslam oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1948-ci il, ali təhsilli zootexnik. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 45, 133, 134, 162, 175, 188, 230, 231, 232, 233, 234, 284. İnanclar: 86. Atalar sözləri: 29, 33.*

32. Mamedova Kübra Fərrux qızı, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1936-cı il. Göygöl rayonunun Şəhriyar kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 52, 177, 211. İnanclar: 60. Bayatılar: 3, 4, 5, 6.*

33. Məhərrəmov Paşa Elyaz oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Qoşabulaq kəndindən deportasiya olunub, təvəllüdü 1949-cu il. Göygöl rayonunun Çaykənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 77, 260, 261.*

34. Məsimov İdris Kazım oğlu, 1988-ci ildə Ermənistan SSR, Zəngibasar rayonundan (əvvəlki adı Uluxanlı) deportasiya olunub, təvəllüdü 1936-cı il, ali təhsilli müəl-

lim. Abşeron rayonu, Xırdalan şəhərində məskunlaşıb. *Söylədiyi mətnlər: 73, 74, 75. İnanclar: 35, 85.*

35. Məsimova Elşadə Kazım qızı, 1988-ci ildə Ermənistan SSR, Zəngibasar rayonundan (əvvəlki adı Uluxanlı) deportasiya olunub, təvəllüdü 1945-ci il, ali təhsilli müəllim. Abşeron rayonu Xırdalan şəhərində məskunlaşıb. *Söylədiyi mətnlər: 7, 14. İnanclar: 67.*

36. Məsimova Fatma Musa qızı, 1988-ci ildə Ermənistan SSR, Zəngibasar rayonundan (əvvəlki adı Uluxanlı) deportasiya olunub, təvəllüdü 1956-cı il, orta təhsilli. Göygöl rayonunun Üçtəpə kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 13, 71, 72. İnanclar: 7, 27, 28, 29, 45, 46, 74.*

37. Mustafayev Surxay Fərrux oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Bala Məzrə kəndindən deportasiya olunub, təvəllüdü 1942-ci il, tibb texnikomunu bitirib. Uzun müddət Bala Məzrə kəndində feldşer işləyib. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 11, 18, 35, 51, 122, 179, 205, 215, 268, 279. İnanclar: 11, 21, 22, 32, 43, 61. Atalar sözləri: 14. Oyunlar: 6, 7, 17, 18, 19.*

38. Novruzova Ziyafət Musa qızı, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Qaraiman kəndindən deportasiya olunub, təvəllüdü 1960-cı il, ali təhsilli. Göygöl rayonunun Yeni Zod kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 128, 166. İnanclar: 73.*

39. Paşayev Barat Həsən oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zod kəndindən deportasiya olunub, təvəllüdü 1942-ci il. Göygöl rayonunda məskunlaşıb. *Söylədiyi mətnlər: 168.*

40. Paşayev Duman Qədir oğlu, 1988-ci ildə Ermənistan SSR, Çəmbərək rayonu Cil kəndindən deportasiya

olunub, təvəllüdü 1944-cü il. Göygöl rayonunun Üçbulaq kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 60, 61. İnanclar: 20.*

41. Rüstəmov Hafiz Cavad oğlu, Göygöl rayon Balçılı kəndi, təvəllüdü 1953-cü il. Əsli Göyçə mahalının Kəsəmən kəndindəndir. *Söylədiyi mətnlər: 38, 64, 124, 158, 159, 219, 267.*

42. Seyidov Xudayar Mirzə oğlu, Ermənistan SSR, Amasiya rayonu Qaraçanta kəndindən deportasiya olunub, təvəllüdü 1960-cı il. Göygöl rayonunun Çaykənd kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 3, 39, 40, 43, 93, 94, 95, 96, 112. İnanclar: 55.*

43. Süleymanov Mobil Rəhim oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Zərkənd kəndindən deportasiya olunub, təvəllüdü 1964-cü il. Göygöl rayonunun Quşqara kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 237, 238, 239, 240, 241, 242, 243, 244, 245.*

44. Şəbəndiyev Mikayıl Zeynalabdın oğlu, 1988-ci ildə Ermənistan SSR, Basarkeçər rayonu Pəmbək kəndindən deportasiya olunub, təvəllüdü 1963-cü il, ali təhsilli aqranom. Göygöl rayonunun Üçbulaq kəndində məskunlaşıb. *Söylədiyi mətnlər: 59. İnanclar: 44, 58.*




**Zod kəndinin ağsaqqalları ilə görüş**




**Azadxan Haqverdiyev, Göygöl rayonu**




**Xudayar Seyidov (üzbəüz), Göygöl rayonu Çaykənd kəndi**




**Şəhriyar kəndində məskunlaşmış qərbi azərbaycanlılarla görüşdən**




**Kübra Mamedova, Göygöl rayonu Şəhriyar kəndi**




**Göygöl rayonu Quşqara kəndindəki görüşdən**




**Fatma Məsimova, Göygöl rayonu Üçtəpə kəndi**




**Durna Quliyeva, Göygöl rayonu**




**Zülfüqar Həsənov (sağda), Göygöl rayonu**




**Surxay Mustafayev, Göygöl rayonu**




**Razim Hacıyev, Gəncə şəhəri**




**Göygöl rayonu Yeni Zod kəndindəki görüşdən**




**Möhübbət İsmayılov, Göygöl rayonu Yeni Zod kəndi**




**İdris Məsimov və Elşadə Məsimova,**
**Bakı, Xırdalan şəhəri**




**Məhəmməd Bağırov, Gəncə şəhəri**




**Ofeliya Hacıyeva, Göygöl rayonu Qızılqaya kəndi**



**Vilayət Hacıyev, Göygöl rayonu**




**Qarabağ-Zəngəzur xalçası, ermənilərin çizdiyi eskiz əsasında toxunmuşdur. Ermənilər eskizi çizərkən gölün ortasına xaç şəkilləri də əlavə etmişlər.**




**Şax ağacı**




**Dəstər**

# KİTABIN İÇİNDƏKİLƏR

**ÖN SÖZ** ........................................................................................3

**I. ETNOQRAFİK MƏTNLƏR**
Qərbi Azərbaycanda qurban ənənəsi ........................................15
Novruz adətləri..........................................................................37
Toy adətləri ...............................................................................47
Yas adətləri ...............................................................................68
Yeməklər....................................................................................76
Etnoqrafik ifadələr ....................................................................83

**II. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Hal..............................................................................................94
Seytan və zoğal ağacı ................................................................95
Marala dönən qadın ..................................................................95
Keyti və Mehdi ..........................................................................96
Düldülün izi ...............................................................................97
Əli bayramı ................................................................................98
Pir ocağı......................................................................................99
Arpalının ocağı ..........................................................................99
Qaradaş ocağı ..........................................................................100
Şah ocağı .................................................................................101
Maymax ocağı .........................................................................102
Öysüz ocağı .............................................................................102
Qəbul evliyası ..........................................................................103
Miskin Abdal ocağı ..................................................................104
Ağadədə ...................................................................................108
Seyid Bayram ..........................................................................113
Kalbay Seyid Qulu ..................................................................116

Mirəli ağa (vedili) .......... 123
Seyid Hüseyn .......... 124
Seyid Məhəmməd .......... 126
Seyid Abbasəli .......... 130
Seyid Mürtəza .......... 133
Qaraörtük .......... 135
Seyid Baba .......... 139
Mir Məsim ağa .......... 140
Cənab Cəbrayıl .......... 140
Süleyman peyğəmbər .......... 142
Üzeyir peyğəmbər .......... 142
Musa peyğəmbər .......... 143
Peyğəmbərlik nişanəsi .......... 145
Həzrət Əli .......... 146
Xanım Fatimeyi-Zəhra .......... 148
Loğman .......... 149
Nəsrəddin Tusi .......... 150
İbn Sina .......... 150
Lələ .......... 151
Teymurləng .......... 153
Aşıq Ələsgər .......... 155
Aşıq İman .......... 178
Usta Abdulla .......... 183
Şair Qurban .......... 185
Dəyirman .......... 187
Aşıq Məmmədhüseyn .......... 189
Aşıq Nağı .......... 189
Şair Cavad .......... 191
Səmənd ağa .......... 192
Məşədi İsə .......... 195

Sınıqçı Rza ........ 197
Loğman Nağı ........ 199
Qoluzorlu adamlar ........ 204
Kürdoğlu Məhəmməd ........ 206
Qaraqoyunlu qaçaqları ........ 209
Usta oğrular ........ 213
Qaraqoyunlu ........ 217
Qanlı ........ 221
Əbləh ........ 224
Zod ........ 225
Bala Məzrə ........ 228
Ağkilsə ........ 230
Canəhməd ........ 231

**III. XATİRƏLƏR**

1918-ci il qırğınları ........ 234
1988-1991-ci illər deportasiyası ........ 246

**IV. NAĞILLAR**

Yazıya pozu yoxdur ........ 268
Şah Abbasın içkini qadağan etdirməsi ........ 271

**V. LƏTİFƏLƏR**

Bəhlul Danəndə ........ 275
Evimi yıxana oxşayırsan ........ 275
Kəlbəcərli ilə şuşalının dostluğu ........ 276
İki yalançı ........ 277
Ayrım lətifələri ........ 277
Bəhram Qamanov ........ 279
Kor Musa ........ 289

Əliş kişi ........ 289
Cabbar kişi ........ 291
Xanlar kişi ........ 291
Qara qar yağır ........ 291
Kalvalı ........ 292
Rəfi kişi ........ 293
Zurnaçı Babıl ........ 295
Allah, dolu duası budur ........ 295
Ölən sizdən olsun ........ 295
Qəlyan Hüseyn ........ 296
Allah belimi qırsın ........ 297
Qovurun düzünə qədər boşdur ........ 297
Zərzibilin küləyinə tığ sovuram ........ 297
Əsnək əsnək gətirər ........ 298

**VI. YUXUGÖRMƏ** ........ 299
**VII. TÜRKƏÇARƏLƏR** ........ 304
**VIII. İNANCLAR**
Bərəkətlə bağlı inanclar ........ 309
Yağışla bağlı inanclar ........ 312
Uşaqla bağlı inanclar ........ 315
Göz qaytarmaq, nəzər və qorxuluqla bağlı inanclar ........ 321
Qada-bəla ilə bağlı inanclar ........ 322
Ovçuluqla bağlı inanclar ........ 325
Xıdır Nəbi, axır çərşənbə və bayramla bağlı inanclar ........ 327
Məhərrəmlik, aşura və yas ilə bağlı inanclar ........ 337
Müxtəlif mövzulu inanclar ........ 340

**IX. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** ........ 343
**X. BAYATILAR** ........ 348

## XI. OYUNLAR VƏ SİCİLLƏMƏLƏR

Aşıq oyunu ........ 350
Yumurta döyüşdürmək ........ 354
Löpükdaş ........ 355
Mozadaş ........ 356
Çiling-ağac ........ 357
Kosa-kosa oyunu ........ 358
Sicilləmələr ........ 361

**XII. AYAMALAR** ........ 364
**XIII. SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ........ 376

**Qərbi Azərbaycan folkloru, V cild**
Bakı, “Elm və təhsil“, 2025

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İnal MƏMMƏDLİ**

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d. Ləman Vaqifqızı (Süleymanova)**

Kompüterdə yığan:
**Səfa Əliyeva**
**Ağanənə Məmmədova**

Korrektor:
**Nərgiz Hüseynzadə**

Çapa imzalanmış 30.10.2025
Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Tirajı: 150

Kitab **“Elm və təhsil”** NPM-də
ofset üsulu ilə çap olunmuşdur.
Email: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4